"AZƏRİTTİFAQ"
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

İSSN 2218-91-49

# KOOPERASİYA

elmi-praktiki jurnal

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
AZERBAIJAN COOPERATİON UNIVERSITY

№ 1 (28) - 2013

# "Kooperasiya" elmi-nəzəri jurnal

# Научно-теоретический журнал "Кооперация"

# Scientific-theoretical cournal "Cooperation"

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 1 (28) 2013

**Təsisçi: Azərbaycan Kooperasiya Universiteti**



**Redaksiya heyəti:**

| | | | |
|---|---|---|---|
| professor | ELDAR QULİYEV **(baş redaktor)** | i.e.d., prof. | GƏNCƏLİ GƏNCİYEV |
| akademik | ASƏF NADİROV | i.e.d., prof. | ASİF ŞİRƏLİYEV |
| akademik | ZİYAD SƏMƏDZADƏ | i.e.d., prof. | AMİL MƏHƏRRƏMOV |
| i.e.d., prof. | AMEA-nın müxbir üzvü ƏLİ NURİYEV | c.e.d., prof. | ZAHİD MƏMMƏDOV |
| i.e.d., prof. | ŞƏMSƏDDİN HACIYEV | i.e.d., prof. | RƏSUL BALAYEV |
| i.e.d., prof. | İSA ALIYEV | i.e.n., dos. | TAHİR ŞÜKÜROV |
| i.e.d., prof. | BƏYALI ATAŞOV **(məsul redaktor)** | i.e.n., dos. | ELSEVƏR KƏRİMOV |
| f.r.e.d., prof. | ABDULLA İSAYEV | i.e.n., dos. | İLHAM VƏLİYEV |



Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı"na daxil edilmişdir.



*Redaksiyanın ünvanı:*
AZ1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 8[b],
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: aku1964@mail.ru
web:www.aku.edu.az



Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.



Tirajı 300 ədəd

***Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU***
***Kompüter və dizayn: Tarzan ƏLİOĞLU***

**İSSN kodu 2218-91-49**

# JURNALIN BU SAYI AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNUB




**20 aprel 2013-cü il tarixdə Azərbaycan Kooperasiya Universitetinin böyük iclas zalında Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunan Azərittifaq Şurasının, Azərbaycan Kooperasiya Universitetinin Elmi Şurası və Bakı Biznes və Kooperasiya kollecinin Pedaqoji Şurası ilə birlikdə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə iqtisadiyyatının inkişafında rolu" mövzusunda konfrans keçirilmişdir.**

**Konfransı giriş sözü ilə Azərbaycan Kooperasiya Universitetinin rektoru, Millət vəkili, professor Eldar Quliyev açmış, universitetin elmi işlər üzrə prorektoru, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşov məruzə etmiş, Bakı şəhəri Nərimanov rayonu Nəcəf Nərimanov ərazi Yeni Azərbaycan Partiyası təşkilatının sədri, professor Vilayət Əliyev, "Azərittifaq"ın İdarə Heyəti sədrinin müavini Tənzilə Rüstəmxanlı və "Xalq" qəzetinin müxbiri İlqar Həsənov çıxış etmişlər.**

# MÜNDƏRİCAT

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş konfransda Azərbaycan Kooperasiya Universitetinin elmi işlər üzrə prorektoru, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşovun məruzəsi........................................................5

## ÜMUMİ İQTİSADİ MƏSƏLƏLƏR

**A.Ə.NAMAZOV**
Müasir iqtisadi inkişaf və makroiqtisadi tənzimlənmə problemləri..................................................9

**K.A.RƏSULOV**
Milli innovasiya sisteminin səmərəliliyində sənayenin yeri və rolunun qiymətləndirilməsinin metodiki təminatı..........................................................................................................15

**Т.АЛИЕВА**
Этапы стоимостной цепочки..........................................................................................21

## AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

**Ş.O.SƏFƏROV**
Kənd təsərrüfatının iqtisadi vasitələrlə tənzimlənməsinin mövcud vəziyyətinin təhlili..............27

**М.Г.ГАСАНОВА**
Место кооперации и интеграции среди факторов развития агропромышленного производства..........................................................................................................36

**V.Y.ƏLİFOV**
Ərzaq bazarının formalaşmasında kənd təsərrüfatı məhsulları istehsalının rolu............................41

**V.T.HÜSEYNOV**
Ərzaq bazarının formalaşması xüsusiyyətləri və sosial-iqtisadi rolu............................................46

**A.S.SƏMƏDOVA**
Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsinin prioritet istiqamətləri...53

## REGİONAL İQTİSADİYYAT VƏ SAHİBKARLIQ FƏALİYYƏTİ

**H.Ə.ADIGÖZƏLOVA**
Naxçıvan MR-də sosial infrastrukturun perspektiv tənzimlənməsi..............................................58

**N.N.DADAŞOVA**
Sahibkarlıq fəaliyyətinin formaları, inkişaf istiqamətləri və qiymətləndirilməsi.........................63

**T.İSMAYILOV**
Sahibkarlığın dövlət tənzimləməsi mexanizmləri və metodları...................................................70

**Ş.T.ƏLİYEVA**
Azərbaycanda sahibkarlığın inkişafı və məşğulluğun səviyyəsi arasında əlaqənin xüsusiyyətləri........77

**R.T.ƏLİYEV**
İstehsal sahibkarlığının formalaşmasına və inkişafına təsir edən amillər........83

## MALİYYƏ VƏ İNVESTİSİYA PROBLEMLƏRİ

**Z.Ə.NURİYEV**
İnvestisiya portfellərinin formalaşmasında pay investisiya fondlarının rolu........89

**A.Z.ƏLİYEVA**
Müştərək müəssisələrin innovativ xüsusiyyəti və investisiyaların cəlbinə təsiri........95

**М.Р.ГАЕДИ**
О некоторых формах инвестиционной деятельности и методы борьбы с негативными экономическими факторами в Азербайджане........100

**S.D.MƏMMƏDOV**
Yerli özünüidarəetmənin maliyyə təminatı məsələləri........107

## XARİCİ İQTİSADİ ƏLAQƏLƏR

**N.A.NƏRİMANOV**
Xarici ticarət nəzəriyyələrində kənd təsərrüfatı məhsullarının ixracı məsələləri........115

**S.S.TAĞIZADƏ**
İqtisadi inkişafın müasir mərhələsində Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf meylləri........119

**A.PORTAKAL**
Türkiyə-Türkmənistan iqtisadi əlaqələri və onların perspektivləri........125

**İ.N.MƏHƏMMƏDİ GİGLU**
Türkiyə ilə ticarətdə İranın ixracat potensialının qiymətləndirilməsi........131

**N.N.DADAŞOVA, T.R.NƏRİMANOVA**
Neft ixrac edən boru kəmərlərinin potensiallarından səmərəli istifadə edilməsi yolları........142

**Ç.K.XUDAVERDİ**
Azərbaycan Respublikasının xarici ticarətinin təmayülləri........148

**Samir CAVADOV**
Dünya neft bazarı və onun inkişaf istiqamətləri........153

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ KONFRANSDA AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİNİN ELMİ İŞLƏR ÜZRƏ PROREKTORU, İQTİSAD ELMLƏRİ DOKTORU, PROFESSOR BƏYALI ATAŞOVUN**

# MƏRUZƏSİ

Azərittifaq Şurasının çoxhörmətli üzvləri!

Azərbaycan Kooperasiya Universitetinin Elmi Şurasının, Bakı Biznes və Kooperasiya kollecinin Pedaqoji Şurasının hörmətli üzvləri!

Əziz qonaqlar!

Böyük mütəfəkkir və filosof Mark Avreli yazırdı ki, hər bir xalqın gerçək potensialı yalnız fenomenal liderlik keyfiyyətlərini öz parlaq simasında yaşadan şəxsiyyətlərin dövlətçilik fəaliyyətində açıla bilər. Milli inkişaf yolunun banisinə çevrilən, xalqları dünya miqyasında tanıdaraq layiqli mövqelərə çıxaran belə xarizmatik liderlər həm də sabit milli dövlətçilik ənənələri formalaşdıraraq böyük müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığına nail olurlar. Bugünün özündə də dünyanın bir çox nüfuzlu dövlətləri məhz fenomen liderlərinin müəyyənləşdirdiyi yolla irəliləyir, davamlı və sabit inkişafı bu uğur magistralından kənarda təsəvvür etmirlər. Ruslar üçün bu şəxsiyyət Rusiya dövlətinin müasir dövlətçilik ənənələrini təmin etmiş I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçill, fransızlar üçün Şarl de Qoll, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün Heydər Əliyevdir!

Xalqımız dahi şəxsiyyət, ulu öndər Heydər Əlirza oğlu Əliyevin 90 illik yubileyini onun ölməz ruhuna, əziz və unudulmaz xatirəsinə dərin ehtiramla, tükənməz minnətdarlıq hissi ilə qeyd edir. Azərbaycanda gerçəkləşən müasir demokratik, hüquqi və dünyavi dövlət quruculuğu, möhkəm əsasları olan vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyev bu gün həm də müstəqil Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin banisi kimi böyük ehtiramla anılır. Ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda-respublikamızda dərin iqtisadi-siyasi və mənəvi böhranın hökm sürdüyü bir dövrdə xalqın tələbi ilə ölkə rəhbərliyinə qayıtdı, özünün dərin zəkası, yüksək idarəçilik keyfiyyətləri, quruculuq və xilaskarlıq missiyası ilə ümummilli liderlik zirvəsinə ucaldı. Böyük öndər Heydər Əliyev qısa zamanda ictimai-siyasi sabitliyi təmin etməklə ölkə iqtisadiyyatındakı tənəzzül prosesinin qarşısının alınmasına xidmət edən bir sıra zəruri tədbirlər həyata keçirdi. İqtisadi sahədə mərhələlərlə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanırdı.

Təcrübə göstərir ki, istənilən dövlətdə davamlı sosial-iqtisadi inkişafa və yeniləşməyə yalnız çoxmülkiyyətli iqtisadiyyat, azad rəqabət və liberal qiymətlər şəraitində nail olmaq mümkündür. İqtisadi transformasiya prosesi adətən, təkamül yolu ilə baş verir və bir qayda olaraq iqtisadi münasibətlərin bütün səviyyələrini əhatə edir. Bu baxımdan Azərbaycanda bazar iqtisadiyyatına keçid dövrünü üç əsas mərhələyə ayıra bilərik: 1991-1995-ci illəri əhatə edən tənəzzül, 1995-2003-cü illəri əhatə edən dirçəliş və 2003-cü ildən sonrakı dövrü əhatə edən dinamik inkişaf dövrləri.

Birinci dövr üçün olduqca mürəkkəb siyasi və sosial-iqtisadi vəziyyət səciyyəvi idi. 90-cı illərin əvvəlində Sovet İttifaqının süqutu, müəssisələr arasında mövcud əlaqələrin pozulması, siyasi rəhbərliyin səriştəsizliyi, Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın iqtisadi, siyasi, informasiya blokadasına alınması ölkənin sosial-iqtisadi həyatında xaosa gətirib çıxarmışdı. Bu neqativ proseslər əhalinin güzəranının ağırlaşmasına səbəb olmuşdu. 1991 -1995-

ci illərdə əhalinin pul gəlirləri real ifadədə 3,3, adambaşına orta hesabla 3,6 dəfə aşağı düşmüşdü. 1991-ci ildən başlayaraq 4 il ərzində əhalinin əməkhaqqı isə 5,7 dəfə azalmışdı. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı.

Ümummilli lider Heydər Əliyev respublika iqtisadiyyatındakı tənəzzül prosesinin və hiperinflyasiyanın qarşısını almaq, makroiqtisadi sabitliyə nail olmaq üçün ilkin mərhələdə sərt büdcə-kredit siyasətinə üstünlük verdi. Hökümətin çevikliyini, işləkliyini təmin etmək üçün yeni dövrün tələblərinə uyğun struktur islahatları başlandı, habelə özəlləşdirmənin birinci mərhələsinin həyata keçirilməsi istiqamətində qətiyyətli qərarlar qəbul edildi. 1996-cı ildən etibarən dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi prosesinə başlanılması sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində kardinal dəyişikliklərə səbəb oldu. Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesi hər bir vətəndaşıniqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq niyyətinə xidmət edirdi. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə, dünya təsərrüfat sisteminə inteqrasiyasına etibarlı zəmin yaratdı.

Ümumilikdə 1995–2003–cü illəri əhatə edən dirçəliş mərhələsi Azərbaycanın dünya iqtisadi sistemində layiqli yer tutması, ölkə iqtisadiyyatına xarici investorların cəlb olunması məqsədilə sərmayələrin qorunması ilə səciyyəvidir. Bu dövrdə iqtisadi inkişafın sürətləndirilməsinə xidmət edən mükəmməl qanunvericilik bazası formalaşdırıldı. Ölkəmizdə 40–a yaxın ikitərəfli sazişlər imzalandı, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətləri quruldu. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2, kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi 4, iqtisadiyyatla məşğul olanların orta aylıq real əməkhaqqı 5,1 dəfə artdı. İnflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi. Əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı inkişafı üçün möhkəm zəmin yaratdı.

Bütün bunlar ona gətirib çıxardı ki, ölkədə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli – Azərbaycan modeli formalaşdı. Bu modelin fərqləndirici xüsusiyyətini isə inkişaf üzrə müəyyən olunmuş istiqamətlərin sahəvi proqramlarda əlaqələndirilməsi, iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan cəsarətli qərarların qəbul olunması, sosialyönümlülüyün gözlənilməsi, milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə arxanlanması təşkil edir. Prezident İlham Əliyevin 2013-cü il yanvarın 21-də imzalandığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamda vurğulandığı kimi: "Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən – ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir".

Azərbaycanın mütərəqqi inkişaf strategiyasını irəli sürmüş Heydər Əliyev dühası bu gün cismən aramızda olmasa da, onun ölməz ideyaları xalqın gələcək inkişaf yoluna parlaq işıq saçır, hər bir azərbaycanlını vahid məram və məqsədlər ətrafında toparlayır.

Müasir Azərbaycanda elə bir sahə, elə bir istiqamət, elə bir uğur və nailiyyət yoxdur ki, orada Heydər Əliyev dühasının bəhrəsi, Heydər Əliyev imzası olmasın.

Yeri gəlmişkən qeyd etməyi özümə borc bilirəm ki, ulu öndərimizin atalıq qayğısı Azərittifaqın təhsil müəssisələrindən də yan keçməmişdir. Əgər xatirinizdədirsə, Azərbaycan Respublikası Pre-

zidentinin 13 iyun 2000-ci il tarixli 349 saylı “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında”kı fərmanı ilə bizim hər iki təhsil müəssisəmiz yeni yaradılan Azərbaycan Dövlət İqtisad Universitetinin tərkibinə verilmişdi. Azərittifaqın idarə heyətinin müraciətini, üstəgəl rəhbərimiz çoxhörmətli Eldar Quliyevin ciddi səylərini və ölkədə iqtisadi profilli mütəxəssislərin hazırlanması zərurətini nəzərə alan Prezident Heydər Əliyev həmin ilin 30 avqust tarixli 391 saylı fərmanı ilə müdriklik göstərərək indiki Azərbaycan Kooperasiya Universitetini, həmçinin Bakı Kooperasiya və Biznes Kollecini müstəqil qurumlar kimi saxlamaqla onların gələcək fəaliyyətini təmin etmiş və bugünkü inkişaf səviyyəsinə çatdırmışdır. Məhz buna görə də biz qədirbilən kooperatorlar bu tarixi şəxsiyyətə həmişə özümüzü borclu hesab edir və Ulu Tanrıdan ona rəhmət diləyirik.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi və yaradıcısı olduğu kimi, hazırda üzvlərinin sayı 600 min nəfəriötmüş, ölkəmizin ən nüfuzlu siyasi qüvvəsinə çevrilmiş Yeni Azərbaycan Partiyasının da ilk rəhbəri və ilhamvericisi məhz elə Heydər Əliyev oldu.

Beləliklə, bu gün Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixində, milli siyasi təfəkkürümüzdə, dövlətçilikşüurumuzda çox böyük məna yükünü daşıyan fenomenəçevrilmişdir. Bu fenomeni ulu öndərin öz millətinə, Vətəninə həsr olunan, hər səhifəsi son yarıməsrlik tariximizin şanlı salnaməsi olan ömür kitabı, bir qərinədən artıq Azərbaycana rəhbərlik fəaliyyəti, xalqın ona - ümid və nicat mənbəyi kimi baxdığı liderinə olan böyük sevgisi və inamı yaratmışdır. Ümummilli liderimizin xatirəsi onu həmişə əziz tutan milyonları bir daha öz işığına toplayır, nuruna bürüyür.

Bu günün reallıqları, eyni zamanda, ulu öndər Heydər Əliyevin vaxtilə söylədiyi bu fikrin də təsdiqidir: “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”. Xarici siyasətin uğurlu daxili siyasətin davamı olduğunu nəzərə alsaq, bu gün Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunda iqtisadi uğurlar böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, bir faktı nəzərə alaq ki, iqtisadi inkişaf demokratikləşmə prosesi ilə vəhdət təşkil etməlidir. Azərbaycan dövlətinin siyasətində bu vəhdətin qorunması uğurlu addım kimi dəyərləndirilir. Ulu öndər Heydər Əliyev Azərbaycanın strateji kursunda demokratik inkişafın əsas yer tutduğunu önə çəkərək, heç bir qüvvənin ölkəmizi bu yoldan döndərmək imkanında olmadığını bəyan etmişdir.

Bir sözlə, Heydər Əliyev 34 ildən artıq bir dövrü əhatə edən zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız ulu öndərin adını tarixə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi həkk etmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Uğurlarımız davamlıdır. Bu davamlılığı şərtləndirən başlıca amil möhkəm təmələ əsaslanan inkişaf strategiyasıdır. İnkişafın Azərbaycan modelinin mövcudluğu, onun başqa ölkələrə nümunə göstərilməsi böyük uğurdur. Dövlətimizin başçısı İlham Əliyevin ölkəmizin 20 illik müstəqillik tarixində qazandığı uğurların fonunda qarşıdakı illər üçün hədəfləri və onlara nail olmağın yollarını müəyyənləşdirməyə xidmət edən “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması barədə Sərəncamı nəinki ölkə daxilində, beynəlxalq səviyyədə yüksək dəyərləndirildi. Azərbaycanı yaxın on ildə inkişaf etmiş ölkələr sırasında görmək istəyini ortaya qoyan Prezident İlham Əliyev bu ilə qədər 3 dəfə artan ümumi daxili məhsulun daha 2 dəfə artırılmasını qarşıya mühüm vəzifə kimi qoyur. Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin, BMT-nin İnkişaf Proqramının, PC şirkətinin və Azərbaycan Gənclər Fondunun birgə təşəbbüsü ilə Bakıda keçirilən “Azərbaycan 2020: gələcəyə baxış” mövzusunda beynəlxalq konfransda Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev bir daha Azərbaycanın 20 ildə qazandığı uğurlardan geniş bəhs edərək bildirmişdir ki, ölkəmiz keçid dövrünü başa vuraraq qlobal və regional çağırışlar fonunda kəmiyyət və keyfiyyət etibarilə yeni dövrün astanasındadır. Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərin qorunub saxlanılması

və daha da inkişaf etdirilməsi, qlobal və regional çağırışlara cavab verərək ölkəmizin dünya nizamında öz mövqeyini gücləndirməsi üçün Prezident ilham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Sərəncam imzaladığını qeyd edən akademik Ramiz Mehdiyev bildirmişdir ki, bu sənəd ulu öndər Heydər Əliyev tərəfindən yaradılan milli inkişaf modelinə uyğundur. Sülh və inkişaf Azərbaycan dövlətinin strategiyasının təməlini təşkil edir.

Qeyd edilənlərin fonunda bir daha bu reallıq aydın dərk olunur ki, düzgün seçilən yol, möhkəm təmələ əsaslanan siyasət ölkənin davamlı inkişafını təmin edir, beynəlxalq münasibətlər sistemində yeri və rolunu möhkəmləndirir. Güclü, qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir. Xalqımız tam əmindir ki, yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də tezliklə öz ədalətli həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, Azərbaycan daha böyük uğurlara imza atacaqdır.

Çoxhörmətli yığıncaq iştirakçıları!

Ümummilli liderimiz bu gün aramızda yoxdur. Təsəllimiz odur ki, Heydər Əliyevin zəngin ideyalarının davamçısı olan layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında gələcəyə addımlayırıq. Bu isə o deməkdir ki, dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət dövlət başçımız tərəfindən qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Biz hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Heydər Əliyev irsinə daim sədaqətliyik, bundan sonra da belə olacağıq. Azərbaycanın dahi oğlunun əməlləri, müqəddəs ideyaları və arzuları həmişə yaşayacaqdır!

**Diqqətinizə görə minnətdaram!**

# ÜMUMİ İQTİSADİ MƏSƏLƏLƏR

**UOT 39.56.31**

***Azər Əlyar oğlu NAMAZOV***
***Azərbaycan Kooperasiya Universitetinin aspirantı***

## MÜASİR İQTİSADİ İNKİŞAF VƏ MAKROİQTİSADİ TƏNZİMLƏNMƏ PROBLEMLƏRİ

**Xülasə**

Məqalədə inkişaf edən ölkələrin milli iqtisadiyyatında makroiqtisadi tənzimlənmənin aspektləri tədqiq olunur. Burada makroiqtisadi tənzimləmənin əsas nəzəriyyələri və məktəblərinə, birbaşa və dolayısı dövlət makroiqtisadi tənzimləməyə, makroiqtisadi inkişafın qiymətləndirilməsində istifadə edilən əsas göstəricilərə və s. xüsusi diqqət yetirilir. Yekunda müəllif elmi cəhətdən ümumiləşdirilmiş nəticələr gətirir.

***Açar sözlər: makroiqtisadi tənzimləmə, nəzəriyyə, iqtisadi göstəricilər, birbaşa təsir edən tənzimləmə üsulları, dolayısı təsir edən tənzimləmə üsulları, inflyasiya.***

***

**Giriş**

Bazar iqtisadiyyatı münasibətləri şəraitində iqtisadiyyatın makroiqtisadi tənzimlənməsi dedikdə qanunverici-icraedici və nəzarətedici xarakterli sistem başa düşülür. Sözügedən sistemin mövcud şəraitə uyğunlaşması baxımından dövlət idarələri və ictimai təşkilatlar xeyli işlər görməkdədirlər. Ədalətli rəqabət mühiti şəraitində, neqativ sosial və iqtisadi proseslərin nəticələrinin aradan qaldırılması üçün dövlətin iqtisadiyyata müdaxiləsi istehsal proporsiyalarında mütərəqqi nisbət və tənasüblərə nail olunmasına xidmət edir. Dövlətin iqtisadi proseslərə təsiri zamanı dövlət mexanizmləri ilə bazarın öz-özünü tənzimləmə mexanizmləri bir-biri ilə həmahəng olaraq fəaliyyət göstərirlər. Bazar ayrı-ayrı əmtəə və xidmətlər üzrə ixtisaslaşan istehsalçılar arasında mübadilənin həyata keçirilməsi funksiyasını yerinə yetirir, eyni zamanda istehsal xərclərinin azaldılmasına təsir göstərərək alıcıları qənaətə meylli edir və bütün bunlar isə son nəticədə gəlirlərin artmasına səbəb olur. Məlumdur ki, MDB-nin bir çox dövlətləri əvvəllər müstəqillik əldə etməzdən öncə inzibati amirlik üsulları ilə, mərkəzləşmiş qaydada idarə olunurdular. Sözügedən dövlətlər müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın bazar iqtisadiyyatı münasibətləri əsasında yenidən təşkil olunması zərurəti meydana çıxdı. Bu isə öz növbəsində kifayət qədər mürəkkəb iş idi. Çünki hər bir dövlət bazar iqtisadiyyatına keçid şərait və imkanlarına uyğun öz yolunu seçməli idi. Birləşmiş Millətlər Təşkilatının təsnifatına görə bu dövlətlər keçid dövrü ölkələri kimi xarakterizə olunmuşlar. Müvafiq olaraq, bütün bunlar həmin dövlətlərdə özünəməxsus keçid dövrü nəzəriyyələrinin yaranmasına xidmət etmişdir. Adekvat nəzəri baza olmadan keçid dövrü iqtisadiyyatının tənzimlənilməsi cəhdləri əvvəlki dövrlər üçün xarakterik olmayan bir sıra yeni problemlərin meydana çıxmasına səbəb olmuşdur. Sözügedən dövlətlərin iqtisadiyyatı özünün çətin dövrlərinə daxil olmuşdu. Əvvəllər mövcud olan sabit və möhkəm iqtisadi əlaqələr dağılmış, bank hesablamaları sistemi iflic vəziyyətə düşmüşdü. Sıx kooperasiya əlaqələri əsasında fəaliyyət göstərən müəssisələr faktiki olaraq özlərinin işgüzar tərəfdaşlarını itirdilər. Lakin SSRİ-də belə bir vəziyyətdə dövlətin makroiqtisadi tənzim-

lənmə funksiyasının reallaşdırılması məsələsi olduqca əhəmiyyətli bir məsələyə çevrildi. Problemin məğzi aşağıdakı kimi ifadə oluna bilər.

***Azərbaycanda makroiqtisadi tənzimləmənin sovet dövründə xüsusiyyətləri.***

Əvvəllər iqtisadiyyatımızın inzibati-amirlik üsulları ilə idarə olunması şəraitində makroiqtisadi tənzimlənmənin bir elm kimi kifayət qədər inkişaf etmək imkanları yox idi. Digər tərəfdən, rəsmi statistik göstəricilərin hesablanması üsulu, real olaraq, iqtisadiyyatın vəziyyətini əks etdirmirdi. Yəni bu üsullar bazar iqtisadiyyatı münasibətləri şəraitinə uyğun deyildi. Keçid dövrü yaşayan ölkələrin, həmçinin Azərbaycanın, mütəxəssislərinin səviyyəsi meydana çıxan nəzəri və praktiki cəhətdən yeni problemlərin həlli yollarının müəyyənləşdirilməsi baxımından qənaətbəxş deyildi. Bütün bunlar makroiqtisadi tənzimlənmədə yeni yanaşmaların işlənilib hazırlanmasını tələb edirdi.

Qeyd etmək lazımdır ki, SSRİ dövrünün makroiqtisadi siyasətinin öyrənilməsi ilə əlaqədar aparılan tədqiqatların nəticələrindən məlumdur ki, bu siyasət əhəmiyyətli dərəcədə sistematik xarakter daşıyır, burada maliyyənin mahiyyət və funksiyalarına, bütünlükdə maliyyə sisteminə böyük diqqət yetirilirdi. Lakin SSRİ-də öz mahiyyəti etibarı ilə iqtisad elmi praktiki olaraq iqtisadi tənzimlənmə məsələlərindən uzaqlaşmışdı. Bu isə onunla əlaqədar idi ki, inzibati-amirlik sistemi şəraitində iqtisadiyyatın maliyyə tənzimlənməsi dövlət tərəfindən iqtisadi reallıqlar nəzərə alınmadan, konkret müəyyənləşdirilən plana əsasən həyata keçirilirdi. Bütün bunların nəticəsində isə natural-əşya və maddi göstəricilərə istinad edən dünya iqtisadiyyatı tarazlaşdırılmış iqtisadi inkişaf konsepsiyasını üstələdi, müvafiq olaraq disproporsiyalar meydana çıxdı. Disproporsiyalar ən çox özünü investisiya və büdcə sferalarında büruzə verməyə başladı. Demək olar ki, büdcə dövlət planı arxasınca sürüklənirdi. Burada uzunmüddətli makroiqtisadi proporsiyaların təmin olunması və tənzimlənməsindən, iqtisadiyyatın hərtərəfli tənzimləyicilərinin mövcudluğundan söhbət belə gedə bilməzdi.

Makroiqtisadi tənzimlənməyə olan müasir yanaşmalar elmi yanaşmalardır və burada dövlətin iqtisadi problemlərin həll edilməsinə birbaşa və yaxud dolayısı yollarla müdaxiləsi üçün fundamental əsaslar mövcuddur. Bu səbəbdən də tədqiqatın sözügedən hissəsində dövlət tərəfindən iqtisadi tənzimlənmənin uğurla həyata keçirilməsi makroiqtisadi siyasətlə sıx bağlıdır.

***Müasir mərhələdə makroiqtisadi tənzimləməyə əsas yanaşmalar.***

XX əsrin əvvəllərində makroiqtisadiyyat elminin sürətlə inkişaf etməsinə səbəb aqreqativ məlumatların toplanması və təhlili zərurətinin daha kəskin hiss olunması idi. Bütün bunlar isə hökumətlərin özlərinin artan hərbi xərclərini düzgün hesablaya bilmələri üçün tələb olunurdu. Bundan əlavə makroiqtisadi göstəricilərin öyrənilməsi vasitəsi ilə işgüzar fəallıq silsilələrinin yaxşılaşdırılmasına nail olundu. Müasir makroiqtisadiyyat elminin yaranmasının digər əhəmiyyətli səbəbi 30-cu illərin əvvəlində olan depressiyalar ilə əlaqədardır. İngilis iqtisadçısı Con Meynard Keyns depressiyanın dərslərindən ibrət alaraq makroiqtisadiyyata müasir anlamda istiqamət verdi. Con Meynard Keyns "Məşğulluğun, faizin və pulların ümumi nəzəriyyəsi" əsərində iqtisadi tərəddüdlərin mahiyyətini dərk edərək sözügedən səbəbləri izah etməyə müvəffəq oldu. C.M. Keyns 30-cu illərdə bir çox ölkələrin rəhbərlərinə böhranların aradan qaldırılması üçün uğurlu proqram təklifləri təqdim etdi [1]. Bu zaman Keyns makroiqtisadi strategiyanı dövlət xərclərinə, həmçinin vergi və pul siyasətinə düzəlişlərin edilməsi istiqamətində müəyyənləşdirdi. Keynsin təkliflərinin alternativi yox idi. Uzun onilliklər ərzində onun ideyaları dünya iqtisadi sistemində üstün ideyalar kimi qəbul olunurdu. Ancaq XX əsrin 70-ci illərində özlərinin iqtisadi inkişafında ciddi enişlər keçirməyən biz çox ölkələrdə işsizlik artmağa başladı. Məlum oldu ki, uzun illər ərzində qəbul edilən Keynsin iqtisadi vəziyyətin büdcə və pul rıçaqları vasitəsi ilə tənzimlənməsi tövsiyələri ideal təkliflər deyil. Lakin bütün bunlara baxmayaraq, Keynsin ideyaları istehsal və məşğulluq səviyyəsi arasında tərəddüdlərin nizama salınması baxımından xüsusi əhəmiyyət kəsb edir. Qeyd

etmək yerinə düşərdi ki, dərin və dəqiq makroiqtisadi təhlil iqtisadi tərəddüdlərin bütün sahələrini, istər istehsal, istərsə də məşğulluq sahələrini əhatə etməlidir. Staqflyasiyaların meydana çıxması ilə əlaqədar iqtisadçılar bu problemin araşdırılması ilə daha çox məşğul olmağa başlamışlar. Burada təkcə “ümumi nəzəriyyənin” təkmilləşdirilməsi ilə kifayətlənmək olmaz. Eyni zamanda nəzəri müddəaların başdan ayağacan yenidən nəzərdən keçirilməsi zəruridir. Keyns nəzəriyyəsinin ardıcılları [2;3] hesab edirdilər ki, böhran tərəddüdləri iqtisadiyyatda daha çox investisiya siyasətində və yaxud dövlət xərclərindəki artımlarla əlaqədardır. Ancaq Keyns nəzəriyyəsi ilə heç bir əlaqəsi olmayan və böhranların yaranması səbəbini araşdıran iqtisadçılar müəyyən etdilər ki, böhranlar bazarda gözlənilməz təkliflər və digər faktorlarla əlaqədar yarana bilər [4, s. 243; 5, s.138; 6, s. 402]. Məsələn, XX əsrin 70-ci illərində dünya bazarlarında neftin qiymətinin kəskin artması yeni qlobal iqtisadi böhrana səbəb olmuşdur. İqtisadi göstəricilərdə bir o qədər də əhəmiyyətli olmayan enişlərin müşahidə olunduğu zaman bütün bunların işsizliyin səviyyəsinə təsir etməməsi mütəxəssislər üçün gözlənilməz hadisə oldu. Alimlər tərəfindən bu məsələlər daha dərindən öyrənilməyə başlanıldı. Tədqiqatçılar işsizlik səviyyəsi ilə istehsal səviyyəsi arasında birbaşa əlaqənin olduğunu müəyyən etdilər. İqtisadiyyatda böhranların yaranmasına təsir edən digər faktor inflyasiya, əmək haqları və işsizlik səviyyələri arasında nisbətlər hesab olunur. Bu məsələnin araşdırılması ilə məşğul olan tədqiqatçılar müəyyən etdilər ki, bu makroiqtisadi göstəricilər arasında sıx əlaqə mövcuddur [7,8]. İnflyasiyanın müəyyən səviyyəsi eyni zamanda işsizliyin azalması səviyyəsinə də təsir göstərir. İnflyasiyanın aşağı səviyyədə olması zamanı tamamilə fərqli mənzərəni müşahidə edirik. Bütün bunlar aşağıdakı səbəblərlə izah oluna bilər. Adətən, bir qayda olaraq, inflyasiyanın aşağı səviyyədə olduğu zaman istehsalın həcminin azalması müşahidə olunur. Bu isə nağd pulların dövriyyəsinin azalması ilə əlaqədar ola bilər. Bütün bunlar öz növbəsində alıcılarda olan nağd pulların kəmiyyətinin azalması ilə müşayiət olunur. Əhalidə nağd pulların az olması əmtəələrə olan tələbin azalmasına, eyni zamanda istehsalçının istehsalı azaltmasına səbəb olur. İstehsalın ixtisar olunması müvafiq olaraq işsizlərin kəmiyyətinin azalmasına səbəb olur. İnflyasiya və işsizlik arasında bu cür qarşılıqlı əlaqə E.U.Fillipsin adını daşıyan əyrilikdə öz əksini tapmışdır [9], halbuki, sözügedən qarşılıqlı əlaqə ilk dəfə olaraq Fillips tərəfindən deyil, İrvinq Fişer tərəfindən təhlil olunmuşdur. Ancaq bu nəzəriyyə Keynsin nəzəriyyəsi kimi konkret bir dövrün reallıqlarını, yəni XX əsrin 40-cı illərini özündə əks etdirir. E.Fillipsin məsələ ilə əlaqədar araşdırmaları əsas diqqətin nominal əmək haqları problemi üzərində cəmlənməsinə səbəb oldu. Bununla da real əmək haqlarının təbii səviyyəsinin dəqiq hesablanılması mümkün olmadı. Əsas makroiqtisadi göstəricilərin vəziyyəti və qarşılıqlı əlaqəsinin tədqiq olunması hər bir ölkənin iqtisadiyyatının vəziyyətinin real olaraq qiymətləndirilməsini mümkün edir. Lakin cavab axtarılan suallara düzgün cavab verilməsi üçün əsas makroiqtisadi göstəricilərin hesablanması üsullarının əsas məzmunu və xüsusiyyətlərinə diqqət yetirilməsi tələb olunur. Buraya məcmu tələb və məcmu təklif, Ümumi Daxili Məhsul (ÜDM), Ümumi Milli Məhsul (ÜMM), Məcmu Pul Təklifi, (ÜPT), Məcmu Pul Tələbi (MPT), işsizlik və inflyasiya, büdcə kəsiri və büdcə göstəriciləri daxildir.

Bu göstəricilər içərisində əsas yeri ÜDM göstəricisi tutur. Hər bir iqtisadi sistemin əsas məqsədi ölkə əhalisini tələb olunan əmtəə və xidmətlərlə təmin etməkdir. Əmtəə və xidmətlərin həcmi ÜDM-in həcmi ilə ölçülür. ÜDM nominal (bazar) və real (müqayisəli) qiymətlərlə hesablanır. ÜDM iqtisadi vəziyyəti müəyyənləşdirən əsas göstərici hesab olunur. Bu göstəricinin bir neçə il ərzində dinamikasının təhlili bütünlükdə ölkədəki iqtisadi situasiyanı qiymətləndirməyə imkan yaradır. Təsadüfi deyil ki, bir sıra iqtisadi nəşrlərdə ÜDM milli iqtisadiyyatın nəbzi kimi qiymətləndirilir. Son 20 il ərzində bir çox inkişaf etmiş ölkələrdə və eyni zamanda qənaətbəxş iqtisadi siyasətin həyata keçirildiyi ölkələrdə iqtisadiyyat özünəməxsus tərzdə inkişaf edir və bu ölkələrdə istehsalın

səviyyəsinə müxtəlif faktorların təsir göstərməsi ilə sözügedən ölkələrin hər birinin inkişafında fərqli tərəddüdlər müşahidə olunmaqdadır. Makroiqtisadi tənzimlənmədə ÜDM tipli göstəricilərin tətbiq olunması milli iqtisadiyyatın subyektlərinə məqsədyönlü təsir mexanizmi kimi diqqəti cəlb edir. Bu təsir iki tip tənzimləyici-bazar və plan vasitəsi ilə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, praktikada makroiqtisadi tənzimlənmə üsulları birbaşa və dolayı üsullara bölünür (bax şəkil 1).




***Şəkil 1. Makroiqtisadi tənzimlənmənin birbaşa təsir üsulları (müəllif tərəfindən tərtib olunub).***

Birbaşa dövlət təsiri üsullarına aşağıdakılar aid edilə bilər:

• İqtisadi inkişafın strateji məqsədlərinin müəyyənləşdirilməsi və onların digər indikativ planlarda, məqsədli proqramlarda əks olunması;

• Dövlət sifarişləri və kontraktları əsasında müəyyən əmtəə növlərinin tədarükü, sifarişlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi;

• Texnologiyalara və istehsal olunmuş əmtəələrin keyfiyyətinə normativ tələblər;

• Müəyyən əmtəə növlərinin istehsalına hüquqi və inzibati məhdudiyyətlər və qadağanlar və s.;

• Xarici iqtisadi əməliyyatların, yəni əmtəə ixracı və idxalı əməliyyatlarının lisenziyalaşdırılması.

Dövlət tərəfindən iqtisadi proseslərin dolayısı yollarla tənzimlənməsi üsulları bir qayda olaraq əmtəə-pul alətlərinə əsaslanır. Burada bazar təsərrüfatında “oyun qaydaları” müəyyənləşdirilir, təsərrüfat fəaliyyəti subyektlərinin iqtisadi maraqlarına təsir göstərilir (bax şəkil 2).

Bunlar aşağıdakılardır:

• vergi mükəlləfiyyətləri, vergi öhdəlikləri və stavkaları, vergi imtiyazları sistemi;

• qiymətlərin tənzimlənməsi, onların səviyyə və nisbətləri;

• resurslara görə ödənişlər, kredit stavkaları və imtiyazlı kreditlər;

• ixrac və idxalın gömrük rüsumları vasitəsi ilə tənzimlənməsi;

• valyuta kursları və valyuta mübadiləsi kurslarının tənzimlənməsi.




***Şəkil 2. Makroiqtisadi tənzimlənmənin dolayısı təsir üsulları (müəllif tərəfindən tərtib olunub).***

Qeyd etmək lazımdır ki, iqtisadi tənzimlənmədə birbaşa üsulların tətbiq olunması əlavə maddi stimulların yaradılması və yaxud maliyyə itkiləri ilə əlaqədar deyil və burada dövlət hakimiyyətinin gücü böyük rol oynayır.

Makroiqtisadi tənzimlənmənin digər əhəmiyyətli elementlərindən biri də əmtəə və xidmətlərin qiymət və taariflərinin tənzimlənməsidir, yəni dolayısı üsullardan istifadə edən makroiqtisadi tənzimləmə yanaşmasıdır.

İctimai zəruri əmək məsrəfləri və əmtəələrin qiymətləri, zənnimizcə, bir-birinə bərabər təsir göstərən iki tendensiya kimi qiymətləndirilir: əmtəənin təklif olunması özündə həmin əmtəənin hazırlanmasına sərf olunan ictimai zəruri əmək məsrəflərini, əmtəənin ödəniş qabiliyyəti tələbi isə həmin əmtəələrə ictimai zəruri tələbi əks etdirir.

**Nəticə**

Dünya ölkələrinin təcrübələri göstərir ki, inzibati amirlik iqtisadiyyatından bazar iqtisadiyyatı prinsiplərinə transformasiya prosesini yaşayan iqtisadiyyatlarda makroiqtisadi tənzimlənmənin inkişaf etmiş ölkələrdən fərqli cəhətləri mövcuddur. Bu ölkələrdə iqtisadiyyatın bazar prinsipləri əsasında transformasiya olunması üçün dövlət əmlakının özəlləşdirilməsi kimi ağrılı bir problemin həll olunması tələb olunur və müvafiq olaraq, bütün bunlar həyata keçirildi. Lakin bunun üçün müəyyən zaman sərf olundu. Həmin müddətdə praktiki olaraq, orta və iri həcmli müəssisələrin normal fəaliyyət göstərməsini təmin etmək qeyri-mümkün olmuşdur. Həmin müəssisələrin fəaliyyəti bir zamanlar ancaq keçmiş SSRİ məkanında istehsalın təşkil olunmasına istiqamətlənmişdi. Lakin inteqrasiya əlaqələri zəiflədikdən sonra bu müəssisələrdə istehsal edilən məhsulların satış bazarları itirilmiş oldu. Nümunə üçün 90-cı illərdə Bakı Dərin Dəniz Özülləri Zavodunda baş verənlər göstərilə bilər. Bu müəssisələrin mənəvi cəhətdən köhnəlmiş avadanlıqları vasitəsi ilə dünya bazarlarına çıxarıla biləcək məhsulların istehsal olunması qeyri-mümkün idi. Təbii ki, belə bir şəraitdə, yəni inkişafda olan ölkələrdə istehsalın səviyyəsinin ölçülə bilməz dərəcədə aşağı düşməsi inflyasiya ilə və bəzən də hiperinflyasiya ilə müşayiət edilən maliyyə böhranına səbəb olmuşdur. Bütün bunlar isə öz növbəsində iqtisadi islahatların mütləq dərəcədə daha əlverişli bir şəraitdə həyata keçirilməsi üçün tələb edilən zəminin yaradılmasını tələb edirdi. Bu zəmin isə makroiqtisadi tənzimlənmənin səmərəli modelinin seçimi ilə təmin oluna bilər.

**Ədəbiyyat**

1. Кейнс Д.М. Общая теория занятости, процента и денег: Пер. с англ. М.: Прогресс, 1978, 469 с.
2. Хансен Э. М.Экономические циклы и национальный доход, под ред. Хансен Э., М: Финансовая Академия, 2008, 466 с.
3. Веблен Т. Теория праздного класса. М.: Прогресс, 1984, 367 с.
4. Гэлбрейт Дж. Экономические теории и цели общества. М.: Прогресс, 1976, 408 с.
5. Тинберген Я. Пересмотр международного порядка. Перевод с английского/ Под общ. ред.: Рывкин А.А., Пер.: Бонк И.А., Предисл.: Гвишиани Д.М.: М.: Прогресс, 1980, 416 с.
6. Lucas R. E., Sargent T. T. After Keynsian Macroeconomics. In: Rational Expectations and Econometric Practice. L., 1991- 589 p.
7. Долан Э.Дж., Линдсей Д. Макроэкономика - С-Пб.: АОЗТ "Литература плюс", 1994, 412 с.
8. Курс экономики / Под ред. Б.А. Райзберга. -М.: Инфра-М, 1997, 725 с.

***А.А.Намазов***
***Азербайджанский Университет Кооперации***
***аспирант***

**Современное экономическое развитие и проблемы макроэкономического регулирования**

**Резюме**

В статье говорится об аспектах макроэкономического регулирования в национальной экономике стран с развивающейся экономикой. Здесь уделяется особое внимание таким вопросам как основные теории и школы в макроэкономическом регулировании, прямое и косвенное государственное макроэкономическое регулирование, основные макроэкономические индикаторы, применяемые при оценке состояния макроэкономического развития и т.д. В заключении автор приводит научно-обобщенные выводы и результаты исследования.

***Ключевые слова: макроэкономическое регулирование, теория, экономические показатели, прямые методы воздействия, косвенные методы воздействия, инфляция***.

***A.A.Namazov***
***Azerbaijan Cooperation University***
***Post doktoral student***

**Modern economic development and problems of macroeconomic regulation**

**Summary**

In article it is spoken about aspects of macroeconomic regulation in national economy of emerging economies. Here the special attention to such questions as the main theories and schools in macroeconomic regulation, direct and indirect state macroeconomic regulation, the main macroeconomic indicators applied at an assessment of a condition of macroeconomic development, etc. is paid. The author provides in the conclusion scientifically generalized conclusions and results of the research.

***Keywords: macroeconomic regulation, theory, economic indicators, direct methods of influence, indirect methods of influence, inflation.***

**UOT. 330.341.1:62**

***Kamran Ağaəli oğlu RƏSULOV***
***Azərbaycan Texniki Universitetinin doktorantı***

# MİLLİ İNNOVASİYA SİSTEMİNİN SƏMƏRƏLİLİYİNDƏ SƏNAYENİN YERİ VƏ ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİNİN METODİKİ TƏMİNATI

**Xülasə**

Müasir şəraitdə milli innovasiya sisteminin təşəkkülü və səmərəli fəaliyyətində sənayenin rolu artır. Məqalədə innovasiyalı sənaye istehsalının dayanıqlığı və rəqabət qabiliyyətinin qiymətləndirilməsinin metodiki məsələləri tədqiq olunur. Sənayedə innovasiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinin göstəricilər sistemi xarakterizə olunmuşdur.

***Açar sözlər: milli innovasiya sistemi, metodiki təminat, sənayedə innovasiya fəaliyyəti, səmərəlilik, rəqabət qabiliyyəti.***

***

Müasir dövrdə intensivləşən qloballaşma prosesləri innovasiya fəallığına müsbət təsir etməklə, milli iqtisadiyyat çərçivəsində innovasiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi zərurətini aradan qaldırmır. Kollektiv intellektin alternativsiz tərəqqi amilinə çevrilməsi, ideyaların qısa müddətdə kommersiyalaşması müasir qlobal inkişafın magistral xətti olsa da, yüksək texnologiyaların bahalaşması üzündən onların tətbiqinin kapitalın daha sürətli təmərküzləşməsinə rəvac verməsi, milli innovasiya siyasətinin formalaşmasına rəvac verir. Bu baxımdan, artıq iki onillik ərzində inkişaf səviyyəsindən asılı olaraq bir çox ölkələrdə milli innovasiya sisteminin formalaşdırılması prosesi gedir. Əlbəttə, "dövlətin innovasiya siyasəti, bütövlükdə onun iqtisadi siyasəti kimi, ümumi prinsiplərə əsaslanır. Bu prinsiplər regional və ölkə xüsusiyyətlərini inkar etmir. Həmin xüsusiyyətlər aşağıdakılardır: təbii-ehtiyatlar, coğrafi vəziyyət, iqtisadi inkişafın xarakteri, xarici siyasətin istiqamətlənməsi və sairə. Müxtəlif dövlətlər üçün bu xüsusiyyətlər o dərəcədə hiss ediləndir ki,milli innovasiya sistemindən danışmaq lazım gəlir. Beləliklə, milli innovasiya sistemi-konkret dövlətin ümumi prinsipləri və xüsusiyyətlərinin uyğunlaşdırılmasıdır" [1, s. 25].

İnnovativ fəaliyyətdə və ümumilikdə milli innovasiya sisteminin formalaşması və inkişafında sənayenin mühüm rolu, daha ətraflı və dərin qiymətləndirmə istiqamətində araşdırmaları istisna etmir. İlk növbədə, bu, konkret sənaye sahələrinin inkişafının tempi və miqyasını müəyyənləşdirmək baxımından vacibdir. Dövlətin investisiya, innovasiya və sənaye strategiyalarının uzlaşdırılması, milli innovasiya sisteminin prioritetləri, prinsip və vasitələrinin müəyyənləşdirilməsi prosesinin mühüm mərhələsidir.

Milli iqtisadiyyatın bütün sahələrində dayanıqlı inkişaf və rəqabət qabiliyyəti sənayenin inkişaf səviyyəsindən və onun innovativliyindən birbaşa asılıdır. Rəqabət üstünlüklərinin formalaşması və reallaşdırılması zəruri texniki-texnoloji təminatla, sonuncular isə sənaye potensialından istifadə ilə əlaqədardır. Nəhayət, sənayenin innovativ fəallığının qəbul edilən aşağı həddi milli iqtisadi təhlükəsizlik meyarlarına cavab verməlidir.

Milli innovasiya sisteminin (MİS) səmərəliliyində sənayenin oynadığı rol, onun iqtisadiyyatın digər sahələrinə nisbətən yüksək texnolojiliyi, müxtəlif xarakterli yeniliklərin poliqonu olması ilə şərtlənir. Sənayenin iqtisadi-ekoloji baxımdan ən qabaqcıl standartlara cavab verən, rəqabətədavamlı istehsal prosesini qurmaq, dünya bazarının tələblərinə uyğun elmi tutumlu məhsul istehsal etmək qabiliyyətində ifadə olunan innovasiya potensialı onun MİS-in inkişafında yerini müəyyənləşdirir.

Sənayenin MİS-in səmərəliliyində oynadığı rolu açıqlamaq və onun qiymətləndirilməsinin metodiki təminatına münasibət bildirmək üçün, zənnimizcə, sözügedən sistemin məqsədi və vəzifələrinin icrasında sənaye fəaliyyətinin imkanlarını açıqlamaq məqsədəuyğundur.

Konkret məqsədlə, həmçinin innovasiya proseslərinin ardıcıllığına, başqa sözlə, fərqli mərhələlərə ayrı-ayrılıqda baxmaq məqsədəuyğundur. O cümlədən, ideyaların məhsula (xidmətə) transformasiyası dövrü, başqa sözlə, tədqiqatların, elmi axtarışların başlanğıcından ilk məhsul əldə edilənədək olan mərhələ;

- həmin məhsula istehlakçıların tələbatının tam ödənilməsi səviyyəsində məhsul istehsalına nail olunması mərhələsi;
- innovativ məhsul və xidmətin istehlakçılar tərəfindən istifadəsinin başlanması.

Məlum olduğu kimi, innovasiya sisteminin yaradılmasında digər vəzifələrlə yanaşı elmi potensialdan və mütərəqqi texnologiyalardan daha səmərəli istifadə prioritet hesab edilir. Həmin rakursdan çıxış edərək, sənayenin MİS-in müvafiq vəzifələrinin icrasında oynadığı rolun mühüm olduğunu söyləmək olar. Bununla belə, özlüyündə ənənəvi struktura malik sənaye sahələrinin innovativ fəallığa dəstək verəcəyini söyləmək çətindir. Elmi və texnoloji təminatın gücləndirilməsi, ilk növbədə, innovasiyalı sənaye fəaliyyətinin təmin edilməsini nəzərdə tutur.

İnnovasiyaların yeni texnika və texnologiyaların texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasında ifadə olunan səmərəliliyinin yüksəlməsində, texnoloji rejimlərin dinamik və dayanıqlı inkişafının təminatında sənayenin artan rolu danılmazdır. Əlbəttə, sənayedə innovativ fəaliyyətin yalnız texnoloji səmərəliliyindən danışmaqla, reallığı əks etdirmək mümkün deyildir. Həmin fəaliyyətin iqtisadi, texnoloji və sosial səmərəliliyinə vahid kontekstdə baxılması tələb olunur.

İnnovasiyaların istehsalın nəticəsinə təsirini ifadə edən iqtisadi səmərəlilik, onların tətbiqinə qədər və sonra çəkilən xərclə, əldə olunan məhsulun istehsalının əsas iqtisadi xarakteristikaları (istehsalın həcmi, keyfiyyət, mənfəət, rentabellik, əmək məhsuldarlığı, ümumi xərclərin tərkibində texnikanın istismar xərcləri, işə sərf olunun vaxt, əmək şəraiti və s.) müqayisə edilməklə müəyyənləşdirilir. İnnovativ sənaye fəaliyyətinin sosial səmərəliliyinə gəldikdə isə, o ilk növbədə innovasiyaların sahədə çalışan işçilərin əmək və həyat şəraitinə müsbət təsirində ifadə olunur.

Unutmaq olmaz ki, sənayedə innovasiya prosesləri təkcə istehsalda deyil, eyni zamanda institusional, maliyyə, elmi-tədqiqat, tədris və digər istiqamətlərdə keyfiyyətcə yeni səviyyəyə yönəlmiş sosial-iqtisadi innovasiyalı fəaliyyəti əhatə edir. Bu baxımdan sənaye klasterlərinin inkişafı prosesinin metodiki təminat səviyyəsinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, klasterial inkişaf şəraitində elm, təhsil, istehsal və digər fəaliyyət növlərinin məhdud ərazidə inteqrasiyası, əlverişli innovasiya mühiti formalaşdırır. Tətbiqi innovasiyaların formalaşdırılması və bazara çıxarılmasında sənaye (istehsal) və kommersiya fəaliyyətinin birgəliyi MİS-in prioritetlərinin reallaşdırılması baxımından vacib şərtdir.

MİS-in təşəkkülü, təkmilləşdirilməsi, onun dayanıqlı inkişafının təmin olunması, adekvat maliyyələşmə mexanizminin yaradılmasını nəzərdə tutan ayrı-ayrı mərhələlərdə sənaye fəaliyyəti özünəməxsus rol oynaya bilər. Səmərəlilik meyarları baxımından müxtəlif mərhələlərdə innovativ sənaye fəaliyyətinin qiymətləndirilməsi, MİS-in təşəkkül və inkişaf mərhələlərindəki start vəziyyətinin təhlilini nəzərdə tutur. İndi isə, innovativ fəaliyyət sahələrində MİS-in vəzifələrinin həyata keçirilməsində sənayenin mövqeyini dəyərləndirmək üçün müvafiq sahələri qısa səciyyələndirməyə çalışaq.

Tətbiqi tədqiqatlar və istehsal sahələrində sənaye, ilk növbədə mütərəqqi texnologiyaların yaradılmasında, onun maddi-texniki əsasının formalaşmasında, yüksək texnoloji əməyin təşkilində, maddi-texniki resurs axınlarının idarə edilməsinin infrastruktur təminatında (loqistik sistemlərin yaradılmasında), ən qabaqcıl standartlara cavab verən məhsul istehsalının təşkilində və i.a. həlledici rol oynamalıdır.

İnnovasiya və standartlaşma anlayışları arasında ilk baxışda nəzərə çarpan ziddiyyət, əslində inkişafın daxili motivləşməsini təmin edən mühitin bir şərti kimi qəbul edilə bilər. Ziddiyyətin həllinin praktiki istiqamətlərindən biri kimi qabaqlayan standartların tətbiqi diqqətə layiq metodik məsələdir. "Qabaqlayan standartlaşdırma o standartlaşdırmaya deyilir ki, burada standartlaşdırma

obyektlərinə praktikada əldə olunmuşdan daha yüksək normalar və tələblər qoyulur və proqnoza görə bu normalar və tələblər gələcəkdə optimal olacaqlar. Qabaqlama bütövlükdə məmulata, həm də onun vacib parametrlərinə və keyfiyyt göstəricilərinə, istehsal metodlarına və vəsaitlərinə sınağna və nəzarətinə aid edilə bilər” [2, s.137]. Belə yanaşma təcrübədə, kifayət qədər geniş yayılmaqla, sənayedə innovativ fəaliyyətin, xüsusilə məhsul innovasiyalarının arealını genişləndirmək üçün məqbul iqtisadi-hüquqi mühit formalaşdırır.

Bilavasitə innovasiyalı fəaliyyət sahəsində, o cümlədən texnoparkların yaradılmasında sənaye, təkcə texnoloji deyil, həmçinin institusional işləmələrin poliqonu rolunu yerinə yetirir. Bu baxımdan sənaye siyasətində innovasiya amilinin texnoloji, institusional və digər aspektlərin vahid kontekstdə nəzərdən keçirilməsi mühüm əhəmiyyət kəsb edir. MİS-in inkişafı innovasiya infrastrukturunun formalaşması səviyyəsindən bilavasitə asılıdır. Azərbaycan Milli Elmlər Akademiyasının Elmi İnnovasiyalar Mərkəzi innovasiya infrastrukturunun inkişafının qabaqcıl təcrübəsinin öyrənilməsi istiqamətində fəal iş aparır. “İnnovasiya infrastrukturunun inkişafı innovasiya fəaliyyətinin genişləndirilməsi sahəsində əsas perspektiv istiqamətlərdən biridir. İnnovasiya infrastrukturunun inkişafında bizi Almaniya təcrübəsi daha çox maraqlandırdı. Mərkəz tərəfindən Avropa Komissiyasının texniki yardım və informasiya mübadiləsində vasitəçisi olan TAIEX proqramına qoşulmaq üçün müraciət göndərilmişdir” [3].

MİS-in səmərəliliyində sənayenin yeri və rolunun qiymətləndirilməsi üsullarına münasibət bildirmək üçün innovasiya layihələrinin konkret dövr üçün səmərəliliyini hesablamaq və burada haqqında danışılan sahənin payını müəyyənləşdirmək lazım gəlir. Bu halda, ilk növbədə innovasiya layihəsinin səmərəliliyi göstəricisinin iki əsas komponentini fərqləndirmək lazım gəlir:

- innovasiya layihəsinin müxtəlif səviyyəli (dövlət, yerli) büdcələrin xərc və gəlirlərində yaratdığı dəyişiklik;

-layihədə özəl bölmədən iştirak edənlərin kommersiya gəlirlərinin onların xərclərinə nisbətində ifadə olunan səmərəliliyi.

“İnnovasiya layihələrinin əsas səmərəlilik göstəriciləri qismində metodik tövsiyələr aşağıdakıları müəyyən edir: -layihə iştirakçılarının bilavasitə maliyyə maraqları sərhədindən kənara çıxan və dəyər ifadəsinə icazə verilən məsrəf və nəticələri nəzərə alan xalq təsərrüfatının iqtisadi səmərəliliyi; layihə iştirakçıları üçün maliyyə nəticələrini nəzərə alan maliyyə (kommersiya) səmərəliliyi; bütün büdcə səviyyələri üçün maliyyə nəticələrini nəzərə alan büdcə səmərəliliyi. Bu zaman dəyər qiymətləndirməsinə gəlməyən (sosial, siyasi, ekoloji və s.) məsrəfləri və nəticələri nəzərə almaq lazımdır.

Maliyyələşdirmə üçün layihələrin qiymətləndirilməsi və onların seçilməsi üzrə metodik tövsiyələr, layihələrin qiymətləndirilməsi üzrə BMT-nin Sənayenin İnkişafı Təşkilatının (UNIDO) metodikası və digər xarici tədqiqatlarda bu məqsədlə tətbiq olunan çoxsaylı üsullar təklif edirlər. Layihənin səmərəliliyinin qiymətləndirilməsinin bütün üsulları diskontlaşmış və uçot qiymətlərinə əsaslanan iki qrupa bölünürlər. Üsulun seçilməsində layihənin həyata keçmə müddəti, investisiyanın ölçüsü, alternativ layihələrin mövcudluğu və digər amillər nəzərə alınır” [4, s.18].

İnnovasiya layihələrinin sənaye müəssisələrində həyata keçirilməsinin səmərəliliyinin hesablanmasında klassik yanaşmadan istifadə etmək mümkündür və təcrübədə aşağıdakı yanaşmadan istifadə heç də nadir hal deyildir:

$$S = M1 * F1 \; / \; M2 * F2$$

Burada:

M1, M 2-konkret məhsul istehsalı prosesində innovasiyadan əvvəl və sonra əmək məhsuldarlığını;

F1, F2-innovasiyadan əvvəl və sonra fondtutumunu ifadə edir.

Səmərəliliyin hesablanması zamanı:

$S>1$-innovasiya nəticəsində səmərəliliyin yüksəlməsini;

S=1-səmərəliliyin dəyişmədiyini;

S< 1-innovativ fəaliyyətin gözlənilən səmərə vermədiyini göstərir.

MİS-in formalaşması və inkişafında sənayenin artan rolunun və onu şərtləndirən amillərin təsirinin qiymətləndirilməsi üçün proses və məhsul innovasiyalarına fərqli münasibət göstərilməlidir. Differensial münasibət onların sıx qarşılıqlı əlaqədə olduğunu nəzərə almaqla həyata keçirilməlidir. Sənayedə innovasiya layihələrinin reallaşmasına məsrəflərin proses və məhsul yenilikləri arasında bölüşdürülməsinin bütün şərtiliklərinə baxmayaraq, metodiki əhəmiyyətini azaltmaq məqsədəuyğun deyildir. Təkcə onu qeyd etmək kifayətdir ki, proses innovasiyaların maddi-texniki təminatında yerli sənayenin payının müəyyənləşdirilməsi üçün qeyd olunan bölgünün aparılmasını tələb edir.

Bir məqamı xüsusi qeyd etməyə ehtiyac vardır. Əvvəllər əldə edilmiş və kifayət qədər yoxlanmış praktiki biliklər, onların maddiləşməsinin nəticəsi olan maşın, qurğu və avadanlıqların birgə istifadəsi, başqa sözlə, optimal sxemdə birləşdirilməsi innovativ effekt verə bilər. Belə effekt kompleks (birləşdirici) innovasiya adını almışdır. Proses innovasiyalarının səmərəliliyinin qiymətləndirilməsi zamanı birləşdirici innovativ effektin kommersiyalaşması imkanları nəzərə alınmalı, həmin imkanların reallaşdırılmasından gözlənilən nəticələr və proqnozlaşdırılan məsrəflər müqayisə olunmalıdır.

Sənayedə innovasiya fəaliyyətinin nəticələri sırasında yeni məhsul önəmli yer tutur. Bu baxımdan, zənnimizcə, innovativ fəaliyyətin nəticəsi olaraq istehsal edilmiş yeni məhsulun səmərəlilik göstəricisinin hesablanması üsullarına münasibət bildirməyə ehtiyac vardır. Sözügedən göstərici "aşağıdakı düsturla hesablana bilər:

$$E= \frac{L}{(Kn+Ki)}$$

burada,

*E*-iqtisadi səmərəlilik;

*L*-hesabat dövrü ərzində yeni məhsulun iqtisadi nəticəsi;

*Kn*- innovasiya xərcləri;

*Ki*- investisiya xərcləri.

İnnovasiyanın və investisiyanın səmərəlilik göstəriciləri aşağıdakı düsturla hesablanır:

$$En=Q:Kn$$
$$Ei\ En=L:Ki$$

burada,

*En*-innovasiyanın iqtisadi səmərəliliyi:

*Ei*-investisiyanın səmərəliliyi;

*Q*- yeni məhsulun bazar qiymətidir"[5, s. 55].

Sənayedə innovasiya fəaliyyəti innovasiya infrastrukturu sayəsində realllaşır. MİS-in səmərəliliyi sənaye innovasiyalarının reallaşdırılmasının maddi-texniki bazisinin, başqa sözlə, innovasiya infrastrukturunun mükəmməlliyi ilə birbaşa əlaqədardır. Strateji baxımdan sənaye fəaliyyətinin innovativliyinin teniki-texnoloji təminatı, yalnız müvafiq insrastrukturun mövcudluğu şəraitində zəruri tələblərə cavab verə bilər. İnnovasiya mərkəzləri, texnoloji transfer strukturları, texnoparklar və biznes inkubatorların formalaşması sənaye innovasiyalarını stimullaşdırır. İnnovasiya infrastrukturunun səmərəliliyinin ilkin təzahürü bunda ifadə olunur.

Həmin infrastrukturun sosial-iqtisadi sistemdə yeri, fəaliyyət mühitinin xarakteristikaları MİS-də sənayenin rolunu həlledici dərəcədə şərtləndirən amillərdir.

"İnnovasiya strukturlarının səmərəliliyinin qiymətləndirilmə prosesi bəzi hallarda özündə aşağıdakı səmərəlilik növünü birləşdirən kompleks qiymətləndirməyə gətirir: tələbat (məqsədlərin tələbatlara, ideallara və normalara nisbəti), səmərəlilik (faydalı nəticənin qoyulan məqsədlərə

nisbəti) və məxaric (xərclərin alınan nəticələrə nisbəti). Səmərəliliyin bu cür qiymətləndirmə metodlarından hər birinin öz üstünlükləri və çatışmazlıqları vardır. Bu onu deməyə əsas verir ki, səmərəliliyin qiymətləndirilməsinə dair mütləq üstün yanaşma yoxdur” [6, s. 25].

Başqa sözlə, innovasiya infrastrukturlarunun səmərəliliyinin qiymətləndirilməsi üçün əlverişli yanaşma investor, idarəedici və idarə olunan heyətin özünəməxsusluğu nəzərə alınaraq seçilməlidir. Həmin seçim, zənnimizcə, sadalanan subyektlərin maraqlarının kəsişən məqamlarına əsaslanaraq aparıla bilər. Alternativ yanaşmalar mövcuddur və onlar investor, idarəedici və idarə olunanların mənafelərinin ziddiyyətli məqamlarının minimumlaşdırılması prinsipinə əsaslanır.

MİS-in səmərəliliyində sənayenin yeri və rolunun müəyyənləşdirilməsi baxımından qeyd olunan yanaşmaların kompromis variantına üstünlük verilməsi təcrübədə daha çox istifadə olunur. İlk baxışda bu bir qədər paradoksal görünsə də, innovasiya strukturlarının (texnoparkların və i.a.) innovativ fəaliyyətin səmərəliliyində oynadığı rolun iqtisadi göstəricilərinin hesablanmasının ən az əməktutumlu yoludur.

Sənayedə innovasiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsi, yuxarıda şərh edilən və bir sıra digər göstəricilərin xarakteristikasını və dəqiqləşdirilməsini nəzərdə tutur. Həmin göstəricilər qismində: innovasiya xərcləri, innovasiyanın reallaşdırılmasından əldə edilən mənfəət, rentabellik və ya mənfəət norması, gətirilmiş xərclər, özünüödəmə müddəti, gəlirlik indeksi, təmiz diskontlaşdırılmış dəyər, gözlənilən (gələcək) dəyər, özünüödəmənin diskontlaşdırılmış dövrü, daxili (adi və modifikasiya olunmuş) gəlirlik norması və s. qeyd edilməlidir.

Sadalanan göstəricilər müvafiq ədəbiyyatlarda kifayət qədər geniş şərh olunduğu üçün, onlar üzərində dayanmadan, metodiki müstəvidə aşağıdakıları qeyd etməyi məqsədəuyğun hesab edirik:

- bu və ya digər göstəricilərin tətbiqinin məqsədəuyğunluğu əsaslandırılarkən əldə edilən və gözlənilən emprik nəticələrin fərqi, tədqiqatçıların məqsədi, ilkin informasiya bazasının empriklik səviyyəsi və s. kimi amillər nəzərə alınmalıdır;
- konkret göstəricinin aqreqasiyasının yol verilən həddi və bu həddə ümumiləşdirmə imkanları qiymətləndirilməlidir;
- innovativ fəaliyyətin səmərəliliyinin bu və ya digər göstəricisinin dövriyyədə olan ilkin informasiya bazasına uyğunluğu müyyənləşdirilməlidir. Haqqında danışılan uyğunluğun sənayenin MİS-in formalaşması və inkişafında rolunun obyektiv qiymətləndirilməsinə ikili təsiri vardır. Belə ki, törəmə informasiya massivlərinin sayca çoxalması məhsul və proses innovasiyasının daha detallaşdırılmış səciyyələndirilməsinə imkan verirsə, digər tərəfdən həmin informasiyadan istifadənin əmək tutumu artır. Müvafiq riyazi və instrumental vasitələrin yoxluğu səbəbindən, təklif edilən göstəricilərin ənənəvi metodiki bazaya uyğunluğu onların tətbiqi tezliyini artırmaqla, arealını genişləndirmiş olur.

## Ədəbiyyat

1. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, “Elm”, 2009, 416 s.
2. Məmmədov N.R. Standartlaşdırmanın əsasları. Bakı, “Elm”, 2002, 388 s.
3. Qasımov F.H. AMEA Elmi İnnovasiyalar Mərkəzinin Azərbaycan iqtisadiyyatının innovasion inkişafında rolu (05.06.2012 www.elmqazeti. com).
4. Nəcəfov Z.M. Azərbaycan Respublikasında milli innovasiya sisteminin formalaşması və inkişafı. Avtoref. dis. i.e.d., 08.00.05 və 08.00.13. Bakı, 2011, 38 s.
5. Səfərov R. İnnovasiyanın səmərəliliyinin müəyyən edilməsində istifadə edilən metodikaların təhlili. Elm və İnnovasiya jurnalı. Bakı, 2011, №1(5), 53-56 s.
6. Əliyev Ə.Q., Şahverdiyeva R.O. İnnovasiya strukturlarının fəaliyyət səmərəliliyinin kompleks qiymətləndirilməsinin elmi-metodoloji əsasları. Elm və innovasiya jurnalı. №1 (5), 2011, s. 23-32.

***К.А.Расулов***

**Методическое обеспечение оценки места и роли промышленности в эффективности национальной инновационной системы**

**Резюме**

В современных условиях возрастает роль промышленности в формировании и эффективном функционированиями национальной инновационной системы. В статье исследуются методические вопросы оценки устойчивости и конкурентоспособности инновационного промышленного производства. Характеризована система показателей оценки эффективности инновационных проектов в промышленности.

***Ключевые слова: национальная инновационная система, методическое обеспечение, инновационная деятельность в промышленности, эффективность, конкурентоспособность.***

***K.A.Rasulov***

**Methodical provision of evaluation of place and the role of industry in effectiveness of the national innovation system**

**Summary**

The role of industry in the development and effective functioning of the national innovation system is increased under current conditions. The methodological issues of evaluation of the stability and competitiveness of innovative industrial production is investigated in the article. The system of indicators to measure the effectiveness of innovative projects in the industry has been characterized.

***Key words: national system of innovations, methodical provision, innovative activities in industry, efficiency, competitiveness.***

**УОТ 33 (094).**

***Тамара АЛИЕВА***
***докторант Университета Азербайджан***

# ЭТАПЫ СТОИМОСТНОЙ ЦЕПОЧКИ

**Резюме**

На основе позиции компании в производственно-сбытовой цепочке анализа, а также ее конкурентные преимущества на основе продукта diferensiasiyasına требует осуществления ряда мер. В то же время, компании и отрасли в целом и различий в уровнях цепочки создания стоимости. Ключевые слова: цепочки создания стоимости, которая действует положение компании, дифференциация продукта, конкурентные преимущества.

***Ключевые слова: стоимостная цепочка, деятельность, позиция фирмы, дифференциация продукции, конкурентное преимущество.***

***

При анализе позиции фирмы с использованием идеи стоимостной цепочки выявляются следующие основные этапы [1]:

***1. Выделение отдельных видов деятельности.*** Для этого необходимо хорошее знание структуры технологического процесса трансформации ресурсов в готовую продукцию и процесса ее доставки потребителю. При этом особое внимание должно быть уделено следующим обстоятельствам:

- относительная обособленность деятельностей друг от друга;
- уровень важности каждого вида деятельности;
- различия видов деятельности с точки зрения используемых факторов производства;
- отличие в способах реализации конкретного вида деятельности фирмой и ее конкурентами.

***2. Определение относительной значимости различных видов деятельности.*** Здесь особое внимание уделяется деятельностям, являющимся основными носителями затрат. Вместе с тем подробное выявление распределения затрат может быть трудоемким. Поэтому, как правило, выявляются ключевые виды подобных затратоемких деятельностей. Для этого необходимо определить факторы затрат. Заключением этого этапа является выработка соответствующих рекомендаций.

***3. Сравнение издержек по видам деятельности.*** Для этого применяется метод бенчмаркинга, который позволяет выявить, какие виды деятельности осуществляемые компанией являются эффективными, а какие – неэффективны по сравнению с соответствующими затратами фирм- конкурентов.

***4. Определение источников издержек.*** На этом этапе выявляются источники и факторы затрат отдельных деятельностей. Достаточно простой характер некоторых видов деятельности облегчает процесс определения факторов затрат путем прямых вычислений, но более сложные виды деятельности требуют применение специальных, иногда косвенных методов, например, метода сравнения с другими аналогичными фирмами или соотношения с затратами смежных фирм.

***5. Выявление связей.*** Взаимовлияние деятельностей цепочки дает возможность, хотя бы частично определить стоимость одного вида деятельности посредством с анализа уровня выполнения другого.

***6. Определение возможностей сокращения издержек.*** Прохождения предыдущих этапов позволяет выявить возможности для сокращения издержек организации. Например, если выявлено, что возможно сокращение затрат за счет увеличения производства, т.е. за счет поло-

жительного эффекта масштаба, то необходимо находить новые рынки сбыта собственной продукции и изыскать возможности увеличения объема производства. Если продукция трудоемка, как это имеет место в развитых странах, то следует изыскать возможности перемещения производства в малооплачиваемые регионы. В ситуации неэффективного выполнения деятельности внутри компании нужно подумать об аутсорсинге и наоборот.

Цепочка стоимости на уровне отрасли-это физическое представление различных процессов, привлекаемых к производству товаров и услуг, начиная от сырья и оканчивая доставленной продукцией (также называемой ***снабженческой цепочкой***). Она основывается на идее добавленной стоимости на уровне стыка (звена). При этом сумма добавленных стоимостей, генерируемых в каждом стыке (звене), дает общую стоимость. Модель межотраслевого баланса (модель затраты-выпуск) В.Леонтьева дает ясную картину для оценки добавленной стоимости для каждого отдельного звена. Заслуживающими внимания событиями этого уровня являются изменения отраслевого масштаба посредством внутриотраслевого объединения или межотраслевого слияния. Таким образом, снабженческая цепочка – это система организаций, людей, технологий, деятельностей, информации и ресурсов, вовлеченных в процесс продвижения продукции от продавца к покупателю. Вся эта система служит тому, чтобы преобразовать природные ресурсы, сырье и другие компоненты в конечную продукцию и доставить ее конечному потребителю. Другими словами, снабженческая цепочка связывает цепочки ценностей. В сложных системах снабженческой цепочки уже использованная продукция, остаточная стоимость которой еще пригодна для регенерации, может в некоторой точке снова войти снабженческую цепочку [2].

Уровни фирмы и отрасли естественным образом взаимосвязаны. Можно отметить следующие характерные объединяющие и различающие аспекты этих уровней [3]:

• Цепочка стоимости для различных фирм внутри отрасли различна, и в действительности, именно это обстоятельство является источником конкурентного преимущества между этими фирмами.

• Ввиду того, что применение анализа цепочки стоимости для отрасли, возможно, скроет эти источники конкурентного преимущества, Портер предлагает следующее:

• Бизнес-единица является корректным уровнем построения цепочки ценности.

• Применение цепочки ценности к целому сектору или отрасли не рекомендуется.

• Несмотря на это анализ цепочки стоимости для отрасли был реализован в многочисленных исследованиях отраслей по всему миру.

Таким образом, анализ цепочки включает стоимостное исследование структуры издержек компании, в том числе обусловленные субдоговорами и сторонними процессами, а сама цепочка стоимости является частью стоимостной системы, являющейся более широким потоком деятельностей от продавцов к покупателям.

***Связи посредством снабженческой цепочки.*** Снабженческая цепочка отражает определенный, именно финансовый аспект отношений между различными звеньями цепочки от сырья до потребителя. В определенном смысле звенья снабженческой цепочки могут быть независимыми в плане их функционирования и/или принадлежности к какой-либо фирме, но они связаны тем, что вход одного звена является выходом другого, что и объединяет их в единую цепочку. Именно по этим связям осуществляется влияние одного звена на деятельность и издержки другого.

Связи между деятельностями подсказывает, что издержки преимущества или дифференциации фирмы зависит не только от ее способности к сокращению издержек и улучшению осуществления индивидуальной деятельности, но и от других деятельностей. Поэтому отдельные деятельности не могут быть исследованы автономно. Прежде всего, должны быть изучены связи между деятельностями. Для этого нужно выявить, каким образом стоимость

одной деятельности влияет на стоимость другой. Только после этого может быть достигнута оптимизация и координация между различными деятельностями фирмы.

***Вертикальные связи.*** Как отмечено выше, любая компания имеет внефирменные связи. При формировании внутрифирменных стоимостных цепочек большое значение имеет также состояние стоимостных цепочек ее поставщиков и каналов распространения ее продукции. К примеру, деятельность поставщиков сырых материалов влияет на конечный результат фирмы, деятельность дистрибуторов также сказывается на конкурентной позиции компании, и именно эти связи могут создать возможность для улучшения конкурентного преимущества фирмы и наоборот. Следовательно, благодаря такому взаимовлиянию между ними поставщики и даже каналы влияют на стоимостную цепочку фирмы.

Продукция фирмы представляет собой закупленный вход в цепочку покупателя, а ее дифференциация может быть результатом того, какое отношение стоимостная цепочка фирмы имеет со стоимостной цепочкой покупателя. Ценность создается тогда, когда фирма формирует конкурентное преимущество для своего покупателя. Фирма может также входить в коалицию с независимыми от нее компаниями, для получения выгоды посредством связывания между их стоимостными цепочками. Такие коалиции могут быть реализованы созданием совместных предприятий или технологическими лицензиями.

***Применение концепции цепочки стоимости.*** Идея цепочки стоимости, как мощный инструмент стратегического планирования, в короткое время стало популярной в управлении компаниями. В частности, на основе этой идеи были разработаны простые схемы потока ценностей и концепция кросс-функционального менеджмента [4], которые имели успех в 1990-х годах [5].

Так как конечной целью любого производства является удовлетворение потребностей конечного потребителя, а, с другой стороны, доставка продукции конечному потребителю требует мобилизацию различных экономических факторов, концепция цепочки стоимости вышла далеко за пределы отдельных фирм и применяется для всей снабженческой цепочки и сети ее распределения.

Отрасль со значительно синхронизированными отношениями ее локальных стоимостных цепочек создает расширенную цепочку стоимости, иногда глобальную в пространственном (территориальном) отношении. Портер называет эти более широкие взаимосвязанные системы стоимостных цепочек «стоимостной системой» (или системой стоимостей, или оценочной системой). Стоимостная система включает цепочки стоимостей а) поставщиков фирмы (включая поставщиков этих поставщиков и так по всей обратной цепочке); б) саму исследуемую фирму; в) каналы распределения продукции фирмы; г) покупателей фирмы (и возможно с расширение до покупателей этих покупателей и т.д.).

Сбор информации о стоимости, генерированной вдоль цепочки, является новым походом, взятым на вооружение многими стратегами управления. Например, производитель, во имя минимизации транспортных издержек, может требовать, чтобы его поставщик размещался вблизи его сборочного цеха.

Используя нисходящую и восходящую информацию, поступающую по стоимостной цепочке, фирмы могут стараться обойти посредников, создавая новые модели бизнеса и таким образом, улучшить свою оценочную систему.

Анализ стоимостной цепочки в крупных масштабах использован организациями поддержки нефтехимических предприятий[1]. Позитивный опыт по этому поводу описан в многочисленных работах, в частности по нефтехимическим предприятиям Малайзии [6] и Австралии [7].

1. Petrochemical Plant Maintenance Organizations

Наглядным примером успешного использования идей М.Портера является опыт фирмы Тойота, которая впервые применила так называемый Леан-подход, основанный на стоимостной цепочке, который впоследствии стал очень популярным в управлении корпорациями. Но, к сожалению, в русскоязычных исследованиях практически нет обращения к этой теме. Английское слово леан, имеющее много переводов, в этом контексте, скорее, используется в смысле «неприбыльный», подразумевая, что максимизация прибыли, хотя и является главной целью любой компании, но неразумное постоянное стремление к ней обречено на неудачу. Фирма должна уметь жертвовать ради потребителя: думать в первую очередь и прежде всего об интересах клиента [8].

Стоимостная цепочка может так же быть использована в качестве альтернативы для оценки эффективности функционирования частных и государственных компаний в случаях, когда отсутствует публичная информация о прямой конкуренции. В таких случаях компания сравнивается, например, с известной нисходящей отраслью для получения приемлемого впечатления путем построения корреляции с нисходящими компаниями.

Анализ стоимостной цепочки успешно применяется для идентификации стратегии сокращения бедности путем совершенствования стоимостной цепочки [3].

Несмотря на то, что специалисты по развитию национальной экономики ориентируется обычно на рост экспорта, в последнее время они вдобавок к международному, стали уделять больше внимания развитию национальной и внутристрановой цепочкам.

Другим важным направлением применения концепции стоимостной цепочки является дифференциации предложение компании, т.е. создание дифференцированной продукции. Использование концепции для выявления возможностей генерирования конкурентного преимущества на основе дифференциации включает в себя четыре основных этапа:

*1. Построение цепочек.* На этом этапе необходимо выстроить цепочки ценности компании и ее текущих и потенциальных потребителей. Здесь целесообразно исследовать не только непосредственных покупателей, но и фирмы, являющиеся потребителями продукций этих покупателей, т.е. рассматривать более отдаленные звенья в этой цепи. Если продукция продается по двум и более качественно разным каналам (отраслям), (например, сталелитейная компания может поставлять свой товар, как автомобилестроителям, так и производителям бытовой техники), необходимо составлять несколько стоимостных цепочек.

*2. Определение степени уникальности каждого вида деятельности.* Здесь необходимо оценить потенциал компании на дифференциацию продукции. Для этого нужно подробно изучить каждый вид деятельности, составляющего цепочку ценности компании, и определить факторы и мероприятия, на основе которых формируется конкурентоспособное рыночное предложение фирмы.

*3. Выбор перспективных направлений дифференциации.* Для этого нужно определить, какой из факторов уникальности, присущий компании, является ключевым при построении стратегии дифференциации, и какая форма деятельности придает фирме наибольший потенциал для дифференциации, т.е. дифференциация обходится дешевле, чем у конкурентов. При этом необходим анализ внутренних сильных и слабых сторон компании и ее ресурсов.

*4. Определение связи между видами деятельности.* В зависимости от того, какую роль играет в дифференциации уникальность ресурсов или способностей, зависит преимущество дифференциации фирмы. Дело в том, что чем больше степень этой уникальности, например, чем сложнее механизм, включающих в себя координацию большого количества лиц, тем труднее будет для конкурента скопировать конкретный источник дифференциации. Поэтому необходимо изыскать возможности поддерживания уникальных свойств компании. С другой стороны, некоторые детерминанты дифференциации появляются на стыке различных видов деятельностей. Например, высокое качество продукции является результатом взаимодей-

ствия многих взаимосвязанных функций, в частности контроля качества закупаемого исходного сырья и материалов, профессиональных качеств и мотивации работников предприятия, работы подразделения контроля над качеством. Следовательно, необходимо выявить связи между отдельными видами деятельности.

*5. Установление связи между стоимостной цепочкой компании и цепочкой ценности ее потребителя.* Существует, как минимум, два направления установления таких связей:

- снижение затрат потребителя;
- воздействие на потребителя, чтобы тот дифференцировал продукцию фирмы.

Резюмируя этот раздел, можно выделить следующие основные моменты.

• Источниками конкурентного преимущества фирмы являются ее отдельные деятельности и взаимодействие этими деятельностями.

• Стоимостная цепочка – инструмент, позволяющий систематически проверять деятельности фирмы и то, как эти деятельности взаимодействуют и как они взаимовлияют на стоимость и процесс имплементации друг друга.

• Фирма приобретает конкурентное преимущество путем осуществления этих деятельностей лучше или меньшими издержками, чем ее конкуренты.

• Стоимостная цепочка дает представление о том, что и как фирмой осуществляется.

• Стоимостная цепочка – это полезный инструмент для выявления различий между организациями, функционирующими в одной отрасли и кажущимися на первый взгляд похожими.

• Стоимостная цепочка позволяет понять сильные и слабые стороны организации.

## Выводы

При анализе позиции фирмы с использованием идеи стоимостной цепочки необходимо придерживаться определенной последовательности действий.

Использование концепции стоимостной цепочки для выявления возможностей генерирования конкурентного преимущества на основе дифференциации так же включает в себя определенные этапы.

Стоимостная цепочка для фирмы и отрасли имеют ряд общих различающих аспектов.

## Литература

1. Porter M. E. Competitive Advantage - The Free Press. New York, 1985.
2. Nagurney A. Supply Chain Network Economics: Dynamics of Prices, Flows, and Profits. - Edward Elgar Publishing, 2006.
3. Mitchell J., Coles C., Keane J. Upgrading along value chains: Strategies for poverty reduction in Latin America London, UK: COPLA Global - Overseas Development Institute - 2009.
4. Martin J. The Great Transition: Using the Seven Disciplines of Enterprise Engineering. - New York: AMACOM, 1995, 520 r.
5. The Horizontal Corporation // Business Week. 1993, December 20
6. eprints.utp.edu.my/1403/1/Sydney_Intellectbase_2010.doc
7. www05.abb.com/global/scot/scot267.nsf/veritydisplay/af64ef052ed36b0a85256f38006149ff/$file/Qenos_Orica.pdf
8. http://www.manavue.ca/si_mve_a/Lean_Approach.html

***Tamara Əliyeva***
***Azərbaycan Universitetinin doktorantı***

**Dəyər zəncirinin mərhələləri**

**Xülasə**

Şirkətin mövqeyinin dəyər zənciri əsasında tədqiqi, həmçinin onun məhsul diferensiasiyasına əsaslanan rəqabət üstünlüyünün yaradılması müəyyən tədbirlər ardıcıllığının həyata keçirilməsini tələb edir. Eyni zamanda şirkət və sahə səviyyəsində dəyər zəncirinin ümumi və fərqli cəhətləri göstərilir.

***Açar sözlər: dəyər zənciri, fəaliyyət, şirkətin mövqeyi, məhsul diferensiasiyası, rəqabət üstünlüyü.***

***Tamara Aliyeva***
***Doctoral candidate of Azerbaijan University***

**The stages of value chain**

**Summary**

Research of a firm on the base of value chain as well as creation of its competitive advantage on the base of product differentiation requires implementation of measures sequences. At the same time the common and different characteristics of value chain in firm and industry level are shown.

***Key words: value chain, activity, product differentiation, competitive advantage.***

# AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

**UOT334.021;35**

***Şakur Oruc oğlu SƏFƏROV***
***Az.ETKTİ və Tİ-nin dissertantı***

## KƏND TƏSƏRRÜFATININ İQTİSADİ VASİTƏLƏRLƏ TƏNZİMLƏNMƏSİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

**Xülasə**

Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi, ilk növbədə aqrar siyasətin prioritetini təşkil etməlidir. Aqrar siyasətdə qeyri-bazar tənzimləmə metodlarından istifadə hesabına, ilk növbədə kənd təsərrüfatı əmtəə istehsalçılarının kapital resurslarına olan ehtiyaclarının ödənilməsi, eləcə də əmtəə istehsalçılarına dövlət yardımlarının göstərilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

***Açar sözlər: qeyri-bazar tənzimləmə metodu, mülkiyyət mənsublu təsərrüfat formaları, innovasiyalı məhsul istehsalı, destruktiv tendensiyalar.***

***

Müasir şəraitdə cəmiyyətin ən önəmli problemlərindən biri ərzaq təminatı hesab edilir. Ərzaq təminatının yaxşılaşdırılması dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edilir. Ərzaq təminatının yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi, ilk növbədə dövlətin iqtisadi imkanlarından, eləcə də istehsal potensialından səmərəli istifadə edilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Dövlət tərəfindən həyata keçirilən aqrar siyasətin başlıca məqsədi ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, kənd təsərrüfatının dinamik inkişafına nail olmaq və eləcə də kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artırılmasını təmin etməkdən ibarətdir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının özünəməxsus spesifik xüsusiyyətləri xüsusilə bazar münasibətləri şəraitində dövlətin aqrar siyasətinin prioritetlərinin daha aktiv şəkildə reallaşdırılmasını obyektiv zərurətə çevirir. Məhz bu baxımdan kənd təsərrüfatı bazar özünütənzimləmə mexanizminin neqativ təzahürlərinə effektiv reaksiya göstərmək iqtidarında deyildir.

Yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatının sahəvi xüsusiyyətləri, o cümlədən təbii-iqlim şəraitindən asılılığı, eləcə də azgəlirliliyi nəticə etibarilə bu sahədə fəaliyyət göstərən əmtəə istehsalçılarının səmərəli fəaliyyət göstərmək imkanlarına mənfi təsir göstərir. Azərbaycan Respublikasının təbii-iqlim şəraiti, iqtisadi potensialı mahiyyət etibarilə uzun illər kənd təsərrüfatı istehsalı üzrə ixtisaslaşmasında əhəmiyyətli rol oynamışdır. Tarixən respublikamızın dünyada mövcud olan təbii iqlim qurşağından doqquzunu özündə birləşdirməsi, son nəticədə kənd təsərrüfatının inkişafı üçün əlverişli şərait yaradır. Təsadüfi deyildir ki, hələ sovet birliyinin mövcud olduğu dövrlərdə Azərbaycan Respublikasının kənd təsərrüfatı ölkənin mərkəzi şəhərlərinin ərzaq məhsulları ilə təmin edilməsində əhəmiyyətli rol oynamışdır. Xüsusilə Lənkəran və Quba-Xaçmaz iqtisadi rayonlarında faraş meyvə-tərəvəz istehsalının həyata keçirilməsi keçmiş ittifaqın mərkəzi regionlarının ərzaq məhsullarının ehtiyaclarının ödənilməsində mühüm mənbə rolunu oynamışdır. Bundan əlavə, hələ sovetlər birliyi dönəmində belə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılma-

sında kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrin inkişaf etdirilməsi əhəmiyyətli rol oynamışdır. Belə ki, sovetlər dönəmində Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı ixtisaslaşmış təsərrüfatların yaradılması, eləcə də aqrar-sənaye kompleksinin formalaşdırılması və inkişaf etdirilməsi, emal müəssisələrinin yaradılması nəticə etibarilə kənd əhalisinin sosial vəziyyətində əhəmiyyətli rol oynamış, eləcə də kənddə istehsal və sosial infrastrukturun əhəmiyyətli dərəcədə dirçəlməsində mühüm rol oynamışdır.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsində keçmiş sovet birliyində mövcud olan istehsal-iqtisadi münasibətlərin əhəmiyyətli rolu olmuşdur. Belə ki, respublikamızın sovetlər birliyinin tərkibinə daxil olduğu zamanlarda kənd təsərrüfatının inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, eləcə də əkinçiliyin və heyvandarlığın elmi əsaslarla inkişafı istiqamətində mühüm irəliləyişlərə nail olunmuşdur. Bundan əlavə, keçmiş sovetlər birliyində respublikamızın kənd təsərrüfatının sənaye əsaslarına keçirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Belə ki, ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda aqrar-sənaye kompleksinin formalaşdırılması, eləcə də regionlarda şərabçılığın, meyvəçiliyin, konserv sənayesinin, pambıq sənayesi sahələrinin inkişaf etdirilməsi nəticəsində respub- likamızda kəndin sosial-inkişaf səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, ötən əsrin 70-ci illərinin əvvəllərindən Heydər Əliyev cənablarının Azərbaycan Respublikasında hakimiyyətə gəlməsi, bu dövrdə bütün sahələrdə olduğu kimi kənd təsərrüfatında da kompleks tədbirlərin həyata keçirilməsi və uğurların əldə edilməsi üçün mühüm təməl olmuşdur.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərindən etibarən Azərbaycan Respublikasında kənd təsərrüfatında baş verən destruktiv tendensiyaların özünəməxsus obyektiv səbəbləri də mövcud olur. Bu destruktiv tendensiyalara, ilk növbədə Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələri aid etmək olar. Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr nəticəsində Azərbaycan Respublikasına 1 milyondan çox qaçqın seli daxil olmuş, ölkə ərazisinin 20%-ə qədəri, o cümlədən kənd təsərrüfatına yararlı torpaqların əhəmiyyətli hissəsi işğal edilmişdir. Məhz belə bir şəraitdə Azərbaycan Respublikası dövlət müstəqilliyinə qədəm qoymuşdur. 1991-93-cü illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi həyatı hərbi çevrilişlərlə və siyasi qalmaqallarla zəngin olmuşdur. Bundan əlavə, yenicə öz müstəqilliyini qazanmış Azərbaycan Respublikasında digər keçmiş ittifaq respublikaları ilə maddi-texniki təchizat əlaqələrinin kəsilməsi, eləcə də bank-maliyyə əməliyyatlarının kəsilməsi, son nəticədə problemlərin yaranmasına gətirib çıxarmışdır. Kənd təsərrüfatı məhsulları ilə maddi-texniki resursların qiymətləri arasındakı disproporsiyanın yaradılması, maliyyə-kredit və vergi siyasətində aqrar bölmənin idarəedilməsində mövcud nöqsanlar və digər bu kimi halları, kənd təsərrüfatında iqtisadi tənəzzülün formalaşmasına gətirib çıxarmışdır. 1990-94-cü illərdə kənd təsərrüfatında yaranmış iqtisadi böhranı statistik rəqəmlərlə daha əyani şəkildə görmək mümkündür. Belə ki, 1990-cı illə müqayisədə 1994-cü ildə taxıl istehsalı 274 min ton və ya 26,5%, pambıq istehsalı 159,2 min ton və ya 47,8%, tütün istehsalı 70,3 min ton və ya 81,3%, kartof istehsalı 35 min ton və ya 19%, tərəvəz istehsalı 374,3 min ton və ya 43,6%, üzüm istehsalı 482,2 min ton və ya 40,4%, çay istehsalı 11,3 min ton və ya 36,9%, ət istehsalı 144,9 min ton və ya 49,3%, süd istehsalı 196,7 min ton və ya 19,3% azalmışdır. Təbii ki, kənd təsərrüfatında məhsul istehsalının azalması ilk növbədə məhsuldarlığın səviyyəsinin aşağı düşməsi ilə sıx bağlı olmuşdur və təbii ki, bütün bunlar eyni zamanda kənd təsərrüfatında fəaliyyət göstərən müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin zərərlə başa çatmasına da səbəb olmuşdur.

Kənd təsərrüfatında xammal istehsalının azalması, emal müəssisələrinin də fəaliyyətinə təsirsiz ötüşməmişdir. Belə ki, 1990-cı illə müqayisədə 1994-cü ildə üzüm şərabı istehsalı 9,2 mln. dkl, konyak istehsalı 1.8 mln dkl, şampan şərabı istehsalı 16,4 mln şüşə, araq istehsalı 1,7 mln. dkl, pambıq lifi istehsalı 109,7 min ton, meyvə-tərəvəz konservləri 460,8 mln şüşə, fermentləşdirilmiş tütün istehsalı 35 min ton, siqaret istehsalı isə 4,5 min ton azalmışdır. Ümumiyyətlə, bütün bunlar kənd təsərrüfatında əvvəlki təsərrüfatçılıq formalarının səmərəsiz olmasını bir daha sübut edirdi. Məhz belə bir şəraitdə ulu öndər Heydər Əliyev cənablarının hakimiyyətə qayıdışı, ilk növbədə müharibə şəraitində yaşayan Azərbaycan Respublikasında siyasi sabitliyin təmin edilməsində, vətəndaş sülhünün bərqərar olmasında əhəmiyyətli rol oynadı. Bundan əlavə, Dağlıq Qarabağda əldə edilən uzunmüddətli atəşkəs, iqtisadiyyatda islahatların aparılması üçün əlverişli mühit yaratdı. Eyni zamanda respublikamızın beynəlxalq münasibətlər sisteminə inteqrasiya prosesinin həyata keçirilməsi, eləcə də 1994-cü ildə “Əsrin müqaviləsi” neft kontraktlarının imzalanması nəticəsində ölkə iqtisadiyyatına irimiqyaslı investisiya axınının təmin edilməsinə başlanıldı. Məhz belə bir şəraitdə ölkədə iqtisadi islahatlar, ilk növbədə kənd təsərrüfatından başlanıldı. Kənd təsərrüfatında islahatların keçirilməsi ilə bağlı 1995-ci ildə aqrar islahatın əsasları, kolxoz və sovxozların islahatı haqqında Azərbaycan Respublikası Qanunu qəbul edildi. 1997-ci ildə torpaq islahatı haqqında Azərbaycan Respublikası qanununun qəbul edilməsi ilə kənd təsərrüfatında çoxukladlı iqtisadiyyatın formalaşdırılmasına bilavasitə əlverişli şərait yaradıldı. Məhz həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatında çoxukladlı iqtisadiyyatın formalaşdırılmasına, müxtəlif mülkiyyət mənsublu təsərrüfat formalarının yaradılmasına və bütövlükdə kənd təsərrüfatının bazar münasibətləri əsasında inkişaf etdirilməsinə gətirib çıxarmaqla aqrar sahədə iqtisadi böhranın dayandırılmasında önəmli rol oynadı. Ümumiyyətlə, 1995-ci ildən etibarən həyata keçirilən aqrar islahatlar nəticəsində, bütövlükdə kənd təsərrüfatında azad rəqabətə əsaslanan təsərrüfat subyektlərinin formalaşmasının əsası qoyuldu, bu da ilk növbədə ərzaq bazarına da əhəmiyyətli dərəcədə təsir göstərdi.

Aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, bütövlükdə kənd təsərrüfatında ümumi məhsul istehsalının artımı özünü büruzə vermişdir. Təbii ki, bütün bunlar, ilk növbədə aqrar islahatın sosial-iqtisadi nailiyyəti kimi xarakterizə olunmalıdır.

Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında 1995-2000-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalı 2,1 dəfə, bitkiçilik məhsulları 2,7 dəfə, heyvandarlıq məhsulları 70%, 2000-2005-ci illərdə müvafiq olaraq 60%; 62%; 57% artmışdır. 2005-2010-cu illərdə fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının artım səviyyəsi 2,2 dəfə, bitkiçilik məhsullarının artım səviyyəsi 2 dəfə, heyvandarlıq məhsulları istehsalının artım səviyyəsi isə 2,5 dəfə olmuşdur. Göründüyü kimi, 2005-2010-cu illərdə kənd təsərrüfatı müəssisələri və s. təşkilatlarda iqtisadi artımın səviyyəsi daha yüksəkdir.

Aparılan araşdırmalar göstərir ki, aqrar islahatlar, son nəticədə kənd təsərrüfatında ayrı-ayrı sahələrin inkişafına da əlverişli şərait yaratmış, məhsul istehsalının artımını təmin etmişdir. Kənd təsərrüfatında məhsul istehsalının artırılmasını şərtləndirən ən mühüm cəhət bazar münasibətləri şəraitində xüsusi mülkiyyətə üstünlük verilməsi ilə bağlı olmuşdur. Xüsusi mülkiyyətə əsaslanan təsərrüfat subyektlərində məhsul istehsalının artırılması üçün özəl stimullar mövcud olur. Bu isə, ilk növbədə məhsul istehsalı, gəlirin bölüşdürülməsi və satış kanallarının seçilməsi ilə bağlı onların iqtisadi sərbəstliyini özündə əks etdirir.

Kənd təsərrüfatında məhsul istehsalının dinamikası aşağıdakı cədvəldə öz əksini tapmışdır.

*Cədvəl 1*

**Kənd təsərrüfatı bitkilərinin ümumi yığımı**

| | 2000 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2009-cu illə müqayisədə 2010-cu ildə % |
|---|---|---|---|---|---|---|---|
| Taxıl: | | | | | | | |
| İlkin çəkidə | 1540.2 | 2078,9 | 2004.4 | 2498,3 | 2988,3 | 2 000,5 | 67,0 |
| Pambıq | 91.5 | 130,1 | 100.1 | 55,4 | 31,9 | 38,2 | 119,7 |
| Tütün | 17.3 | 4,8 | 2.9 | 2,5 | 2,6 | 3,2 | 123,1 |
| Kartof | 469 | 999,3 | 1037.3 | 1077,1 | 983,0 | 953,7 | 97,0 |
| Tərəvəz | 780.8 | 1186,4 | 1227.3 | 1228,3 | 1178,6 | 1 189,5 | 100,9 |
| Bostan məhsulları | 261 | 362,1 | 417.6 | 407,7 | 410,8 | 433,6 | 105,6 |
| Üzüm | 76.9 | 94,1 | 103.4 | 115,8 | 129,2 | 129,5 | 100,2 |
| Meyvə və giləmeyvə | 477 | 625,7 | 677.8 | 712,8 | 718,2 | 729,5 | 101,6 |
| Yaşıl çay yarpağı | 1.1 | 0,7 | 0.48 | 0,3 | 0,4 | 0,5 | 125,0 |

**Cədvəl Azərbaycan kənd təsərrüfatı 2011-in məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəldən göründüyü kimi, 2009-cu illə müqayisədə 2010-cu ildə pambıq məhsulları istehsalı 19,7%, tütün məhsulları istehsalı 23,1%, tərəvəz məhsulları istehsalı 0,9%, bostan məhsulları istehsalı 5,6%, üzüm istehsalı 0,2%, meyvə-giləmeyvə istehsalı 1,6%, çay yarpağı istehsalı 25% artmışdır. Müqayisə olunan dövrdə kartof istehsalı 8,7%, tərəvəz istehsalı 4%, pambıq istehsalı 42,4% azalmışdır.

2009-cu illə müqayisədə 2010-cu ildə taxıl istehsalı 33%, kartof istehsalı 3% azalmışdır.

Qeyd etmək lazımdır ki, müqayisə olunan dövrdə pambıq və tütün istehsalının aşağı düşməsi bilavasitə əkin sahəsinin azalması hesabına baş vermişdir. Bununsa başlıca səbəbi onunla bağlıdır ki, emal müəssisələri pambıq, tütün və çay yarpağını ucuz qiymətə tədarük etdiyindən kənd təsərrüfatı xammalı istehsalçıları adı çəkilən məhsulları istehsal etməyə maraqlı olmurlar.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatında məhsul istehsalının artırılması, ilk növbədə aqrar islahatların müsbət nəticələri ilə sıx bağlıdır. Bu baxımdan aqrar islahatların həyata keçirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsi, heyvandarlığın inkişafına da bilavasitə təsir göstərmişdir. Heyvandarlıq məhsulları istehsalının artırılması, ilk növbədə heyvanların baş sayının artımı ilə sıx bağlı olmuşdur. Heyvandarlıq məhsulları istehsalının dinamikası aşağıdakı cədvəldə öz əksini tapmışdır.

*Cədvəl 2*

**Əsas heyvandarlıq məhsullarının istehsalı**

| | 2000 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2009-cu illə müqayisədə 2010-cu ildə % |
|---|---|---|---|---|---|---|---|
| Mal-qara və quş əti (kəsilmiş çəkidə) | 108.7 | 155,6 | 170,6 | 175,7 | 237,1 | 253,8 | 107,0 |
| Süd | 1031.1 | 1299,5 | 1341,3 | 1381,6 | 1433,1 | 1536,2 | 107,2 |
| Yumurta, milyon ədəd | 542.6 | 760,9 | 953,6 | 1101,2 | 1209,4 | 1178,6 | 97,5 |
| Yun (fiziki çəkidə) | 10.9 | 13,6 | 14,2 | 14,8 | 15,3 | 15,6 | 102,0 |

**Cədvəl Azərbaycan kənd təsərrüfatı 2011-in məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Mal-qaranın baş sayının artımı heyvandarlıq məhsulları istehsalının artımını şərtləndirmiş, 2010-cu ildə 253,8 min ton ət, 1536,2 min ton süd, 1178,6 mln. ədəd yumurta, 15,6 min ton yun istehsal olunmuşdur. 2009-cu illə müqayisədə ət istehsalı 7%, süd 7,2%, yun 2% artmışdır. Müqayisə olunan dövrdə yumurta istehsalı 2,5% azalmışdır. Bütün təsərrüfat kateqoriyaları üzrə heyvandarlıqda məhsuldarlıq səviyyəsinin təhlili göstərir ki, istehsal artımı əsas etibarı ilə mal-qara və quşların baş sayının artması hesabına əldə edilmişdir. Belə ki, 2010-cu ildə hər baş inək və camışdan 1131 kq süd, hər qoyundan 2 kq yun, kənd təsərrüfatı müəssisələrində toyuqların orta illik yumurta verimi 194 ədəd əldə edilmişdir ki, bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 1,6%; 5,3%; 1,5% çoxdur.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatında məhsul istehsalının artırılmasında ən mühüm cəhət məhsuldarlığın artırılması olmalıdır. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpaq resurslarının həcmi məhduddur və bu baxımdan torpaq resurslarından səmərəli istifadə edilməlidir. İstehsal potensialının mühüm elementi kimi torpaq resurslarından səmərəli istifadə edilməsi, ilk növbədə kənd təsərrüfatında məhsuldarlığın artırılması, istehsalın intensivləşdirilməsi ilə sıx əlaqədardır. Bu baxımdan kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin dinamikası aşağıdakı cədvəldə öz əksini tapmışdır.

***Cədvəl 3***

***Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı, hektardan sentner***

| Məhsullar | İllər | | | | | | | 2009-cu illə müqayisədə 2010-cu ildə %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | |
| Dənli bitkilər | 15,1 | 23,8 | 26,5 | 27,1 | 27,9 | 26,6 | 20,7 | 77,8 |
| Pambıq | 13,0 | 9,1 | 17,5 | 13,0 | 11,5 | 15,5 | 12,7 | 81,9 |
| Tütün | 14,6 | 22,2 | 25,7 | 22,5 | 23,3 | 21,7 | 24,0 | 110,6 |
| Kartof | 97 | 84 | 149 | 150 | 153 | 149 | 145 | 97,3 |
| Tərəvəz | 157 | 133 | 140 | 139 | 142 | 140 | 142 | 101,4 |
| Bostan məhsulları | 73 | 98 | 121 | 129 | 129 | 132 | 137 | 103,8 |
| Üzüm | 32,6 | 35,8 | 61,8 | 83,6 | 74,0 | 74,7 | 74,7 | 100,0 |
| Meyvə və giləmeyvə | 31,2 | 61,9 | 73,9 | 71,9 | 73,4 | 71,9 | 70,6 | 98,2 |
| Çay yarpağı | 10,3 | 2,0 | 2,5 | 2,8 | 3,2 | 5,7 | 9,4 | 164,9 |

**Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Müqayisə olunan dövrdə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığında da nəzərəçarpacaq dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, 2009-cu illə müqayisədə 2010-cu ildə tütünün məhsuldarlığı 10,6%, tərəvəzin məhsuldarlığı 1,4%, bostan məhsulları 3,8%, çay yarpağının məhsuldarlığı 64,9% artmışdır. Dənli bitkilərin məhsuldarlığı 22,2%, pambığın məhsuldarlığı 18,1%, kartofun məhsuldarlığı 2,7%, meyvə-giləmeyvənin məhsuldarlığı 1,8% azalmışdır.

Bütün təsərrüfat kateqoriyaları üzrə heyvandarlıqda məhsuldarlıq səviyyəsinin təhlili göstərir ki, istehsal artımı əsas etibarı ilə mal-qara və quşların baş sayının artması hesabına əldə edilmişdir. Belə ki, 2010-cu ildə hər baş inək və camışdan 1131 kq süd, hər qoyundan 2 kq yun, kənd təsərrüfatı müəssisələrində toyuqların orta illik yumurta verimi 194 ədəd əldə edilmişdir ki, bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 1,6%; 5,3%; 1,5% çoxdur.

Aparılan araşdırmalardan belə qənaətə gəlmək mümkündür ki, kənd təsərrüfatında məhsul istehsalının artımı müşahidə edilsə də lakin, bütövlükdə ötən dövr ərzində kənd təsərrüfatında məhsuldarlığın səviyyəsində gözlənilən müsbət nəticələr əldə edilməmişdir. Kənd təsərrüfatında

məhsul istehsalının artırılması, əksər hallarda torpaq resurslarının əlavə dövriyyəyə cəlb edilməsi baş vermişdir. Təbii ki, kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpaq resurslarının səmərəli istifadə edilməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin başlıca şərti kimi çıxış edir.

Kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin yüksəldilməsi, ilk növbədə istehsalın intensivləşdirilməsi ilə sıx əlaqədardır. İstehsalın intensivləşdirilməsi isə investisiya qoyuluşlarının artımından bilavasitə asılıdır. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında yeni yaradılan sahibkarlıq qurumlarının daxili imkanları hesabına istehsalın intensivləşdirilməsinə istiqamətlənmiş tədbirləri həyata keçirmək, o cümlədən investisiya proseslərini reallaşdırmaq mümkün deyildir.

Aparılan araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə kənd təsərrüfatının sənaye üsuluna keçməsi halları tətbiq edilmişdir. Bundan əlavə, inkişaf etmiş ölkələrdə kənd təsərrüfatında məşğul olan əmtəə istehsalçılarının sərəncamında olan torpaq sahələrinin həcmi kifayət qədər yüksəkdir. Bu ilk növbədə iri təsərrüfatların fəaliyyət göstərməsi ilə də sıx bağlıdır. Onu da nəzərə almaq lazımdır ki, respublikamızın iqtisadi xüsusiyyətləri baxımından kənd təsərrüfatına yararlı torpaqların həcminin az olması nəticədə fəaliyyət göstərən əmtəə istehsalçılarının sərəncamında torpaq sahəsinin yetərincə olmamasına gətirib çıxarır. Məhz belə bir şəraitdə iri əmtəəlik təsərrüfatların yaradılmasına xüsusi diqqət yetirilməlidir. Kənd təsərrüfatında iri əmtəəlik təsərrüfatların yaradılması, ilk növbədə istehsalın intensivləşdirilməsinə əlverişli şərait yarada bilər və təbii ki, məhz belə bir şəraitdə kənd təsərrüfatında aqrotexniki tədbirləri vaxtında həyata keçirmək mümkün ola bilər. Bundan əlavə, kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehsalçılarının sərəncamında torpaq sahələrinin məhdudluğu son nəticədə həm aqrotexniki tədbirləri vaxtında yerinə yetirməyə imkan vermir, həm də növbəli əkin sistemini tətbiq etmək imkanları məhdudlaşır.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatında struktur dəyişikliklərinin həyata keçirilməsi, ilk növbədə məhsulun maya dəyərinə və təsərrüfat fəaliyyətinin iqtisadi nəticələrinə də əhəmiyyətli dərəcədə təsir göstərir. Qeyd etmək lazımdır ki, məhsulun maya dəyərinə, daha doğrusu, hər məhsul vahidinə çəkilən xərclərin səviyyəsinin aşağı salınması, son nəticədə ərzaq bazarında qiymətlərin səviyyəsinin sabitləşməsinin başlıca ilkin şərti kimi çıxış edir. Odur ki, kənd təsərrüfatında məhsulun maya dəyərinin aşağı salınmasına istiqamətlənmiş tədbirlərə xüsusi diqqət yetirilməlidir.

Belə ki, 2000-ci illə müqayisədə 2010-cu ildə tütünün 1 sentnerinin maya dəyəri 31%, yun 6% aşağı düşmüşdür. Lakin bununla belə müqayisə olunan dövrdə dənli bitkilərin 1 sentnerinin maya dəyəri 68%, xam pambıq 40%, şəkər çuğunduru 47%, kartof 2,3 dəfə, yaşıl çay yarpağı 3 dəfə, tərəvəz 96%, bostan məhsulları 2,4 dəfə, meyvə və giləmeyvə 4,2 dəfə, üzüm 65%, mal əti 38%, qoyun əti 2 dəfə, süd 33%, yumurta 85% artmışdır.

Qeyd etmək lazımdır ki, əsas növ kənd təsərrüfatı məhsullarının maya dəyərinin aşağı düşməsinə təsir edən amillər içərisində «Aqrar sahədə islahatların sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999-cu il tarixli fərmanında kənd təsərrüfatı əmtəə istehsalçılarının torpaq vergisi istisna olmaqla digər vergi növlərindən azad edilməsi mühüm rol oynamışdır.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatının dinamik inkişafının təmin edilməsi, ilk növbədə əmtəə istehsalçılarının maliyyə-təsərrüfat fəaliyyətinin gəlirliyinin artırılmasından bilavasitə asılıdır. Kənd təsərrüfatında maliyyə-təsərrüfat fəaliyyətinin gəlirliyinin artırılması isə, ilk növbədə sahədə geniş təkrar istehsal prosesinin uğurla həyata keçirilməsi üçün əlverişli şərait yaradır.

Kənd təsərrüfatında məhsul istehsalının artırılması, əmtəə istehsalçılarının maliyyə-təsərrüfat fəaliyyətinin gəlirlərinin artırılması, ilk növbədə istehsal infrastrukturunun yenidən qurulmasından da bilavasitə asılıdır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında istehsal infrastrukturları, o cümlədən yanacaq, su, elektrik enerjisinə olan tələbatın ödənilməsində həllini gözləyən problemlər

mövcuddur. Belə ki, kənd təsərrüfatında kommunikasiya sisteminin müasir tələblərə cavab verməməsi, son nəticədə əmtəə istehsalçılarının geniş təkrar istehsal rejimində işləmək imkanlarını məhdudlaşdırır.

Məlum həqiqətdir ki, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi üçün zəruri şərtlərdən biri əmtəə istehsalçılarının əkin suyuna olan tələbatının ödənilməsi ilə sıx bağlıdır. Bundan əlavə, əkin suyunun keyfiyyətinin yaxşılaşdırılması, eləcə də sudan səmərəli istifadə edilməsi, habelə torpaqların münbitliyinin artırılması üçün şoran torpaqların yuyulmasının mühüm əhəmiyyəti vardır.

Qeyd etmək lazımdır ki, keçmiş sovetlər dönəmində torpaqların meliorasiyası və irriqasiyası istiqamətində mühüm tədbirlər həyata keçirilirdi və bu da son nəticədə məhsuldarlığın səviyyəsinin yüksəlməsinə və məhsul istehsalının artırılmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Lakin keçmiş sovetlər birliyinin dağılması fonunda meliorasiya sisteminə ayrılan vəsaitlərin həcminin azalması, son nəticədə torpaqların şoranlaşmasına da gətirib çıxarmışdır. Respublikamızın vahid torpaq fondunun təxminən 3.5 mln hektarı bu və ya digər dərəcədə eroziyaya məruz qalmış, 1.4 mln hektar suvarılan düzən torpağın 661,9 min hektarı şoranlaşmaya, 482 min hektarı isə şorakətləşməyə məruz qalmışdır. Belə ki, kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin yüksəldilməsi üçün, ilk növbədə torpaqların münbitliyinin artırılmasına xüsusi diqqət yetirilməlidir. Torpaqların meliorasiyasına və irriqasiyasına yönəldilən vəsaitin artırılması, bu baxımdan torpaqların münbitliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi, sonunda məhsuldarlığın səviyyəsinin artmasına əlverişli şərait yarada bilər. Təsadüfi deyildir ki, hal-hazırda kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi, əsas növ məhsullar üzrə təxminən 2-2,5 dəfəyə qədər fərqdən ibarətdir. Belə ki, kənd təsərrüfatında faktiki məhsuldarlıq, potensial məhsuldarlıqdan 2,5 dəfəyə qədər geri qalır. Kənd təsərrüfatında faktiki məhsuldarlığın səviyyəsinin yüksəldilməsi üçün zəruri tədbirlər həyata keçirilməli və bütün bunlar ərzaq məhsullarına olan tələbatın ödənilməsində, o cümlədən ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin ödənilməsində əhəmiyyətli vasitələrdən biri sayılır.

Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatını yalnız məhsul istehsalı həyata keçirən bir sahə kimi səciyyələndirmək düzgün deyildir. Kənd təsərrüfatı çoxfunksiyalı bir sistemdir.

Kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi üçün, ilk növbədə toxumçuluğun və damazlıq təsərrüfatlarının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında toxumçuluğun rolu, ilk növbədə bitki sortlarının rayonlaşdırılması ilə sıx əlaqədardır. Bundan əlavə, elmi araşdırmalar nəticəsində belə qənaətə gəlmək mümkündür ki, toxumçuluq sistemində yetişdirilmiş yüksək keyfiyyətli toxumlarla səpin aparılarkən aqrotexniki tədbirlərə düzgün əməl edilməsi də vacib şərtlərdən biridir. Aqrotexniki tədbirlərə düzgün və vaxtında əməl edilməsi hesabına kənd təsərrüfatında məhsuldarlığın səviyyəsini təxminən 30-35%-ə qədər yüksəltmək mümkündür.

Aparılan islahatlar nəticəsində kənd təsərrüfatında toxumçuluq təsərrüfatları və damazlıq təsərrüfatları dövlət mülkiyyətində saxlanılmışdır. Lakin bütün bunlara baxmayaraq dövlət kənd təsərrüfatı müəssisələrinin fəaliyyətində də kifayət qədər səmərəli tendensiya müşahidə olunmur. Belə ki, həmin təsərrüfatlarda məhsuldarlığın səviyyəsi, əslində özəl təsərrüfatlardakı məhsuldarlıq səviyyəsindən o qədər də fərqlənmir. Bu baxımdan özəl damazlıq təsərrüfatlarının yaradılmasına da xüsusi diqqət yetirilməlidir.

Kənd təsərrüfatında, o cümlədən taxılçılıqda məhsuldarlığın səviyyəsinin aşağı olması, eyni zamanda toxumçuluğun səviyyəsinin aşağı olması ilə də sıx bağlıdır. Təkcə bir faktı qeyd etmək lazımdır ki, Şərqi Avropa ölkələrində, o cümlədən Polşada, Macarıstanda və Çexiyada hal-hazırda

hər hektardan 50 sentnerə qədər məhsul əldə edilir.

Kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətinin gəlirliyinin yüksəldilməsi, ilk növbədə onların maddi-texniki bazasının yaxşılaşdırılmasından da bilavasitə asılıdır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında maddi-texniki resurslara olan tələbatın ödənilməsi, son nəticədə maliyyə fəaliyyətinin gəlirlərinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Bundan əlavə, kənd təsərrüfatında innovasiyalı istehsal prosesinin qorunması üçün də maddi-texniki bazanın yaxşılaşdırılması vacib şərtlərdən biridir. Kənd təsərrüfatında innovasiyalı məhsul istehsalının həyata keçirilməsi hazırda qarşıda duran ən mühüm vəzifələrdən biridir. İnnovasiyalı məhsul istehsalının həyata keçirilməsi hesabına istehsalın intensivləşdirilməsini təmin etmək, eləcə də aqrotexniki tədbirləri optimal zaman kəsiyində və səmərəli şəkildə həyata keçirmək mümkün ola bilər. Təhlil göstərir ki, respublikamız hal-hazırda Şərqi Avropa ölkələri ilə, eləcə də inkişaf etmiş ölkələr ilə müqayisədə kənd təsərrüfatında elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqi baxımından kifayət qədər geridə qalır. Məhz bunun nəticəsidir ki, respublikamızın kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi inkişaf etmiş ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır. Bu isə kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi imkanlarını əngəlləyir.

Yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatında məhsul istehsalının dinamik şəkildə artırılması, eləcə də kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin yüksəldilməsi ilə bağlı mövcud problemləri kənd təsərrüfatı əmtəə istehsalçıları daxili imkanları hesabına həll etmək iqtidarında deyildir. Bu baxımdan kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə xüsusi diqqət yetirmək lazımdır. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi, eyni zamanda qlobal maliyyə böhranının təzahürlərinin effektiv şəkildə neytrallaşdırılması ilə də sıx bağlıdır. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi qloballaşma prosesinin doğurduğu təzahürləri aradan qaldıra bilər. Qeyd etmək lazımdır ki, qlobal proseslər, ilk növbədə iqtisadiyyatın liberallaşdırılması və idxal edilən əmtəələrin daxili bazarda mövqeyinin hələ də yetərli qalması, son nəticədə respublikamızın beynəlxalq ərzaq bazarı konyunkturundan asılılığını dərinləşdirir. Məhz bu baxımdan kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə xüsusi diqqət yetirmək vacibdir.

Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi, ilk növbədə aqrar siyasətin prioritetini təşkil etməlidir. Aqrar siyasətdə qeyri-bazar tənzimləmə metodlarından istifadə hesabına, ilk növbədə kənd təsərrüfatı əmtəə istehsalçılarının kapital resurslarına olan ehtiyaclarının ödənilməsi, eləcə də əmtəə istehsalçılarına dövlət yardımlarının göstərilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında əmtəə istehsalçılarına dövlət yardımlarının göstərilməsi ilə bağlı 2007-ci ildən etibarən kifayət qədər uğurlu bir praktika formalaşmışdır. Lakin bununla belə, kənd təsərrüfatında dövlət yardımlarının diferensiallaşdırılmasına da ehtiyac vardır və bütün bunlar müasir dövrdə kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsini obyektiv zərurətə çevirir.

## Ədəbiyyat


1. Шершнев Е.Н. Государственные программы США по защите сельскохозяйственных ресурсов. // АБШ: политика, экономика, идеология. 1998. № 7. с.111-121.
2. Холод Л. И. Регулирование аграрного рынка в Польше // Экономист. 1996, №3, с.91-94.
3. Чаянов А.В. Крестьянское хозяйство. Москва: "Экономика", 1989.
4. Попов Н.А. Основы рыночной агроэкономики и сельского предпринимательства. Москва-2001, 352 с.

***Ш.О.Сафаров***

**Резюме**

Следует отметить, что регулирование экономических отношений в сельском хозяйстве, сельскохозяйственная политика в первую очередь должна быть приоритетом. Аграрная политика за счет нерыночных методов регулирования, в первую очередь сельскохозяйственных товаропроизводителей для удовлетворения потребностей в капитальных ресурсов, а также товаропроизводителей в оказании помощи, необходимой для осуществления необходимых мер.

***Ключевые слова. нерыночные методы регулирования, формы владения бизнесом. инновационные продукты, разрушительных тенденций.***

***Sh.O.Safarov***

**Summary**

It should be noted that the regulation of economic relations in agriculture, agricultural policy in the first place should be a priority. Agrarian politics at the expense of non-market regulatory methods, first of all agricultural commodity producers to meet the needs of capital resources, as well as commodity producers to provide the assistance needed to implement the necessary measures.

***Key words: non-market regulatory methods, forms of business ownership. innovative products, destructive tendencies.***

**УДК 338.4**

*Мехрибан ГАСАНОВА*
*диссертант Азербайджанского Государственного*
*Аграрного Университета*

# МЕСТО КООПЕРАЦИИ И ИНТЕГРАЦИИ СРЕДИ ФАКТОРОВ РАЗВИТИЯ АГРОПРОМЫШЛЕННОГО ПРОИЗВОДСТВА

**Резюме**

В статье рассматриваются факторы, влияющие на развитие агропромышленного производства и определяется место кооперации и интеграции среди этих факторов. Выявлены дополнительные возможности повышения эффективности агропромышленного производства, которые создаются при оптимальном сочетании кооперации и интеграции.

***Ключевые слова: кооперация, интеграция, специализация, концентрация производства, спрос, обеспеченность ресурсами, агропромышленное производство.***

***

Уровень агропромышленного производства в значительной мере определяют пять следующих факторов.

Спрос, которым определяется объем предложения агропромышленной продукции. Уровень спроса формируется, с одной стороны, потребностями людей в продуктах питания, а с другой – их покупательной способностью. По большинству видов продуктов питания потребности больше, чем покупательная способность. Поэтому спрос в настоящее время определяется, главным образом, уровнем и структурой доходов населения. Причем на уменьшение спроса влияет как сокращение доходов потенциальных покупателей, так и увеличение в структуре доходов населения доли продукции, полученной в личных подсобных хозяйствах [1].

Доходы домохозяйств на одного человека в Азербайджане в 2011 год по сравнению с 2005 годом увеличились в более чем 3 раза с 50,4 маната до 166 манат. Это способствует увеличению спроса на аграрную продукцию. В то же время в структуре доходов населения увеличилась доля продукции полученной в личных подсобных хозяйствах с 9,4 маната на одного человека в 2005 году до 23,3 в 2011 году [5]. А это способствует уменьшению спроса на аграрную продукцию

Следующий фактор обеспеченность ресурсами агропромышленного производства. Оно характеризует, прежде всего, потенциальные возможности производства, степень реализации которых зависит от состояния остальных четырех факторов. Под ресурсообеспеченностью аграрной отрасли мы понимаем наличие и качественное состояние всех видов производственных ресурсов, включая рабочую силу, землю, основные и оборотные фонды, технологические знания и навыки.

Обеспеченность аграрной отрасли основными фондами хотя в последние пять лет улучшилось, но все равно ниже чем в отраслях промышленности. В 2005 году на 1000 га посевов приходилось 11,9 тракторов, а в 2011 году 13,3 тракторов; хлопкоуборочных комбайнов соответственно 0,2 и 0,9 [5].

Предполагается, что возможно изменить ресурсообеспеченность до оптимального уровня. На практике же изменить количество ресурсов, которыми располагает предприятие, достаточно быстро нельзя. Кроме того, изменение структуры используемых ресурсов всегда связано с существенными затратами (если ресурсы приобретаются) и экономическими потерями (если ресурсы продаются). Поэтому доходы предприятия зависят в первую очередь от того, как используются имеющиеся ресурсы.

Интерес как позитивный экономический фактор развития агропромышленного производства действует только, если у коллектива или отдельного человека имеются одновременно возможности и желания достичь поставленных им целей посредством полезной обществу деятельности. Возможности по отношению к желаниям чаще всего выступают первичными. Так как обеспечение исполнения желания зависит от того какими возможностями мы для этого обладаем [1]. К сожалению, в сельскохозяйственном производстве текущие возможности значительно меньше, чем в других отраслях и это соотношение по мере развития стихийного рынка ухудшается. Как правило, среднемесячная начисленная заработная плата в сельском хозяйстве намного ниже, чем в промышленности, что не способствует росту интереса в аграрном производстве. По данным официальной статистики в Азербайджане среднемесячная заработная плата одного работника занятого в сельском хозяйстве в 2011 году составила 196,5 манат, в перерабатывающей промышленности 345,7 манат, в торговле 335,1 манат, а в строительстве 519 манат [5]. Как видим среднемесячная заработная плата в сельском хозяйстве намного ниже, чем в других отраслях экономики.

Основной причиной различий в уровне оплаты труда является распределение доходов между отраслями в соответствии с рыночным положением предприятий, их представляющих. Многочисленность и разобщенность сельхозтоваропроизводителей ставит их в заведомо худшее положение по сравнению с крупными промышленными предприятиями, что выражается в недоплате за сельскохозяйственную продукцию.

По той же причине занижается вклад сельскохозяйственного производства в создание внутреннего продукта, поскольку стоимость произведенной продукции оценивается в рыночных ценах. Так удельный вес сельского хозяйства в ВВП страны в 2011 году составила 5,3 %, в то время как удельный вес промышленной продукции в ВВП в том же году составил 54,6%, строительства – 8,2% , а транспорта и связи – 6,6% [5].

Таким образом, при стихийном рынке возникает парадоксальная ситуация: сельскохозяйственный товаропроизводитель, без продукции которого общество не может просуществовать, оказывается в наихудшем экономическом положении. Отсюда с неизбежностью следует вывод: в эпоху господства промышленных, энергетических и транспортных монополий сельское хозяйство не способно работать на самофинансировании без государственного регулирования рынка и эффективного взаимодействия хозяйствующих субъектов, входящих в состав аграрной отрасли.

Государственное регулирование продовольственного рынка призвано решить две основные задачи. Во-первых, создать условия для поддержания приемлемого уровня доходов сельскохозяйственных товаропроизводителей как наименее защищенных субъектов агропродовольственной системы. Во-вторых, обеспечить потребителей доступным по цене, высококачественным и безопасным для здоровья продовольствием в соответствии с научно обоснованными потребностями [2].

Кооперация и интеграция в аграрной отрасли – это фактор, формируемый преимущественно в среде участников агропромышленного производства. Его содержание и созидательная сила в наибольшей степени зависит от усилий конкретных лиц, начиная от рядовых владельцев земельных долей и заканчивая крупными земельными и имущественными собственниками.

Несмотря на различную природу и принципы, кооперацию и интеграцию объединяет то, что эти явления возможны только при взаимодействии людей. Как известно, эффект взаимодействия или корпоративный эффект достигается за счет объединения интересов партнеров и совместных согласованных действий, объединенных единым планом. Эффект взаимодействия может быть получен с помощью как интеграции, так и кооперации [3].

Кооперация и интеграция наиболее быстро развиваются именно в среде специализиро-

ванных предприятий. Специализация экономически оправдана, если товар, ради производства которого создается и развивается предприятие, нужен обществу и, стало быть, в обмен на этот товар собственники предприятия получат от общества адекватно высокую плату. Высокая доходность, в свою очередь, обостряет конкуренцию предложения.

Поэтому состояние рынка, на котором действует большое число мелких специализированных товаропроизводителей, неустойчиво. С неизбежностью наступает экономический порядок, при котором они становятся либо подчиненными элементами интегрированных формирований или участниками кооперированных структур, либо крупными операторами рынка. В последнем случае предприятие достигает доминирующего положения путем внутреннего роста или посредством поглощения, подчинения аналогичных предприятий.

Для интегратора в равной степени могут представлять интерес предприятия одной отрасли и относящиеся к различным отраслям, но дополняющие друг друга, и даже совершенно не связанные между собой специализированные предприятия.

Привлекательность специализированных предприятий как объектов для интеграции или кооперации определяется следующими их качествами:

- высокая конкурентоспособность продукции, обусловленная добротным качеством продукции и низкой себестоимостью;
- достаточная обеспеченность специалистами;
- отлаженная технология и стремление к ее совершенствованию.

Интеграция и кооперация позволяет сгладить, а иногда и полностью устранить недостатки, присущие мелким специализированным предприятиям, а именно:

- повышенный коммерческий риск, обусловленный отсутствием диверсификации;
- уязвимое рыночное положение в связи с контролем незначительной доли рынка;
- периодически возникающий дефицит инвестиционных ресурсов [4].

Развитие специализации на базе кооперации и интеграции сопровождается концентрацией производственных ресурсов. Концентрация выражается в увеличении количества производственных ресурсов - земли, капитала, рабочей силы, находящихся под управлением коммерческой организации.

Концентрация ресурсов создает предпосылки для получения эффекта масштаба производства и корпоративного эффекта.

Таким образом, специализация производства, концентрация ресурсов, кооперация и интеграция товаропроизводителей находятся в тесной взаимосвязи и составляют комплекс организационно-экономических мер, способствующих росту эффективности производства и повышению конкурентоспособности агропромышленного производства.

При этом специализация и концентрация в равной степени важны для развития кооперативных и интегрированных структур.

Дополнительные возможности для повышения эффективности создаются при оптимальном сочетании кооперации и интеграции. В дополнение к интенсивно протекающим интеграционным процессам желательно иметь адекватное развитие кооперации. На то есть две причины.

Во-первых, без межхозяйственной кооперации предприятий, не вошедших в интегрированные структуры, нельзя добиться существенного улучшения условий реализации производимой ими продукции. Кооперированные хозяйства должны стать противовесом, демонополизирующим рынок сельскохозяйственной продукции.

Во-вторых, в большинстве интегрированных агропромышленных формирований сохраняется практика эксплуатации сельскохозяйственного труда. Сельскохозяйственные подразделения и организации финансируются по остаточному принципу, получаемые доходы распределяются по усмотрению основных собственников. В результате у сельскохозяйствен-

ных работников и отсутствует мотивация к эффективной деятельности. Следовательно, кооперация имеет перспективы как система внутрихозяйственных отношений применительно к наиболее прогрессивным интегрированным структурам.

Агропромышленная интеграция развивается при активном участии инвесторов, располагающих значительными собственными финансовыми ресурсами и возможностями по привлечению заемных инвестиций.

Полноценное участие инвесторов возможно только при условии высокой окупаемости инвестиций. Сельское хозяйство само по себе не является выгодным объектом вложений в силу указанных выше причин. Выгодным объектом является комплекс предприятий, включающий сельскохозяйственные и перерабатывающие организации, связанные в едином технологическом цикле. В 2011 году в экономику страны было вложено 12,7 млрд манат инвестиций из которых в развитие сельского хозяйства было вложено лишь 432,3 милл. манат, что составляет 3,4% [5].

Поэтому интеграция, как одно из проявлений экономической концентрации, выступает необходимым условием привлечения инвестиций в сельское хозяйство.

## Заключение

В статье рассматриваются факторы, влияющие на развитие агропромышленного производства и определяется место кооперации и интеграции среди этих факторов. В результате проведенного исследования я пришла к выводу, что на современном этапе развития аграрной отрасли Азербайджана для дальнейшего развития этой отрасли и увеличения производства конечной продукции аграрной отрасли необходимо укрупнение хозяйств на основе кооперации. А для улучшения системы распределения доходов между отраслями создавать агропромышленные формирования на основе интеграции. Это улучшит инвестиционный климат в отрасли и позволит привлекать инвестиции. Выявлены дополнительные возможности повышения эффективности агропромышленного производства, которые создаются при оптимальном сочетании кооперации и интеграции.

## Литература

1. Минаков И.А. Кооперация и агропромышленная интеграция в АПК.-М.: Колос, 2007. 264 с: (Учебники и учеб. пособия для студентов высш. учеб. заведений).
2. Минаков И.А., Сабетова Л.А. Развитие агропромышленной интеграции в условиях формирования рыночных отношений. Мичуринск: МГСХА, 1999.
3. А.В.Турьянский, В.Л.Аничин. Сельскохозяйственная кооперация и агропромышленная интеграция. Учебное пособие 2-е изд. испр. и доп.-Белгород: Изд-во БелГСХА, 2010.192 с.
4. Минаков И.А. Кооперация и агропромышленная интеграция в АПК.-М.: Колос, 2007.
5. www. stat. gov.az

***M.H.Həsənova***

**Kooperasiya və inteqrasiyanın aqrar-sənaye istehsalının inkişaf amilləri arasında yeri**

## Xülasə

Məqalədə aqrar sənaye istehsalının inkişafına təsir edən amillər araşdırılır və bu amillər arasında kooperasiya və inteqrasiyanın yeri müəyyənləşdirilir. Aqrar sənaye istehsalının səmərəliliyinin artırılmasının əlavə imkanları aşkar edilmişdir. Bu imkanlar kooperasiya və inteqrasiyanın optimal şəkildə uzlaşdırılması nəticəsində mümkündür.

***Açar sözlər: kooperasiya, inteqrasiya, ixtisaslaşma, istehsalın təmərküzləşməsi, tələb, resurs təminatı, aqrar sənaye istehsalı.***

***M.H.Hasanova***

**The role of cooperation and integration in agricultural development of the production**

**Summary**

This article emphasizes the criteria which influence the agricultural development and defines the role of cooperation among these factors. This article outlines additional capabilities of increasing effectiveness of agricultural production which formulates in combination of cooperation and the integration.

***Key words: cooperation, integration, specialization, concentration of the production, demand, provision with recourses, agricultural production.***

**UOT 330.**

***Vüsal Yaqub oğlu ƏLİFOV***
***Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı***

# ƏRZAQ BAZARININ FORMALAŞMASINDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İSTEHSALININ ROLU

**Xülasə**

Məqalədə bazarın mahiyyəti haqqında görkəmli iqtisadçıların fikirləri verilmişdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində ərzaq bazarının rolu araşdırılır. Həmçinin ərzaq bazarının formalaşmasında kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsinin zəruriliyi və yolları, bu sahədə Respublikada mövcud olan problemlər və onların aradan qaldırılmasının vacibliyi təhlil olunur.

***Açar sözlər: ərzaq bazarı, aqrar sahə, ərzaq təhlükəsizliyi, etibarlı təminat, intensiv inkişaf, emal sənayesi, məhsuldarlıq.***

***

Tarixən əmək bölgüsü nəticəsində mübadilənin inkişafı və xüsusi mülkiyyətin yaranması minilliklər ərzində davam etmiş,natural təsərrüfatın bazar münasibətlərinə əsaslanan əmtəə təsərrüfatına çevrilməsinə səbəb olmuşdur. İqtisadi mənada bazar əmtəələrin alınması və satılması ilə bağlı sövdələşmələrin həyata keçirildiyi yerdir. Lakin bazar həm də işçi qüvvəsinin təkrar istehsalında istehsal prosesinin fasiləsizliyinin, istehsalçılarla istehlakçılar arasında etibarlı əlaqənin təmin olunmasında,iqtisadiyyatın bütöv tam halında dünya təsərrüfatı ilə üzvi şəkildə birləşməsində tənzimləyici rol oynayır.

Bazar iqtisadi mahiyyəti haqqında iqtisadçıların müxtəlif baxışları mövcuddur. Belə ki, fransız iqtisadçı-riyaziyyatçı A.Kurnonun fikrincə "bazar" məfhumu kimi hər hansı bir bazar meydanını deyil, bütövlükdə hər hansı rayonu götürmək lazımdır. O hesab edirdi ki, belə ərazidə alıcı və satıcılar daha sərbəst olur, qiymətlər asan tarazlaşır. Beləliklə, A.Kurno bazarda mübadilənin sərbəstliyinə və qiymətin qoyulmasına üstünlük verirdi.

İngilis iqtisadçısı U.Cevons bazarın meyarı kimi alıcı və satıcıların sıxlığını ön plana çəkir və göstərirdi ki, bazar insan qruplarının hər hansı bir məhsula görə daha çox işgüzar münasibətə girdiyi yerdir.

F.Kotliyar bazar münasibətlərinin subyektləri baxımından bazara "alıcıların məcmusu" kimi baxır.

İngilis iqtisadçısı A.Marşall "İqtisadi nəzəriyyənin prinsipləri"əsərində bazarı sıx iş əlaqələrinə girən və istənilən əmtəəyə dair iri müqavilələr bağlayan istənilən insan qruplarının məcmusu adlandırır. O, bazarın meyarı kimi mübadilə və qiymətin sərbəstliyini əsas götürür [3,121-122].

Y.Yakoves bazara "ictimai əmtəənin pul formasında tədavülünün həyata keçirilməsinə kömək edən iqtisadi münasibətlərin cəmi kimi", A.V.Orlov və F.A.Kritikov isə "maddi nemətlərin istehsalı və istehlakı üzrə həmin istehsal üsullarına xas olan iqtisadi münasibətlərin təzahür etdiyi ümumi ictimai məhsulun bir hissəsinin realizə edildiyi sahəsi"kimi tərif verir [4, s.122].

V.İ.Dal və S.İ.Ojeqovun fikrincə bazar pərakəndə satış yeri və əmtəə mübadiləsi məkanı olduğu yerdir. V.V.Gerasimenko göstərir ki, bazar vasitəsilə əmtəə mübadiləsi bazar iqtisadiyyatında iqtisadi münasibətlər sisteminin forması olur [3].

Qərbin tanınmış iqtisadçıları R.Lipsen, P.Stenyiner və D.Pervisin göstərirlər ki, bazar münasibətləri müxtəlif dövrlərdə əmək və maddi vəsaitlərdən səmərəli istifadə edilməsində, inflyasiyanın artmasının , iqtisadi yüksəlişin zəifləməsinin qarşısının alınmasında, dövlət borcları ilə əlaqədar problemlərin həll edilməsində çox böyük rol oynamışdır [6, s.140].

İqtisadi təyinatına görə bazarın növlərindən biri də əmtəələr və xidmətlər bazarıdır. Burada ərzaq bazarı xüsusi yer tutur. Ərzaq bazarı əhalinin ərzağa olan tələbatının etibarlı təmin olunma-

sında mühüm rol oynayır.

İ.Abbasov göstərir ki, əhalinin ərzaqla etibarlı qaydada təmin edilməsi probleminin təkcə mühüm sosial deyil, həmçinin böyük ictimai- siyasi əhəmiyyəti vardır. Çünki hər bir ölkənin ərzaq təhlükəsiziyi milli təhlükəsizliyin vacib tərkib hissəsi olmaqla onun siyasi və iqtisadi müstəqilliyinin möhkəm zəminidir. Əkinçilik və heyvandarlıq məhsullarının istehsalı və istehlakının kifayət qədər yüksək səviyyəsi cəmiyyətin sabitliyini xeyli dərəcədə müəyyən edir, onun dinamik və hərtərəfli inkişafı üçün münbit şərait yaradır [1, s. 35].

Ərzaq təhlükəsizliyinin sosial aspektləri bilavasitə ölkə əhalisinin ödəmə qabiliyyətli tələbinin səviyyəsi ilə şərtlənir. Ərzaq təhlükəsizliyinin sosial aspektləri əhalinin həyat səviyyəsinin yüksəldilməsini nəzərdə tutan dövlətin sosial siyasəti vasitəsilə təmin edilir. Dövlətin sosial siyasətinin bütün dövrlərdə başlıca hədəfi cəmiyyət üzvlərinin yaşayış səviyyəsini yaxşılaşdırmaqdan, onların alıcılıq qabiliyyətinin yüksəldilməsini təmin etməkdən ibarət olmuşdur.

Dövlətin ərzaq təhlükəsizliyinin iqtisadi aspektləri əhalinin ərzaq məhsullarına olan tələbatının təmin edilməsi üçün mövcud daxili imkanların, o cümlədən ölkənin aqrar-sənaye potensialının səfərbər edilməsi imkanları ilə şərtlənir. Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində yerli istehsalın xüsusi çəkisini yüksəltməklə yerli ərzaq məhsullarından istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki idxal edilən məhsulların yüksək qiymətlər hesabına ərzaq bazarına daxil olması nəticəsində əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi əhalinin real gəlirlərinin xərclənməsində ərzaq məhsullarının istehlakına yönəldilən xərclərin həcminin artmasına səbəb olur ki, bu da ərzaq təminatına mənfi təsir göstərir. Ərzaq bazarının təhlükəsizliyinin təmin edilməsində daxili bazarın qorunması mühüm əhəmiyyət kəsb edir. Ərzaq təminatı sistemində daxili bazarın çevik şəkildə qorunmaması isə ölkənin ərzaq idxalından asılılığına səbəb olur.Nəticədə bir sıra hallarda dünya bazarında ərzaq məhsullarının qiymətlərinin artması ölkənin ərzaq bazarına da təsirsiz ötüşmür. Xüsusilə yeyinti məhsullarına olan ehtiyacların ödənilməsində xaricdən gətirilən yeyinti məhsullarının rolu yüksəkdir. Bu isə ərzaq bazarında qiymət tərəddüdlərinin yaranmasına və əhalinin yüksək qiymətə qida məhsulları əldə etməsinə səbəb olur. Respublikamızda bəzi sahələrdə bu cür hallara yol verilmişdir. Belə ki, respublikada alma istehsalı çox olduğuna baxmayaraq kənardan həmin məhsulun gətirilməsinə yol verilir. Nəticədə fermerlər öz məhsullarını sata bilmir,onların yarıdan çoxu xarab olur. Ərzaq təhlükəsizliyinin iqtisadi aspektləri dövlətin daxili bazarın xarici rəqabətin əlverişsiz təsirlərindən qorunmasına və yerli əmtəə istehsalçılarının stimullaşdırılmasına yönəldilmiş səmərəli və çevik iqtisadi siyasəti vasitəsilə təmin edilməlidir.

Ölkənin ərzaq təhlükəsizliyi problemi daxili və xarici mənbədən olan zərərli tendensiyaların təsiri nəticəsində yaranır. Daxili və xarici mənbədən olan zərərli təsirlər ölkənin ərzaq kompleksində destruktiv proseslərə gətirib çıxarır və dövlət paralel olaraq sosial qeyri-stabillik şəraitini yaşayır. Aqrar iqtisadiyyata, o cümlədən ölkənin ərzaq təhlükəsizliyinə zərərli təsir göstərən daxili faktorlar daha çox mənfi təsirə malik olur.

İ.e.d., prof. M.M.Sadıqovun fikrincə "Əhalinin etibarlı ərzaq təminatının başlıca şərtlərindən biri makroiqtisadi sabitliyə əsaslanan davamlı inkişafın əldə olunması və əhalinin gəlirlərinə fizioloji normalara əsaslanan tələbatın ödənilməsini təmin etməsidir" [2, s. 255].

Ölkənin ərzaq təhlükəsizliyi həm siyasi-sosial və həm də makroiqtisadi səciyyə daşıyır və daha çox sosial-iqtisadi inkişafın səviyyəsindən asılıdır. Ölkənin ərzaq təhlükəsizliyi hər nəfərə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı və istehlakı, hər nəfərə düşən gəlirlərin səviyyəsi, bazarda qiymətlərin səviyyəsi ilə bilavasitə əlaqədardır.

Əhalinin ərzaq məhsulları üzrə istehlakının təhlili göstərir ki, ərzaq məhsulları ilə təminat mövcud olan fizioloji normalardan az da olsa kənarlaşma ilə müşahidə olunmuşdur. 2007-2011-ci illər üzrə faktiki istehlakın orta göstəricisi çörək və çörək məhsulları üzrə fizioloji normadan 7%, kartof üzrə 60,3%, tərəvəz və bostan məhsulları üzrə isə 58%, süd məhsulları üzrə 40,9%, ət və

ət məhsulları üzrə 43,4% artıq olmuş, yumurta məhsulu üzrə isə 6% az olmuşdur [5].

Son illərdə Azərbaycanda taxılçılığın inkişafına xüsusi diqqət yetirilmişdir. Əhalini taxıl məhsulları ilə təmin etmək zərurəti suvarılan torpaqlarda dənli bitkilər əkininin əhəmiyyətli dərəcədə genişləndirilməsinə səbəb olmuşdur. Bunun nəticəsində taxıl istehsalının ümumi həcmi 2009-cu ildə 3,0 milyon tona çatdırılmış və sonrakı illərdə də bu tendensiya göstərilən rəqəmin ətrafında saxlanılmışdır.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı yeyinti sənayesinin inkişaf etdirilməsindən də bilavasitə asılıdır. Bu, qida məhsullarına olan tələbatın ödənilməsi deməkdir. Qida məhsulları istehsalının artırılması isə emal müəssisələrinin modelləşdirilməsini tələb edir. Hər nəfərə yeyinti məhsullarının istehsalının artırılması ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə şərait yaradaraq ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Tələblə təklif arasında tarazlığın yaradılması əmtəə bazarında qiymətlərin səviyyəsinin sabitləşdirilməsinin başlıca ilkin şərtidir. Bu baxımdan özünütəminetmə səviyyəsinin yüksəldilməsi ölkənin strateji maraqlarının qorunmasının başlıca göstəricisi kimi şərtlənir. Özünütəminetmə səviyyəsinin yüksəldilməsi kənd təsərrüfatının sənaye əsaslarına keçirilməsindən,məhsuldarlığın səviyyəsinin yüksəldilməsindən, elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsala tətbiqindən və kənd təsərrüfatı əmtəə istehsalçılarının satış problemlərinin həllindən bilavasitə asılıdır.

*Cədvəl 1*

**Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|
| Dənlilərin cəmi | 57 | 63,3 | 74 | 56,5 | 64,8 |
| Buğda | 48 | 55,7 | 69,2 | 48,9 | 57,7 |
| Arpa | 99,2 | 97,2 | 98,7 | 87,7 | 93,7 |
| Qarğıdalı | 76,4 | 68,1 | 67,2 | 64,5 | 68 |
| Vələmir | 68,2 | 88,6 | 94,5 | 80,6 | 82,8 |
| Sair növ dənlilər | 10 | 4,4 | 0,4 | 1 | 4 |
| Paxlalılar | 76,4 | 77,7 | 68,9 | 65,8 | 70,4 |
| Kartof | 98 | 103,6 | 104,7 | 100,5 | 101,6 |
| Bütün növ tərəvəz | 98,8 | 104,6 | 101,2 | 97,6 | 95,7 |
| Bostan məhsulları | 100,1 | 100,2 | 100,2 | 100 | 100,2 |
| Meyvə və giləmeyvə | 138,1 | 161,4 | 136 | 107,9 | 116,8 |
| Üzüm | 93,7 | 93,3 | 90,7 | 90,4 | 89,9 |

*Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

2007-2011-ci illərdə Respublika əhalisinin bitkiçilik məhsulları ilə təminatı baxımından ciddi irəliləyişlər əldə edilmişdir. Belə ki,cədvəldən göründüyü kimi, buğda məhsulu üzrə 2007-ci ildə özünütəminetmə səviyyəsi 48% olduğu bu rəqəm 2011-ci ildə 57,7% olmuşdur. Bu göstərici arpa, qarğıdalı və sair dənlilər üzrə azalaraq 2011- ci ildə müvafiq olaraq 93,7%, 68% və 4% olmuşdur. Kartof üzrə özünütəminetmə səviyyəsi 3,6% artaraq 101,6%, bostan məhsulları ilə bu göstərici 0,1% artaraq 101,2% olmuşdur. Lakin bütün növ tərəvəz məhsulu üzrə özünütəminetmə səviyyəsi 3,1% azalaraq 95,7%, paxlalılar üzrə 6% azalaraq 70,4%, meyvə və giləmeyvə üzrə 21,3% azalaraq 116,8%, üzüm məhsulu üzrə isə 3,8% azalaraq 89,9% olmuşdur.

Dövlət ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək məqsədilə bütün dövrlərdə iqtisadi asılılığın qarşısını almağa, cəmiyyətin və iqtisadiyyatın bütün ehtiyaclarını daxili mənbələr hesabına ödəməyə, ərzaq bazarını formalaşdırmaq məqsədilə kənd təsərrüfatı bazarını inkişaf etdirməyə səy göstərir.

Aqrar sahə əhalinin əsas kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəyir. 2012-ci ilin dövlət büdcəsində kənd təsərrüfatının inkişafına dövlət 450457875 manat vəsait ayırmışdır. Azərbaycanda ÜDM-də kənd təsərrüfatının payı 5,4% təşkil edir. Hazırda kənd təsərrüfatında əsas fondların 7,9%-i, məşğul əhalinin isə 38%-i cəmlənmişdir. Bu sahədə 24000 müəssisə, 2800 fərdi sahibkar, 10000 ailə fermer təsərrüfatı fəaliyyət göstərir. Kənd təsərrüfatında 550 emal müəssisəsi fəaliyyət göstərir. Ərzaq məhsullarının qiymətləri günbəgün bahalaşdığı, ərzaq təhlükəsizliyi probleminin meydana çıxdığı bir dövrdə dövlət aqrar sahəyə maddi yardımlar göstərməyə xüsusi diqqət yetirir. Dövlət iqtisadiyyatın aqrar sahəsinə maddi yardımları ilbəil artırmaqla dotasiyaları dəstəkləməyə məcburdur. Belə ki, fermerlərə yanacaq 50 % endirimlə satılır, onlar gübrələri dəyərinin 50-70%-nə alırlar. Fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar, hər hektar əkin sahəsinə görə 100 manat verilir. Bu maddi yardımlar kənd təsərrüfatı məhsullarının idxaldan asılılığını əhəmiyyətli dərəcədə azaldır. Azərbaycanda kənd təsərrüfatının inkişafına dair bir neçə dövlət proqramı qəbul edilmişdir. Hazırda "2008-2015-ci illərdə Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı poqramı", "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı üzrə dövlət proqramı" və digər proqramlar uğurla həyata keçirilir. Bu proqramlar regionların inkişafı üzrə tədbirlərin icrasına, əsasən işsizliyin aradan qaldırılmasına və ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəldilmişdir. Bu problemlərin həlli aqrar sahənin inkişaf strategiyasının əsasını təşkil edir və aqrar sektorla sıx bağlıdır.

Azərbaycan Respublikası kənd təsərrüfatının intensiv inkişafı üçün böyük potensiala malik olduğu halda hazırda bu sahə əsasən ekstensiv amillər hesabına inkişaf etdirilir. Məlumdur ki, kənd təsərrüfatının intensiv inkişafı məhsuldarlığın yüksəldilməsinə əsaslanır. Lakin respublikamızda əkilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı çox aşağıdır və əsasən iqlim şəraitindən asılıdır. Əsas bitki hesab edilən buğdanın hər hektarının orta məhsuldarlığı indiyədək 27,8 sentnerdən yuxarı qalxmamışdır. Avropa Birliyi ölkələrində bu göstərici 55-80 sentnerdir.

Ölkəmizdə heyvandarlıq sahəsində də məhsuldarlıq aşağıdır. Belə ki, 2011- ci ildə hər inəkdən 1227 litr süd sağıldığı halda, bəzi MDB və Avropa ölkələrində bu göstərici 8-10 min litr təşkil edir. Bitkiçilik və heyvandarlıq sahələrində məhsuldarlığın artımı kənd təsərrüfatı məhsullarının istehsalını 2- 3 dəfə artırmaq üçün geniş imkanlar olduğunu göstərir. 2005-2011-ci illərdə əsas heyvandarlıq və bitkiçilik məhsullarının istehsalı artmışdır. Belə ki, bu dövrdə taxıl istehsalı 15,6%, şəkər çuğunduru 7 dəfə, bostan məhsulları 19,2%, üzüm 71,9%, meyvə və giləmeyvə 22,4%, çay istehsalı 24,3%, kartof istehsalı 76,5%, süd istehsalı 29,6%, yun istehsalı 23,7%, yumurta istehsalı 13,6 % artmışdır [5].

Aqrar sahənin zəif inkişaf etməsinin səbəblərindən biri bu sahəyə investisiya cəlbediciliyinin aşağı olmasıdır.Kənd təsərrüfatına investisiya qoyuluşlarının cüzi olması elmi- texniki tərəqqinin istehsala tətbiqi imkanlarını məhdudlaşdırır ki, bu da istehsal sahəsində məhsuldarlığın azalmasına səbəb olur. Nəticədə kənd təsərrüfatında ÜDM-in artım sürəti iqtisadiyyatın digər sahələrindən əhəmiyyətli dərəcədə geri qalır. Təhlillər göstərir ki, 2000-ci illə müqayisədə 2011-ci ildə kənd təsərrüfatına investisiya qoyuluşu 67,2 dəfə artsa da, iqtisadiyyata yönəldilən investisiyaların strukturunda bu sahənin xüsusi çəkisi 2011- ci ildə 3,4% təşkil etmişdir.

Son illər kənd təsərrüfatı əmtəə istehsalçılarının kreditləşdirilməsində Sahibkarlara Kömək Milli Fondunun resursları əhəmiyyətli rol oynamışdır.

Təhlillər göstərir ki, aqrar sahəyə investisiya qoyuluşunun az olmasının səbəbi bu sahəyə kredit verilməsi şərtlərinin çətinliyi və kredit üzrə faiz dərəcələrinin yüksək olmasıdır. Sahibkarların kreditdən istifadə etməsi nəticəsində əldə edilən mənfəət bankın faiz dərəcəsinə bərabər və hətta ondan az olur. Həmçinin göstərmək lazımdır ki, Azərbaycanın rayonlarının əksəriyyətində pay torpaqlarını almış kəndlilər bu səbəbdən öz torpaqlarını becərmirlər. Aqrar sahədə bütün sahibkarlara, xüsusən ailə təsərrüfatlarına çox cüzi faizlə kredit verilsə əkin dövriyyəsinə cəlb edilən torpaq sahələrinin həcmi çoxalar, ölkədə ərzaq bolluğu yaranar.

**Nəticə**

- Əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə nail olmaq.
- Daxili bazarı xarici təsirlərdən çevik şəkildə qorumaq.
- Əhalinin ərzaq tələbatını yüksəltmək məqsədilə aqrar sahədə sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraiti təmin etmək. Onlara dövlət dəstəyi və yardımlarını gücləndirmək.
- Aqrar sahəyə investisiya qoyuluşlarının həcmini artırmaq, kreditin verilməsi şərtlərini yüngülləşdirmək.

**Ədəbiyyat**

1. İ.Abbasov. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı, 2011.
2. M.M.Sadıqov. Maliyyə potensialı: formalaşma və aqrar sahənin prioritetliyi. Bakı, 2009.
3. İqtisadi nəzəriyyə: mikroiqtisadiyyat. I,II. Dərslik. Moskva, 2007.
4. Ю.Яковец. Революция в экономике. Москва, 1990.
5. www.stat.gov.az 2011
6. O.Q.Məmmədli və b. İqtisadi nəzəriyyə. Dərs vəsaiti. Bakı, 2010.

***В.Я.Алифов***

**Роль производства сельскохозяйственных продуктов в формировании продовольственного рынка**

**Резюме**

В статье были использованы мнения выдающихся экономистов о значении рынков. Были разъяснены роль продовольственных рынков в обеспечении продовольственной безопасности. Так же были выявлены пути необходимости производства сельскохозяйственных продуктов для формирования продовольственных рынков. Анализированы имеющиеся проблемы и пути их устранения.

***Ключевые слова: продовольственный рынок, аграрный сектор, продовольственная безопасность, надежное обеспечение, интенсивное развитие, обрабатывающая промышленность, производительность.***

***V.Y.Alifov***

**The role of agriculture on formation of agrarian market**

**Summary**

In the article, assumption of famous economists are given on the definition of market. The role of agricultural market in provision of food security is examined. Moreover, the importance of agricultural development, main problems in this direction and their addressing ways are analyzed.

***Key words: food market; agricultural sector; food security; reliable provision; intensive development; processing industry; productivity.***

**UOT 330.341.4**

***Vüqar Teyyub oğlu HÜSEYNOV***
***Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı***

# ƏRZAQ BAZARININ FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ VƏ SOSİAL-İQTİSADİ ROLU

**Xülasə**

Məqalədə ərzaq bazarının formalaşması xüsusiyyətləri təhlil olunur. Ərzaq bazarının ölkədəki həyat səviyyəsi və yoxsulluq problemləri ilə əlaqəsi göstərilir. İqtisadi təhlükəsizliyin tərkib hissəsi olan ərzaq təhlükəsizliyi və onun formalaşması və dinamikasından danışılır. Məqalədə ərzaq bazarının amilləri və nəticələri arasındakı qarşılıqlı əlaqə təsvir olunur. Nəticədə ərzaq bazarının sosial nəticələri və təkmilləşməsi istiqamətləri tövsiyə olunur.

***Açar sözlər: ərzaq bazarı, ərzaq təhlükəsizliyi, əhalinin ərzaq tələbatı, iqtisadi inkişaf, sosial tərəqqi, tələbatın ödənilmə dərəcəsi.***

## Giriş

Bazar münasibətlərinin təşəkkülü və əhatə dairəsinin genişlənməsi üfiqi və şaquli istiqamətdə əmtəə-xidmət və onların strukturunun dəyişilməsi ilə yeni tədqiqat metodologiyası və problemlərini meydana atır. Bazar şəraitində ayrı-ayrı sahə problemlərinin qoyuluşu tələb və təklif tarazlığına aparan aktiv siyasət, təşkilati-iqtisadi amillər və tənzimləmə mexanizmləri ilə həll olunur.

Bazarın formalaşması dinamik, çoxamilli və özünün sosial-iqtisadi nəticələri ilə təzahür edən sistemli strukturadır. Bazar tipli inkişaf strategiyası uzunmüddətli proqnozlar və onların reallaşması resurslarının istifadəsi yolları ilə təmin olunur. Bazar münasibətləri ticarət və marketinq münasibətlərindən geniş olub, onun tələb-təklif, gəlir və istehlak prizmasından baxdıqda o, artıq idarəetmənin əsas metodoloji prinsiplərini formalaşdırır.

## Ərzaq bazarının formalaşması xüsusiyyətləri

Bazar tipli münasibətlərin sosial mənası istehlak sferasında formalaşır və özünün daxili mahiyyətini açır. İqtisadi ədəbiyyatlarda bazarın formalaşması və inkişafına dair ölkəxarici amillərin yanaşması müxtəlifdir [1, səh. 32].

Bazar tələbatı sistemində əhalinin tələbatı, həyat səviyyəsi və onun ərzaq təminatı özünün məqsədi və sosial nəticələri ilə mühüm yer tutur. Tələbat insanın zəruri ehtiyacları və onun ödənilməsinin dinamik inkişafı ilə ödənilir. "Nəzəri araşdırmalar göstərir ki, tələbatın ödənilməsi dərəcəsi yüksək olan əmtəələrin və xidmətlərin istehlakının artım tempi azalır" [2, səh. 219]. Ərzaq tələbatı sosial-iqtisadi amil olmaqla ölkədə həyat səviyyəsi, yoxsulluq və ərzaq təhlükəsizliyi problemləri ilə əlaqədə tədqiq olunur.

Ərzaq təhlükəsizliyi iqtisadi təhlükəsizliyin tərkib hissəsidir. Ərzaq təhlükəsizliyinin formalaşması və dinamikası daxili və xarici amillərdən asılıdır. Daha çox sosial problemlərin inkişaf dinamikasına nəzarət və tənzimləmə ərzaq təhlükəsizliyi, yoxsulluq proqramları və onun azaldılması yolları ilə idarə olunur. Azərbaycanda yoxsulluğun azaldılmasının dövlət proqramı 2005-2008 və 2009-2013-ci illər üçün tərtib olunmuşdur. Yoxsulluğun ölçülməsi meyarı olaraq ərzağın ümumi daxili məhsulda yeri, onun istehlak olunan maddi və mənəvi dəyərlərdə xüsusi çəkisi və həmçinin ərzaq istehlakına görə əhalinin paylanması qanunauyğunluqları mövcud metodiki əsasları təşkil edir.

Ərzaq tələbatı və təklifi bir sıra qarşılıqlı əlaqədə olan amillər və idarəetmə mexanizmləri ilə formalaşır. Belə ki, tələbat sistemi əhalinin sosial-demoqrafik tərkibi, məşğulluğu, fizioloji tələbat və digər əmtəə və xidmətlərə olan ehtiyaclar və onların ödənilməsi yolları ilə ödənilir.

Ərzaq tələbatının formalaşması və dinamikası istehlak və bazar təklifinin marketinq strukturu ilə formalaşır. İnterqasiya şəraitində və açıq iqtisadiyyat mühiti ərzaq tələbatının ödənilməsinin

yeni mənbələrini və onun istehlak növünü formalaşdırır. Ərzaq tələbatı və ərzaq istehsalı idxalın əsas istiqamətlərini müəyyənləşdirir. İnsan tələbatına uyğun olaraq ərzaq, qeyri-ərzaq və xidmət sferası təşkil olunur, alıcılıq qabiliyyətinə uyğun olaraq bazarın istehsal və marketinq strukturu formalaşır.

Marketinq tədqiqi ərzağın planlaşması və istehsal strukturuna uyğun olaraq kənd təsərrüfatı, emal sənayesi və uyğun məhsulların idxalını, onun kəmiyyət və keyfiyyətini alıcılıq qabiliyyətinə uyğun tarazlaşdırır.

Ərzaq bazarı tələbat, istehlak və iqtisadi inkişafın strategiyası arasında münasibətlər sistemi olmaqla iqtisadi inkişafın problemlərini yaradır və onların sonrakı dinamikasına təsir edir. O cümlədən, ərzaq bazarının bütöv və dolğunluğu iqtisadi təhlükəsizliyin əsas elementidir.

**Ərzaq təhlükəsizliyi**

Ərzaq təhlükəsizliyi ölkədə iqtisadi sistemin meyarı və idarə edilməsinin əsas mahiyyətini açır. Azərbaycan iqtisadiyyatı ərzaq təminatının təşkili və dinamik inkişaf istiqamətində təbii-coğrafi və əhalinin məşğulluğu üçün əlverişli mühitə malikdir. Tarixən aqrar ölkə olan Azərbaycanda ərzaq istehsalı və ərzaq xammalı istehsalı öz rolu və əhəmiyyətinə görə aparıcı həlqə olmuşdur. Kənd təsərrüfatı məhsulunun qeyri-neft sektorunda xüsusi çəkisi 30-40% təşkil etməklə, kənd əhalisinin məşğulluğunun 70-80%-ni təmin edir. Müasir şəraitdə kənd təsərrüfatı və arqaq sektor ictimai əmək bölgüsündə və ÜDM-in formalaşmasında aparıcı həlqə rolunu oynayır.

Ərzaq təhlükəsizliyi meyarı və onun göstəriciləri, parametrləri, qiymətləndirmə metodikası və ölçmə üsulları makroiqtisadi və mikrosəviyyəli problemlərin həllində özünün xüsusiyyətləri ilə əsaslandırılır və proqnozlaşdırılır. Ölkədə ərzaq təhlükəsizliyi tarazlı və davamlı inkişaf strategiyasının aparıcı həlqəsidir. Ərzaq təhlükəsizliyinin sosial nəticələri həyat səviyyəsi, yoxsulluq, miqrasiya və iqtisadi təhlükəsizliyin əsas istiqamətləri olan sahibkarlıq, yerli istehsal və kəndin sosial-iqtisadi inkişaf proqramları üçün əsas amildir.

Azərbaycan iqtisadiyyatı təhlükəsizliyin milli proqramı kontekstində ərzaq təhlükəsizliyinin əsas istiqamətlərini müəyyənləşdirir. Beynəlxalq səviyyəli inkişaf strategiyası olmaqla, bütün ölkələrin inkişaf meylləri onun təhlükəsizlik konsepsiyası ilə müəyyənləşir.

Ərzaq bazarının formalaşma məqsədi və amilləri bu bazarın dinamikasını, xüsusiyyətlərini və tənzimləmə mexanizmlərini idarəetmə cəhətlərinin metodoloji xüsusiyyətlərinə təsir edir. Daha çox ərzaq bazarına biz sosialyönlü amil və onun tənzimlənməsinə sosialyönlü siyasət kimi baxırıq. Ərzaq bazarının strukturu və əhalinin ərzaq istehlakı sosial inkişafın əsas parametri olmaqla, müasir inteqrasiya problemlərinin həllində rol oynayır. Dünyada ərzaq malları istehsalı və əhalinin ərzaq təminatı məhdudiyyətlər və iqtisadi çətinliklərlə səciyyələnir. Ərzağın qıtlığı, insanların rifahını və ömür səviyyəsini azaldır [3, səh. 78]. Yoxsulluğun meyarı və göstəricisi ərzaq təminatı ilə ölçülür. Ərzaq təhlükəsizliyinin tədqiqi ölkə iqtisadiyyatında bir sıra nəzəri konseptual yanaşma və tədqiqat metodlarına uyğun təşkil olunur. Bu təsnifatlaşma aşağıdakı istiqamətlərə ayrıla bilər:

- iqtisadi artım və kənd təsərrüfatı, aqrar sektorun məhsulu və onun bölgüsünün, məhsuldarlığının yüksəldilməsi yolu və prioritetləri kimi;
- ərzaq probleminin həlli yolu ilə ölkənin milli təhlükəsizliyini, onun xarici amillərdən asılılığını azaltmaq və dayanıqlı inkişaf konsepsiyasını hazırlamaq;
- ərzaq təhlükəsizliyinin sosial rifah və əhalinin bütün mənbələrinin ən vacib tələbatını ödəməyə yönəldilən istehsal, bölgü və mübadilə mexanizmləri sistemini təkmilləşdirmək;
- ərzağın menecment və biznes fəaliyyətinin əsas sahəsi olaraq sahibkarlığın inkişafı və istehsalın təşkili yolu ilə əhalinin məşğulluğu və ərazinin sosial iqtisadi inkişafına şərait yaratmaq;
- ərzaq təhlükəsizliyi prizmasından daxili resursları ixracatyönlü istehsala istiqamətləndirməklə struktur siyasətin anatomiyasını daha çox xammal və emal sənayesinə yüksəltmək;
- ərazinin kompleks inkişafı prizmasından, ərazi əhalisinin məskunlaşması, onun yerli potensialının səmərəli istifadəsi yollarını təmin etmək məqsədi ilə ərazi komplekslərini inkişaf etdirmək.

Ərzaq təhlükəsizliyinin sosial, iqtisadi nəticələrinin prioritet olması bu problemin prioritetliyini artırır. Belə ki, əhalinin artım tempinin yuxarı olması, kənd əhalisinin yaşayış şəraiti, məşğulluğu və məskunlaşması,regionların kompleks inkişaf strategiyası bu problemin zəruriliyini əsaslandırır. Ərzaq təhlükəsizliyi milli iqtisadiyyatın inkişafının uzunmüddətli idarəetmə və daxili potensialı səmərəli istifadə etmək məqsədinə yönəldilir.

**Ərzaq bazarının təşkilati problemləri**

Ərzaq bazarının təşkilati problemləri, həmin bazarın əsas seqmentlərini formalaşdırmaq, əhalinin tələbatının keyfiyyətcə dəyişilməsi yollarını təmin etmək və əhali rifahını yüksəltmək zəruriyyətləri üzərində qurulur.

İlkin növbədə əhalinin istehlak davranışının formalaşmasında ərzağın yeri, onun tələbatının dəyişməsində ərzaq və qeyri-ərzaq əmtəə və xidmətlərin dəyişmə dinamikası, struktur dəyişmələri təhlil edilib, qanunauyğunluqlar aşkar edilir. Ərzağın istehlakı sosial-demoqrafik əhali tərkibi və onların istehlak davranışı ilə formalaşır. Respublika iqtisadiyyatının istehsal strukturu və əhalinin istehlak davranışı bir-biri ilə qarşılıqlı əlaqədə olub, struktur siyasətin əsas amillərini özündə birləşdirir. Belə ki, ictimai əmək bölgüsü və resurs potensialı əmtəə və xidmət istehlakının əsas istiqamətlərini formalaşdırır. Ərzaq istehlakı tələbatı və ixracatyönlü məhsul istehsalını ödəmək məqsədlərinə yönəldiyi üçün kommersiya tələbatı daha xarakterikdir.

Ərzaq bazarının tədqiqində əhali tələbatının tənzimlənilməsi yolları ilə ərzaq təklifinə təsir etmək yolları əsaslandırılır. Sxematik olaraq ərzaq bazarının amilləri və nəticələri arasında qarşılıqlı əlaqəni aşağıdakı kimi təsvir etmək olar.




***Sxem 1.1. Ərzaq bazarının formalaşması.***

Ərzaq bazarının formalaşma dinamikası uyğun olaraq amillər və nəticələrlə tarazlaşır, ərzaq bazarının təşkilati quruluşu tələb və təklif mexanizmləri ilə tarazlı və davamlı inkişafın təşkili kimi inkişaf etdirilir. Ərzaq bazarının dövlət tənzimlənməsi sahə və ərazi idarəetmə baxımından təşkil olunur. Tənzimləmənin mümkünlüyü onlara təsir edən amillərlə idarə olunur. Bazar fəaliyyətinin mövcudluğu bir tərəfdən istehsalçı və istehlakçının iqtisadi sərbəstliyi, digər tərəfdən qiymət rəqabətinin qarşılıqlı münasibəti əsasında mümkündür [4.səh 124]. Bazar tipli inkişaf modeli olaraq ərzaq tələbatı və onun istehlakı istehsal funksiyası kimi bazarda təklif və qiymətlə ifadə olunur.

$$\text{İst}=(\text{İst}^{i} \cdot Q^{i})$$

Burada, İst – istehlak bazarının həcmi, təklifi;

$\text{İst}^{i}$ – i məhsulunun istehsal həcmi;

$Q^{i}$ – i – məhsulunun qiyməti.

Ərzaq ixracı və ehtiyatları bazar tipli inkişafda sosial tələbat və əhalinin alıcılıq qabiliyyəti ilə formalaşır. Ərzaq digər məhsullardan fərqli olaraq, ehtiyatları nəzərə almaqla tənzimlənir. Bir sıra dövlətlərdə təhlükəsizliyi təmin etmək üçün, cari və perspektiv tələbatı ödəmək üçün ehtiyatların proqnozu və onun idarə olunması vacibdir. Ehtiyatlar müasir şəraitdə pul, natural şəkildə və borc kapitalı kimi formalaşa bilir.

Ərzaq bazarı, dünya qiymətləri, dünyada baş verən böhranlar və əhalinin gəlirlərinin dinamikası ilə tənzimləmə siyasəti formalaşdırır. Dünyada qiymətin dəyişməsi, daxili bazarda istehsal və istehlak dinamikasına təsir edir. 2010-cu ildə əmtəə qiymətləri indeksi 23,4%, ərzaq qiymətləri indeksi 26,8% bahalanmışdır [5, səh. 7]. Ərzaq qiymətlərindəki bahalaşma 93,1% ikinci yarımildə baş vermişdir.




***Sxem 1.2 Qiymət artımının dinamikası.***

Qiymət artımı özünün sosial təsirləri, beynəlxalq idxal-ixrac dinamikası və onun strukturuna təsir edir. Ərzaq bazarının indeks metodologiyası həmçinin böhranla milli pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə nəticələnir. Belə ki, milli valyutanın ABŞ dollarına nisbətən alıcılıq qabiliyyətinin aşağı düşməsi, əmtəələrin və xidmətlərin qiymətinin azalması ilə nəticələnir, bu da əmtəə və xidmət bazarında xarici valyutanın alıcılıq qabiliyyətini maddi nemətlər baxımından çoxaldır. Ərzaq bazarı sistemli olaraq əlaqədə inkişaf edir. Neftin qiymətinin dəyişməsi ehtiyatları artırır. Ərzaq bazarının ehtiyatlarını artırmağa şərait yaradır. Ərzaq bazarı inflyasiya faizi ilə dəyişir. Daha çox inflyasiya az təminatlı ailələrin bazar tələbinə təsir edir. Ərzaq bazarı sosial motivlərə uyğun olaraq inflyasiyanın təsirinə məruz qalır. İnflyasiya amili böhranlı şəraitdə özünü təmin etməyən, xarici ölkələrdən idxal məhsulu gətirən respublikalara daha çox təsir edir. İnflyasiya səviyyəsi daxili və xarici amillər hesabına formalaşır və dərinləşir. Dünyada iqtisadi böhranlar, qiymətlərin dəyişməsi, enerji resurslarının qıtlığı və onların qiymətinin dəyişməsi inflyasiya əmələgətirici sahə olmaqla, enerji istehsalçılarına və istehlakçılarına müxtəlif prizmadan təsir edir. İnflyasiya amili iqtisadi təhlükəsizliyin ümumiləşmiş göstəricisi kimi formalaşır. İnflyasiyanın dəyişmə dinamikası maliyyə-kredit siyasətinin və antiinflyasiya tədbirlərinin hazırlanması, onların mühafizəkar funksiyasının tənzimlənilməsi mexanizmlərini formalaşdırır. Qeyd edək ki, inflyasiyanın xarici amili olaraq bilavasitə idxal edən əmtəə yaradılması, həmin ölkənin pul-kredit siyasətini və yoxsulluğun artırılmasına səbəb olur. Bu təsirləri tənzimləmək üçün antiinflyasiya tədbirləri həyata keçirilir. Büdcə kəsirinin proqnozu onun limiti inflyasiyanı azaltmaq tədbirləri və xərclərlə gəlirlərin tarazlı dəyişmə dinamikasını tənzimləmək məqsədini güdür.

Təhlükəsizlik siyasəti daxili iqtisadi proseslərin tənzimlənməsi və bir sıra sahələrin dayanıqlı inkişafı, onun sahələrarası əlaqələrinin tarazlığı ilə təmin olunur. Daha çox xarakterik olan sahələrarası tarazlıq iqtisadi nisbətlərin, onların balans və maddi əşya, pul hesabatlarının təşkilində əlaqələrin və nisbətlərin tənzimlənilməsi ilə baş verir. Ölkədə də əsas tarazlı inkişaf dinamikası aşağıdakı hesablarla təmin olunur:

- tədiyyə balansı və maddi əşya balansı ilə maliyyə balansının tarazlığı;
- gəlirlər və istehlak balansı;
- istehsal və istehlak balansları;
- sosial inkişaf və iqtisadi artım balansları;
- regional tarazlıq;
- sahələrarası tarazlıq.

Ərzaq təhlükəsizliyi istehsal və istehlakın tarazlı inkişafını, hasilat və emal sənayesinin balans dinamikasını və dövlətin apardığı istehsal-bölgü-istehlak sferasını formalaşdırır. Ərzaq bazarının

formalaşması onun əsas amilləri olan istehsal strukturunu, əkinçilik, heyvandarlıq və digər məhsulların çeşidi, keyfiyyəti və marketinq quruluşunun təkmilləşməsi, rəqabət qabiliyyətli və tələbata uyğun təşkili və idarə edilməsi yollarını əsaslandırır. Sosial sahələrin, həyat şəraitinin və yoxsulluğun azaldılması yolları birbaşa ərzaq problemləri və onların mənbələrinin tənzimlənilməsi strategiyası ilə bağlıdır. Ərzaq tələbi və təklifi fizioloji normalar, resurs təminatı, onlardan istifadə mexanizmləri və real istehlakla ifadə olunur. Ərzaq təhlükəsizliyi, ərzaq təminatı, ərzaq qıtlığı bir sıra sosial-iqtisadi nəticələrlə ifadə olunur ki, onların da həlli yolları bazar münasibətləri şəraitində tənzimləmə siyasəti və mexanizmləri ilə tələbat, onun əlverişli etnik inkişafı və istehlak strukturunu formalaşdırmaq vəzifələri təşkilati-iqtisadi metodlarla baş verir. Ərzaq tələbatı, əhali və onun fizioloji normalara uyğun təmin olunması üçün rasional strukturaya əsaslanan bazar tipli inkişaf modeli ilə formalaşır. Fizioloji tələbat strategiyası, bütün iqtisadi sistemlərlə meyar rolunu oynamaqla insanın normal inkişafı üçün zəruri olan kilokalori, medikamentlər və digər elementlərlə hesablanır. İnsan orqanizmi üçün resurs normaları tərtib olunur. Təbii ki, bu normalar hər bir ölkədə istehsal strukturu və bazar təklifi ilə ifadə olunur.

**Ərzaq bazarının ölçülməsi**

Ərzaq problemi əhalinin tələbatı ilə müəyyənləşsə də və gəlir gətirmək üçün dünya bazarına çıxmaq cəhdləri və təşəbbüsləri üzərində qurulsa da, onun təhlükəsizlik baxımından bir sıra yeni görünməyən tələbi vardır. Hər şeydən əvvəl, istehsalı olmayan ölkələrdə idxala yönəldilən ərzaq tələbatı hələ xaricdən asılılığı artırır, dünyada baş verən dəyişmələrdən asılı olaraq dəyişir. Digər tərəfdən, ölkədə daxili istehsalın birtərəfli olmasına səbəb olur. Daxili istehsalın səmərəliliyi, onun təşkili və xarici bazarda mühafizəkar siyasət metodologiyasını doğurur. Azərbaycan Respublikasında neft gəlirləri, neft istehsalı gəlirlərini artırsa da, istehlak üçün istehsalı məhdudlaşdırır. Gəlirlərin formalaşmasında qeyri-neft sektorunun payı nisbi azalır. Neft gəlirlərinin ÜDM-də xüsusi çəkisi üstünlük təşkil edir. Bu da uyğun olaraq əhali gəlirlərinin formalaşmasında transfert gəlirlərinin artımına, əmək haqqı və fərdi təsərrüfatdan gələn gəlirlərin xüsusi çəkisinin azalmasına səbəb olur. Ölkədə əhalinin gəlir və istehlak strukturunun dəyişməsi, onun həyat səviyyəsinin, yoxsulluğun və qütbləşmənin formalaşması və dinamikasının uyğun xüsusiyyətlərinə səbəb olur ki, bu da öz növbəsində təhlükəsizliyin idarə olunmasının mexanizmlərini səciyyələndirir. Təhlükəsizliyin həlli məsələləri və təminat sistemi, ölkədə sosial maraqlar, həyat səviyyəsi, gəlirlərə görə qütbləşmə parametrlərinin ölçülməsi və onların hesablanması metodlarına yanaşma üsulları ilə mümkündür. Müasir şəraitdə Azərbaycan iqtisadiyyatında diferensial yanaşma metodları və mexanizmləri, diferensiallaşmanın obyektiv və subyektiv səbəblərini tədqiq etmək və uyğun olaraq təhlükəsizliyin təmin olunması sistemini yaratmaq məqsədləri güdür. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri və bu məqsədlə istifadə olunan üsullar və mexanizmlər müasir şəraitdə təhlükəsizliyin subyektiv amillərini azaltmaq və stimullar yaratmaq üçün baza yaradılması ilə mümkündür.

Ərzaq təhlükəsizliyi tələbat və istehlakın əhali üçün zəruri olan maddi əşya istiqamətlərini özündə birləşdirsə də qlobal şərait və inkişaf baxımından və həllinin sosial səmərəsi baxımından aparıcı həlqə və özünün tənzimləmə funksiyasını oynayır. Qeyd edək ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi iqtisadi və sosial tənzimləmə siyasətinin prioritet tərəfi olmaqla, özünün təşkili və idarə olunması mexanizmləri baxımından yeni aspektlər kəsb edir.

Ərzaq təhlükəsizliyi aparılan iqtisadi və sosial siyasətin nəticəsi olaraq dövlətin sosial xarakterini, onun dayanıqlı inkişafda rolu və əsas parametrlərini müəyyənləşdirir. Dövlətin sahələr və regionlarda inkişaf istiqamətləri əhali güzaranı və onun yaşayışının yüksəldilməsi yollarını müəyyənləşdirir. Sosial bərabərsizliyə uyğun olaraq maddi bərabərsizlik meyarları tətbiq etməklə tənzimləmənin əsas istiqamətlərini formalaşdırır.

Milli iqtisadiyyatın inkişafı, onun təhlükəsizliyini təmin edən konseptual yanaşma, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və qloballaşma şəraitində yeniləşməsi yolları ilə mümkündür.

Təhlükəsizlik konsepsiyası mürəkkəb təşkilati iqtisadi idarəetmə və səmərəli iqtisadi inkişaf strategiyası ilə reallaşır. Bu məqsədlərə nail olmaq üçün təhlükəsizliyin meyar və göstəriciləri, onun qloballaşma şəraitində formalaşma amilləri və səbəblərini təhlil etmək və perspektiv dəyişmələrə uyğun milli iqtisadiyyatı tənzimləmək siyasəti onun əsas istiqamətlərini, tədqiqatın nəzəri və metodoloji aspektlərini yüksəldir. Bu konseptual tələblər dissertasiya işinin əhatə dairəsini, onun tədqiqat dövriyyəsini, istifadə olunan metodlar və alınan nəticələrin interpritasiyasını genişləndirir. Bu məqsədlə baxılan istiqamətlər aşağıdakı kimi nəzəri və metodik əhəmiyyətinə görə təsnifatlaşdırıla bilər:

1. Milli iqtisadi təhlükəsizlik konsepsiyası, onun mahiyyəti, yaranma səbəbləri və əsas sosial iqtisadi nəticələrinin nəzəri mülahizələr və konkret meyllərlə qiymətləndirilməsi;
2. Milli iqtisadiyyatın meylləri, qloballaşma şərtləri və təsirləri arasında qarşılıqlı təsir və əlverişli qərar qəbulunu formalaşdırmağın konseptual əsaslarının verilməsi;
3. Azərbaycanda iqtisadi təhlükəsizliyin əsas meyar və göstəricilərinin, onların dəyişmə meyllərinin tədqiqi ilə mövcud iqtisadi sosial mexanizmlərin keyfiyyətinin qiymətləndirilməsi və onların təkmilləşməsi istiqamətlərinin əsaslandırılması;
4. İqtisadi təhlükəsizliyin xarici və daxili parametrlərinin proqnoz strategiyası, transformasiya modeli və tənzimləmə yollarının qipotetik təsvir modelləri ilə proqnozlaşdırılması.

Müasir şəraitdə milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunmasında qloballaşmanın müsbət cəhətləri, onun təsirinin qiymətləndirilməsi, ölkə iqtisadiyyatının transformasiyasının modelləri və əsas istiqamətləri əsaslandırılır. Qloballaşma şəraitində ixracat yönlü istehlak və xidmət sferasının inkişafı, innovasiya xarakterli texnologiyaların idxalı və daxili bazarın qorunması tədbirləri milli iqtisadiyyatın inkişafı istiqamətlərini müəyyənləşdirir. Beynəlxalq maliyyə və transmilli şirkətlərin Azərbaycanın karbohidrogen bazarında rolu və onun perspektivinə uyğun transformasiyası istehsal və idxal-ixrac strukturunu formalaşdırır.

**Ədəbiyyat**

1. Ə.Q.Əlirzayev. Sosial-iqtisadi idarəetmə: metodoloji prinsiplər və qanunauyğunluqlar. Bakı, 1997.
2. T.Ə.Əlirzayeva, Ə.Q.Əlirzayev. Əhalinin gəlirləri və istehlakının maliyyə mexanizmləri. Bakı, 2007.
3. Н.М.Римашевская. Человек и реформы. Проблемы выживания. М., 2005.
4. H.B.Allahverdiyev, K.S.Qafarov, Ə.M.Əhmədov. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 2012.
5. Azərbaycan Respublikası Mərkəzi Bankı, Bakı, 2010.

***Вюгар Тейюб оглы Гусейнов***

**Особенности формирования и социально-экономическая роль продовольственного рынка**

**Резюме**

В статье анализируются особенности формирования продовольственного рынка. Здесь показана связь продовольственного рынка с уровнем жизни и проблемой бедности в стране. В статье рассматривается динамика и формирование экономической безопасности и его составной части – продовольственной безопасности. Показана взаимосвязь факторов и результатов продовольственного рынка. В качестве выводов показаны рекомендации пути развития и усовершенствования продовольственного рынка.

***Ключевые слова: Продовольственный рынок, продовольственная безопасность, потребности населения, экономическое развитие, социальный прогресс, степень удовлетворения потребностей.***

***Vugar Teyyub Huseynov***

**The pecularities of formation of the food market and its social-economical role**

**Summary**

The pecularities of formation of the food market is analysed in the article.The living standard of food market in the country, poverty, and the relation with food safety problems are also studied in the article. The paper deals with the food safety- the component of economical safety, its formation and dynamics.The interaction between the results and factors of food market are also described in the article.In conclusion the development ways of social results of food market are proposed.

***Key words: food market, food safety, demands of population for food, economical development, social progress, degree of satisfaction.***

**UOT 338.**

*Aysel Soltanağa qızı SƏMƏDOVA*
*AMEA-nın İqtisadiyyat İnstitutu*

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

**Xülasə**

Azərbaycan dövlətinin iqtisadi siyasətinin ən mühüm istiqamətlərindən birini ərzaq təhlükəsizliyinin səmərəli təmin edilməsi təşkil edir. Bütövlükdə, qloballaşan dünyada baş verən ərzaq böhranı, bu mühüm sahənin hərtərəfli şəkildə inkişaf etdirilməsini zəruri edir. Ölkəmizdə bu istiqamətdə qəbul edilmiş dövlət proqramları və digər sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən aqrar sahibkarlığın inkişafı, regionlarda infrastruktur layihələrin həyata keçirilməsi, fermerlərə maliyyə və texniki yardımların göstərilməsi və bu yönümlü digər tədbirlər ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas və prioritet istiqamətlərini təşkil edir. Məqalədə yuxarıda göstərilən məsələlərlə bağlı ətraflı söhbət açılır.

***Açar sözlər: Azərbaycan Respublikası, iqtisadi siyasət, ərzaq təhlükəsizliyi, aqrar sahibkarlıq, maliyyə yardımı.***

## Giriş

Məlumdur ki, ərzaq təhlükəsizliyi-dövlət və cəmiyyət tərəfindən əhalinin həmişə aktiv və sağlam həyat tərzini saxlamaq üçün, müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində əsas qida məhsullarına olan tələbatının fasiləsiz, uzunmüddətli ödənilməsini təmin edən tədbirlər kompleksini nəzərdə tuitur. Ərzaq təhlükəsizliyinin hüquqi əsasını ölkə konstitusiyasi təşkil edir və hər bir ölkənin milli ərzaq müstəqilliyinə əsaslanır. Ölkənin milli ərzaq suverenliyi - baş verə biləcək hər hansı fövqəladə vəziyyətlər zamanı, dövlətin əhalini ərzaq və qida məhsulları ilə təmin etmək imkanına, eləcə də hər kəsin əsas ərzaq məhsulları əldə etmək üçün fiziki, sosial və iqtisadi imkanlara malik olması deməkdir” [1, s.178].

Ərzaq problemi təkcə kənd təsərrüfatı çərçivəsində həll olunan məsələ deyildir. Ərzaq təminatında aqrar sahənin payı, ölkənin texnoloji baxımdan hansı inkişaf səviyyəsində olmasından bilavasitə asılıdır. Ərzaq bazarının vəziyyəti isə, öz növbəsində aqrar bölmənin fəaliyyət ahəngdarlığına mühüm təsir imkanına malikdir. Ərzaq bazarının fəaliyyətini xarakterizə edən göstəricilər, xüsusilə, qiymətlər, istehlak səbətinin dəyəri, fermerlərin gəlirləri kimi göstəricilər - aqrar sahənin inkişaf strategiyasının bu və ya digər zaman kəsiyində hansı prioritetlər əsasında reallaşmasından asılı olaraq formalaşır.

Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, dövlətin ərzaq təhlükəsizliyi o vaxt təmin edilmiş hesab edilir ki, ölkə ərazisinə xaricdən ərzaq məhsullarının daxil olması dayandıqda ərzaq böhranı baş verməsin və bazarda satılan kənd təsərrüfatı xammalının və ərzağın ümumi həcmində yerli istehsal taxıl üzrə-90%, kartof 95, şəkər-80, bitki yağı-80, ət və ət məhsulları, süd və süd məhsulları-85-90, balıq və balıq məhsulları üzrə-80 faizdən az olmasın. Ərzaq məhsullarına olan ümumi tələbatı yerli istehsal hesabına ödəmək üçün bu parametrlər nəzərə alınmaqla əhalinin sayı və adambaşına düşən əsas ərzaq məhsulları normaları əsasında istehsal ediləcək kənd təsərrüfatı məhsullarının həcmi müəyyən olunur. Adambaşına ərzaq norması hər bir ölkənin iqtisadi vəziyyətindən, iqlim və ərazi şəraitindən, peşəkar ənənələrindən, hansı qurşaqda yerləşməsindən və s. asılı olaraq insanların normal yaşaması və səmərəli fəaliyyət göstərməsinə imkan verən hansı məhsuldan nə qədər qəbul etməsi normaları əsasında müəyyən edilir. Bu halda hər bir insanın gün ərzində qəbul edəcəyi enerji kkalori nəzərə alınır. Bu göstərici dünya ölkələri üzrə 1961-1963-cü illərdə 2300, 1990-1992-ci illərdə 2710 və 2010-cu ildə 2860 kkalori olmuşdur. FAO-nun hesablamasına görə gündə 1760-1836 kkalori qəbul edilməsi ölkədə kifayət qədər qida

maddəsinin qəbul edilməməsinin və ya aclığın göstəricisidir [2, s. 8].

Ərzaq təhlükəsizliyinin təminatı problemlərinin tədqiqi göstərir ki, ölkəmizdə də müasir qlobal çağırışlara uyğun olaraq, bu istiqamətdə yeni strategiyanın işlənməsi və müvafiq doktrinanın hazırlanmasına ehtiyac vardır. Qeyd olunmalıdır ki, ölkədə genişmiqyaslı aqrar islahatlar prosesi aparılmışdır. İndi müvafiq sektorda islahatların yeni mərhələsinə keçid edilmişdir. Bu keçidlə bağlı aqrar sektorun strukturu və idarəetmə şəbəkəsi bazar iqtisadiyyatının tənzim metodlarına istinadən yenidən qurulmaqdadır. Ailə təsərrüfatlarına kreditlər və subsidiyaların ayrılması, iqtisadi güzəştlər, toxum, gübrə və texnika təminatı, məhsul qoruma anbarlarının inşası buna misaldır. Ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni müasir taxıl saxlama anbarlarının inşası və istifadəyə verilməsi yüksək qiymətləndirilir. Bununla bərabər, əhalinin ərzaq təhlükəsizliyinin təminatı məsələsində qabaqcıl dünya təcrübəsinin mənimsənilməsi, kooperasiya sisteminin yenidən qurulması, ərzaq təminatı sistemini mütləq hesabda idxal məhsulundan azad etmək, yerli istehsalçıların xarici ticarət əlaqələri qurması, məhsulların ixraca yönəlməsinin stimullaşdırılması da vacib dövlət tədbirləri sisteminə daxil edilməlidir [yenə orada, s. 63].

**Ərzaq təhlükəsizliyinin mövcud durumu**

Artıq qeyd olunduğu kimi, Azərbaycan Respublikasında əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur. Buna uyğun olaraq, ölkədə ərzaq məhsullarının istehsalı sahəsində köklü islahatlar aparılmış, həyata keçirilən kompleks tədbirlər isə göstərilən sahənin daha sürətli inkişaf etdirilməsinə əlverişli şərait formalaşdırmışdır. Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 2 mart tarixli, 640 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, ölkədə ərzaq təminatı ilə bağlı işlərin daha səmərəli aparılmasına təkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə qüvvəyə minən "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" isə, heç şübhəsiz ki, ulu öndərimizin imzaladığı sərəncamın davamı kimi çox böyük əhəmiyyət daşıyır...

2003-cü ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş iqtisadi siyasət nəticəsində, Azərbaycan əhalisinin xüsusən son illərdə ərzağın iqtisadi əlyetərliyi məsələsinin həllində böyük və nəzərəçarpacaq dəyişikliklər əldə edilmişdir. Respublikamızda yoxsulluq səviyyəsinin azaldılması nəticəsində ölkə əhalisinin maliyyə gəlirləri xeyli artmış, buna uyğun olaraq alıcılq qabiliyyəti də əhəmiyyətli şəkildə yüksəlmişdir. Kənd təsərrüfatının inkişafına dövlət səviyyəsində göstərilən qayğı, regionlarda yeni, müasir tələblərə cavab verən modern emal müəssisələrinin yaradılması, ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına təmin edilməsi siyasəti artıq öz mühüm nəticələrini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa üzrə Bakı şəhərində keçirilən 28-ci regional konfransında qeyd etmişdir ki, "...kənd təsərrüfatı sahəsi hər bir insan üçün çox önəmlidir, xüsusilə Azərbaycan üçün. Çünki əhalimizin təxminən yarısı, ondan bir qədər az qismi kənd zonalarında, kəndlərdə yaşayır. Kəndlərdə müasir infrastrukturun yaradılması, müasir xidmətin göstərilməsi məsələləri də bizim üçün prioritetdir...Biz qarşıya hədəf qoymuşuq ki, özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox ciddi addımlar atılmışdır. Hazırda biz özümüzü əsas qida məhsulları ilə böyük dərəcədə-təxminən 80-90 faiz səviyyəsində təmin edirik. Eyni zamanda, bizdə çox güclü ixrac potensialı da formalaşır. İxrac potensialını daha da artırmaq üçün biz indi müxtəlif stimulverici amillərdən istifadə edirik. Yeni bazarlara çıxırıq. Azərbaycanda demək olar bütün yeni, müasir emal müəssisələri dünya standartlarına cavab verir ki, biz məhsulumuzu istənilən bazarlara ixrac edə bilək. Hazırda bizim üçün əsas ixrac bazarı qonşu ölkələrdir. Bu, ənənəvi bazardır. Ancaq biz məhsullarımızla artıq Avropa İttifaqı məkanına da çıxırıq. Əminəm ki, yaxın zamanlarda bu işlər daha da sürətlə gedəcəkdir [3, s.1].

Aparılan təhlillər onu göstərir ki, "...iqtisadiyyatın şaxələndirilməsi bütün digər sahələr kimi aqrar bölmənin də inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Onu da deyək ki, hazırda əhalisinin təqribən yarısı bölgələrdə yaşayan Azərbaycanda aqrar sahənin böhrandan çıxarılması, daxili bazarın mühüm kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Məhz bunun nəticəsidir ki, kənd təsərrüfatı getdikcə ölkə iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilmişdir. Qeyd edildiyi kimi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2008-ci ilin avqust ayında qəbul olunmuş müvafiq Dövlət Proqramı müstəsna əhəmiyyət kəsb edir. Ötən müddətdə proqramın icrası ilə bağlı həyata keçirilmiş mühüm tədbirlər nəticəsində kənd təsərrüfatında əhəmiyyətli artım baş vermiş, yerli istehsal hesabına daxili bazarda məhsul bolluğu müşahidə olunmuşdur. Bu tendensiya yola saldığımız 2012-ci ildə də davam etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkənin aqrar bölməsində faktiki qiymətlərlə 4 milyard 763,7 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da 2011-ci ilə nisbətən 5,8 faiz çoxdur. İl ərzində bitkiçilik məhsulları 5,8 faiz, heyvandarlıq məhsulları isə 5,9 faiz artmışdır. Bu da, qeyd etdiyimiz kimi, ölkəmizin ərzaq təhlükəsizliyinin təminatına, daxili bazarın tələbatının yerli istehsal hesabına ödənilməsinə mühüm töhfələr vermişdir. Təsadüfi deyil ki, Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı İlham Əliyev bu vacib məsələyə toxunaraq demişdir: "... indi biz özümüzü əsas ərzaq malları ilə təmin edirik. Amma əlbəttə, istərdim ki, biz özümüzü 100 faiz təmin etmək səviyyəsinə çataq. Artıq görülən işlər, xüsusilə iri fermer təsərrüfatlarının yaradılması, meliorativ tədbirlərin görülməsi, kreditlərin verilməsi, infrastruktur, yolların və s. məsələlərin həlli hesabına biz buna nail olacağıq ki, Azərbaycan özünü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etsin... Bu, həm təhlükəsizlik nöqteyi-nəzərdən vacibdir, eyni zamanda, yerli istehsalın gücləndirilməsi deməkdir və dövlətimiz bu məqsədə çatmaq üçün, demək olar ki, hər şeyi edir" [4, s. 2].

Beləliklə, son illər aqrar sahənin inkişafına dövlət dəstəyi xeyli artmış, kənd təsərrüfatında sahibkarlıq hissinin gücləndirilməsi istiqamətində bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir... Yeri gəlmişkən, regionların sosial-iqtisadi inkişafına və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi, "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" ölkə Prezidentinin 2007-ci il 23 yanvar tarixli sərəncamında hər hektar əkin sahəsinin becərilməsində istifadə edilən yanacağa və motor yağlarına görə büdcə vəsaiti hesabına 40 manat yardımın verilməsi, habelə istehsalçılara satılan mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, adıçəkilən sərəncama uyğun olaraq ölkədə buğda istehsalının stimullaşdırılması məqsədilə hər hektar üçün əlavə 40 manat yardımın verilməsi və bütövlükdə sahibkarlara göstərilən hərtərəfli dövlət dəstəyinin gücləndirilməsi ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalının artmasına öz müsbət təsirini göstərmişdir. Təkcə onu demək kifayətdir ki, ilkin məlumatlara görə, yola saldığımız 2012-ci ildə Azərbaycanda qarğıdalı da nəzərə alınmaqla 1030,8 min hektar sahənin hər hektarından orta hesabla 27,2 sentner olmaqla ilkin çəkidə 2 milyon 802,3 min ton taxıl məhsulu toplanmışdır. Bu da əvvəlki illə müqayisədə 343,8 min ton və ya 14 faiz çoxdur. Dənli və dənli paxlalıların isə 65, 9 faizi payızlıq və yazlıq buğdanın payına düşmüşdür. Ötən il ölkə üzrə tütün istehsalı 19,3 faiz artaraq 4,3 min tona çatmışdır. Bununla yanaşı, il ərzində ölkədə 3,6 min hektar sahədə emal üçün şəkər çuğundurunun əkini aparılmış və həmin sahələrdən 175,7 min ton məhsul götürülmüşdür. 2012-ci ildə ölkə üzrə 968,5 min ton kartof, 1milyon 214,9 min ton tərəvəz məhsulu toplanmışdır ki, bu da əvvəlki illə müqayisədə xeyli çoxdur. İl ərzində bostan məhsullarının istehsalı isə bir qədər azalaraq 428 min ton təşkil etmişdir. Ötən il Azərbaycanda meyvə və giləmeyvə istehsalı 44 min ton, üzüm istehsalı 13,1 min ton, çay yarpağı istehsalı isə 33,8 ton artmışdır.

...Kənd təsərrüfatının ikinci mühüm sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi üçün də

ötən il bir sıra vacib işlər görülmüşdür. Belə ki, il ərzində sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər heyvanların məhsuldarlığının yüksəlməsinə və mal-qaranın baş sayının, xüsusən də bu sahədə məhsul istehsalının artmasına səbəb olmuşdur. Belə ki, 2012-ci ildə ölkə üzrə diri çəkidə 478,8 min ton ət. 1719,6 min ton süd, 1226,7 milyon ədəd yumurta və 16,5 min ton yun istehsal edilmişdir ki, bu da əvvəlki illə müqayisədə xeyli çoxdur. Bundan əlavə, heyvandarlığın inkişaf etmiş ənənəvi sahələrindən sayılan iri və xırda buynuzlu mal-qaranın yetişdirilməsi üzrə həyata keçirilmiş tədbirlər də müsbət nəticələr vermiş, 2013-cü il yanvarın 1-nə ölkədə iribuynuzlu mal-qaranın sayı 2703,9 min başa çatmışdır [5, s. 2].

**Ərzaq təhlükəsizliyinin dayanıqlı inkişaf istiqamətləri**

Ərzaq təhlükəsizliyinin dayanıqlı inkişafı sahəsində həyata keçiriləcək tədbirlərin əsas məqsədi-ölkə iqtisadiyyatında aqrar sahənin gəlirlilik və rəqabətqabiliyyətlik səviyyəsinin artırılması, həmçinin onun beynəlxalq iqtisadi sistemə səmərəli inteqrasiya olunmasını nəzərdə tutmalıdır. Ərzaq təhlükəsizliyi isə, əsasən ölkədə kənd təsərrüfatının davamlı inkişafı və ekoloji təmiz, keyfiyyətli yerli ərzaq məhsullarının istehsal həcminin artırılması hesabına təmin edilməlidir.

Fikrimizcə, ölkənin ərzaq təhlükəsizliyini təmin etməsi üçün daxili ehtiyatlarının üzə çıxarılması çox müsbət haldır. Çünki, dayanıqlı ərzaq təhlükəsizliyi eyni zamanda respublikamızın siyasi və sosial-iqtisadi cəhətdən möhkəmliyi deməkdir. Eyni zamanda, istehsal prosesinin elmi əsaslarla təşkil edildiyi şəraitdə yerli məhsullar ekoloji cəhətdən daha təmiz olur, az nəqliyyat xərci ilə bazara daxil olaraq, digər ərazilərdən gətirilən məhsullara nisbətən daha ucuz qiymətə satıla bilər.

Yuxarıda göstərilənlər isə, həm də bu sahələrlə əlaqədar olan sənaye müəssisələrinin xammal ilə təmin olunmasında əvəzedilməz rol oynayır. Bu isə xarici ticarətin strukturunun genişlənməsinə və rəqabət qabiliyyətinin durmadan artmasına təkan verir. Bu zaman, ilk növbədə ət və süd məhsulları, şərab, meyvə-tərəvəz, tütün, çay emal edən müəssisələri misal göstərmək olar. Bununla yanaşı, aqrar sahibkarlıq təsərrüfatlarının bazar iqtisadiyyatı tələblərinə cavab verən qurumlara çevrilməsi üçün, kənddə infrastrukturun inkişafına kömək edən dövlət investisiya siyasətinin aparılması əhalinin ərzaqla, emal sənayesinin yerli xammalla təmin edilməsində mühüm rol oynaya bilər. Bunlara uyğun zəruri tədbirlərin görülməsi, xüsusi proqramların həyata keçirilməsi də yaxın gələcəkdə aqrar sahədə güclü iqtisadi potensialın yaranmasına gətirib çıxarır. Hesab edirik ki, ərzaqla özünü təminetmə həm də ixrac potensialının güclənməsinə, idxalın yalnız zəruri sahələri əhatə etməsinə və bununla yanaşı işsizliyin aradan qaldırılmasına, kənd rayonlarının isə davamlı inkişafına təkan verə bilər.

Bununla yanaşı, kənd təsərrüfatı məhsulları və xüsusən də maddi-texniki ehtiyatlar bazarında qiymət disparitetinin aradan qaldırılmasına uyğun istehsalçılara ödənilən subsidiyaların məbləği elmi təhlillərə əsaslanmalı, güzəştli kreditlərin verilməsi genişləndirilməli, kredit faizlərinin ödənilməsində xüsusi güzəştlər tətbiq edilməli, ixracda rüsumların və vergilərin ləğv edilməsi və yaxud azaldılması, digər tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatında rentabelliyin artmasına, kənd təsərrüfatı məhsulları istehsalçılarının geniş təkrar istehsala marağının stimullaşdırılmasına təkan verərdi.

Hesab edirik ki, ərzaq məhsullarının istehsalı genişləndikcə bu məsələnin əhəmiyyəti nəinki azalmır, eyni zamanda müasir geosiyasi durum və dünyada ərzaq qıtlığının güclənməsi nəticəsində, onun əhəmiyyəti daha da artır. Bununla yanaşı, həyata keçirilən tədbirlərin mühüm istiqamətlərindən biri- ETT-nin nailiyyətlərindən, məhsul istehsalının səmərəli təşkili üçün zəruri olan maddi-texniki resurslardan daha da səmərəli istifadə edilməsindən ibarət olmalıdır. Ərazi və bölmələr üzrə məhsul istehsalının geniş miqyaslı olması, ayrı-ayrı ərazilər üzrə təbii-iqtisadi şəraitin müxtəlifliyi, eyni zamanda şəhərlə kənd arasında məsafənin uzaqlığı nəzərə alınaraq, məhsulların daşınması ilə əlaqədar olan mövsümi xərclərin azaldılmasını, əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsini səmərəli ərzaq bazarının formalaşdırılmasında məhsul keyfiyyətinin yüksəldilməsinə təsir edən amillərin məcmusu kimi də dəyərləndirmək mümkündür.

## Nəticə

Ölkəmizdə ərzaq təhlükəsizliyinin səmərəli təmin edilməsinin prioritet istiqamətlərinə uyğun olaraq, ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

- kənd təsərrüfatı məhsullarının emalı bölmələrinin daha da inkişaf etdirilməsi və onların fəaliyyətinin hərtərəfli stimullaşdırılması;
-zəruri tələbat duyulan və strateji hesab edilən mühüm növ ərzaq məhsulları istehsalı, tədarükü və satışına dövlət qayğısının yüksəldilməsi;
- istehsal edilən daxili ərzaq məhsullarının keyfiyyət parametrlərinin və rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində davamlı tədbirlərin görülməsi;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı prosesində genetik modifikasiya olunmuş orqanizmlər və onların törəmələrindən istifadə edilməsinə sərt qadağaların qoyulması;
- lazımi avadanlıq və cihazları əldə edərək həm yerli, həm də ölkəmizə idxal olunan ərzaq məhsullarının keyfiyyəti və təhlükəsizliyinin monitorinqinin təmin edilməsi, bu istiqamətdə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və s.

## Ədəbiyyat


1. Böyük İqtisadi Ensiklopediya. II cild, Bakı, “Şərq-Qərb”, 2012, 632 s.
2. “Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, “Avropa” nəşriyyatı, 2011, 377 s.
3. “Azərbaycan” qəzeti, 20 aprel 2012-ci il, 8 s.
4. “Azərbaycan” qəzeti, 13 fevral 2013-cü il, 8 s.
5. “Xalq qəzeti”, 5 fevral 2013- cü il, 8 s.


***А.С.Самедова***

## Приоритетные направления обеспечения продовольственной безопасност в Азербайджанской Республике

### Резюме

Одним из важных направлений экономической политики Азербайджана является обеспечение продовольственной безопасности. Продовольственный кризис, сложившийся в глобальном мире, требует более тщательного подхода в исследовании этой проблемы. В нашей стране приоритетными направлениями в обеспечении продовольственной безопасности является принятие государственных программ и других документов, осуществление проектов по улучшение инфраструктуры в регионах, оказание финансовой и технической помощи фермерам и т.д. В статье все выше перечисленные вопросы подробно исследуются.

***Ключевые слова: Азербайджанская Республика, экономическая политика, аграрное предпринимательство и финансовая помощь.***

***A.S.Samedova***

## Priority areas to ensure food securityin the Republic of Azerbaijan

### Summary

One of the important factors in economical politcs of Azerbaijan is industral security. Agrarian politcs of the expence of non-market regultary metods, first of all agrecultural commondity producery to weet the nuds of capital regoures.

***Keywords: Azerbaijans Republic, economic politcs, agrarian and financial help.***

# REGİONAL İQTİSADİYYAT VƏ SAHİBKARLIQ FƏALİYYƏTİ

**UOT 332.122**

***Havva Əsgər qızı ADIGÖZƏLOVA***
***Naxçıvan Dövlət Universitetinin dissertantı***

## NAXÇIVAN MR-DƏ SOSİAL İNFRASTRUKTURUN PERSPEKTİV TƏNZİMLƏNMƏSİ

**Xülasə**

Məqalədə Naxçıvan MR-də sosial infrastrukturun mövcud vəziyyəti, büdcədən infrastrukturlara ayrılan vəsaitlərin həcmi araşdırılmış və regionda sosial infrastrukturun tənzimlənməsinin perspektiv istiqamətləri müəyyənləşdirilmişdir.

***Açar sözlər: sosial infrastruktur, həyat səviyyəsi, əhalinin rifahı, büdcə ayırmaları.***

***

Naxçıvanın sosial-iqtisadi inkişafının perspektiv tənzimlənməsi, onun strateji və bazar tipli inkişaf modelləri və prinsipləri əsasında baş verir. Daha çox ərazi-tənzimləmə prinsipləri əsasında formalaşan iqtisadiyyat regionun inkişafının istiqamətlərini kompleks şəkildə müəyyənləşdirir. İnfrastrukturun inkişafında onun tələbatının həcmi, kommersiya mənfəəti və regionda iş yerlərinin təmin edilməsi məqsədləri əsas götürülür. Naxçıvan MR-də perspektiv layihələr, sosial-iqtisadi inkişaf meylləri və məqsədlər həmin regionun sosial-demoqrafik tərkibi ilə formalaşır. Perspektiv istiqamətlərin əsaslandırılmasının nəzəri əsasını diyarımızda resurs potensialının qiymətləndirmə proqnozlarının verilməsi və uyğun meyylərə resurs potensialı təşkil edir. Naxçıvanın iqtisadi inkişaf konsepsiyası ilk növbədə aşağıdakı əsas istiqamətləri əhatə etməlidir:

1. Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvanda maliyyə-büdcə əlaqələndirilməsi və məhdud resurslar çərçivəsində idxal və ixracın tənzimlənməsi yolu ilə inkişafın dayanıqlığını təmin etmək.
2. Muxtar Respublikanın blokada şəraiti ucbatından qapalı iqtisadiyyatı əsasında yerli potensialdan istifadənin yeni variantlarını tapmaq və əsaslandırmaq.

Naxçıvan MR-də sosial obyektlərin çox hissəsi dövlət tənzimlənməsi və dövlət maliyyə mexanizmləri vasitəsilə fəaliyyət göstərməkdədir. Belə ki, büdcədən ayırmalar birbaşa Muxtar Respublika üzrə maliyyələşdirilir. Blokada şəraitində yaşayan ərazidə təhsil, səhiyyə və mədəniyyət obyektlərinin xərc strukturunda normativ ayırmalar əsas götürülür. Regionda həmçinin daxili resursların yaratdığı yerli büdcəni də gəlirlərin inkişafı müəyyənləşdirir.

***Naxçıvan MR-in dövlət büdcəsinin dinamikası***

| Büdcənin mədaxili və məxarici | 2008-ci il | 2009-cu il | 2010-cu il |
|---|---|---|---|
| 1.Büdcənin gəlirləri, min manat | 57103,7 | 67480,1 | 53037,2 |
| 2.Büdcənin xərcləri, min manat | 308338,5 | 344596,9 | 346676,1 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri 2010. DSK, Bakı, Səda, 2011*

Dövlət büdcəsinin formalaşmasında mərkəzi büdcə ayırmaları birbaşa sosial-iqtisadi inkişafın əsas istiqamətlərinə uyğun planlaşdırılır. Digər tərəfdən Muxtar Respublikada qeyri-dövlət maliyyə tələbləri hesabına yerli gəlirlər formalaşır. Naxçıvanda vergi və sosial müdafiə fonduna ayırmalar yolu ilə yerli büdcə və sosial müdafiə fondu formalaşır.

***Dövlət büdcəsindən infrastruktura ayrılan vəsaitlər.***

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| **5.1** | **Ümumi dövlət xərcləri** | **27 409 900,0** |
| 5.1.1 | Elm xərcləri | 4 249 966,0 |
| **5.2** | **Təhsil** | **75 276 108,0** |
| 5.2.1 | Məktəbəqədər və ibtidai təhsil | 3 815 056,0 |
| 5.2.2 | Natamam və orta təhsil | 49 268 973,0 |
| 5.2.3 | İnternat və xüsusi məktəblər | 605 084,0 |
| 5.2.4 | Texniki-peşə məktəbləri və liseyləri | 2 881 811,0 |
| 5.2.5 | Ali təhsil | 4 915 076,0 |
| 5.2.6 | Təhsil sahəsində tətbiqi tədqiqatlar | 101 899,0 |
| 5.2.7 | Təhsil sahəsində digər xidmətlər | 13 688 209,0 |
| **5.3** | **Səhiyyə** | **23 788 396,0** |
| 5.3.1 | Poliklinikalar və ambulatoriyalar | 4 236 262,0 |
| 5.3.2 | Xəstəxanalar | 16 019 039,0 |
| 5.3.3 | Səhiyyə sahəsində digər xidmətlər | 692 029,0 |
| 5.3.4 | Səhiyyə sahəsinə aid edilən digər xidmətlər | 2 841 066,0 |
| **5.4** | **Sosial müdafiə və sosial təminat** | **13 480 666,0** |
| 5.4.1 | Sosial müdafiə xərcləri | 12 437 611,0 |
| 5.4.2 | Sosial təminat xərcləri | 1 043 055,0 |
| **5.5** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət** | **9 813 662,0** |
| 5.5.1 | Mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 6 880 985,0 |
| 5.5.2 | Radio, televiziya və nəşriyyat | 2 399 797,0 |
| 5.5.3 | Bədən tərbiyəsi, gənclər siyasəti | 323 491,0 |
| 5.5.4 | Digər kateqoriyalara aid edilməyən fəaliyyət | 209 389,0 |
| **5.6** | **Mənzil - kommunal təsərrüfatı** | **17 068 528,0** |
| 5.6.1 | Mənzil təsərrüfatı | 1 059 237,0 |
| 5.6.2 | Kommunal təsərrüfatı | 15 897 376,0 |
| 5.6.3 | Su təsərrüfatı | 111 915,0 |
| **5.7** | **Baytarlıq, meliorasiya, meşə təsərrüfatı, balıqçılıq, ətraf mühitin mühafizəsi və digər xərclər** | **23 985 652,0** |
| 5.7.1 | Baytarlıq, meliorasiya və digər tədbirlər | 22 589 746,0 |
| 5.7.2 | Meşə təsərrüfatı | 464 149,0 |
| 5.7.3 | Balıqçılıq | 19 136,0 |
| 5.7.4 | Ətraf mühitin mühafizəsi | 321 044,0 |
| 5.7.5 | Hidrometeorologiya tədbirləri | 591 577,0 |
| **5.8** | **Tikinti** | **35 000 000,0** |
| **5.9** | **Nəqliyyat və rabitə** | **9 333 840,0** |
| 5.9.1 | Nəqliyyat | 9 308 840,0 |
| 5.9.2 | Rabitə | 25 000,0 |
| | **Cəmi** | **235 156 752,0** |

*Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları*

Dövlətin tənzimləmə siyasəti hər bir sosial qrup üçün aparılan siyasətlə bağlıdır. O cümlədən, sosial müdafiə problemləri Naxçıvanda təhsil, səhiyyə, sosial müavinət sistemi üzrə baş verir.

Muxtar Respublikada iş yerlərinin açılması, sahibkarlığa dəstək proqramlarının tətbiqi əhalinin xüsusi vəsaitlərdən istifadə edilməsini tənzimləyir. Adambaşına düşən xidmət və sosial infrastruktur məhsulunun həcmi müasir şəraitdə sosial təminat səviyyəsini müəyyənləşdirir. Mövcud vəziyyəti normativ göstəricilərlə müqayisə etməklə dövlətin, müəssisənin, təşkilatın, bələdiyyə orqanlarının vəzifələri əsaslandırılır. İdarəetmə baxımından sosial infrastruktur obyektlərinin hər birinin məqsədi resursların və onların istehsal prosesində bölgüsünün səmərəli variantlarını hazırlamaqdır. Regionda istehsal-istehlak və sosial təminat problemləri sistemli və kompleks şəkildə həll olunmalıdır.

Planlaşma obyekti olaraq Naxçıvanda ali məqsədlər - həyat səviyyəsi və rifahın müəyyənləşdirilməsi, hər bir ailənin ehtiyaclarının aşkarlanması vəzifəsi durur. Digər tərəfdən, həyat səviyyəsinin yüksəldilməsinin ayrı-ayrı amillərinin və onların mexanizmlərinin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə sənaye, kənd təsərrüfatı, sosial infrastruktur obyektlərinin kompleks və fərdi fəaliyyət mexanizmləri təkmilləşdirilməlidir.

Naxçıvanın strateji planlaşma obyekti kimi əsas prinsipləri və metodoloji əsasları qlobal iqtisadi, sosial məqsədli proqram layihələrində sosial amillərin təsirini tənzimləmək və idarə etmək vəzifəsi durur. Hər bir sosial infrastruktur layihəsinin özünün proqram çərçivəsində resursları, məqsədləri və mexanizmləri mövcud olur. Belə ki, nəqliyyat sferası bütövlükdə özəlləşib, onun xidmət sferasında xarici və yerli özəl firmalar iştirak edir. Regionun bəzi xidmət və əmtəə bazarları daxili tələbata xə xarici turistlərin, iş adamlarının zövqünə, alıcılıq qabiliyyətinə və istehlak davranışına uyğun transformasiya olunur. Təbii ki, Naxçıvanda daxili tələbatla yanaşı xarici ölkələrin tələbinə və kommersiya maraqlarına uyğun gələn infrastruktur sahələri inkişaf edir. Mobil elektrik istehsalı, su və enerji istehsalından istifadə, kənd aqlomerasiyası, dağ infrastrukturunun kompleks inkişafının əsas istiqamətlərini müəyyənləşdirir.

Sosial infrastruktur obyektlərinin kommersiya planları onların sahə və marketinq planlarının reallaşması ilə vəhdətdə həll olunur. Daha xarakterik cəhət Naxçıvanda şəhər və kəndlər arasında məsafənin, iqtisadi əlaqə və yaşayış tərzinin yaxınlığıdır. Regionda şəhər və kənd sosial infrastruktur obyeklərinin yerləşməsi əhali arasında digər xidmət tələbatını ödəmək üçün yerdəyişməyə də səbəb olur. Burada hər gün 2000 nəfərə qədər insan yerini dəyişir. Bu tələbat bir sıra sosial-iqtisadi və zəruri səbəblər üzündən qurulur. Əhali daha çox Bakı, İran, Moskva, Türkiyəyə miqrasiya edir, yaxud müvəqqəti olaraq yaşayış yerini dəyişir. Bu da turizm xidmətlərinin, otel təsərrüfatının, ictimai iaşə obyektlərinin, əmtəə və xidmət bazarının artırılmasına, onların yerləşməsinə təsir edir. Sosial infrastruktur obyektləri olaraq şəhər mühitində iş yerlərinin olması, sosial infrastrukturun təminat səviyyəsinin yuxarı olması miqrasiyaya səbəb olur. Kənd əhalisi ilə şəhər əhalisi arasında nisbətlər dəyişir. Təminat səviyyəsinə uyğun olaraq kənd əhalisinin təchizatında natural təsərrüfatın, ev təsərrüfatının, istehsal təyinatlı xalq istehlakı mallarının artırılmasına gətirib çıxarır.

Naxçıvanda kəndlərin sosial infrastruktur tələbatının əksər hissəsi ona yaxın olan şəhərlərin hesabına ödənilir. O cümlədən, Naxçıvan, Ordubad, Culfa, Şərur şəhərlərində ticarət müəssisələri, əhaliyə dövlət xidməti idarələrinin yerləşməsi, nəqliyyat ehtiyaclarını ödəməyin şəhər vasitəsilə reallaşmasına səbəb olur. Şəhər və kənd əhalisi arasında inkişaf səviyyəsinə görə fərqlər formalaşır.

Diyarımızda sosial infrastrukturun tənzimlənməsi onun iqtisadi inkişaf strategiyası və müasir tələblərə uyğun inkişaf meylləri ilə əlaqəlidir. Daha çox gömrük, xarici iqtisadi əlaqələr, beynəlxalq hava uçuşları, ticarət əlaqələri və kənd təsərrüfatının inkişafı sosial infrastrukturun modernləşməsi və inkişafı üçün maddi amil və struktur transformasiya modeli yaradır. Muxtar Respublikada əhalinin tələbatı daha çox qida məhsulları və xidmət sferası üçün zəruri şərait yaratmağı tələb edir. Eyni zamanda qeyd etmək yerinə düşər ki, sosial infrastrukturun əsas istiqamətlərindən biri ev təsərrüfatlarına uyğun tənzimlənməni tələb edir.

Regionda qida məhsullarına tələbatın ödənilməsi üçün heyvandarlıq məhsullarının emalı və

onların natural istehlakı üçün zəruri şəraitin yaradılması təşkil edilir. Daha çox süd, ət məhsullarının satışı, emalı üçün zəruri olan anbar, saxlama-soyuducu və nəqliyyat kompleksinin yaradılması əsas istiqamət olaraq formalaşmaqdadır.

Müasir şəraitdə sosial infrastruktur obyektləri bazar tipli modelə uyğun inkişaf üçün müəyyən problemlərlə üzləşir. Daha çox nəqliyyat xidməti, ictimai iaşə, turizm, məişət xidməti, xüsusi təsərrüfata xidmət və əhalinin ev təsərrüfatına yaradılan şərait Muxtar Respublikada infrastrukturun təkmilləşdirilməsi istiqaməti olaraq qiymətləndirilir. Naxçıvanın əhalisinin artımı, mövsümi miqrasiya problemləri, daimi miqrasiya və yerli əhalinin müxtəlif şəhər və dövlətlərdə yaşaması, ticarət və turizm əlaqələri infrastrukturun inkişafının yeni problemlərini və əsas istiqamətlərini müəyyənləşdirir.

Naxçıvan əhalisinin miqrasiyası və onların yaz-yay aylarında yerli təbii sərvətlərin istehlakına tələbatının artması onun iqtisadi inkişafı və sosial infrastrukturu üçün mühüm əhəmiyyət kəsb edir. Muxtar Respublikanın turizm potensialı, onun istifadəsi və inkişaf perspektivlərinin yerli alimlər tərəfindən öyrənilməsi (Ə.X.Cabbarov və b.), onun tənzimlənməsi və perspektiv idarə olunması problemlərinin həlli yolları yeni yanaşmalar ilə bağlıdır. Fikrimizcə, bu sosial amillərə aşağıdakı xidmətləri aid etmək məqsədəuyğun olardı:

* mineral su, duz və digər təbii-coğrafi şəraitin yerli və xarici turistlər üçün istifadəsini genişləndirmək. Gələn turistlərin sayını artırmaqla, qida məhsulları istehsalını və nəqliyyat sistemini, əhalinin xidmət sferasını genişləndirmək;
* Naxçıvanda sərhədyanı ticarət xidməti sferasını genişləndirmək, gömrük rejiminin, gətirilən əmtəə və xidmətlərin yerli istehsalı, onun növ və çeşidinin istehlakçıların tələblərinə uyğun genişləndirilməsi;
* Muxtar Respublika kənd təsərrüfatı məhsullarına xidmət və emal infrastrukturunun dövlət tənzimlənməsinin aqrobiznes, aqrolizinq xidmətini artırmaq;
* regionda beynəlxalq əlaqələrin genişləndirilməsi üçün beynəlxalq hava, yük, kütləvi sərnişin və şəxsi minik avtomobilləri xidmətini, onların gömrük məntəqələrində gediş-gəliş rejimini tənzimləmək;
* Naxçıvanda ev təsərrüfatlarının stimullaşdırılmasına şərait yaradan istehsal, xidmət infrastrukturunu genişləndirmək və onların dövlət nəzarəti sistemini yüksəltmək istiqamətinin prioriteti olaraq himayəçilik siyasətinin formalaşdırılması.

Fikrimizcə, dövlət bu məqsədlə aşağıdakıları tənzimləməlidir:

a) lizinq xidməti üçün avtoparklar, maşın-mexanizmlərin təmiri, tətbiqi və satışı;
b) emal üçün yükdaşıma, saxlama,
c) satış üçün bazarların təşkili, marketinq və konsaltinq xidmətləri;
ç) təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişafı, onların keyfiyyətinin yaxşılaşdırılması üçün məqsədli, proqram xarakterli tədbirlərin həyata keçirilməsi;
d) kənd əhalisinin, o cümlədən şagird və təqaüdçü kontingentinin ictimai fəaliyyəti, birgə istirahəti, sərbəst vaxtın mənəvi ehtiyaclarına xidmət edən infrastrukturların genişlənməsi;
e) Naxçıvanın kəndlərində əhalinin xüsusi vəsaitlərinin saxlanılması, istifadəsi və icarəsi üçün xüsusi xidmət sferasının, bank, sığorta şirkətlərinin fəaliyyətinin təşkili və idarə olunması;
ə) kənd əhalisinin xidmət istehlakını artırmaq üçün xidmət sferasında özəlləşdirmə, fərdi istehlak obyektlərinin artırılması, onların hər kənddə və kəndlərarası komplekslərdə təşkili;
i) regionda bir sıra dağ və bulaq başlarında istirahət obyektləri, tələbə və gənclər üçün yay turizm-istirahət bazalarının yaradılması;
f) Duzdağ sanatoriyasının ətrafinda müxtəlif mənbələr hesabına müalicə ocaqlarının tikilməsi, fəaliyyət göstərən idman, istirahət və turizm obyektlərinin genişləndirilməsi və s.

Naxçıvan MR-də sosial infrastruktur obyektlərində dövlət sahibkarlığı və himayəsi böyük xüsusi çəkiyə malikdir.

**Ədəbiyyat**


1. Ə.Q.Əlirzayev. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, 2010.
2. A.Abdullayev. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, 2003.
3. H.B.Allahverdiyev, K.S.Qafarov, Ə.M.Əhmədov. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 2002.
4. Əliyev A.Ə., Quliyev A.F. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Monoqrafiya. Bakı, "Adiloğlu", 2005.


*Хавва Адыгезалова*

**Долгосрочное регулирование социальной инфраструктуры в Нахичеванской Автономной Республике**

**Резюме**

В статье исследуется нынешнее состояние социальной инфраструктуры в Нахичеванской АР, выделенные на инфраструктуры бюджетные средства и определяются перспективные пути урегулирования социальной инфраструктуры региона.

***Ключевые слова: социальная инфраструктура, жизненный уровень, благосостояние населения.***

*Havva Adiqezalova*

**The long-term regulation social infrastructure in the Nakhchivan Autonomous Republic**

**Summary**

This article examines the current state of social infrastructure in the Nakhchivan Autonomous Republic, dedicated to the infrastructure budget and identify promising ways to resolve the social infrastructure of the region.

***Key words: social infrastrukture, quality of life, welfare population.***

**UOT 334.7**

***Nurxanım Nizaməddin qızı DADAŞOVA***
***Azərbaycan Dövlət Neft Akademiyasının baş müəllimi***

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN FORMALARI, İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Bu məqalədə müasir dövrdə sahibkarlıq fəaliyyətinin mahiyyəti, onun təzahür formaları, inkişaf istiqamətləri və bu fəaliyyətin qiymətləndirilməsi öz əksini tapmışdır. Eyni zamanda bu məqalədə sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi formaları, mülkiyyət formalarına görə fərqlənən müəssisələrin sahibkarlıq fəaliyyətindəki rolundan bəhs edilir.

***Açar sözlər: innovasiya, beynəlxalq sahibkarlıq, françayzinq, mülkiyyət formaları, elmi-texniki tərəqqi, reklam.***

## Giriş

Müasir dövrdə sahibkarlıq fəaliyyəti fiziki və hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə təsərrüfat fəaliyyətinin bütün növləri ilə məşğul olan müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan bütün təsərrüfat subyektləri qarşıya qoyulmuş məqsədlərə yalnız yeni və yaradıcı kombinasiyaların qurulması, təşəbbüskarlıq və sair keyfiyyətlərin tətbiq olunması ilə nail ola bilərlər.

Sahibkarlıq bazar iqtisadiyyatının formalaşmasının inkişafının və sosial, siyasi gərginliyinin aradan qaldırılmasının əsas şərtidir. Sahibkarlığın obyekti kimi iqtisadi fəaliyyət növü çıxış edir. Konkret olaraq bu fəaliyyət əmtəə istehsalı, onların satışı və müxtəlif növ xidmətlər göstərilməsi formasında həyata keçirilir.

Sahibkarlıq mürəkkəb bir iqtisadi məzmuna malikdir. O, ilk növbədə iqtisadi kateqoriyadır. İqtisadi fəaliyyətin müxtəlif növləri üzrə iqtisadi əlaqələrə girən bazar subyektləri arasında qarşılıqlı münasibətləri əks etdirir. İkincisi, səmərəli təsərrüfatçılıq tipidir, çünki ən az məsrəflərlə, əməyin və istehsalın təşkilinin ən səmərəli metodlarını tətbiq etməklə iqtisadi fəaliyyəti həyata keçirməyə yönəlmişdir. Üçüncüsü, sahibkarlıq iqtisadi təfəkkür tərzidir, çünki o, tələbata uyğun məhsullar istehsal etmək və satmaq, istehlakçılara yüksək keyfiyyətli xidmətlər göstərmək kimi hissləri tərbiyə edir. Sahibkarlığın bazar iqtisadiyyatı şəraitində iqtisadi fəaliyyətinin həyata keçirilməsi ən vacib prinsiplərdən birinə - sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyətinin azadlığına, müstəqilliyinə əsaslanır. Buna qısaca olaraq azad sahibkarlıq da deyilir.

Azad sahibkarlıq, yaxud iqtisadi azadlıq insanın məxsus olduğu müxtəlif məhsullar, o cümlədən istehsal vasitələri, pulu, habelə öz iş qüvvəsi üzərində azad surətdə sərəncam vermək deməkdir. İqtisadi azadlıq prinsipinin iki tərəfini bir-birindən fərqləndirmək lazımdır. Bir tərəfdən fəaliyyətdə olan hər bir subyektin verilməsidir ki, bunun da nəticəsində o, öz şəxsi işini həyata keçirir, öz bacarıq və istədiyini hər hansı bir konkret sahədə reallaşdırır. Digər tərəfdən isə, iqtisadi azadlıq özünü sahibkarlıq fəaliyyəti qarşısında keçilməz sədd kimi dayanan qadağaların aradan qaldırılmasında göstərir.

## Sahibkarlıq fəaliyyətinin formaları

Sahibkarlıq fəaliyyətində iqtisadi azadlıq prinsipinin ən təzahür forması mülkiyyət formasıdır. Mülkiyyət azadlığının iqtisadi və hüquqi tərəflərini bir-birindən fərqləndirmək lazımdır. Bu prosesin iqtisadi tərəfi özünü istehsalın şərtləri və nəticələrinin hər hansı bir subyekt tərəfindən azad surətdə mənimsənilməsində, yəni öz sahibinə müxtəlif formada gəlir gətirməsində əks etdirir. Mülkiyyət azadlığının hüquqi tərəfi isə sahibkarlıq fəaliyyətinin subyektinin öz mülkiyyəti üzərində azad surətdə sərəncam vermək, ondan istifadə etmək hüququna malik olmasıdır.

Sahibkarlıq fəaliyyətinin ən vacib cəhətlərindən biri ağıllı risk bacarığıdır. Bazar iqtisadiyyatı

amansız risklərlə bağlıdır. Həm də sahibkarın həyata keçirmək istədiyi işin həcmi və müddəti nə qədər çox olarsa, onun riski də bir o qədər yüksək olar. Belə halda əmtəəyə tələbatın dəyişməsi, hazır məhsulun qiymətinin qalxıb-enməsi, yeni kapital qoyuluşunun həyata keçirilməsi üçün zəruri maliyyə imkanlarının artıb-azalması ehtimalları daha yüksək olur.

Beləliklə, sahibkar ağıllı risk etmək, həyata keçirmək istədiyi layihəni elmi-texniki, iqtisadi, kommersiya və sosial cəhətdən ətraflı təhlil etmək, digər mümkün alternativ layihələri qiymətləndirə bilmək bacarığına və imkanına malik olmalıdır. Yalnız bu halda sahibkarın həyata keçirmək istədiyi işin risk dərəcəsi də aşağı olur.

Real həyatda sahibkarlıq fəaliyyətinin müxtəlif formalarda təzahür etməsi onları səciyyələndirən bir sıra cəhətlərlə bağlıdır. Sahibkarlıq fəaliyyəti istehsalın təşkili və idarə olunma formalarına, keyfiyyətlərinə, məşğuliyyət formalarına görə bir-birindən fərqlənir.

Sahibkarlıq fəaliyyətinin təzahür formaları müxtəlif mülkiyyət və təsərrüfat formalarının inkişafı ilə daha çox bağlıdır. Sahibkarlıq fəaliyyəti mülkiyyət formalarına görə fərdi, kollektiv, dövlət, birgə (müştərək), xarici formalara, işgüzar fəaliyyətin həcminə görə istehsal, innovasiya, vençur, françayzinq, kommersiya, maliyyə, konsultativ, marketinq və s. ərazi (region) meyarlarına görə yerli, regional, beynəlxalq və s. sahibkarlıq formalarına bölünür. Müasir şəraitdə bazar münasibətlərinin daha da inkişafı və genişlənməsi, elmi-texniki tərəqqinin əsas istiqamətlərində yeni kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verməsi sahibkarlıq fəaliyyətinin yeni təzahür formalarının daha da fəallaşmasına və onların təsiredici gücünün artmasına şərait yaradır. Sahibkarlıq fəaliyyətinin müasir təzahür formaları sahibkarlıq mühitinə uyğun olaraq qarşılıqlı surətdə fəaliyyət göstərir. Xüsusilə bazar münasibətləri şəraitində sahibkarlıq fəaliyyətinin təzahür formaları kimi fərdi (xüsusi), kiçik, orta və iri sahibkarlıq formaları, eyni zamanda innovasiya, vençur, françayzinq, kommersiya və digər sahibkarlıq növləri və yerli regional və beynəlxalq sahibkarlıq formaları işgüzar prinsiplərə görə bir-birindən asılı olaraq fəaliyyət göstərir. Bir cəhəti də qeyd etmək olar ki, sahibkarlığın bütün formaları innovasiya sahibkarlığının fəaliyyəti ilə bilvasitə bağlıdır və onların bütün problemlərinin reallaşması kiçik, orta və iri müəssisələrin qarşılıqlı fəaliyyəti ilə baş verir. Bazar münasibətləri tələblərinə uyğun olaraq mövcud şəraitdə istehsal amillərindən (maddi və şəxsi), mənəvi və intellektual resurslardan daha səmərəli və optimal meyarlarla istifadə etməklə yüksək maddi nəticələrə nail olunması sahibkarlıq formalarının effektiv olmasını təsdiq edir.

Sahibkarlıq fəaliyyətinin təzahür formalarının daha effektiv olmasını şərtləndən amillərdən biri texniki tərəqqinin sürətlənməsidir. Belə ki, elmi-texniki tərəqqinin ən yeni nailiyyətləri əsasında sahibkarlıq formalarının reallaşmasında və inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş verir. Belə ki, kiçik həcmli müəssisələrdə istehsalın idarə olunmasına təkan verən az kapital tutumuna malik olan müasir tipli dəzgahlardan və digər texnoloji vasitələrdən istifadə olunmasına şərait yaranmışdır. Bununla yanaşı sahibkarlıq formalarının daha da fəallaşması yeni və çevik informasiya texnologiyasından, kommunikasiya sistemindən və digər xidmət növlərindən geniş surətdə istifadə olunmasına şərait yaratmışdır. Sahibkarlıq fəaliyyətində elmi-texniki tərəqqinin göstərilən üstünlüklərindən daha səmərəli istifadə olunması kiçik və orta sahibkarlığın rəqabət qabiliyyətini artırır və onların məqsədlərinin reallaşmasına şərait yaradır. Kiçik və orta sahibkarlıq fəaliyyətində texnoloji yeniləşmə, dinamik inkişaf meyillərinin daha da güclənməsi ölkə iqtisadiyyatının kompleks və hərtərəfli surətdə inkişafını təmin edir.

Müasir dövrdə sahibkarlıq fəaliyyətinin təzahür formaları və növləri müxtəlifdir. Lakin onların yardılması və fəaliyyət prinsipləri mülkiyyət meyarına və potensial imkanlarına görə müəyyən olunur.

**Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi formaları**

Müasir bazar iqtisadiyyatının formalaşması prosesi sahibkarlıq fəaliyyətinin yeni təşkilati-hüquqi formalarının meydana gəlməsinə səbəb olmuşdur. Mülkiyyət və təşkilati-hüquqi forma-

sından asılı olmayaraq sahibkarlığın bütün formaları bərabər hüquqludur. Sahibkarlığı bir sıra əlamətlərinə görə formalara ayırmaq olar. Ümumiyyətlə, sahibkarlıq fəaliyyəti təşkilati-hüquqi şəxs yaratmaqla və hüquqi şəxs yaratmadan həyata keçirilə bilər. Hər iki formada sahibkarlıq fəaliyyətinin baş verməsi və həyata keçirilməsi sahibkarların məqsədindən, iş prinsiplərindən, risketmə qabiliyyətlərindən, kapital həcmindən asılıdır. Mülkiyyət meyarlarına xüsusi mülkiyyətə əsaslanan xüsusi sahibkarlıq; dövlət mülkiyyətinə əsaslanan dövlət sahibkarlığı; birgə (kollektiv, qarışıq) mülkiyyətə əsaslanan birgə (qarışıq, kollektiv) sahibkarlıq formalarını aid etmək olar.

Xüsusi sahibkarlıq bazar iqtisadiyyatının əsas atributu kimi mülkiyyətin xüsusi formalarının səmərəli surətdə reallaşmasını ifadə edir. Xüsusi mülkiyyətə əsaslanan xüsusi sahibkarlıq təsərrüfat fəaliyyətinin daha fəal, işgüzar iştirakçısı kimi çıxış edir. Uzun müddət bazar iqtisadiyyatı yolu ilə gedən ölkələrdə xüsusi sahibkarlıq iqtisadiyyatın əsasını təşkil edir. Belə ki, həmin ölkələrdə bazar iqtisadiyyatı xüsusi (özəl) bölmənin daha üstün inkişafına əsaslanır. Xüsusi sahibkarlığa (özəl bölməsinin) əlverişli şərait yaradılması iqtisadiyyatın sosial-iqtisadi səmərəlilik dərəcəsinin yüksəlməsinə və son nəticədə əhalinin həyat səviyyəsinin yaxşılaşmasına təsir edir.

Xüsusi sahibkarlığın ilkin və klassik formasından biri fərdi (xüsusi) sahibkarlıqdır. Fərdi sahibkarlıq bir nəfərin və ailə üzvlərinin xüsusi mülkiyyətinə əsaslanır, bir nəfərin və ya ailənin biznes fəaliyyəti başa düşülür.

Təşkilati-hüquqi baxımdan fərdi müəssisə (firma) həmin fəaliyyətin özəyini təşkil edir.

İqtisadiyyatda fərdi (xüsusi) sahibkarlığın fəaliyyətinin bir sıra üstün cəhətləri vardır:

- fərdi sahibkarlar öz fəaliyyətində (davranışlarında) tam müstəqilliyə malikdirlər, belə ki, müqavilə və sazişlər bağlanılmasında, fəaliyyət formasının seçilməsində və ümumi mal dövriyyəsinin həcminin müəyyən olunmasında tam iqtisadi müstəqillik və azadlıq hüququnu əldə etmişlər;
- onlar son gəlirin (mənfəətin) əldə olunmasında və bölüşdürülməsində öz sahibkarlıq hüququnu qoruyub saxlayır və işin nəticəsinə görə daim maraqlı olurlar;
- fərdi (xüsusi) sahibkarlar işlərində olduqca dəqiq və ciddi olurlar, müəssisəni rəqabətdən qorumaq üçün öz fəaliyyətləri haqqında heç kimə sirr vermirlər, işin gedişinə daim nəzarət edirlər;
- fərdi müssisədə gəlirə bircə dəfə vergi qoyulur;
- müəssisənin satılmasında, bağışlanmasında, icarəyə verilməsində tam sərbəstliyə malikdirlər;
- fərdi (xüsusi) müəssisələrin üzərində sahibkarların sahib olma, sərəncam vermə, istifadə etmə və mənimsəmə hüquqları vardır;
- fərdi müəssisənin yaradılması və ləğv edilməsi asandır.

Göstərilən müsbət cəhətlərlə yanaşı fərdi (xüsusi) sahibkarlıq fəaliyyətində mənfi cəhətlər də mövcuddur. Onlar aşağıdakılardan ibarətdir:

- fərdi (xüsusi) sahibkarlar götürdükləri öhdəliklərə, malik olduqları əmlaka görə digərləri qarşısında məsuliyyət və cavabdehliyə malikdirlər;
- onların maliyyə imkanları olduqca məhduddur;
- fərdi (xüsusi) sahibkarlıq uzunömürlü olmadığına görə digər strukturlarla və təşkilatlarla qarşılıqlı əlaqəsi zəif olur;
- fərdi (xüsusi) sahibkarlar sərt rəqabətə tab gətirə bilmirlər;
- fərdi müəssisələrin yerləşməsi, idarə olunması, məhsul buraxılışının məsuliyyəti və ağırlığı təkbaşına sahibkarın üzərinə düşür;
- fərdi müəssisələrdə işçilərin sayı az və zəif olduğuna görə ixtisaslaşma imkanları mümkün deyildir;
- fərdi (xüsusi) sahibkarlıq fəaliyyəti sadə (bəsit) və ilkin formada olmasına baxmayaraq dünya ölkələrində daha geniş yayılmışdır;

Respublikada yeni iqtisadi sistemin formalaşması sahəsində fərdi (xüsusi) sahibkarlığın müxtəlif fəaliyyət növləri daha üstünlük təşkil edir. Belə sahibkarlıq forması istehsalda, ticarətdə, ictimai iaşədə, ev sənətkarlığında, tikintidə, elm, səhiyyə, texnika sahələrində daha çox inkişaf etmişdir.

Fərdi sahibkarlar öz maliyyə (milli kapital) imkanlarına daha çox əsaslanaraq həmin fəaliyyət növlərilə məşğul olurlar.

Respublika miqyasında sahibkarlığın normal və tarazlı inkişafı sahibkarlığın təşkilati-hüquqi formalarının intensiv fəaliyyətindən daha çox asılıdır.

**Mülkiyyət formalarına görə fərqlənən müəssisələrin sahibkarlıq fəaliyyətində rolu**

Sahibkarlıq fəaliyyətinin əsas özəyini və ilkin struktur vahidini müəssisə (firma) təşkil edir. Bu onunla şərtlənir ki, sahibkarlığın bütün fəaliyyət formaları müəssisələrin (firmaların) təşkili və idarə olunması ilə daha çox bağlıdır. "Müəssisələr haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir: "müəssisə-mülkiyyət formasından asılı olmayaraq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət olması məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən hüquqi şəxs olan təsərrüfat subyektidir. Dövlət, kollektiv, xüsusi və qarışıq mülkiyyət formalarına əsaslanan növləri fəaliyyət göstərir ".

Ölkədə müəssisələrin təşkilati-hüquqi fəaliyyəti milli qanunlar və qanunvericilik aktları əsasında müəyyən olunur. Kiçik müəssisələr fərdi (xüsusi) sahibkarlığın daşıyıcısı kimi çıxış edir.

Respublikada kiçik müəssisələrin yaranması və fəaliyyətə başlaması ilk dəfə olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1990-cı il 12 oktyabr tarixli 480 saylı qərarı ilə nizamlanmışdır. Bu dövrdə kiçik müəssisələrin formalaşması prosesi iqtisadi sistemə keçidin zəruri tələbi idi.

Xüsusilə, Azərbaycanda bazar münasibətlərinin formalaşması dövründə kiçik müəssisələrin rolunu və çevik fəaliyyətini xüsusi bir qanunauyğunluq kimi qəbul etmək olar.

Artıq bir neçə ildir ki, respublika iqtisadiyyatında kiçik sahibkarlıq strategiyasının real praktiki əsasları səmərəli şəkildə fəaliyyət göstərir.

Kiçik iqtisadiyyat respublikada yeni formalaşan xüsusi mikroiqtisadi özəkdir. Bu iqtisadiyyatı inkişaf etdirən, hərəkətə gətirən və ona sövqedici motiv verən kiçik və orta müəssisələrdir. Kiçik müəssisələrin fəallaşması digər müəssisə formalarının inkişafına da təkan verir. Belə ki, ölkədə kiçik müəssisələrin rolunun daha da artması özəl sektorun inkişafına təsir göstərmişdir.

Mülkiyyət meyarlarına görə fərqlənən digər sahibkarlıq formalarına şərikli (müştərək) müəssisələr, kooperativlər, səhmdar cəmiyyətlər, şirkətlər, korporasiyalar, konsorsiumlar və s. daxildir.

Kollektiv və ya şərikli mülkiyyətə əsaslanan birgə sahibkarlıq əsas etibarilə birgə (müştərək) müəssisələrin, müxtəlif növlü təsərrüfat cəmiyyətlərinin fəaliyyəti vasitəsilə təzahür edir.

Şərikli (müştərək) mülkiyyət bazası əsasında sahibkarlıq fəaliyyəti bir neçə təsisçinin ümumi pay kapitalına görə yaradılır. Şərikli(müştərək) müəssisənin hər bir üzvü həm təsisçi, həm də mülkiyyətçi simasında çıxış edə bilər.

Şərikli (müştərək) müəssisələrin malik olduğu üstünlüklərə aşağıdakıları aid etmək olar:

- şərikli müəssisələrin maliyyə bazası digərlərinə nisbətən daha geniş və möhkəmdir;
- həmin müəssisələrin fəaliyyətində və idarə olunmasında təsisçilər (üzvlər) arasında vəzifə bölgüsü aparılır və ixtisaslaşma imkanlarından istifadə edilir;
- şərikli müəssisələri təsisçilərin ümumi razılığı əsasında menecerlər vasitəsilə idarə etmək mümkündür;
- şərikli müəssisələr müxtəlif və geniş profilli fəaliyyətlə məşğul ola bilər.

Kollektiv və ya birgə (müştərək) sahibkarlığın bu formasında üstün cəhətlərlə yanaşı bir sıra çatışmazlıqlar da mövcuddur. Belə ki, şərikli müəssisələrin təşkil olunmasında sənədləşmə əməliyyatları və razılaşma prosesinə çox vaxt sərf olunur, xüsusilə gəlirlərin bölgüsündə təsisçilər arasında tez-tez ziddiyyət baş verir. Həmin müəssisələr istehsalda deyil, ticarət, xidmət, ictimai iaşə, tikinti və digər sahələrdə daha tez bir zamanda səmərə verə bilir. Şərikli (tam ortaq) müəssisələrin göstərilən çatışmazlıqları bir daha təsdiq edir ki, kollektiv sahibkarlığın bu formasından dünyanın bir sıra ölkələrində az istifadə olunur. Dünyanın bir sıra ölkələrində şərikli (tam ortaqlı) müəssisələrdən fərqli olaraq təkmilləşmiş payçı və şərikli (komandit) tipli müəssisələr daha çox

fəaliyyət göstərir. Payçı və şərikli (komandit ortaqlıqlar) müəssisə azı bir şərik və bir payçı tərəfindən təsis edilir. Həmin müəssisələrdə şərik müəssisənin öhdəliklərinə və borclarına görə özünün bütün əmlakı ilə, payçı isə yalnız müəssisəyə verdiyi pay həcmində məsuliyyət daşıyır. Respublikamızda bazar iqtisadiyyatının formalaşması prosesində birgə sahibkarlığın şərikli (tam ortaqlı), payçı və şərikli (komandit) formaları müəyyən səviyyədə inkişaf etmişdir.

Birgə (kollektiv) mülkiyyətə əsaslanan sahibkarlığın mühüm formalarından biri də kooperativlərdir. Kooperativ sahibkarlığın şərikli müəssisələrin fəaliyyətilə oxşar cəhətləri çoxdur. Kooperativlər kooperativ üzvlərinin könüllü olaraq maddi və pul vəsaitlərinin birləşməsi əsasında yaradılır. Kooperativ üzvləri istehsal-təsərrüfat fəaliyyətinə və öz əmlaklarına görə məsuliyyət daşıyır. Kooperativlərin idarə olunmasında məsuliyyət koorperativ üzvlərinin içərisindən seçilmiş idarə heyətinin üzərinə düşür. Kooperativ sahibkarlığın başlıca məqsədi daha çox gəlir əldə etmək hesabına öz nizamnamə kapitalının həcmini artırmaqdır. Kooperativ hərəkatı sahibkarlığın bütün növlərinin inkişafında mühüm rol oynayır. Dünya ölkələrinin əksəriyyətində istehsal, istehlak, satış xidmətlərində koorperativlər daha geniş fəaliyyət göstərir. Ümumiyyətlə, koorperativ hərəkatı bəzi dünya ölkələrində kiçik sahibkarlığın deyil, orta və iri sahibkarlığın təşkili forması kimi meydana çıxmışdır. Bunlarla yanaşı kooperativ sahibkarlığın müasir inkişaf xüsusiyyətləri haqqında bir sıra tənqidi baxışlara da rast gəlinir. Həmin baxışlara görə kooperativ müəssisələr gəlirlərin bölgüsünün “qeyri-kapitalist” meylini yaradır, informasiya prosesini tormozlayır, struktur dəyişikliklərini çətinləşdirir. Başqa mütəxəssislərin fikirlərində göstərilir ki, kooperativ sistemi işçilərin öz mülkiyyətinə və əməyinə əsaslandığına görə belə müəssisələri “kollektivin mülkiyyəti” və ya “işçilərin mülkiyyəti” adlandırmaq məqsədəuyğundur. Bəzi iqtisadçı-alimlər kooperativ müəssisələri “xalq müəssisələri” və Yuqoslaviya təcrübəsi əsasında işçilərin özünüidarəetmə müəssisələri adlandırırlar. Belə adlar altında işlənilən mülkiyyət formaları xüsusi mülkiyyətin xüsusi növü kimi qəbul edilir.

Kooperativ sahibkarlıq haqqında mütəxəssislərin irəli sürdükləri fikirlərlə müəyyən mənada razılaşmaq olmaz. Belə ki, hər bir ölkənin mülkiyyət və təsərrüfat formalarının inkişafının onların iqtisadi və milli xüsusiyyətlərindən, təşkilati və idarəetmə strukturlarından asılı olduğu hökmən nəzərə alınmalıdır.

Respublikamızda bazar iqtisadiyyatının formalaşması prosesində digər mülkiyyət formaları ilə yanaşı müxtəlif sahələrdə kooperativ sahibkarlığın inkişafına da əlverişli şərait yaradılmışdır.

Respublikada fəaliyyət göstərən kooperativ müəssisələrin əksəriyyəti mənfəətlə işləyə bilmir. Onların sahibkarlıq fəaliyyətinə maneçilik törədən mühüm səbəblərə maliyyə bazasının zəif olması, xammal və yarımfabrikatların baha qiymətə alınmasıdır. Bu səbəblər istehsal olunmuş məhsulların xərclərinin artmasına, qiymətlərin yüksək olmasına gətirib çıxarır ki, bu da kooperativ müəssisələri öz məhsullarını reallaşdırdıqda ciddi çətinliklərlə rastlaşdırır. Kooperativ müəssisələr mövcud çətinliklərdən azad olmaq üçün bazar rəqabətini izləməli və istehsalı çevik metodlarla idarə etməlidir. Kollektiv (birgə, müştərək) sahibkarlığın əsas və mütərəqqi formalarından biri səhmdar cəmiyyətlərdir.

Azərbaycanda səhmdar cəmiyyətlərin yaradılması əsasən özəlləşdirmə prosesinin həyata keçirilməsi ilə bağlı olmuşdur. Səhmdar cəmiyyətləri strateji özəlləşdirmənin mühüm yolu kimi qəbul etmək olar. Son dövrdə kiçik və orta özəlləşdirmə nəticəsində 1550-dən çox orta və iri müəssisə səhmdar cəmiyyətə çevrilmişdir.

Kollektiv sahibkarlığın inkişafında şirkətlər (kompaniyalar), korporasiyalar, konsernlər, konsorsiumlar, transmilli korporasiyalar, sənaye-maliyyə qrupları və digər işgüzar birlik formaları xüsusi rol oynayırlar. Son illərdə respublikada kollektiv sahibkarlıq fəaliyyətinə güclü təkan verən və beynəlxalq (xarici) kapitalın bilvasitə reallaşmasına xidmət edən belə birlik formalarına əlverişli şərait yaradılmışdır. Xüsusilə, ölkəmizin sənaye, ticarət, ictimai iaşə, tikinti, rabitə və digər sahələrində həmin kompaniyaların (şirkətlərin) rolu və fəaliyyət dairəsi gündən-günə artır. Azərbay-

canda neft sektorunda sahibkarlığın inkişafında şirkətlərin (kompaniyaların), korporasiyaların, konsorsiumların rolu və fəaliyyət olduqca böyükdür. Belə işgüzar birlik formaları ölkədə digər fəaliyyət sahələrində də sahibkarlıq formalarının inkişafına təkan verir.

Sahibkarlıq fəaliyyətinin formalaşmasında və inkişafında dövlət sahibkarlığı da mühüm rola malikdir. Dövlət sahibkarlığı Azərbaycan Respublikası qanunlarının tələbləri və vəzifələrinə uyğun olaraq fəaliyyət göstərir.

Dövlət mülkiyyətinə əsaslanan sahibkarlıq fəaliyyəti iqtisadiyyatın tənzimlənməsi prosesinin mühüm istiqamətlərindən biri kimi çıxış edir. Əksər hallarda dövlət sahibkarlığı müəssisələrə dövlət sifarişinin verilməsi, iqtisadiyyatda inhisarçılığın aradan qaldırılması, səmərəli (optimal) strukturların yaradılması fəaliyyətinə xidmət edir.

Dövlət sahibkarlığının fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, bazar münasibətləri şəraitində digər bazar subyektləri ilə bərabər hüquqlarla iqtisadi fəaliyyətdə iştirak edərək mülkiyyətin bütün formalarının inkişafına eyni şəraitin (mühitin) yaradılmasını təmin edir. Dövlət sahibkarlıq fəaliyyətini tənzim etməli, onu müdafiə etməli, istiqamətləndirməli, həvəsləndirməli, nəzarət etməli və lazım gələrsə məhdudlaşdırıcı tədbirlər sistemi həyata keçirməlidir.

Ümumi sahibkarlıq fəaliyyətində dövlət sahibkarlığının üstünlüyü onun möhkəm təminatlı və maliyyə bazasının güclü olması ilə şərtlənir. Dövlət sahibkarlıq funksiyalarını həyata keçirərkən xarici kapitaldan (kredit və investisiya vəsaitindən) səmərəli surətdə istifadə etməyi məqsədəuyğun hesab edir. Dövlət sahibkarlığı geniş və əhatəli bazar infrastrukturuna malikdir. Dövlət sahibkarlıq fəaliyyətində başqa sahibkarlar qarşısında bütün öhdəliklərini və borclarını vaxtında yerinə yetirir. Dövlət sahibkarlığı bir sıra üstünlüklərə malikdir:

- dövlət müəssisələri xüsusi (özəl) bölmənin öz kapitalını yönəltmək imkanı olmadığı və bacarmadığı sahələrdə sahibkarlıq fəaliyyətilə məşğul olur;
- dövlət sahibkarlığının fəaliyyətində iqtisadiyyatın normal fəaliyyətini təmin edən strateji sahələr: yanacaq-enerji təminatı, nəqliyyat, rabitə, tərsanələr, tətbiqi resurslar və s. xüsusi yer tutur;
- dövlət müəssisələrinin xeyli hissəsi daha strateji əhəmiyyətli təbii ehtiyatların hasilatı ilə məşğul olur;
- dövlət müəssisələrinin xeyli hissəsi elmi-texniki tərəqqinin nailiyyətlərini əks etdirən elmtutumlu sahələrin inkişafına xidmət edir;
- dövlət müəssisələri xarici ölkələrlə iqtisadi, ticarət, elmi-texniki əlaqələrin yaradılmasında və inkişafında həlledici rola malikdir.

Dövlət sahibkarlığı daha güclü inkişaf meyarlarına malik olsa da, perspektivdə xüsusi (özəl) sahibkarlıq daha da genişlənərək bütün üstünlükləri ələ keçirəcəkdir.

Müasir şəraitdə sahibkarlıq fəaliyyətinin müxtəlif istiqamətləri (növləri) təzahür edir. Sahibkarlığın həmin növlərinə istehsal, kommersiya, maliyyə, innovasiya, konsultativ, vençur, françayzinq və digərlərini aid etmək olar.

Sahibkarlıq fəaliyyətinin növləri içərisində istehsal sahibkarlığı ən prioritet və aparıcı sahələrdən biridir. Respublikada istehsal sahibkarlığı digər sahələrə nisbətən zəif inkişaf etmişdir. Son dövrdə dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin tənzimlənməsi, xarici investisiyaların cəlb olunması, kredit sisteminin təkmilləşdirilməsi və s. mexanizmlərin işə salınması nəticəsində sənayenin müxtəlif sahələrində (əsasən neft sektorunda, kimya, metallurgiya, maşınqayırma, yeyinti, yerli və yüngül sənaye sahələrində), tikintidə, kənd təsərrüfatında istehsal sahibkarlığının xeyli dərəcədə rolu artmışdır.

Artıq Azərbaycanda innovasiya sahibkarlığı özünə yeni istiqamət götürmüşdür. Lakin istehsal sahələrinin müasir texnika və texnologiya ilə silahlaşma səviyyəsi bu sahibkarlığın inkişafını zəruri edir.

Son dövrdə ölkəmizdə innovasiya sahibkarlığının daha da inkişafı naminə innovasiya mərkəzi yaradılmışdır. İnnovasiya sahibkarlığı elmi-texniki yeniliklərin, ideyaların, ixtiraların əldə olunması və iqtisadi cəhətdən reallaşdırılmasına xidmət edir. İnnovasiya prosesi yeni növ məhsulların mə-

nimsənilməsi və buraxılan məhsulun modernləşdirilməsi, yeni maşın, avadanlıq və materialların istehsala tətbiq olunması, istehsalın təşkili və idarəetmənin mütərəqqi metodlarının tətbiqi və istifadə olunması üzrə bütün xidmət sferasını əhatə edir.

**Nəticə**

Keçid dövründə sahibkarlığın müəyyən növləri daha çox inkişaf etmişdir, xüsusilə kommersiya, xidmət, məsləhət xarakterli sahibkarlıq növlərinin daha çox üstünlük təşkil etməsi nəzərə çarpmışdır.

Ölkəmizdə vençur, françayzinq sahibkarlığının və biznes fəaliyyətinin inkişafına əlverişli şərait yaradılmalı və inkişaf etmiş ölkələrin bu sahədəki təcrübəsindən səmərəli istifadə olunmalıdır.

Bu gün inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi göstərir ki, müasir dövrdə sahibkarlıq fəaliyyəti sahibkarın təşkilatçılıq, tədqiqatçılıq və yenilikçilik qabiliyyətlərinə əsaslanaraq cəmiyyəti daim təkmilləşdirməyə, iqtisadi səmərəlilik, qənaətçilik əsasında inkişaf etdirən hərəkətverici qüvvələrin yaradılmasına xidmət edir. Beləliklə, sahibkarlıq inkişafından bəhs olunarkən onun ümumi iqtisadiyyatda xüsusi çəkisi və hər bir sahibkar fəaliyyətinin həcmi, ölçüsü optimal dərəcədə olmalıdır. Xüsusi çəki məsələsinə dünya təcrübəsi prizmasından baxdıqda bu hər bir ölkənin özünəməxsusluğu ilə müəyyən olunur. Məsələn: bu ən çox dövlət mülkiyyətinin ümumi iqtisadiyyatda xüsusi çəkisi ilə müqayisə olunur. Hazırda inkişaf etmiş ölkələrdə dövlət sektorunun iqtisadiyyatda mövqeyi müxtəlifdir. Ümumi mülkiyyətdən dövlət mülkiyyətinin payı çıxıldıqdan sonra yerdə qalan hissə xüsusi fərdi sahibkarlığa məxsusdur. Müxtəlif ölkələrin iqtisadiyyatında dövlət sektoru ilə xüsusi sahibkarlıq fəaliyyəti arasında nisbət elə optimal dərəcədə olmalıdır ki, o, ümumi iqtisadi inkişafın dinamikliyini mümkün olan müvazinətdə saxlamağı təmin edə bilsin.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının “Sahibkarlıq fəaliyyəti haqqında” Qanunu. Bakı, 1998.
2. Azərbaycan Respublikasının “İnvestisiya fəaliyyəti haqqında” Qanunu.
3. M.C.Atakişiyev. Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda. Bakı, 2005.
4. T.Əhmədov. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına dair. Bakı, 2002.
5. T.N.Əliyev. Müştərək müəssisə və sahibkarlıq. Bakı, 2011.
6. A.Xaskinq. Sahibkarlıq kursu. Moskva, 1995.
7. Y.M.Osinova. Sahibkarlıq işinin əsasları. Moskva, 1996.


***Нурханум Дадашова***

**Резюме**

В статье показана сущность предпринимательской деятельности на современном этапе, отражены направления ее развития и оценки. Вместе с тем в данной статье указывается роль предприятий различных организационно-правовых форм в предпринимательской деятельности.

***Ключевые слова: инновация, международный бизнес, франчайзинг, формы собстенности, научно-технический прогресс, реклама.***

***Nurkhanım Dadashova***

**Summary**

This article reflects the essense of contemporary enterpreneurship, its forms of emergence, directions of development, and the evaluation process. the organisational and legal formation of enterpreneurial activity and the role of the enterprises varying on the basis of the forms of ownership is also discussed.

***Key words: innovation, international business, frenchining, forms of ownership, scientific and technical progress, in the ad.***

UOT 334.7

*Tariyel İSMAYILOV*
*Azərbaycan Texnologiya Universitetinin doktorantı*

# SAHİBKARLIĞIN DÖVLƏT TƏNZİMLƏMƏSİ MEXANİZMLƏRİ VƏ METODLARI

**Xülasə**

Bazar iqtisadiyyatında ictimai rifahın əsas mənbəyi olan istehsalın əsas təşkilatçıları sahibkarlardır. Buna görə də sahibkarlıq fəaliyyətinin tənzimlənməsi dövlətin əsas iqtisadi funksiyalarındandır. Bu tənzimlənmənin həyata keçirilməsi üçün dövlət strukturlarının sərəncamında çoxsaylı alətlər mövcuddur.

***Açar sözlər: sahibkarlığa dövlət dəstəyi, biznes inkubator, güzəştli kredit və sığorta, infrastruktura, dövlət sifarişləri, vergi sistemi, informasiya təminatı, qiymət tənzimlənməsi, mülkiyyət hüququ, bazara çıxış.***

***

Dövlətin iqtisadiyyata müdaxiləsi zərurəti müxtəlif səbəblərin təsiri nəticəsində meydana çıxır: milli təhlükəsizlik tələbləri, cəmiyyətdə sosial gərginlik, iqtisadiyyatda reqress və böhran halları (istehsalın azalması, işsizliyin yüksək səviyyəsi, struktur tarazsızlığı, uzunmüddətli büdcə kəsiri, milli məhsulların dünya bazarlarında rəqabət qabiliyyətli olmaması, inflyasiya, investisiya fəallığının zəifləməsi, deflyasiya, sıçrayışlı inflyasiya və valyuta məzənnəsinin sıçrayışlı dəyişməsi və s.) ekoloji qəza təhlükəsi, cəmiyyətdə neqativ təsirə malik ola biləcək gözləmələr və s.

Dövlətin iqtisadiyyata, o cümlədən sahibkarlıq fəaliyyətinə müdaxiləsi aşağıdakı ictimai maraqların qorunması tələbatından irəli gəlir [1]:

• sosial-iqtisadi inkişafın prioritetlərinin, dövlətin və cəmiyyətin ehtiyaclarının təmin olunması;
• dövlət büdcəsinin stabilliyi;
• ətraf mühitin qorunmasının və təbii resurslardan səmərəli istifadənin təmin olunması;
• əhalinin məşğulluğunun təmin olunması;
• ölkənin təhlükəsizliyinin (hərbi, demoqrafik, ərzaq, texnoloji və s.) təmin olunması;
• sahibkarlıq azadlığının və rəqabətin gerçəkləşdirilməsi, inhisarçılıqdan müdafiənin təmin olunması;
• sahibkarların xarici iqtisadi fəaliyyəti və xarici investisiyalar sahəsində mövcud qayda-qanunlara əməl olunmasına nəzarət.

Dövlət mövcud qanunvericilik çərçivəsində azad sahibkarlığın inkişafı üçün sərəncamında olan bütün təşkilati, maliyyə və digər imkanlarından səmərəli şəkildə istifadə etməli, bu sahədə meydana çıxan qeyri-qanuni təzahürlərin qarşısını almalı və onların neqativ nəticələrini aradan qaldırmalıdır. Dövlətlərin bu istiqamətdə fəaliyyətləri nəticəsində formalaşmış tənzimləmə metodlarının iki əsas qrupunu qeyd etmək olar [2].

1) Birinci qrupa daxil olan metod və formalar dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən uyğun olaraq, dövlət və bələdiyyə mülkiyyəti bazasında yaradılan sahibkarlıq təşkilatlarının fəaliyyətlərinin tənzimlənməsinə aiddir. Bu qrup metod və formaların spesifik xüsusiyyəti ondan ibarətdir ki, onlar hakimiyyət orqanları ilə onlara tabe olan sahibkarlıq fəaliyyəti subyektləri arasında subordinasiya münasibətlərini əks etdirir, belə ki, dövlət və ya bələdiyyə unitar müəssisələri [3] kimi fəaliyyət göstərən kommersiya təşkilatları aşağıdakı xüsusiyyətlərə malikdir:

- bu təşkilatlar səlahiyyətli dövlət və ya özünüidarəetmə orqanının qərarı ilə yaradılır;
- onların təsis sənədləri və nizamnaməsi həmin orqanlar tərəfindən təsbit olunur;
- unitar müəssisənin rəhbəri mülkiyyətçi (dövlət və ya yerli özünüidarəetmə orqanı) və ya onun səlahiyyətli orqanı tərəfindən təyin olunur və onun qarşısında məsuliyyət daşıyır;
- yerli özünüidarəetmə orqanları onların mülkiyyətində olan müəssisə və təşkilatların (i) məqsədini, fəaliyyətinin şərt və qaydalarını müəyyənləşdirir; (ii) onların məhsullarının qiymət və ta-

riflərini müəyyənləşdirir; (iii) bu müəssisələrin rəhbərlərini təyin və azad edir; (iv) onların fəaliyyəti haqqında hesabatları qəbul və təsdiq edir.

Yerli özünüidarəetmə orqanları ilə onların mülkiyyətində olan müəssisə və təşkilatların rəhbərləri arasında münasibətlər əmək qanunvericiliyinə uyğun olaraq kontrakt əsasında qurulur. Dövlət orqanları ilə yerli özünüidarəetmə orqanları arasında, həmçinin onlarla onların yaratdıqları sahibkarlıq strukturları arasında qarşılıqlı münasibətlərdə heç bir çətinlik və hüquqi problem yaranmamalıdır, hər cür belə münasibətlər hüquqi əsasda tənzimlənməlidir. Belə müəssisələrin fəaliyyətinin uğuru hər iki tərəfin təşəbbüskarlığından: mülkiyyətçinin idarəetmə bacarığından, müəssisəninsə təsərrüfatçılıq qabiliyyətindən asılıdır.

2) İkinci tənzimləmə qrupuna dövlət və yerliözünü idarəetmə orqanlarının onların mülkiyyətində olmayan sahibkarlıq müəssisələrinə tətbiq etdikləri forma və metodlar aiddir. Bu metodlardan bir hissəsi inzibati-hüquqi xarakter daşıyır. Bunlara aşağıdakılar aiddir:

- sahibkarlıq subyektlərinin qeydiyyata alınması;
- ayrı-ayrı fəaliyyət növlərinin lisenziyalaşdırılması;
- intellektual mülkiyyət təşkil edən obyektlərin qeydiyyata alınması və patentlərin verilməsi.

Qeyd etmək lazımdır ki, bir çox keçid iqtisadiyyatlı ölkələrdə təbii olaraq dövlət və yerli özünüidarəetmə orqanlarının sahibkarlıq subyektlərinin fəaliyyətində qanunvericiliyə riayət olunmasına nəzarət uzun müddətdir ki, öz aktuallığını saxlayır. Lakin demokratik cəmiyyət və liberal iqtisadiyyat prinsiplərinin möhkəmləndiyi keçid ölkələrində bu funksiya zəifləyir və nəzarətedici orqanların fəaliyyəti xidməti və ya kommersiya sirri təşkil edən sahibkarlıq informasiyası həddi ilə məhdudlaşır.

Sahibkarlıq prosesinin subyekti kimi dövlətin rolu ölkədəki ictimai şəraitdən, biznes fəallığı sahəsindəki vəziyyətdən və dövlətin bu istiqamətdə qarşısına qoyduğu vəzifələrdən asılıdır. Dünya təcrübəsində bu sahədə tətbiq olunan çoxsaylı dövlət alətlərini araşdıraq.

***1. Hüquqi-normativ bazanın yaradılması. Bu, ilk növbədə sahibkarlığın hüquqi əsaslarının yaradılmasını nəzərdə tutur.***

Sahibkarlığın dövlət tənzimlənməsində müəyyən fəaliyyətlərə qadağa qoyulduğu kimi (məsələn, ekoloji zərərli məhsulların istehsalı), müəyyən fəaliyyətlərin dayandırılmasına (məsələn, elektrik enerjisi təchizatı), müəyyən fəaliyyətlərinsə dəyişdirilməsinə (məsələn, təhsildə təsbit olunmuş proqramdan kənara çıxılmasına) qadağa qoyulur.

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı külli miqdarda müxtəlif xarakterli işlər reallaşdırılır ki, bunların da böyük bir hissəsi çoxsaylı dövlət hakimiyyət və idarəetmə orqanları tərəfindən tənzimlənir. Buna görə bu tənzimləyici orqanların özünün fəaliyyətinin uyğun hüquqi normalar əsasında tənzimlənməsi zəruridir. Hakimiyyət və ya idarəetmə orqanının dövlətin adından həyata keçirdiyi bütün təsir aktlarının hüquqi-normativ əsası olmalıdır və hüquqi normalar çərçivəsindən kənarda dövlət orqanının istənilən təsirinin qarşısı qətiyyətli olaraq alınmalıdır.

***2. Ölkənin iqtisadi inkişaf prioritetlərinin müəyyənləşdirilməsi.*** Bu amili hüquqi bazadan sonra ikinci mövqedə yerləşdirməyimiz təsadüfi deyil. Bu çox vacib məsələ üzərində ətraflı dayanmaq məqsədəuyğundur.

• İlk növbədə onu qeyd edək ki, ölkənin iqtisadi inkişaf prioritetlərinin müəyyənləşdirilməsinin rolu tənzimləmə mexanizmi olması ilə məhdudlaşmır və əslində bu, onun əsas təyinatı deyildir. Uzun, hətta ortamüddətli dövr üçün iqtisadi prioritetlərin bəyan edilməsi sahibkarlar üçün orientir - yol göstəricisi rolunu oynayır. Sahibkarlıq fəaliyyətinin ən çətin tərkib hissələrindən olan qərar qəbul etmə prosesi, xüsusən də uzunmüddətli investisiya qoyuluşu zamanı hansı sahənin seçilməsi məsələsi əhəmiyyətli dərəcədə asanlaşır.

• Sahibkarlar müəyyən mühitdə, müəyyən çərçivədə fəaliyyət göstərir. Əgər bu çərçivənin sərhədləri müəyyən dərəcədə tamamilə idarə olunmayan amillərdən (təbii amillər, dünya supergüclərinin siyasəti və s.) asılıdırsa, bundan da az olmayan yüksək dərəcədə milli hökumətin siya-

sətindən asılıdır və dövlət milli iqtisadiyyatın gələcək inkişafının əsas istiqamətlərini müəy- yənləşdirməli, bu barədə yerli sahibkarları və xarici investorları məlumatlandırmalı və nəzərdə tutduğu plan və proqramların reallaşdırılması üçün yerli sahibkarlarla səmərəli əməkdaşlıq etməlidir.

• İş burasındadır ki, xırda dövlətlərdə, o cümlədən Azərbaycanda hətta kifayət qədər iri sahibkarlar "Ortamüddətli dövrdə ölkə üçün hansı sahələr daha perspektivlidir?" sualına cavab vermək iqtidarında deyil. Böyük maliyyə, intellektual və kapital resursları tələb edən bu sualın cavablandırılması dövlətin öhdəsinə düşür.

***3. Sahibkarlıq təhsili.*** Bu, təhsil sisteminin bütün (orta, bakalavr, magistr, xüsusi kurslar) mərhələlərində həyata keçirilə bilər. Burada dövlət, əvvəla, cəmiyyətdə belə bir təhsilin sahibkar üçün zəruriliyini aşılayır, həm də sahibkarların hazırlanması, yəni peşəkar təhsil verilməsi funksiyasını öz üzərinə götürür. Bu zaman peşəkar sahibkarlarda aşağıdakı bilik və bacarıqların olması zəruriliyi nəzərə alınmalıdır:

- iqtisadi nəzəri biliklər.
- sahibkarlıq fəaliyyəti haqqında konkret xarakterli biliklər.
- sahibkarlıqda tətbiq olunan kəmiyyət üsulları – biznes planın hazırlanması, maliyyə-iqtisadi hesablamaların həyata keçirilməsi və s.

***4. Dövlət sahibkarlığı (müvəqqəti).*** Liberal iqtisadiyyat dəyərləri dövlətin sahibkarlıq fəaliyyəti ilə məşğul olmasını qadağan edir. Qeyd etdiyimiz kimi, bu yanaşmaya görə dövlət yalnız beş tənzimləmə funksiyasını həyata keçirməli və ictimai məhsul istehsalını təmin etməlidir ki, bu halda da dövlət yalnız sifarişçi rolunda çıxış edir, həmin məhsulun istehsalı isə yenə də özəl şirkətin üzərinə düşür və bunun müqabilində həmin şirkətin xərcləri və mənfəəti dövlət büdcəsindən maliyyələşir.

Lakin inkişaf etmiş ölkələrin tarixi göstərir ki, müxtəlif mərhələlərdə bu ölkələrin dövlətləri sahibkarlıqla məşğul olmuşlar ki, buna da dövlət sahibkarlığı deyilir [4]. Bu faktı və keçid ölkələrindəki spesifik vəziyyəti nəzərə alaraq bu ölkələrin bəzi alimləri dövlət sahibkarlığının zəruriliyini əsaslandırırlar. Məsələn, [4]-də gətirilən əsas arqument bundan ibarətdir ki, perspektivli sahələrin hamısında kəskin rəqabətin mövcud olduğu bir şəraitdə kiçik keçid ölkələrinin hətta iri şirkətlərinin hətta bu sahələrdə mütləq üstünlükləri [5] olduğu halda müəyyən səbəblərdən onların dünya bazarlarına daxil olmaq imkanları yoxdur. Bu bir vəziyyətdə təklif olunur ki, göstərilən səbəblərin dəf edilməsində daha geniş imkanlara malik olan dövlət ölkə üçün perspektivli olan sahələrdə təkbaşına və ya hər hansı şirkətlə müştərək müəssisələr yaradır və istehsal dünya bazarlarında rəqabət qabiliyyətinə çatdıqda dövlət öz payını özəlləşdirir.

***5. Sahibkarlıq inkubatorları.*** Biznes inkubatorunda gənc sahibkarlar bir binada yerləşdirilir, onlara güzəştli kreditlər verilir, bəzi hallarda dövlət sifarişləri ilə təmin olunur və onların fəaliyyətinin dövlət nəzarəti həyata keçirilir. Başqa sözlə, bu gənc şirkətlərin "ayaq üstə durmasına" yardım göstərilir. Bir qayda olaraq, bu şirkətlərin iqtisadi və maliyyə vəziyyəti stabilləşəndə onlar inkubatoru tərk edirlər. Bu, adətən 4-5 il ərzində baş verir. İnkubatorların fəaliyyəti üçün adətən xüsusi dövlət proqramları hazırlanır, bu proqramda ölkə üçün prioritet olan biznes sahələri göstərilir və proqrama məhz bu sahədə çalışan gənc şirkətlər cəlb olunur [6].

***6. Güzəştli kredit və sığorta.*** Sahibkarlığın inkişafına (xüsusən onun ilk dövrlərində) dəstəyin əsas formalarından biri güzəştli kreditlərin verilməsidir. Biznes sahələrinin güzəştli kredit və güzəştli sığortaya əlçatanlığı sahibkarlığın dövlət dəstəyinin geniş yayılmış mexanizmlərindəndir. Bunun iki reallaşdırma mexanizmi var:

- bilavasitə səlahiyyətli dövlət orqanı tərəfindən kreditin verilməsi və bununla bağlı prosedurların (layihələrin qiymətləndirilməsi, şirkətin yoxlanılması və s.) həyata keçirilməsi;
- müəyyən faiz marjası müqabilində kreditin verilməsinin səlahiyyətli kommersiya banklarına həvalə olunması.

Oxşar dəstək mexanizmi sığortalanma prosedurlarında tətbiq oluna bilər, belə ki, sığorta xərc-

lərinin bir hissəsini dövlət öz boynuna götürür. Dövlət xərcləri dövlət büdcəsi və ya büdcədənkənar fondlardan maliyyələşir.

***7. İstehsal infrastrukturunun yaradılması.*** İctimai məhsullar həm ev təsərrüfatları, həm də biznes sektorunun normal fəaliyyəti üçün şərait yaradır. Belə ictimai məhsulların böyük hissəsini istehsal infrastrukturu-avtomobil və dəmir yolları, aeroport və gəmi limanları, körpülər, su anbarları və s. təşkil edir ki, bunlar da şirkətlərin fəaliyyətini əhəmiyyətli dərəcədə asanlaşdırır. Parklar, muzeylər, yaşayış məntəqələrinin, tarixi abidələrin, çimərliklərin və s. bu kimi obyektlərin abadlaşdırılması isə müxtəlif növ turizm sahələrinin inkişafı üçün münbit şərait yaradır.

***8. Biznes infrastrukturunun dəstəklənməsi.*** Dövlət bank, sığorta və birja sisteminin, sahibkarların fəaliyyətinin asanlaşdırılması üçün məsləhət-hüquqi şirkətlərin və digər biznes infrastrukturu sistemlərinin yaradılmasında bilavasitə və ya təşviqedici kimi iştirak edə bilər. Məsələn, dövlət kiçik biznes sahələri ilə işləyən şirkətlərə əlverişli maliyyə imkanları yarada bilər:

- aşağı vergi dərəcələri tətbiq olunması;
- aşağı faizli kreditlərin verilməsi;
- belə şirkətlərin biznes-layihələrinin maliyyələşdirilməsi üçün dövlət və ya yerli hakimiyyət orqanlarının zəmanəti.

***9. Məişət infrastrukturunun yaradılması və təkmilləşdirilməsi.*** Su, enerji, qaz təchizatı, informasiya-kommunikasiya texnologiyaları və digər məişət infrastrukturu obyektlərinin təkmilləşdirilməsi sahibkarlığın inkişafına ikili müsbət təsir göstərir: bir tərəfdən bütün bu imkanlardan biznes strukturları da istifadə edir, digər tərəfdənsə ev təsərrüfatları üçün yaradılmış bu komfort son hesabda məcmu tələbin artımına xidmət edir ki, bu da istehsalın, yəni sahibkarlığın inkişafını stimullaşdırır.

***10. Dövlət sifarişləri.*** C. M. Keynsin nəzəriyyəsində mühüm yer tutan dövlət sifarişləri biznes fəallığının artmasının mühüm amillərindəndir. Dövlət həm də nəhəng istehlakçı kimi çıxış edir - dövlət büdcəsindən maliyyələşməklə dövlət idarələri üçün külli miqdarda təşkilati texnika (kompüter və s.), dəftərxana ləvazimatları, avtomobil, ordu, həbsxana və digər müəssisələr üçün ərzaq, geyim və digər istehlak malları alır, müxtəlif növ xidmətlərdən istifadə edir ki, bunların da istehsalçıları müxtəlif şirkətlərdir. Eyni zamanda yuxarıda sadalanan ictimai məhsulların istehsalı əsasən dövlət investisiyası şəklində həyata keçirilir ki, bunların da icraçıları özəl şirkətlərdir. Dövlətin həm investisiya, həm də istehlak xərcləri dövlət sifarişləri və satınalmalarının əsasını təşkil etməklə məcmu tələbin tərkib hissəsidir. Milli dövlətlər bu tipli sifarişləri yerli biznes strukturlarına yönəltməklə, milli sahibkarlığın inkişafına töhfə verməyə çalışırlar.

***11. Vergi sistemi.*** Dövlətin fiskal siyasətinin sahibkarlıqla əlaqədar iki funksiyası vardır.

**1) Nəzarətedici funksiya.** Tarix boyu vergi sistemi iki əsas istiqamətdə təkmilləşmişdir: a) vergidən yayınmanın qarşısının alınması; b) vergi nəzarətinin səmərəliliyinin artırılması.

Vergi orqanlarına təqdim olunan hesabatlarda müəssisənin (şirkətin) əsas iqtisadi göstəriciləri haqqında, əvvəla, dəqiq məlumatlar verilir, digər tərəfdənsə bəzi əlavə göstəricilər də dolayı yolla da olsa, hesablana bilir. Deməli, törəmə xarakterli də olsa, verginin mühüm funksiyalarından biri onun vacib informasiya mənbəyi olmasıdır. Müasir vergi sistemində vergidən yayınmanı çətinləşdirməklə müxtəlif sahibkarlıq fəaliyyəti sahələri haqqında kifayət qədər dəqiq məlumatlar əldə etmək mümkündür ki, bu da dövlətin iqtisadi-siyasi qərarlarının adekvatlığı üçün çox vacibdir.

**2) Tənzimləyici funksiya.** Dövlət vergi dərəcələrini azaltmaqla ölkədə biznes fəallığının artırılmasına nail olur və əksinə. Dövlət diferensial vergitutma siyasəti də həyata keçirə bilər. Burada diferensiallıq sahəvi və regional xarakterli ola bilər, birinci halda bütün ölkə üzrə seçilmiş sahələrdə vergi güzəştləri tətbiq olunur, ikinci halda isə ölkənin müəyyən regionlarında iqtisadiyyatın bütün sahələrində sahibkarlığa vergi güzəştləri tətbiq olunur.

Fiskal siyasətin sahibkarlığı stimullaşdıran daha bir qolu subsidiyalaşdırmadır. Dünyada fermer fəaliyyətinin subsidiyalaşdırılması geniş yayılmışdır. ABŞ-da hər il bu məqsəd üçün yüz mil-

yardlarla dollar, Avropa İttifaqında isə yüz milyardlarla avro pul ayrılır [4].

*12. **Faiz dərəcələri.*** Bu amilin sahibkarlıq fəaliyyətinə təsiri birbaşa olmasa da, çox güclüdür.

*13. **Xarici ticarətin tənzimlənməsi.*** Bu, iqtisadiyyatın, o cümlədən sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi sisteminin çox mühüm komponentidir ki, bütün hökumətlər bu alətdən geniş istifadə edirlər. Əvvəla, hər bir müasir dövlət milli məhsulun ixracını stimullaşdırma siyasəti həyata keçirir. Burada müxtəlif növ rıçaqlar mövcuddur.

• **Dolayı vergi güzəştləri.** Demək olar ki, bütün ölkələrdə ixrac məhsulları dolayı vergilərdən azaddır və əgər ixracatçı şirkət dolayı vergiyə cəlb olunmuş məhsulu ölkədən ixrac edirsə, bu vergilər vergi orqanı tərəfindən həmin şirkətə qaytarılır.

• **İxrac subsidiyaları.** Dövlət ölkə üçün prioritet olan sahələrin məhsullarının ixracına görə ixracatçı şirkətə əvəzsiz əlavə ödənişlər edir.

• **Əmtəə kreditləri.** Bir dövlət başqa dövlətə təyinatlı güzəştli kredit verir, təyinat isə ondan ibarətdir ki, bu pula kredit verən dövlətin müəyyən növ məhsulları (məsələn, ərzaq və ya silah və s.) alınmalıdır.

İdxala münasibət ziddiyyətlidir. İdxalın məhdudlaşdırılması yerli istehsalçılar üçün əlverişli, lakin istehlakçılar üçün qısamüddətli dövrdə əlverişsizdir. Bu dilemmada seçim çətinləşir. Bir tərəfdən populizmə meyilli olan dövlətlər istehlakçıların rəğbətini qazanmaq üçün ucuz idxal məhsullarını stimullaşdırmağa çalışır, Digər tərəfdənsə bu siyasətin iki mənfi təzahürü danılmazdır: 1) sahibkarlar da seçkilərdə kifayət qədər güclü qüvvə olduğundan populizm baxımından onlarla münasibətin korlanması məqsədəuyğun deyil; 2) yerli biznesin sıxışdırılması son hesabda işsizliyə və nəticədə ev təsərrüfatlarının da narazılığına səbəb olur. Odur ki, hökumətlər ölkə üçün perspektivli və taleyüklü olan sahələri xarici rəqabətdən qorumağa çalışırlar, halbuki bu, asan deyil, belə ki, əksər ölkələrin üzv olduğu Ümumdünya Ticarət Təşkilatı (ÜTT) idxala maneələri məhdudlaşdırır.

*14. **Pul axını və pul tədavülünün tənzimlənməsi.*** Mərkəzi bank pul təklifini tənzimləməklə kredit faizlərinə və beləliklə investisiya fəallığına, yəni sahibkarlığa təsir edir.

*15. **İnformasiya təminatı.*** Əksər inkişaf etmiş ölkələrdə dövlət sahibkarların zəruri, o cümlədən marketinq məlumatı ilə təmin olunmasına şərait yaradır. Müəyyən prioritet sahələrdə elmi, elmi-texniki, layihə və digər bu tipli işlərin təşkili və xərclərini dövlət öz üzərinə götürür və onun nəticələri sahibkarlara pulsuz və ya güzəştli qiymətlərlə verilir .

***16. Sahibkarlıq mədəniyyəti.*** Dövlət siyasətinin sahibkarlıq mədəniyyətinin yüksəldilməsində rolu çox böyükdür. Dövlətin bu istiqamətdə fəaliyyəti media, təhsil modelləri və s. üsullarla həyata keçirilə bilər. Lakin bu siyasət uzunmüddətli dövrü əhatə etməlidir, çünki sahibkarlıq mədəniyyəti zaman keçdikcə dəyişən mentalitet və dəyərlərdən asılıdır.

*17. **Qiymət tənzimlənməsi.*** Burada tətbiq olunan əsas üsullar:

• Qiymətlərin (tariflərin) birbaşa təyin olunması. Bazar iqtisadiyyatında bu, çox məhdud sayda əmtəə və xidmətlərə tətbiq olunur.

• Qiymətlərə hədd qoyulması. Burada hədd adətən yuxarıdan (tavan qiyməti) qoyulur, bəzi (monopsoniya və oliqopsoniya) hallarında aşağıdan da qoyulur (döşəmə qiyməti).

*18. **Mülkiyyət hüquqlarının tənzimlənməsi.*** Bu, stabil sahibkarlıq fəaliyyətinin normal şəkildə həyata keçirilməsi üçün çox vacib amildir. Təcrübə göstərir ki, mülkiyyət hüquqlarının lazımi səviyyədə qorunulmadığı ölkələrdə sahibkarlıq zəif inkişaf edir. Qeyd olunmalıdır ki, müasir dünyada intellektual mülkiyyət hüquqlarının, o cümlədən kommersiya sirri təşkil edən informasiyanın qorunmasına xüsusi önəm verilir. ÜTT üzvləri olan ölkələr arasında bu məsələ təşkilat çərçivəsində tərəflər tərəfindən imzalanmış İntellektual Mülkiyyət Hüquqlarının Ticarət Aspektləri üzrə Razılaşma (TRIPS)[1] əsasında tənzimlənir.

1.Trade-Related Aspects of Intellectual Property Rights

***19. Kiçik müəssisələrin istehsal güclərinə əlçatanlığının təmin olunması.*** Bu məsələdə keçid iqtisadiyyatlı ölkələr baxımından dövlətin dəstəyinin iki istiqamətini xüsusi qeyd etmək lazımdır:

- Xarici ölkə istehsalı olan maşın və avadanlığın əldə edilməsində kiçik müəssisələrə yardım göstərilməsi. Bu baxımdan Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin yerli fermerlərə Yaponiyadan lizinq əsaslarla kombayn və digər kənd təsərrüfatı maşınlarının alınmasında köməkliyi misal gətirilə bilər.
- İri müəssisələrin restrukturizasiyası zamanı bu müəssisələrin əsas vəsaitlərinin satılmasına kiçik müəssisələrin cəlb olunması. Bu da Sovet dövründən qalmış iri müəssisələrin bir qisminin dövlət mülkiyyətində olduğu tranzitiv ölkələr üçün xarakterikdir.

***20. Sahibkarların sosial müdafiəsi və təhlükəsizliyinin təmin olunması.*** Reketin inkişaf etdiyi ölkələrdə (xüsusən keçid iqtisadiyyatlı ölkələrdə) biznesmenlərin həyatına böyük təhdidlər mövcuddur ki, bu da sahibkarlıqla məşğul olmaq həvəsini azaldır. Aydın məsələdir ki, sahibkarların bu tip sosial müdafiəsi dövlətin bilavasitə funksiyasıdır.

***21. Kiçik biznesin bazara çıxışının asanlaşdırılması.*** Bu məsələ də biznes təcrübəsinin çox kiçik olduğu keçid iqtisadiyyatlı ölkələrdə çox vacibdir. Burada iki istiqamət fərqləndirilir:

• **Daxili bazarlara çıxış.** Təcrübə göstərir ki, bu məsələdə dəstək KOS-lar və xırda fermerlər üçün xüsusən zəruridir. Məsələn, əksər postsovet ölkələrində kənd təsərrüfatı məhsulları bazarlarında inhisarçılıq meyilləri müşahidə olunur. Bu halların aradan qaldırılması dövlətin funksional borcu olduğu halda, istehsalçılardan uzaqda yerləşən bazarlarda qiymətlər haqqında operativ məlumat təminatı və mütəmadi yarmarkaların təşkili onun təşviqedici siyasətinin effektiv tərkib hissəsidir.

• **Xarici bazarlara çıxış.** Daha mürəkkəb olan bu məsələdə milli sahibkarlığa dəstək dövlət tərəfindən müəyyən tədbirlər kompleksinin həyata keçirilməsini tələb edir. Bunlar arasında:

- milli məhsulların xarici bazarlara yeridilməsi üçün xüsusi dövlət orqanlarının yaradılması;
- bazarları hədəf kimi götürülən ölkələrdə xüsusi reklam rolikləri və bukletlərinin yayılması;
- yerli sahibkarların potensial xarici tərəfdaşlarla əlaqələrinin yaradılması;
- mütəmadi olaraq yerli sahibkarların xarici bazarlar haqqında məlumatlandırılması və s.

***22. Kiçik biznesin inkişafında inzibati maneələrin aradan qaldırılması.***

## Nəticə

Bazar iqtisadiyyatında ictimai rifahın əsas mənbəyi olan istehsalın əsas təşkilatçıları sahibkarlardır. Buna görə də sahibkarlıq fəaliyyətinin tənzimlənməsi dövlətin əsas iqtisadi funksiyalarındandır. Bu tənzimləmənin həyata keçirilməsi üçün dövlət strukturlarının sərəncamında çoxsaylı alətlər mövcuddur.

## Ədəbiyyat

1. Организация предпринимательской деятельности: Учебное пособие/ Под ред. А.С.Пелиха. Ростов н/Д: издательский центр «Март», 2002, 336 с.
2. Курс предпринимательства: Учебник для вузов/ В.Я. Горфинкель, В.А.Швандар, Е.М.Купряков и др.; Под ред. проф. В.Я.Горфинкеля, проф. В.А.Швандара. – М.: Финансы, ЮНИТИ, 1997, 439 с.
3. Quliyev R. İqtisadiyyata giriş. Bakı, 2007.
4. Гулиев Р.Р. Проблемы агропромышленной интеграции в СНГ (на примере России и Азербайджана) - Москва., Изд-во МСХА, 2003, 268 с.
5. Смит А. Исследование о природе и причинах богатства народов. – Изд-во: Эксмо, 2007, 960 с.
6. Никифоров А.А. Концепция антимонопольной политики и реформа // Вестн. Моск. ун-та. Сер.6., Экономика. – 2000.

*Тариэль Исмаилов*
*докторант Технологического Университета Азербайджана*

**Механизмы и методы государственного регулирования предпринимательства**

**Резюме**

В рыночной экономике основным организатором производства, являющегося основным источником общественного благосостояния, являются предприниматели. Поэтому регулирование предпринимательской деятельности - одна из основных экономических функций государства. Для осуществления этого регулирования в распоряжении государственных структур имеются многочисленные инструменты.

***Ключевые слова: государственная поддержка предпринимательства, бизнес-инкубатор, льготное кредитование и страхование, инфраструктура, государственные заказы, налоговая система, информационное обеспечение, ценовое регулирование, имущественное право, выход на рынок.***

*Tariyel Ismayılov*
*doctoral candidate of Azerbaijan Technological University*

**Mechanisms and methods of government regulation of entrepreneurship**

**Summary**

In market economy the main organizer of production, being the main source of wealth of society, are entrepreneurs. Therefore regulation of entrepreneurial activity is one of the main economic functions of government. There are numerous tools of such regulation at governments' disposal.

***Key words: government support of entrepreneurship, business-incubator, infrastructure, government orders, tax system, interest rate, information support, price regulation, interest in property, market entry.***

**UOT 331.5**

***Şəms Teyyub qızı ƏLİYEVA***
***iqtisad üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Neft Akademiyasının dosenti***

# AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFI VƏ MƏŞĞULLUĞUN SƏVİYYƏSİ ARASINDA ƏLAQƏNİN XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Məqalədə Azərbaycanda sahibkarlığın inkişafının məşğulluğun səviyyəsinə təsiri təhlil edilmişdir. Aparılmış təhlillərə əsaslanaraq məqalədə, həmçinin, Azərbaycanda sahibkarlığın inkişafı və məşğulluğun səviyyəsi arasında əlaqənin xüsusiyyətləri araşdırılmış, müvafiq nəticələr çıxarılmış, sahibkarlığın inkişafına və məşğulluğun səviyyəsinin yüksəldilməsinə imkan yaradan təklif və tövsiyələr verilmişdir.

***Açar sözlər: sahibkarlıq, inkişaf, məşğulluq, əlaqə, xüsusiyyətlər, meyllər.***

## Giriş

Müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycanda aparılmış iqtisadi islahatlar ölkəmizdə sahibkarlığın formalaşmasına və inkişafına, yeni-yeni sahibkarlıq strukturlarının yaradılmasına, beləliklə də, əmək qabiliyyətli əhalinin məşğulluğunun səviyyəsinin yüksəldilməsinə zəmin və imkan yaratmışdır.

Azərbaycanda sahibkarlığın inkişafında “Sahibkarlıq fəaliyyəti haqqında”, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında”, “Antiinhisar fəaliyyəti haqqında”, “Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanunlarının, dövlət mülkiyyətinin özəlləşdirilməsinə dair iki Dövlət Proqramının və s. qəbul edilməsi mühüm rol oynamışdır. Sahibkarlığın inkişafı nəticəsində Azərbaycan iqtisadiyyatının dövlət sektorunda məşğul olanların sayı sürətlə azalmağa (2011-ci ildə cüzi artım istisna olmaqla), qeyri-dövlət sektorunda isə - artmaga meyl etmişdir. Belə ki, əgər 1995-ci ildə dövlət sektorunda məşğul olanların sayı 2027,2 min nəfər, qeyri-dövlət sektorunda -1585,8 min nəfər təşkil edirdisə, 2000-ci ildə onların sayı, müvafiq olaraq, 1278,2 min nəfər (azalma -37,0%) və 2577,3 min nəfər (artım -62,5%); 2005-ci ildə, müvafiq olaraq, 1229,8 min nəfər (2000-ci illə müqayisədə azalma-3,8%) və 2832,5 min nəfər (2000-ci illə müqayisədə artım-9,9%); 2010-cu ildə, müvafiq olaraq, 1142,7 min nəfər (2005-ci illə müqayisədə azalma- 7,1%) və 3186,4 min nəfər (2005-ci illə müqayisədə artım – 12,5%); 2011-ci ildə, müvafiq olaraq, 1143,2 min nəfər (əvvəlki illə müqayisədə artım- 0,04%) və 3232,0 min nəfər (əvvəlki illə müqayisədə artım – 1,4%) olmuşdur [1, səh.93; 2, səh.97]. Göründüyü kimi, Azərbaycanda sahibkarlığın inkişafı ilə məşğulluğun səviyyəsinin yüksəlməsi arasında birbaşa əlaqə vardır.

### 1. Sahibkarlığın inkişafı və məşğulluğun səviyyəsi arasında əlaqənin xüsusiyyətləri

Qeyd etmək lazımdır ki, Azərbaycanda bütövlükdə qeyri-dövlət bölməsində məşğul olanların sayının ilbəil artmasına baxmayaraq, ayrı-ayrı mülkiyyət növləri üzrə bu göstəricinin səviyyəsində qeyri-sabitlik müşahidə edilir. Cədvəl 1-dən göründüyü kimi, mülkiyyət hüququ dövlətə və bələdiyyəyə tam məxsus olmayan yerli müəssisələrin, təşkilatların və fiziki şəxslərin mülkiyyətində olan xüsusi bölmədə məşğul olanların sayının qeyr-dövlət sektorunda məşğul olanların sırasında sayca çoxluq təşkil etməsinə baxmayaraq, illər üzrə bu bölmədə çalışanların sayı qeyri-sabit olmuş, artıb-azalmalarla müşayiət olunmuşdur. Belə ki, 2000-ci ildə xüsusi bölmədə məşğul olanların sayı 1861,8 min nəfər təşkil etdiyi halda, onların sayı 2005-ci ildə 2037,1 min nəfərə (2000-ci illə müqayisədə artım-9.4%); 2008-ci ildə-2148.0 min nəfərə (2005-ci illə müqayisədə artım-5.4%) və 2009-cu ildə 2312.8 min nəfərə (əvvəlki illə müqayisədə artım-7.7%) çat-

mışdır. Lakin 2010-cu ildən etibarən bu bölmədə məşğul olanların sayı azalmağa doğru meyl etmişdir: 2010-cu ildə xüsusi bölmədə məşğul olanların sayı 2174.8 min nəfər təşkil etmişdir ki, bu da 2009-cu illə müqayisədə 6.0 % azdır. 2011-ci ildə bu bölmədə məşğul olanların sayının azalması prosesi davam etmişdir: 2011-ci ildə xüsusi bölmədə məşğul olanların sayı (2140.8 min nəfər) 2010-cu illə müqayisədə 1.6% az olmuşdur.

***Cədvəl 1***

**Azərbaycan iqtisadiyyatının qeyri-dövlət bölməsində məşğulluğun dinamikası (min nəfər) [2, səh.97]**

| | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2008 | 2009 | 2010 | 2011 |
| Qeyri-dövlət bölməsində məşğul olanlar, cəmi: | 2577.3 | 2832,5 | 2971,1 | 3122,0 | 3186,4 | 3232,0 |
| onlardan:<br>xüsusi* | 1861,8 | 2037,1 | 2148,0 | 2312,8 | 2174,8 | 2140,8 |
| bələdiyyə | ... | 17,7 | 11,7 | 10,6 | 8,0 | 7,9 |
| xarici investisiyalı və birgə müəssisələr | 35,1 | 59,7 | 66,2 | 62,0 | 61,3 | 69,0 |
| dinə xidmət edən şəxslər | 35,0 | 30,8 | 30,4 | 30,1 | 29,5 | 28,0 |
| sərbəst məşğul olanlar | 645,0 | 687,2 | 714,8 | 706,5 | 912,8 | 986,3 |

** Mülkiyyət hüququ dövlətə və bələdiyyəyə tam məxsus olmayan yerli müəssisələrin, təşkilatların və fiziki şəxslərin mülkiyyəti daxildir.*

Qeyri-dövlət sektorunda məşğul olanların sırasında xüsusi bölmədə məşğul olanların xüsusi çəkisi də, onların mütləq sayında olduğu kimi, qeyri-sabitdir: 2000-ci ildə bu göstəricinin səviyyəsi 72.2%, 2005-ci ildə -71.9%, 2008-ci ildə - 72.3% , 2009-cu ildə - 74.0% , 2010-cu ildə-68.3% və 2011-ci ildə-66.2% təşkil etmişdir.

2005-2011-ci illər ərzində bələdiyyə strukturlarında məşğul olanların sayının ilbəil azalması müşahidə edilir. Belə ki, 2005-ci ildə bələdiyyə strukturlarında məşğul olanların sayı 17.7 min nəfər təşkil etdiyi halda, onların sayı 2008-ci ildə 33.9% azalaraq 11.7 min nəfərə, 2009-cu ildə, əvvəlki illə müqayisədə, 9.4% azalaraq 10.6 min nəfərə, 2010-cu ildə, əvvəlki illə müqayisədə, 24.5% azalaraq 8.0 min nəfərə, 2011-ci ildə, əvvəlki illə müqayisədə, 1.2% azalaraq 7.9 min nəfərə enmişdir.

1995-ci ildən etibarən Azərbaycanda sosial-siyasi sabitliyin bərqərar olması xarici şirkətlərin respublika iqtisadiyyatına marağını gücləndirmiş və ölkəmizə xarici investisiyaların axını sürətlənmişdir. Bu investisiyaların mütləq əksəriyyəti neft sənayesinə yönəldilsə də, son illər aparılmış islahatlar nəticəsində qeyri-neft sektoruna xarici sərmayə qoyuluşu da artmaqdadır [3, səh.81].

Azərbaycana xarici sərmayələrin axını ölkəmizdə xarici investisiyalı və birgə müəssisələrin yaradılmasına və fəaliyyət göstərməsinə, əmək qabiliyyətli əhalinin müəyyən hissəsinin bu müəssisələrdə məşğulluğuna şərait yaratmışdır: 2000-ci ildə Azərbaycanda fəaliyyət göstərən xarici investisiyalı və birgə müəssisələrdə 35.1 min nəfər, 2005-ci ildə-59.7 min nəfər (2000-ci illə müqayisədə 70.1% cox), 2008-ci ildə - 66.2 min nəfər (2005-ci illə müqayisədə 10.9% çox), 2009-cu ildə - 62.0 min nəfər (əvvəlki illə müqayisədə 6.3% az), 2010-cu ildə-61.3 min nəfər (əvvəlki illə müqayisədə 6.3% az), 2011-ci ildə-69.0 min nəfər (əvvəlki illə müqayisədə 12.6% çox) məşğul olmuşdur. Göründüyü kimi, xarici investisiyalı və birgə müəssisələrdə məşğul olanların mütləq sayı illər üzrə qeyri-sabitdir.

Qeyri-dövlət sektorunda məşğul olanların sırasında xarici investisiyalı və müştərək müəssisələrdə məşğul olanların xüsusi çəkisi də, onların mütləq sayında olduğu kimi, qeyri-sabitdir: 2000-ci ildə bu göstəricinin səviyyəsi 1.4%, 2005-ci ildə-2.1%, 2008-ci ildə - 2.2%, 2009-cu ildə - 2.0%, 2010-cu ildə-1.9% və 2011-ci ildə-2.1% təşkil etmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizdə məscidlərin, kilsələrin fəaliyyəti qarşısındakı məhdudiyyətlər aradan qaldırılmış və vətəndaşların dini ainlərin icrası ilə məşğul olmalarına şərait yaradılmışdır. Bu, müəyyən şəxslərə dinə xidmət etməyi bir peşə, iş yeri kimi seçməyə imkan vermişdir. Azərbaycanda dinə xidmət etməyi bir məşğuliyyət növü olaraq seçmiş insanlar vardır. 2000-ci ildə onların sayı 35.0 min nəfər, 2005-ci ildə - 30.8 min nəfər, 2008-ci ildə - 30.4 min nəfər, 2009-cu ildə -30.1 min nəfər, 2010-cu ildə-29.5 min nəfər və 2011-ci ildə-28.0 min nəfər təşkil etmişdir.

Qeyri-dövlət sektorunda məşğul olanların tərkibində sayca ikinci yer sərbəst məşğul olanlara məxsusdur. Cədvəl 1-dən göründüyü kimi, son illərdə sərbəst məşğul olanların sayında ilbəil artım (2009-cu ildə cüzi azalma istisna olmaqla) müşahidə olunur. Belə ki, 2000-ci ildə sərbəst məşğul olanların sayı 645.0 min nəfər, 2005-ci ildə - 687.2 min nəfər (2000-ci illə müqayisədə 6,5% çox), 2008-ci ildə -714.8 min nəfər (2005-ci illə müqayisədə 4.0% cox), 2009-cu ildə - 706.5 min nəfər (əvvəlki illə müqayisədə 1.2% az), 2010-cu ildə-912.8 min nəfər (əvvəlki illə müqayisədə 29.2% çox), 2011-ci ildə-986.3 min nəfər (əvvəlki illə müqayisədə 8.1% çox) təşkil etmişdir.

Nəzərdən keçirilən illərdə qeyri-dövlət sektorunda məşğul olanların sırasında sərbəst məşğul olanların xüsusi çəkisi isə qeyri – sabit olmuşdur: 2000-ci ildə bu göstəricinin səviyyəsi 25.0%-ə bərabər olmuş, 2005-ci ildə 24.3%-ə , 2008-ci ildə -24.1%-ə, 2009-cu ildə-22.6%-ə enmiş, 2010-cu ildə-yüksələrək – 28.6%-ə və 2011-ci ildə -30.5%-ə qalxmışdır.

Cədvəl 2-də Azərbaycanın bazar iqtisadiyyatı strukturlarında məşğulluğun dinamikası verilmişdir. Cədvəldən göründüyü kimi, Azərbaycanda fəaliyyət göstərən kiçik müəssisələrin sayı ilə onlarda məşğul olanların arasında, əsasən, düz mütənasiblik vardır. Belə ki, əgər 2000-ci ildə fəaliyyət göstərən 24254 kiçik müəssisədə məşğul olanların sayı 99778 nəfər olmuşdursa, 2005-ci ildə bu göstəricilər, uyğun olaraq, 11982 vahid və 73447 nəfər; 2010-cu ildə, uyğun olaraq, 14532 vahid və 93205 nəfər və 2011-ci ildə, uyğun olaraq, 14187 vahid və 90182 nəfər təşkil etmişdir.

***Cədvəl 2***

***Azərbaycanın bazar iqtisadiyyatı strukturlarında məşğulluğun dinamikası [2, səh.120]***

| İllər | Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | | | Onlarda işləyənlərin siyahı sayı, nəfər-cəmi | | |
|---|---|---|---|---|---|---|
| | Kiçik müəssisələr | Xarici və birgə müəssisələr | Birjalar | Kiçik müəssisələr | Xarici və birgə müəssisələr | Birjalar |
| 2000 | 24254 | 551 | 3 | 99778 | 22145 | 34 |
| 2005 | 11982 | 796 | 5 | 73447 | 58413 | 68 |
| 2006 | 12232 | 863 | 6 | 90134 | 63105 | 60 |
| 2007 | 13577 | 1163 | 6 | 99335 | 62203 | 49 |
| 2008 | 13678 | 1174 | 6 | 99838 | 65198 | 48 |
| 2009 | 14250 | 1181 | 6 | 100073 | 59402 | 51 |
| 2010 | 14532 | 1091 | 6 | 93205 | 55936 | 48 |
| 2011 | 14187 | 899 | 6 | 90182 | 63918 | 41 |

Təhlil göstərir ki, son on iki il ərzində Azərbaycanda fəaliyyət göstərən xarici və birgə müəssisələrin sayı ilə onlarda məşğul olanların arasında, 2007-ci, 2009-cu və 2011-ci illər istisna olmaqla, düz mütənasiblik vardır. Belə ki, 2000-ci ildə xarici və birgə müəssisələrin sayı 551 vahid, onlarda məşğul olanların sayı 22145 nəfər olmuşdursa, 2005-ci ildə bu göstəricilər, uyğun olaraq, 796 vahid və 58413 nəfər; 2010-cu ildə, uyğun olaraq, 1091 vahid və 55936 vəfər; 2011-ci ildə, uyğun olaraq, 90182 vahid və 63918 nəfər təşkil etmişdir.

Cədvəl 2-dən göründüyü kimi, Azərbaycanda fəaliyyət göstərən birjaların və onlarda məşğul

olanların sayı o qədər də çox deyidir və son illər həm birjaların sayı, həm də onlarda işləyənlərin sayı əsasən sabitdir (birjalarda məşğul olanların sayı arasındakı cüzi fərqlər kadr axıcılığı ilə izah edilə bilər).

Yuxarıda qeyd olunanlar göstərir ki:

• Azərbaycan iqtisadiyyatının dövlət sektorunda məşğul olanların mütləq sayının və bütün məşğul olanların sırasında xüsusi çəkisinin mütəmadi olaraq azalması, qeyri-dövlət sektorunda məşğul olanların mütləq sayının və xüsusi çəkisinin isə artması müşahidə olunur;

• müxtəlif mülkiyyət formalı təsərrüfat strukturlarının inkişafı ilə məşğulluğun səviyyəsi arasında birbaşa əlaqə vardır: xüsusi, xarici investisiyalı və birgə müəssisələrin şəbəkəsinin genişlənməsi, sərbəst məşğul olanların sayının artması əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayır.

• fəaliyyət göstərən sahibkarlıq strukturlarının sayı ilə onlarda məşğul olanların sayı arasında düz mütənasiblik vardır: belə strukturların sayı artdıqca onlarda məşğul olanların sayının əsasən artması müşahidə edilir.

**2. Azərbaycanda məşğulluğun səviyyəsinin yüksəldilməsi istiqamətləri**

Araşdırmalar göstərir ki, Azərbaycanda sahibkarlığın inkişafı üçün mövcud olan potensialdan səmərəli istifadə edilməsi əmək qabiliyyətli əhalinin məşğulluğunun səviyyəsinin yüsəldilməsinə imkan yarada bilər. Fikrimizcə, Azərbaycanda məşğulluğun səviyyəsinin yüksəldilməsi üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

• ölkədə sahibkarlığın inkişafının iqtisadi dirçəlişə təkan verməklə yanaşı məşğulluğun səviyyəsinin yüksəldilməsində də əhəmiyyətli rol oynadığı nəzərə alınaraq, sahibkarlıq strukturlarının formalaşması və inkişafı üçün əlverişli hüquqi – iqtisadi mühitin yaradılması, bu məqsədlə mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsi, sahibkarların hüquqlarının qorunması, qanunların icrasına nəzarətin gücləndirilməsi, sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması;

• Azərbaycan iqtisadiyyatının inkişafının prioritet (üstün) istiqamətlərinin müəyyən edilməsi, bu istiqamətlər üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərə əlverişli fəaliyyət şəraitinin yaradılması;

• ölkədə mövcud olan, hələ də dövlət mülkiyyətində qalan, ancaq müxtəlif səbəblərdən fəaliyyətini dondurmuş və ya minimuma endirmiş maşınqayırma, yüngül, yeyinti sənayesi müəssisələrinin fəaliyyətinin bərpa edilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi. Bu məqsədlə dövlət büdcəsindən (və ya Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan), sonradan qaytarılmaq şərti ilə, müvafiq maliyyə vəsaitinin ayrılması;

• əlavə işsizliyin yaranmasının qarşısının alınması üçün ekoloji və ya dövlət əhəmiyyətli tədbirlərlə əlaqədar olaraq Bakı şəhərinin mərkəzi hissəsindən köçürülməsinə ehtiyac yaranan müəssisələrin şəhərdən kənara mərhələlərlə -ayrı-ayrı sexlərin köçürülüb istifadəyə verilməsindən sonra-köçürülməsi;

• əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsində kiçik müəssisələrin yaradılmasının və fəaliyyətinin təşkilinin müstəsna rolu nəzərə alınaraq fəaliyyətini məhdudlaşdırmış iri sənaye müəssisələrinin ayrı-ayrı sexlərinin bazasında kiçik müəssisələrin yaradılması və bu müəssisələrin dirçəldilməsi üçün onlara sərfəli şərtlərlə üzunmüddətli kreditlərin verilməsi;

• respublikamızın regionlarında məşğulluğun səviyyəsinin yüksəldilməsi məqsədilə, xarici kapitalın iştirakı ilə yeni yaradılacaq birgə və kiçik müəssisələr üçün müəyyən vergi güzəştlərinin müəyyən edilməsi;

• araşdırmalar göstərir ki, bəzi illərdə Azərbaycan iqtisadiyyatının qeyri-dövlət bölməsində məşğulluğun səviyyəsinin azalmasının başlıca səbəbi, maliyyə çatışmazlığı ucbatından müəyyən sayda sahibkarlıq strukturlarının fəaliyyətinin məhdudlaşdırılması, bir sıra hallarda hətta dayandırılması ilə əlaqədardır. Fikrimizcə, sahibkarlıq strukturlarının maliyyə təminatının yaxşılaşdırılması və tənzimlənməsi üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuy-

ğun olardı:

- fəaliyyət növündən və sahəsindən asılı olaraq sahibkarlıq strukturlarının ödəyəcəyi vergilərin və onların dərəcələrinin differensiallaşdırılması, istehsalla məşğul olanlara güzəştlərin müəyyən edilməsi;

- yeni yaradılan sahibkarlaq strukturlarına istehsal prosesinin təşkil edilməsi üçün uzunmüddətli kreditlər verən kommersiya banklarına və kredit təşkilatlarına vergi güzəştlərinin tətbiq edilməsi;

• aparılan təhlillər göstərir ki, Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq strukturlarının fəaliyyətinin məhdudlaşdırılmasna və bu strukturlarda məşğulluğun səviyyəsinin aşağı düşməsinə təsir edən başlıca səbəblərdən biri onların məhsullarının analoji xarici məhsullara nisbətən rəqabət qabiliyyətinin aşağı olması ilə əlaqədardır. Fikrimizcə, bu sahibkarlıq strukturlarının rəqabət qabiliyyətinin artırılması, eləcə də daxili bazarın qorunması üçün müvafiq proteksionizm siyasətinin yürüdülməsinə ehtiyac vardır. Fikrimizcə, bu məqsədlə aşağıdakı istiqamətlərdə tədbirlərinhəyata keçirilməsi məqsədəuyğun olardı:

- Azərbaycanda istehsal edilən və daxili tələbatı ödəmək qabiliyyətində olan analoji məhsulların idxalına məhdudiyyətlərin qoyulması;

- ixrac üçün mallar istehsal edən sahibkarlıq strukturlarına rəqabətdə qalib gəlməkdə müvafiq yardımların edilməsi;

- ölkəyə yeni texnika və texnologiya gətirən sahibkarlıq strukturlarının müvafiq gömrük rüsumlarından azad edilməsi;

• respublikamızda yeni yaradılan iş yerləri ilə əmək ehtiyatlarının artımı arasında uyğunluğun yaradılması və bu sahədə sahibkarlıq strukturlarının stimullaşdırılması üçün yeni iş yerləri açan sahibkarlıq strukturlarına vergi güzəştlərinin tətbiq etdirilməsi;

• bir çox sahibkarlıq strukturlarında işçilərin həddindən artıq (fasiləsiz, istirahət günləri olmadan və əmək müqaviləsi bağlanmadan) işlədilməsində özünü büruzə verən əmək qanunvericiliyinin kobud şəkildə pozulmasının qarşısının alınması;

• ölkədə yeni yaradılan sahibkarlıq strukturlarının formalaşmasına və inkişafına, beləliklə də, onlarda məşğul olanların sayının artırılmasına kömək göstərilməsi üşün sahibkarlığın inkişafının infrastruktur təminatı sisteminin yaradılması və tənzimlənməsi;

• məlumdur ki, işsizliyin aradan qaldırılmasında və məşgulluq tədbirlərinin səmərəli nəticə verməsində ölkədə fəaliyyət göstərən əmək bazarı əhəmiyyətli rol oynayır. Azərbaycanda əmək bazarının hələ də kifayət qədər inkişaf etmədiyi, ancaq ölkəmizdə açıq və gizli işsizliyin mövcud olması nəzərə alınaraq səmərəli məşğulluğun təmin edilməsi üçün əmək bazarının formalaşmasına və onun dövlət tərəfindən tənzimlənməsinə ehtiyac vardır;

• əhalinin məşğulluğunun yüksəldilməsi imkanlarının artırılması məqsədi ilə - Azərbaycanın əlverişli təbii və iqlim şəraiti, ölkəmizdə çoxsaylı tarixi abidələrin mövcudluğu, ilin günəşli günlərinin sayının çoxluğu, dəniz çimərliklərinin olması nəzərə alınmaqla- turizmin inkişafı üçün sahibkarlıq strukturlarına maliyyə yardımlarının edilməsi və s.

Fikrimizcə, yuxarıda irəli sürülən istiqamətlərdə təkliflərin reallaşdırılması Azərbaycanda sahibkarlığın inkişafına və beləliklə də, əmək qabiliyyətli əhalinin məşğulluğunun səviyyəsinin yüksəldilməsinə şərait yarada bilər.

## Nəticə

Aparılan araşdırmalar göstərir ki, ölkədə sahibkarlığın inkişafı ilə əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsi arasında birbaşa əlaqə vardır. Bununla yanaşı, hər bir ölkədə, o cümlədən Azərbaycanda, sahibkarlığın inkişafı ilə məşğulluq səviyyəsi arasında əlaqənin özünəməxsus xüsusiyyətləri mövcuddur. Azərbaycanda sahibkarlığın inkişafı ilə məşğulluq səviyyəsi arasında əlaqə özünü aşağıdakılarda büruzə verir:

• fəaliyyət göstərən sahibkarlıq strukturlarının sayı ilə onlarda məşğul olanların sayı arasında düz mütənasibliyin olmasında- belə strukturların sayı artdıqca onlarda məşğul olanların sayının

əsasən artmasında;

• Azərbaycan iqtisadiyyatında məşğul olanların mütləq sayında və bütün məşğul olanların sırasında xüsusi çəkisində sahibkarlıq strukturlarında məşğul olanların mütləq sayının və xüsusi çəkisinin artmasında;

• kişik müəssisələrin, xüsusi, xarici investisiyalı və birgə müəssisələrin şəbəkəsinin genişlənməsi, sərbəst məşğul olanların sayının artması nəticəsində əmək qabiliyyətli əhalinin məşğulluğunun səviyyəsinin artmasında.

Azərbaycanda əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlər hazırlanarkən bunların nəzərə alınması, başqa sözlə, məşğulluğun səviyyəsinin yüksəldilməsi məqsədi ilə sahibkarlığın formalaşmasını və inkişafını sürətləndirən hüquqi-iqtisadi mühitin yaradılması məqsədəuyğun olardı. Fikrimizcə, yuxarıda irəli sürülən istiqamətlərdə tədbirlərin həyata keçirilməsi qeyd edilən məqsədin reallaşdırılmasına imkan verərdi.

## Ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2009.
2. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2012.
3. R.Əliyev. Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının sosial-iqtisadi problemləri. Bakı, "Elm", 2010.

***Ш.Т.Алиева***

## Характеристика связей между развитием предпринимательства и уровнем занятости в Азербайджане

### Резюме

В статье анализируется влияние развития предпринимательства на уровень занятости в Азербайджане. На основе проведенных анализов в статье также выявляются характеристики связей между развитием предпринимательства и уровнем занятости в Азербайджане, получены соответствующие выводы и приводятся конкретные предложения и рекомендации, способствующие развитию предпринимательства и повышению уровня занятости.

***Ключевые слова: предпринимательство, развитие, занятость, связь, характеристика, тенденции.***

***Sh.T.Aliyeva***

## The characteristic of communications between business development and an employment rate in Azerbaijan

### Summary

In article influence of development of business on an employment rate in Azerbaijan is analyzed. On the basis of the carried-out analyses in article characteristics of communications between development of business and an employment rate in Azerbaijan also come to light, the corresponding conclusions are received and specific proposals and the recommendations promoting development of business and increase of an employment rate are given.

***Keywords: business, development, employment, communication, characteristic, tendencies.***

**UOT 334.012**

***Ramil Teyyub oğlu ƏLİYEV***
***AMEA-nın İqtisadiyyat İnstitutunun böyük***
***elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru***

# İSTEHSAL SAHİBKARLIĞININ FORMALAŞMASINA VƏ İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

**Xülasə**

Məqalədə istehsal sahibkarlığının formalaşmasına və inkişafına təsir edən daxili və xarici amillər, onların təsir istiqamətləri və fərqli cəhətləri şərh edilir. Məqalədə, həmçinin istehsal sahibkarlığının formalaşmasına və inkişafına təsir edən sosial-iqtisadi amillər araşdırılır. Aparılmış araşdırmalara əsaslanaraq, məqalədə istehsal sahibkarlığının formalaşdırılmasına və səmərəli fəaliyyətinin təşkilinə təsir edən amillərdən istifadə yolları göstərilir.

***Açar sözlər: istehsal sahibkarlığı, formalaşma, inkişaf, daxili amillər, xarici amillər, sosial-iqtisadi amillər.***

***

Sahibkarlığın ən əsas, aparıcı sahəsi istehsal sahibkarlığıdır. Bazar iqtisadiyyatına malik olan ölkələrin iqtisadi inkişafı xeyli dərəcədə həmin ölkələrdə istehsal sahibkarlığının inkişaf səviyyəsindən asılı olur.

İstehsal sahibkarlığı prosesində yeni maddi dəyərlər yaradılır. Bu sahibkarlıq növünə əmtəə istehsalı, istehsal təyinatlı əmtəələrin istehlakı, istehsalla bağlı xidmətlər, müxtəlif xidmətlərin göstərilməsi, elmi-texniki və informasiya fəaliyyəti daxildir [2, səh. 35]. İstehsal fəaliyyəti ilə məşğul olmaq istəyən hər bir sahibkar hansı fəaliyyət növü ilə məşğul olacağını, hansı əmtəələri istehsal edəcəyini və xidmətlər göstərəcəyini əvvəlcədən müəyyən etməlidir. Sahibkar öz istehsal fəaliyyətini təşkil edərkən həmçinin bu fəaliyyət növünə təsir edən amilləri araşdırmalı və onları nəzərə almalıdır.

**İstehsal sahibkarlığına təsir edən amillər və onlardan istifadə yolları**

İstehsal sahibkarlığının təşkili və həyata keçirilməsi üçün ən vacib amillər bu sahibkarlıq növü ilə məşğul olmaq istəyən sahibkarın mövcudluğu, müvafiq istehsal fondlarının və işçi qüvvəsinin olmasıdır. Ancaq bunlardan əlavə istehsal sahibkarlığının təşkili, müvəffəqiyyətli fəaliyyəti bir sıra başqa amillərdən də asılıdır və sahibkar mütləq bu amilləri nəzərə almalıdır. Ümumi şəkildə bu amillər müəssisədaxili və müəssisəxarici amillərə ayrılır. Müəssisədaxili amillər sahibkarın bilavasitə təsirinə məruz qala bilən və onun tərəfindən idarə oluna bilən amillərdir.

Müəssisədaxili amillərin idarə edilməsi nisbi xarakter daşıyır. Sahibkar bu amillərin formalaşması üsullarını və ya onlardan istifadə edilməsi üçün mövcud variantlardan birini seçmək imkanına malik olur. Bundan əlavə, sahibkar daxili amillərin hər birinin inkişafının istiqamətləndirilməsi imkanına da malik olur. Məsələn, kütləvi istehsal tipli müəssisələrdə iş rejimi öz monoton xarakteri ilə işçilərə çox yorucu təsir göstərir ki, bu da öz növbəsində əmək məhsuldarlığının və işin keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Belə halda sahibkar ya müəssisədə iş rejimini dəyişməli (çox vaxt, xüsusilə də fasiləsiz istehsal müəssisələrində, bu mümkün olmur) ya da onun yorucu təsirinin aradan qaldırılması üçün tədbirlər görməlidir.

Sahibkarlıq fəaliyyətinə təsir göstərən əsas daxili amillər aşağıdakılardır: sahibkarın məqsədi; məqsədə nail olmaq üçün seçilən texnika və texnologiya; seçilmiş texnika və texnologiyaya uyğun təşkilati struktur; struktur bölmələrinin vəzifələri; qarşıya qoyulan vəzifələrin icraçılarının peşə-ixtisas tərkibi və hazırlıq səviyyəsi.

Sahibkarın məqsədinin formalaşmasına onu əhatə edən daxili və xarici mühitin elementləri əhəmiyyətli dərəcədə təsir göstərir. Sahibkar öz məqsədini müəyyən edərkən adətən məqsədlər

iyerarxiyasını qurur. Bu iyerarxiyada ali məqsəd və ona nail olunması üçün zəruri olan altməqsədlər-vəzifələr göstərilir. Sahibkar öz məqsədinə çatmaq üçün müəssisənin bütün funksial bölmələrinin ümumi məqsədə xidmət etməsinə nail olmalı, onlar arasında ziddiyyət yaranmasına yol verməməlidir.

Sahibkar seçdiyi məqsəd və vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün müvafiq texnika və texnologiya seçməlidir. Eyni zamanda, qeyd etmək lazımdır ki, elmi-texniki tərəqqi inkişaf etdikcə, istehsalın mexanikləşdirilməsi, avtomatlaşdırılması, kompüterləşdirilməsi səviyyəsi yüksəldikcə, məhsulun keyfiyyətinə tələb artdıqca texnologiyanın istehsal sahibkarlığına təsiri də artır.

Elmi-texniki tərəqqi sahibkarlıq fəaliyyətinin hər bir mərhələsində əmək bölgüsünün dərinləşməsinə səbəb olmuş və olmaqdadır. Bu əmək bölgüsü müəssisələrdə təşkilati strukturların formalaşmasında əsas rol oynayır. Sahibkarın seçdiyi texnologiya ixtisaslaşmış əmək bölgüsü vasitəsilə mərhələlərə və hissələrə bölünür ki, onların icrası üçün ayrı-ayrı iş yerləri və bölmələri təşkil olunur. Təşkil edilən iş yerləri və bölmələri iyerarxiya tərkibində bir-birini tamamlamalıdır.

Müəssisənin təşkilati strukturunun hər bölməsi qarşısında müəyyən məqsədlər qoyulur ki, onlar da öz növbələrində bölmənin iş yerləri arasında hissələrə bölünürlər. Hər bir vəzifə ümumi məqsədə nail olunmasına xidmət etməlidir. Ona görə də iş yerlərində və bölmələrdə vəzifələrin düzgün təyin olunması və bölüşdürülməsi sahibkarlıq fəaliyyətində mühüm əhəmiyyət kəsb edir.

Struktur bölməsində və iş yerlərində vəzifələrin yerinə yetirilməsi onların icraçıları qarşısında müəyyən tələblər qoyur. Belə ki, hər bir vəzifə icraçıdan müəyyən biliklər, icra qabiliyyəti, məsuliyyət və ixtisas səviyyəsi tələb edir. Beləliklə, vəzifələrə görə icraçılara qoyulan tələblər kadrların seçilməsində əsas rol oynayır. Həmin tələblərin ifadə edilməsi, kadrların seçilməsi kriteriyaları və seçmə metodlarının müəyyən edilməsi sahibkarın qarşısında duran əsas vəzifələrdəndir.

İstehsal sahibkarlığına təsir edən müəssisədaxili amillərdən fərqli olaraq xarici amillər sahibkardan asılı deyildir-sahibkar xarici amilləri yalnız nəzərə ala bilər, onların təsir istiqamətlərini öyrənib öz fəaliyyətini tənzimləyə bilər.

İstehsal sahibkarlığına təsir edən xarici amillərə əsasən aşağıdakılar aid edilir: iqtisadi, siyasi, hüquqi, sosial-mədəni, texnoloji, coğrafi (beynəlxalq) və infrastruktur amilləri.

İqtisadi amillər əsasən əhalinin alıcılıq qabiliyyəti ilə bağlıdır. Çünki o, sahibkarlığın məqsədinə nail olmaq, yəni mənfəət əldə etmək vasitəsidir. Alıcıların pul vəsaitlərinin az və ya çox olması onların alacağı əmtəələrin və istifadə edəcəyi xidmətlərin növlərini, kəmiyyətini, bu əmtəələrə və xidmətlərə görə ödəməyə hazır olduqları məbləği müəyyən edir. Bu məbləğ nə qədər çox olsa, sahibkarlıq fəaliyyəti üçün daha əlverişli mühit yaranmış olar. Bununla yanaşı iqtisadi amillərə iş yerlərinin mövcudluğunu və məşğulluğun səviyyəsini də aid etmək olar. Məşğulluq səviyyəsi yüksək olduqca əhalinin gəlirləri də yüksək olur. İnformasiya, kredit əldə etmək imkanları, dövlətin sahibkara müxtəlif maliyyə güzəştləri, yardımları da iqtisadi amillərə aid edilməlidir.

Sahibkarlıq fəaliyyətinin səmərəli təşkil edilməsində dövlətin maliyyə-kredit, vergi siyasətinin də mühüm əhəmiyyəti vardır. Kredit faizlərinin aşağı olması, vergi güzəştləri sahibkarlığın inkişafına əlavə stimul yaradan iqtisadi amillər kimi xüsusi önəm daşıyır.

İstehsal sahibkarlığının inkişafına siyasi amillər də əhəmiyyətli təsir göstərir. Sahibkarlıq fəaliyyəti siyasi mühitə çox həssasdır. Hökumətin iqtisadi siyasəti, siyasi məqsədləri və vəzifələri, iqtisadiyyatı idarəetmə üsulları sahibkarlığın inkişafını sürətləndirə, stimullaşdıra və ya ləngidə bilər. Hökumətin ictimai və xüsusi bölməyə münasibəti də sahibkarlığın inkişafını sürətləndirə və ya ona mane ola bilər.

Ölkədə ictimai-siyasi sabitliyin olması sahibkarlığın inkişafında xüsusi rol oynayır. Öz vəsaiti və şəxsi riski ilə fəaliyyət göstərən sahibkarlar siyasi mühitdə qeyri-müəyyənliyi sevmir. Tarixi

təcrübələr də göstərir ki, siyasi gərginlik olan ölkələrdə iqtisadi aktivlik aşağı düşür. Ona görə də sahibkarlar ölkədə siyasi sabitliyin olmasında, hökumətin ardıcıl, dönməz və inamlı siyasət yürütməsində maraqlı olurlar.

Sahibkarlıq fəaliyyətinin inkişafında hüquqi amillərin rolu böyükdür. Sahibkarlıq yalnız qanunvericiliyə əsaslanmaqla və qanunvericiliklə müdafiə olunmaqla inkişaf edə bilər. Ona görə də hər bir ölkədə, o cümlədən Azərbaycanda, sahibkarlığın, xüsusilə də istehsal sahibkarlığının inkişafı üçün mütərəqqi qanunların qəbul edilib tətbiq edilməsinə ehtiyac vardır. İnkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrdə bu istiqamətdə xeyli işlər görülmüşdür və buna görə də həmin ölkələrdə sahibkarlığın inkişafı üçün əlverişli hüquqi mühit formalaşmışdır. Azərbaycanın bu ölkələrin təcrübəsindən yararlanmasına ehtiyac vardır.

Azərbaycan kimi yenicə bazar iqtisadiyyatı yolu seçmiş ölkələrdə müxtəlif mülkiyyət formasına malik olan istehsal-təsərrüfat strukturlarına təkcə qanunvericiliklə deyil, real həyatda da bərabər hüquqlu şəraitin yaradılması xüsusilə vacibdir. Dövlət sahibkarların hüquqlarının, qanuni mənafelərinin müdafiəsini təmin etməlidir. Sahibkarlıq fəaliyyətinə qeyri-qanuni müdaxilə edənlər, ona mane olanlar qanunla məsuliyyətə cəlb olunmalıdırlar [1].

Qeyd etmək lazımdır ki, sahibkarların müəyyən, xüsusilə yenicə bu fəaliyyətlə məşğul olan hissəsi, ölkədə mövcud qanunları kifayət qədər bilmir, sahibkarlıq sahəsində təcrübəyə malik deyillər. Ona görə də belə sahibkarların hüquqi savadlarının artırılmasına ehtiyac yaranır. Dövlət bu sahədə sahibkarlara yardım etməlidir.

Sahibkarlığın inkişafında ölkədə mövcud olan sosial-mədəni mühit də müəyyən rol oynayır. İctimai şüur, əhalinin təhsil səviyyəsi yüksək olan ölkələrdə sahibkarlığın inkişafı üçün daha münbit sosial-mədəni mühit mövcud olur. Bunlarla yanaşı əxlaqi və dini normalar, adət-ənənə, yaş-cins tərkibi, əhalinin məskunlaşma səviyyəsi, miqrasiya meyli də sahibkarlığın formalaşmasında və inkişafında əhəmiyyətli rola malikdir. Qeyd edilənlər insanların həyat tərzini, zövqünü, dünyagörüşünü, sahibkarlığa münasibətini formalaşdırır, onların müxtəlif növ əmtəələrə və xidmətlərə, əmək haqqı səviyyəsinə, əmək şəraitinə tələbatını müəyyənləşdirir.

İstehsal sahibkarlığı ilk növbədə müəyyən texnika və texnologiyadan istifadəyə əsaslanır. Ölkədə elmin, texnikanın və texnologiyanın inkişaf səviyyəsi artdıqca istehsal sahibkarlığının inkişafı daha da sürətlənir, yeni istehsal sahələri, müəssisələri yaradılır.

Təbiidir ki, müxtəlif istehsal sahələrində sahibkarlıq fəaliyyətinin təşkili müvafiq texnika və texnologiyanın mövcudluğu ilə yanaşı onların əldə edilməsi imkanı ilə də bağlıdır. Bununla yanaşı, bazar iqtisadiyyatı şəraitində yalnız yeni texnika və texnologiyanın tətbiqi, istehsalın daim yeniləşdirilməsi, moderinləşdirilməsi əsasında rəqabətə tab gətirmək, sabit sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq olar. Ancaq sahibkarların heç də hamısının, xüsusilə kiçik və orta sahibkarların yeni texnika və texnologiya almaq imkanları olmur. Ona görə də dövlət maliyyə-kredit-vergi güzəştləri tətbiq etməklə sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara yardımlar etməli və beləliklə də onları istehsala yeni texnika və texnologiya tətbiq etməyə sövq etməlidir.

Ölkədə sahibkarlığın, xüsusilə də istehsal sahibkarlığının bu və ya digər sahələrinin inkişafında mövcud təbii-iqlim şəraiti, təbii sərvətlərin mövcudluğu, avtomobil, su, hava, dəmir yol şəbəkələrinin inkişaf səviyyəsi, ölkənin coğrafi mövqeyi və beynəlxalq əmək bölgüsündə iştirak səviyyəsi əhəmiyyətli rol oynayır. Ölkənin əlverişli coğrafi mühiti sahibkarlığın bu və ya digər sahələrinin inkişafına əlavə stimul yaratmaqla bərabər, ölkəyə xarici investisiyaların cəlb edilməsinə də münbit şərait yaradır.

Hər hansı bir ölkədə sahibkarlığın inkişafında, xüsusilə də ölkəyə xarici investisiyaların cəlb edilməsində infrastrukturla bağlı amillərin rolu böyükdür. Məlumdur ki, infrastruktur ünsürlərinə aşağıdakılar aiddir: maliyyə xidməti göstərən banklar və kredit təşkilatları; əmtəələrin bölüşdürülməsi üzrə xidmət göstərən topdansatış və pərakəndə satış obyektləri; hüquq, mühasibat uçotu, auditor xidmətləri göstərən firma və idarələr; bazarın öyrənilməsi ilə məşğul olan marketinq struk-

turları; reklam, nəqliyyat agentlikləri; işədüzəltmə idarələri; sığorta şirkətləri; rabitə və informasiya sistemləri; lizinq şirkətləri. Bu infrastruktur ünsürləri sahibkarlıq fəaliyyətinin bu və ya digər tələbatlarının ödənilməsinə xidmət edir, sahibkarların qarşılıqlı əlaqələrinin yaradılmasında, kommersiya əməliyyatlarının aparılmasında və beləliklə də, sahibkarlıq fəaliyyətinin səmərəli təşkil edilməsində mühüm rol oynayır. Ona görə də infrastruktur elə formalaşdırılmalı, təşkil edilməli və seçilməlidir ki, sahibkarlıq fəaliyyətinin müvəffəqiyyət qazanma ehtimalı yüksək olsun və ya riskdən qaçma, onu minimuma endirmə imkanları mümkün olsun.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, istehsal sahibkarlığının səmərəli təşkilinə həmçinin aşağıdakı xarici amillər də təsir göstərir: tərəfdaşlar, tərəfdaşlıq əlaqələrinin səviyyəsi və etibarlılığı; işçilərin peşəkarlıq səviyyəsi; firmanın istehlakçılar arasında nüfuzu; həmkarlar ittifaqı; rəqiblər, onların üstün və zəif cəhətləri, rəqabətin səviyyəsi; dünya bazarlarında vəziyyət.

İstehsal sahibakarlığının formalaşmasına və inkişafına müəssisədaxili və müəssisəxarici amillərlə yanaşı sosial-iqtisadi amillər də əhəmiyyətli dərəcədə təsir göstərir. Sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsində bu amillərin rolunu nəzərə almaq və onlardan istifadə etmək lazımdır.

Qeyd etmək lazımdır ki, istehsal sahibkarlığının formalaşmasına təsir edən sosial-iqtisadi amillərlə onun inkişafına təsir edən sosial-iqtisadi amillər bir-birindən fərqlənirlər. İnkişaf etmiş ölkələrin, eləcə də Azərbaycanın istehsal sahibkarlığının formalaşması sahəsində əldə etdikləri təcrübənin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, bu sahibkarlıq növünün formalaşmasına aşağıdakı amillər təsir edir: sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxsin dünyagörüşü, hazırlıq səviyyəsi, şəxsi keyfiyyətləri, işgüzarlığı, təşkilatçılıq qabiliyyəti; ailə-məişət münasibətləri; ictimaiyyətin (cəmiyyətin) sahibkarlıq fəaliyyətinə münasibəti; əhalinin təhsil, mədəni-texniki səviyyəsi; xalqın adət-ənənəsi; əhalinin sosial-iqtisadi vəziyyəti.

Təbiidir ki, istehsal sahibkarlığının formalaşmasına təsir edən başlıca sosial-iqtisadi amil sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxsin dünyagörüşü, hazırlıq səviyyəsi, şəxsi keyfiyyətləri, işgüzarlığı, xüsusilə də təşkilatçılıq qabiliyyəti ilə bağlıdır. Gələcək sahibkarın geniş dünyagörüşə malik olması ona daha əlverişli istehsal növünün seçilməsində yardımçı olur; yüksək hazırlıq səviyyəsinə (təhsilə, ixtisasa, iş təcrübəsinə və s.) malik olan, işgüzar, təşkilatçılıq keyfiyyətlərinə sahib olan gələcək sahibkar öz istehsal fəaliyyətini dövrün tələbləri səviyyəsində qurmaq imkanı qazanır.

Gələcək sahibkarın ailə-məişət münasibətləri sahibkarlıq fəaliyyətinin formalaşmasında əhəmiyyətli rol oynayır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən, təbiidir ki, tərəfdaşını öncə ailəsində axtarır, öz ailə üzvlərinin köməyinə, yardımına bel bağlayır. Normal ailə-məişət münasibətlərinə malik olmayan şəxsin sahibkarlıq fəaliyyətində uğur qazanması çox zaman mümkün olmur və ya çox çətin başa gəlir.

İstənilən cəmiyyətdə, xüsusilə də Azərbaycan kimi bazar iqtisadiyyatına yenicə qədəm qoymuş ölkələrdə, ictimaiyyətin sahibkarlıq fəaliyyətinə münasibəti onun formalaşmasında mühüm rol oynayır. Uzun müddət istehsal vasitələri üzərində ictimai mülkiyyətin hökmran olduğu sosializm cəmiyyətində yaşayan, kapitalizmə istismarçı bir quruluş kimi yanaşan insanların qısa müddət ərzində bazar iqtisadiyyatının tələb etdiyi davranış formalarını qəbul etməsi mümkün olmur. Bazar iqtisadiyyatına keçid çox zaman cəmiyyətdə gərginlik yaradır (iqtisadi böhran, hiperinflyasiya, kəskin xarakter alan işsizlik və s. nəticəsində) ki, bu da insanlarda həm sahibkarlara, həm də sahibkarlıq fəaliyyətinə neqativ münasibət doğurur. Bu münasibətin yumşadılması, sahibkarlığa normal münasibətin formalaşması üçün dövlət səviyyəsində müvafiq tədbirlər görülməlidir (bazar iqtisadiyyatına rəvan keçidin təmin olunması üçün müvafiq qanunların qəbul edilməsi; sahibkarlıq fəaliyyətinin məqsədləri, ölkə iqtisadiyyatında, məşğulluğun yüksəldilməsində onun rolu və s. barədə ictimaiyyət arasında müvafiq təbliğatın aparılması və s.).

Əhalinin təhsil, mədəni-texniki səviyyəsi yüksək olduğu ölkələrdə istehsal sahibkarlığının for-

malaşması üçün daha əlverişli şərait mövcud olur. Əhalinin yüksək təhsil, mədəni-texniki səviyyəsi sahibkarlıq fəaliyyətinə normal münasibətin formalaşmasında əhəmiyyətli rol oynamaqla yanaşı istehsalda çalışmaq üçün müvafiq işçi qüvvəsinin formalaşmasında da mühüm rol oynayır.

Sahibkarlıq fəaliyyətinin formalaşmasına xalqın adət-ənənəsi də müəyyən dərəcədə təsir göstərir. Bu təsir xüsusilə regionlarda, əsasən də kiçik və orta sahibkarlığın formalaşmasında özünü daha çox büruzə verir. Regionlarda əsasən ənənəvi sahələrdə (xalçaçılıq, dulusçuluq, toxuculuq və s.) sahibkarlıq fəaliyyəti formalaşır və inkişaf edir. Buna görə də regionlarda istehsal sahibkarlığı ilə məşğul olmaq istəyənlər bu amili nəzərə almalıdırlar.

Əhalinin sosial-iqtisadi vəziyyətinin sahibkarlığın formalaşmasına təsiri şəksizdir. Birinci, sahibkarlıq fəaliyyəti ilə yalnız iqtisadi vəziyyəti kifayət qədər yüksək olan şəxslər məşğul ola bilərlər; ikincisi, sosial-iqtisadi vəziyyəti yaxşı olan insanların alıcılıq qabiliyyəti lazımi səviyyədə ola bilər ki, bu da təklif ediləcək əmtəə və xidmətlərin alınmasında mühüm rol oynayır. Əmtəə və xidmətlərin reallaşdırılmasında yaranan çətinliklər, şübhəsizdir ki, sahibkarlıq fəaliyyətinin formalaşmasına mənfi təsir göstərəcəkdir.

İstehsal sahibkarlığının inkişafına təsir edən sosial-iqtisadi amillər daha geniş və çoxcəhətlidir. Bu amilləri istehsal sahibkarlığının inkişafına birbaşa və dolayı təsir edən amillərə bölmək olar. İstehsal sahibkarlığının inkişafına birbaşa təsir edən sosial-iqtisadi amillər aşağıdakılardır: əmək şəraiti; əmək intizamı; kadrların düzgün seçilib yerləşdirilməsi; müəssisə kadrlarının sabitlik səviyyəsi; müəssisə işçilərinin təhsil, mədəni-texniki, peşə-ixtisas səviyyəsi; iş vaxtından istifadə; müəssisə kollektivi arasında qarşılıqlı münasibətlər, kollektivdə mövcud olan sosial-psixoloji mühit.

İstehsal sahibkarlığının inkişafına dolayı yolla təsir edən amillərə aşağıdakıları aid etmək olar: işçilərin texniki yaradıcılığı və səmərələşdirici fəaliyyəti; istehsal müəssisələrində məişət xidmətinin təşkili; əmək və istehsal prosesində qarşılıqlı yardım; qeyri-iş vaxından istifadənin vəziyyəti; işçilərin mənzil-məişət şəraiti; işçilərin ailə-məişət münasibətləri; işlədiyi müəssisənin imicinə münasibət.

İstehsal sahibkarlığının inkişafına bilavasitə təsir edən sosial-iqtisadi amillər sırasında “əmək şəraiti” xüsusi rol oynayır. Səmərəli istehsal fəaliyyətinin həyata keçirilməsi üçün normal əmək şəraiti yaradılmalıdır. Normal əmək şəraiti özündə fiziki əmək sərfinin minimuma endirilməsini, zehni əmək üçün komfort şəraitin yaradılmasını, sanitar-gigiyenik qaydalara riayət edilməsini, insan sağlamlığına mənfi təsir edən amillərin aradan qaldırılmasını və ya minimuma endirilməsini, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasını və s. ehtiva edir. Normal əmək şəraiti əmək məhsuldarlığının yüksəldilməsinə bilavasitə təsir etməklə istehsalın inkişafını da sürətləndirir.

Əmək intizamının möhkəmləndirilməsi istehsalın rəvan həyata kecirilməsində müstəsna rol oynayır. Əmək intizamı həm də işçiləri səfərbər edir, onların məsuliyyətini, cavabdehliyini artırır və beləliklə də istehsal proqramının vaxtında yerinə yetirilməsinə zəmin yaradır.

İstehsalın səmərəli təşkilində, planlaşdırılmasında və idarə edilməsində kadrların düzgün seçilib yerləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Kadrlar seçilərkən onların təhsilinin, ixtisasının (peşəsinin), iş stajının yerinə yetirəcəyi işə uyğunluğuna xüsusi diqqət yetirilməli, mümkün qədər kadrların şəxsi keyfiyyətləri (xasiyyəti, işçilərlə ünsiyyət qurmaq bacarığı, təşkilatçılıq, idarəçilik qabiliyyəti və s.) nəzərə alınmalıdır [3, səh. 363-364 ]. Bunların nəzərə alınması birbaşa olaraq müəssisə kadrlarının sabitliyinə də təsir göstərir. Təbiidir ki, yüksək təhsil, peşə, ixtisas səviyyəsinə, işgüzarlığa malik sabit kadrları olan müəssisə istehsalın inkişafı sahəsində qarşısına qoyduğu vəzifələri müvəffəqiyyətlə yerinə yetirə biləcəkdir.

İş vaxtından istifadənin yaxşılaşdırılması istehsal sahibkarlığının inkişafına birbaşa təsir etdiyindən iş vaxtı itkilərinin aradan qaldırılmasına, ondan səmərəli istifadə edilməsinə xüsusi diqqət yetirməlidir. Nəzərə almaq lazımdır ki, iş vaxtı itkiləri istehsalın həcminə mənfi təsir etməklə yanaşı əmək, xüsusilə də istehsal intizamını da zəiflədir.

Müəssisə kollektivi arasında qarşılıqlı münasibətlərin, kollektivdə mövcud olan sosial-psixoloji mühitin istehsal sahibkarlığının inkişafına təsiri (bu və ya digər istiqamətlərdə) şəksiz olduğundan, onların normal vəziyyətdə saxlanması üçün mütəmadi olaraq müvafiq tədbirlərin həyata keçirilməsi hər bir müəssisənin qarşısında duran əsas vəzifələrdən biri hesab edilməlidir.

İstehsal sahibkarlığının inkişafına dolayı təsir edən sosial-iqtisadi amilləri diqqətdən qaçırmaq olmaz. Bu amillər sırasında işçilərin texniki yaradıcılığı və səmərələşdirici fəaliyyəti, əmək və istehsal prosesində qarşılıqlı yardım, işlədiyi müəssisənin imicinə münasibət xüsusilə vacibdir və onlar daim diqqət mərkəzində olmalıdır.

İstehsal müəssisələrində məişət xidmətinin təşkili, qeyri-iş vaxtından istifadə işçilərin əmək qabiliyyətinin bərpasında, beləliklə də istehsal sahibkarlığının inkişafında əhəmiyyətli rol oynadığından onların yaxşılaşdırılması üçün müvafiq tədbirlər görülməlidir.

İşçilərin mənzil-məişət şəraiti, onların ailə-məişət münasibətləri işçilərin əhval-ruhiyyəsinə, beləliklə də, onların əmək məhsuldarlığının səviyyəsinə əhəmiyyətli təsir göstərir. Buna görə də müəssisə, imkan daxilində, işçilərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yardım etməlidir.

## Nəticə

İstehsal sahibkarlığının formalaşmasına və inkişafına müxtəlif amillər təsir göstərir. Ona görə də, istehsal sahibkarlığının səmərəli, sabit həyata keçirilməsi, rəqabətə tab gətirməsi xeyli dərəcədə ona təsir edən daxili və xarici amillərin öyrənilməsi və onlardan istifadə səviyyəsindən asılıdır. İstehsal sahibkarlığı ilə məşğul olan sahibkar bunları nəzərə almalı, müntəzəm olaraq onun fəaliyyətinə təsir edən daxili və xarici amilləri təhlil etməli və müvafiq tədbirlər görməlidir.

## Ədəbiyyat

1."Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 10 sentyabr 2002.
2. V.Niftullayev. Sahibkarlığın əsasları. Bakı, 2002.
3. T.Ə.Quliyev. Menecmentin (idarəetmənin) əsasları. Bakı, 2001, səh. 363-364.

***Р.Т.Алиев***

## Факторы, влияющие на формирование и развитие производственного предпринимательства

## Резюме

В статье рассматриваются внутренние и внешние факторы, влияющие на формирование и развитие производственного предпринимательства, их различие и направления влияния. В статье также рассматриваются социально-экономические факторы, влияющие на формирование и развитие производственного предпринимательства. На основе проведенных анализов в статье приводятся пути использования факторов, влияющих на формирование и развитие производственного предпринимательства.

***Ключевые слова: производственное предпринимательство, формирование, развитие, внутренние факторы, внешние факторы, социально-экономические факторы.***

***R.T.Aliyev***

## The factors influencing on formation and development production business

## Summary

In article the internal and external factors influencing on formation and development of production business, their distinction and the influence directions are considered. In article the socio-economic factors influencing on formation and development of production business also are considered. On the basis of the carried-out analyses ways of use of the factors influencing on formation and development of production business are given in article.

***Keywords: production business, formation, development, internal factors, external factors, socio-economic factors.***

# MALİYYƏ VƏ İNVESTİSİYA PROBLEMLƏRİ

**UOT 336.714**

***Zakir Əlibala oğlu NURİYEV***
***Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı***

## İNVESTİSİYA PORTFELLƏRİNİN FORMALAŞMASINDA PAY İNVESTİSİYA FONDLARININ ROLU

**Xülasə**

Məqalədə respublikamızda investisiya portfelinin formalaşmasında pay investisiya fondlarının rolundan bəhs edilir, investisiya qoyuluşlarında kapitalın hərəkəti və ondan istifadə səmərəliliyi göstərilir. Pay investisiya fondunun səmərəli fəaliyyətinin qiymətləndirilməsi, eyni zamanda fondun aktiv payçılarının fəaliyyətindən bəhs edilir.

***Açar sözlər: İnvestisiya, pay fondları, səmərəlilik, saxlama fondları, şirkətlər, monitorinq.***

***

Müasir dövrdə tövsiyələr hazırlanması pay investisiya fondlarının idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi üzrə əldə edilmiş nəticələrin tətbiq olunmasının hərtərəfli təhlilini nəzərdə tutur. İnvestisiya qoyuluşları kapitalın hərəkətini tənzim edir [1, səh. 64].

İnvestorlar üçün fond portfellərinin formalaşdırılması və PİF-lərin özlərinin idarə edilməsinin səmərəliliyinin artırılması üzrə təklif olunan tədbirlər sistemi aşağıdakı hədəf qruplar üçün təhlil aparılmasını nəzərdə tutur:

1. bütün növ payçılar, maliyyə konsultantları və idarəetmə şirkətlərinin müştərilərlə iş üzrə menecerləri üçün;
2. Pay investisiya fondlarını-PİF-ləri idarə edən şirkətlər üçün:
- fondları idarə edən şirkətin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə;
- marketinq məqsədilə;
- “Fond fondlarında” investisiya portfellərinin formalaşdırılması məqsədilə;
3. tənzimləyici və nəzarətedici orqanlar tərəfindən fondların etibarlılığının qiymətləndirilməsi məqsədilə.

İnvestorların dəyərlər və investisiya üstünlükləri sistemi fərqlidir. Səciyyəvi olan yalnız bütün növ investorların kapitalı qoruyub saxlamaq və artırmaq cəhdləridir. Lakin məqsədli funksiyaya bu kontekstdə baxılması doğru deyil. Obyektiv səbəblər - riskə meyllilik, investisiya zamanı, bazar şəraiti və s. investorun seçiminə bir sıra məhdudiyyətlər qoyur. Bununla əlaqədar olaraq, investorların tələblərinə və investisiya üstünlüklərinə cavab verən fond növlərinin müəyyən olunması üçün daha ümumi yatırım məqsədlərinə baxmaq məqsədəuyğundur.

Artıq qeyd olunduğu kimi, PİF-lər istər fiziki şəxslər, istərsə də hüquqi şəxslər üçün Fond bazarına çıxış imkanını təmin edirlər.

Özəl investorların əksəriyyəti PİF-ləri sadə əmanət, bank depoziti, valyutaya, tikintiyə qoyuluş alternativi kimi nəzərdən keçirirlər, bununla belə bu alətdən məqsədli istifadə açıqdan-açığa müəyyən edilməyib. Gəlirlilik və “yumurtaların hamısını eyni səbətə qoymamaq” prinsipi əsas götürülür. Bu halda PİF aktivlərin dərk edilmiş diversifikasiyası qismində az hallarda, daha az

hallarda isə hedcləmədə istifadə olunur [2, s. 84].

Bundan başqa, bir çox payçılar pay fondlarına qoyuluşları pensiya yığımları qismində nəzərdən keçirirlər. Pensiya sisteminə uyğun olaraq pensiyanın yığım hissəsinin formalaşdırılması və idarə olunması hüququndan istifadə edə bilməyən şəxslər üçün PİF-dən istifadə xüsusilə aktualdır, belə ki, bu şəxslərə əməkqabiliyyətli əhalinin daha fəal hissəsini təşkil edən 1967-ci ildən sonrakı təvəllüdlülər aid edilir. İqtisadiyyatın səciyyəvi cəhəti işçi və əməkdaşların "qara" və ya "boz" mükafatlandırma sxemlərindən istifadə etməkdir, bu zaman gələcək heyətin yığım hesabının formalaşmasına birbaşa təsir edən rəsmi əmək haqqının həcmi azalır. Əmək pensiyasının yığım hissəsinə hüququ olan, lakin belə yolla əmək haqqı alan şəxslər də PİF-in investisiya portfellərinə analoq qismində istifadəsində maraqlıdırlar.

Bundan başqa, PİF-lər rəqabətli məqsəd üzrə müəyyən tarix üçün yığım kimi istifadə olunurlar: uşaqların yetkinlik yaşına çatmasına qədər başlanğıc kapital; təhsil üçün nəzərdə tutulmuş vəsaitlər; cari ödənişlər üçün pul axını qismində fondların istifadə olunması; pensiya yığımları.

İnvestorların məsləhət görülən davranış modelləri payçıların bu və ya digər tipə-"aktiv" və "passiv" payçılara ayrılması əlamətlərindən asılı olaraq fərqlənəcəklər. Ümumi halda tədqiqatın əldə olunan nəticələri investorlar tərəfindən PİF-in seçilməsi zamanı tətbiq olunmalıdır. Payçıların təklif olunan tipləşdirilməsinə uyğun olaraq, aktiv investorlar-payçılar PİF-in eyni əhəmiyyətli risk və gəlirlilik göstəricisində monotonluq göstəricisi az olan fondları seçəcəklər, qısamüddətli passiv investorlar monotonluq göstəricisi yüksək qiymətlər həddinə yaxın olan PİF-in seçiminə meyllidirlər. Müxtəlif tipdən olan payçılar üçün konkret tövsiyələrin nəzərdən keçirilməsinə keçək.

***Passiv payçılar üçün davranışın aşağıdakı modelindən istifadə etmək tövsiyə olunur:***

1. xüsusilə 3 ilə qədər olan müddətdə payların vaxtından əvvəl ödənişini nəzərdə tutmayan uzunmüddətli investisiya şəraitində (1-3 il və daha artıq), ən üstünlük verilən fondlar maksimal gəlirin əldə olunmasını nəzərdə tutan Artım fondları olacaq, bununla belə optimallaşdırma vəzifəsində monotonluq meyarının əhəmiyyəti minimal tövsiyə olunan artımdan artıq müddətdə əmanətin artım müddəti üzrə azalacaq.

Uzunmüddətli şəraitdə səhm fondları daha çox gəlirliyi ilə xarakterizə olunurlar. Lakin, rəhbərin payın monotonluğunun yüksək rəqəmlərində gəlirliyi artırmağa imkan verən ustalığı özünü qarışıq tipli fondlarda, aparılmış hesablamaların göstərdiyi kimi, istiqrazların PİF-da da büruzə verə bilər. Nəzərə almaq lazımdır ki, aşkar edilmiş istiqraz PİF tendensiyaların saxlanmasının qiymətləndirilməsi zamanı ən yaxşı Artım fondları qrupuna daxil olmaq hüququnu təsdiq etmişdir. Buna baxmayaraq, bu "Şimal-qərb-istiqrazlar Fondu" PİF-na keçmişdə verilmiş parametrləri təmin etmək olduqca çətin olacaq. Bununla əlaqədar olaraq, onu Saxlama fondu tipi qismində istifadə etmək məsləhət görülür, belə ki o burada da fəaliyyətinin mühüm nəticələrini göstərmişdir.

Burada və bundan sonra, qeyd edək ki, payçının investisiya məqsədəuyğunluğu barədə son qərarını və ya mütəxəssis tərəfindən tövsiyələrin təklif olunmasını PİF-in investisiya cəlbediciliyi amili üzrə konkret investorun investisiya tələblərinin nəzərə alınması zamanı diqqətə almaq lazımdır [3, s. 41].

2. payçı 1 il və ya daha az investisiya etmə müddəti ilə məhdudlaşdırıldığı halda və ən əsası, investisiya şəraiti açıq-aydın müəyyən edilmədiyi halda (payların ödənilməsi spekulyativ dövr intervalında da baş verə bilər), eləcə də gəlirlilik/ risk göstəricisi nisbəti üzrə orta payçılar halında müvafiq fondların ən yüksək gəlirlilik qiymətlərində monotonluq meyarının maksimallaşdırılmasını ehtimal edən Saxlama fondları tipləri üzrə qrupa daxil olan PİF-lər daha çox üstünlük verilən fondlardır. Aparılmış təhlil və əldə olunmuş nəticələr L.C.Gitman və İ.A.Blank tərəfindən ümumiləşdirilmiş, fondların aktivlərin tərkibinə və strukturuna, gəlirliliyin və riskin nisbətinə görə təsnifatı barədə "portfel nəzəriyyəsi"nin ümumi müddəaları təsdiq edilmişdir: kapitalın saxlanılması funksiyasının öhdəsindən onun artırılması şərti ilə daha çox ümumi kütlədə qarışıq tipli

fondlar gəlmişlər. Lakin, PİF-in yekun qrupuna maksimal idarəetmə davamlılığına malik həm səhm fondları daxil olmuşdur ki, bu da uzun illər ərzində aktivlərin yüksək səviyyəli menecmentinin olmasını sübut edir, həm də yuxarıda qeyd olunan istiqraz PİF daxil olmuşdur.

3. Qısamüddətli passiv payçılar üçün qısamüddətli Saxlama fondları qrupuna daxil olan PİF-lər ən çox maraq yaradırlar.

Bu qrupda konservativ və orta əhəmiyyətli fondlar-istiqraz PİF-ı və Qarışıq investisiyalar PİF üstünlük təşkil edirlər. Qeyri-müəyyən vaxt müddəti səbəbindən bu tip fondlar “azalan bazar” şərti ilə spekulyativ dövr üzrə qiymətləndirilirdi. Qeyd etmək lazımdır ki, bu qrupda fondlar böhranlı mənaya görə (mənfi bazar trendində spekulyativ dövr ) təhlil olunurdu və buna görə də onlar daha uzun müddətli investisiya şəraiti olan investorların portfelinə daxil edilə bilərlər.

Belə qarışıq tipli fondlar qrupuna daxilolma yüksək riskə davamlı olan passiv qısamüddətli investorlar üçün xüsusilə əhəmiyyətlidir. Bununla belə payçı və xüsusilə də maliyyə məsləhətçisi, İŞ-in müştərilərlə iş üzrə mütəxəssisi irəli sürülən qarışıq investisiyalar fondlarında verilən parametrlərdən mövcud kənarlaşma ehtimalını nəzərə almalıdır kı, bu da həmin seçim üzrə istiqraz fondları ilə müqayisədə ən yaxşı nəticəyə mənfi təsir göstərə bilər.

Passiv payçılar üçün təklif olunan davranış modelləri ümumilikdə aktiv payçının gözləmə strategiyası ilə bağlı olmayan səbəblərdən uzun müddət fəallıq göstərməyən aktiv investorlar üçün də münasibdir.

Aktiv payçılar üçün aşağıdakı davranış modelindən istifadə etmək tövsiyə olunur:

- Aktiv payçının PİF-də aktivlərin idarə olunmasının investisiya strategiyası üç əsas strategiyadan irəli gələrək qurulmalıdır;
- artan trend bazarında aktivlərin idarə olunması;
- azalan trend bazarında aktivlərin idarə olunması;
- trend bazarının açıq-aydın qeyri-müəyyənliyi vəziyyətində aktivlərin idarə olunması (yüksəkvolatilli bazar, “yan trend”).

Ümumi görünüşdə aktiv payçının optimallaşdırılması vəzifəsi artan və yüksəkvolatilli bazar halında PİF-in ən çox gəlirliyin təminində payın monotonluğunun minimallaşdırılması və azalan bazar halında PİF-in ən çox gəlirlilikdə payın monotonluğunun maksimallaşdırılması meyarlarına uyğun gəlməlidir. Yuxarıdakıların nəticəsi olaraq, aktiv payçının investisiya tələblərini təmin edən fond tiplərini və fond növlərini ayırd edək:

1. birinci halda artan bazarda aktivlərin idarə olunması vəzifəsini həll etmək üçün ən münasib fondlar spekulyasiya PİF-dır, bununla belə ən çox investisiya cəlbediciliyinə “rəhbərin hərəkətləri” amilindən mühafizə olunan PİF-lər malikdirlər- bunlar aktivlərinin tərkibinə və strukturuna görə seçilmiş bazar indeksinə uyğun gələn İndeks fondlarıdır.

Spekulyativ əməliyyatları yerinə yetirmək üçün münasib olan fondlar qrupuna səhmlərin fondları daxildir. Bu halda səhm fondları ya da bəzən fond indekslərinin dinamikasını təkrarlayan passiv idarəetmə ilə xarakterizə olunurlar ki, bu da adətən PİF-in İnvestisiya bəyannaməsində əks olunur. Bununla belə, rəhbərin aktivlərin tərkibini yenidən nəzərdən keçirtmə imkanı ayırd edilir ki, bu da şirkətlərə aktivlərin yenidən təşkili zamanı qeyd olunan səhmlər fondunda əvəzləməyə, eləcə də şirkətin aktivlərinin tərkibinə daxil edilməməkdə öz təsirini göstərmişdir.

Qrupda digər səhm fondları təhlil edilən dövrlərdə yüksək volatilliklə xarakterizə olunurlar və bu da maksimal gəlirliliyə riayət olunduqda pay fondunun aqressiv siyasətinə dəlalət edir.

Aktiv payçının əsas vəzifəsi bazar trendlərini izləmək, gəlirləri/itkiləri operativ şəkildə müəyyən etmək (payın ödənilməsi) və mövqeyə daxil olma (payın alışı) yolu ilə PİF (bençmarkı) müqayisə etmək üçün seçilən analoji gəlirlikdən yüksək olan gəlirliyi əldə etməkdir.

2. aktiv investor azalan bazarda aktivlərin idarə olunmasının həyata keçirilməsində aşağıdakı strategiyalardan istifadə edə bilər:

- azalan tendensiya dövründə aktivləri Saxlama fondlarına keçirtmək və əlverişli anını gözlə-

məklə, Artım və Spekulyasiyalar trend fondlarına investisiya etməni həyata keçirtmək. Belə strategiyada payçının reaksiya vaxtı o qədər də aktual deyil, çünki bu və ya digər tendensiyanın pozulması eyni vaxtda baş vermir. Bu halda payçı, misal üçün, İstiqrazlar fondunda və ya Qarışıq tipli fondlarda gözləmə mövqeyində durur ki, bunlar da ən çox gəlirliliyin təmin edilməsi zamanı monotonluğun maksimallaşdırılması meyarlarına uyğun gələcəkdir.

Belə fondlarda qalma müddəti uzunmüddətli ola bilər ki, bu da gözlənilən gəlirliliyə mənfi təsir göstərə bilər, buna görə də aqressiv aktiv payçılar aşağıdakı strategiyadan istifadə edə bilərlər.

- Saxlama fondlarına aktivlərin qoyulması qısamüddətli əsasda həyata keçirilir, bununla belə, məhz ümumi neqativ tendensiyadan müdafiə olunan fondları-konservativ PİF-ı - kiçik investisiya şəraitində özlərini daha sabit göstərən, bizim tipoloqlaşdırmamızda Qısamüddətli Saxlama fondlarını seçmək lazımdır. Bununla belə, investorun gəlirliyi ilk növbədə aktivlərin spekulyativ PİF-ə qısamüddətli köçürülməsi, belə demək olarsa, ümumi tendensiyadan "uzaqlaşma" da gəlirin əldə olunması hesabına formalaşacaq. Bu strategiya istər həmin "uzaqlaşma"nın mümkünlüyünün yüksək riskliliyi, istərsə də seçilmiş fondlarda hüquqların təkrar qeydiyyatı üzrə əməliyyatların müvəqqəti həyata keçirilməsi riski ilə əlaqəlidir. İnvestor üçün ən arzuolunan seçim, fondların payları ilə təcili əməliyyatların keçirilməsi üçün vasitələr dəstinə malik olan idarəedici şirkət seçimidir.

Yuxarıda qeyd olunan portfel investisiyası strategiyaları hüquqi şəxslər- aşağıdakılar qismində PİF-dən istifadə etməyi qərara almış təşkilatlar tərəfindən tətbiq oluna bilər:

- Cari gəlir gətirməyə qadir olan aktiv qismində;
- təşkilatın aktivlərinin diversifikasiyası qismində;
- vergilərin optimallaşdırılması vasitəsi qismində;
- müvəqqəti sərbəst aktivlərin saxlanması vasitəsi qismində;
- uzaq tarixə məqsədli toplanma vasitəsi qismində.

Bununla belə, aktiv və ya passiv strategiya seçiminə ilk növbədə resursların yerləşdirilməsinə dair müvəqqəti məhdudiyyətlər təsir göstərirlər ki, bu da hər bir konkret təşkilata xüsusi yanaşmanı şərtləndirir.

PİF-i idarə edən idarəedici şirkətlər üçün təklif olunan tədbirlər sistemi aşağıdakı istiqamətlərdə nəzərdən keçirilir:

1. Fond rəhbərinin effektivliyinin qiymətləndirilməsi məqsədi ilə.

Paylı investisiya fondlarının yaradılması və idarə olunmasının əsas vəzifələri idarənin təsisçilərinin aktivlərinin dəyərinin uzunmüddətli artımını təmin etməkdir. İdarəedici şirkətin rəhbərliyi fondun özünün rəhbərinin effektivliyini qiymətləndirməlidir, çünki məhz onun peşəkarlığından, ustalıq və istedadından investorun gəlirləri və nəticə etibarı ilə də şirkətin özünün fəaliyyətinin maliyyə nəticələri asılıdır.

İdarəetmənin effektivliyinin təklif olunan qiymətləndirilmə metodikası: bu və ya digər fondun hansı dərəcədə idarə olunması, müxtəlif bazar vəziyyətlərində aktivlərin idarə olunmasının hansı dərəcədə operativ aparılması sualına cavab verməyə kömək edir.

Bununla belə, fondun spesifikasını, aktivlərin idarə olunmasına dair əvvəlcədən verilmiş strategiyanı nəzərə almaq lazımdır. Belə ki, fəal idarəetmə fondlarının rəhbərinin effektivliyini qiymətləndirmək məqsədəuyğundur, çünki məhz onlar rəhbərin bacarıqlarını xarakterizə edirlər. Passiv fondların idarə olunması aktivlərin qiymət dinamikasından daha çox onların tərkibinə və strukturuna nəzarəti nəzərdə tutan texniki idarəetmə xarakteri daşıyır. Fondun aktivlərinin riskmenecmentini apararaq, monotonluq göstəricisi qiyməti maksimum olmalı olan idarəetmə effektivliyinin meyarı qismində istifadə olunur.

Effektivliyin qiymətləndirilməsində yanaşmalardan biri idarəetmə nəticələrinin etalon göstəricilərlə, misal üçün, hamıya məlum olan fond indeksləri ilə müqayisə olunmasıdır. Bu baxımdan idarəedici şirkətlər üçün PİF tərəfindən qəbul edilən davamlılıqla müqayisədə bazarın davamlılığını bençmark qismində qəbul olunan indekslərin monotonluq göstəricisindən istifadə məqsə-

dəuyğundur.

2. PİF-i idarə edən şirkətlər monotonluq göstəricisini fondun investisiya cəlbediciliyi amili qismində, eləcə də marketinq siyasətinin planlaşdırılması zamanı nəzərə almalıdırlar.

Hər bir investor özünün investisiya tələblərinə malikdir ki, bunların da əsasında o aktivlərinin irəli sürülən tələbləri təmin edən bu və ya digər şirkətə qoyulması barədə qərar qəbul edir, bunları nəzərə alaraq şirkətlər daha çox sayda müştəri cəlb edə bilərlər.

İdarəedici şirkət tərəfindən PİF-in seçilməsi zamanı investorlar həmin alətin investisiya cəlbediciliyini əks etdirən çoxsaylı göstəriciləri rəhbər tuturlar.

İdarəedici şirkət öz müştəri bazasını artıra və mövcud instrumentarinin hesabına xidmət göstərməni yüksəldə bilər ki, bu da müxtəlif tipli investorların payları ilə iş zamanı istifadə oluna bilər. Payların təcili alışı, satışı, mübadiləsi imkanını göstərmək olar ki, bu da aktiv investorun investisiya tələblərini daha tam şəkildə əks etdirir. Həm aktiv, həm də passiv investor üçün real vaxt zamanında telefonla əməliyyatları həyata keçirtməyə imkan verən “PİF-brokerinin” xidməti yararlı olar. Digər bərabər şərtlərdə belə xidmətlərə malik olan şirkət daha tələb olunan şirkət olacaq.

Bu göstəricinin uçotu yeni investisiya məhsullarının işlənib hazırlanması zamanı tətbiq olunandır. Bu yolla şirkət maliyyə bazarı üçün tamamilə yeni olan məhsul-əmanətləri təklif edir. Əmanətlər – konkret investora, istər uşaqlar üçün Əmanətlərə, istərsə də artırılmış pensiyaya yığımlar üçün əmanətlərə və yaxud məhdud yönümlü –“Əminlik” qadınlar üçün əmanətlərə yönəldilmiş məqsədli yığım proqramlarıdır (MQP). Belə məhsullar üçün nümunə qismində PİF-in idarə olunma effektivliyinin qiymətləndirilməsi metodikası çıxış edir.

İşdə qeyd olunan meyarlar əsasında şirkətlər, misal üçün, aktivlərin idarə olunması üzrə davamlılıq reytinqini əldə edərək özlərini digər şirkətlərlə müqayisə edə bilərlər.

3. Yaxın keçmişdə kollektiv investisiyaetmə fond bazarında “fondlar fondu” meydana gəlmişdir.

Bu növdən olan PİF-in xarakteristikası aktivlərin formalaşmasının fond xarakteridir. Fondun portfelinə rəhbər səhm və istiqrazları deyil, digər PİF-in payları daxildir. Bu zaman, Fondlar Fonduna daxil olan PİF-in fəaliyyətinin göstəricilərinin ortaq məxrəcə gətirilməsi baş verir.

Belə PİF-in idarə olunması zamanı rəhbər idarəolunan fondun portfelində PİF-in heyətinə ciddi nəzarəti nəzərdə tutan idarəedici fəal idarəetmə strategiyasına riayət etməlidir. Belə PİF-in formalaşma, onun idarə olunması və qiymətləndirilməsi prosesi, vaxt baxımından da mürəkkəb proses olduğundan, fondların cəminin qiymətləndirilməsi zərurəti yaranır.

Monotonluğun əhəmiyyətinin qiymətləndirilməsi PİF-in təhlilini müəyyən dərəcədə asanlaşdıra, idarəetmənin davamlılıq meyarı üzrə seçimini həyata keçirə bilər.

Monotonluq meyarı əsasında PİF-in idarə olunmasının effektivliyinin təklif olunan metodikası idarəedici və tənzimləyici orqanlar tərəfindən fondların etibarlılığının qiymətləndirilməsi məqsədləri üçün istifadə oluna bilər.

PİF-in daha uzunmüddətli fəaliyyət göstərmə tarixinin mövcudluğunda monotonluq göstəricisində ifadə olunan payın likvidliyinin normativ qiymətinin tətbiqinin əsaslandırılması mümkündür. Aydındır ki, bütün qiymətlər 1-dən 1-ə qədər diapazonda olacaqlar. Göstəricilərin normativ qiymətləri hər bir fond növü üçün ayrıca olaraq hesablanmalıdır. Bu zaman həmin qiymətlərin ümumi bazar indeksləri üzrə qiymətlərlə müqayisəsi də mümkündür.

**Nəticə**

Məqalədə qeyd olunur ki, pay investisiya fondları, investisiya bazarının formalaşmasında xüsusi əhəmiyyətə malikdir və burada pay investisiya fondlarının sərbəst vəsaitlərin cəlb olunması və yerləşdirilməsində xüsusi əhəmiyyəti olduğu qeyd olunur.İşlənib hazırlanmış metodika pensiyanın yığım hissəsinin investisiya portfellərinin idarə olunma davamlılığının qiymətləndirilməsi zamanı istifadə oluna bilər. Qanunvericiliyin pensiya portfellərinə, idarəetmə saxlanılmasının və itkisiz fəaliyyət göstərməsinin təmin edilməsinə qarşı sərt tələbləri səbəbindən monotonluq göstəriciləri yol verilən qiymətlərin yuxarı həddində olmalıdırlar.

**Ədəbiyyat**

1. В.В.Бочаров. Корпоративные финансы. Санкт-Петербург, 2008.
2. Е.В.Руднева. Эмиссия корпоративных ценных бумаг. Москва, 2001.
3. Д.А.Ендовицкий, Н.А.Ишкова. Учет ценных бумаг. Москва, 2010.

***Закир Алибала оглы Нуриев***

**Роль паевых инвестиционных фондов при формирование инвестиционного портфеля**

**Резюме**

Среди институтов финансового посредничества инвестиционные фонды наиболее явно отражают заинтересованность клиентов в осуществлении инвестиций. Традиционно считается, что основными потребителями услуг ПИФов является население. Однако это не совсем так. Основной услугой, предлагаемой предприятиям и организациям компаниями, управляющими паевыми инвестиционными фондами, является доверительное управление временно свободными средствами.

***Ключевые слова. Инвестиция, паевые фонды, эффективность, фонды сохранения, компании, мониторинг.***

***Zakir Alibala Nuriyev***

**The role of share investment funds in the formation of an investment portfolio**

**Summary**

İnvestment funds as finansial intermediars institution protect interests of customers' investment on a regular. Population is the main consumer equity investment funds.This is not always the case. Reliable self-management of funds dependent on heads of the efficient operation of investment funds.

***Keywords. Investment, mutual funds, efficiency, conservation funds, companies, and monitoring.***

**UOT 658.5**

***Aygül Zakir qızı ƏLİYEVA***
***Azərbaycan Dövlət Aqrar Universitetinin dissertantı***

# MÜŞTƏRƏK MÜƏSSİSƏLƏRİN İNNOVATİV XÜSUSİYYƏTİ VƏ İNVESTİSİYALARIN CƏLBİNƏ TƏSİRİ

**Xülasə**

Daxili iqtisadiyyatın formalaşması və inkişafı beynəlxalq iqtisadi əməkdaşlığın, onun mühüm forması olan müştərək sahibkarlığın genişləndirilməsini obyektiv zərurətə çevirir. Vahid sistem halında formalaşan dünya iqtisadiyyatına qovuşmaq və onun uğurlarından bəhrələnmək üçün beynəlxalq iqtisadi əməkdaşlığın müxtəlif formalarından bacarıqla istifadə olunmalıdır. Bazar konyukturunun dəyişdirilməsini, xarici investisiyanın cəlb edilməsini və onun fəallığının artırılmasını nəzərə almaqla, müştərək sahibkarlığın önəmli forması sayılan müştərək müəssisələrin yaradılmasına üstünlük verilməlidir.

***Açar sözlər: müştərək müəssisə, innovasiya, investisiya, xarici investisiya, beynəlxalq iqtisadi əməkdaşlıq.***

***

Daxili iqtisadiyyatın formalaşması və inkişafı beynəlxalq iqtisadi əməkdaşlığın, onun mühüm forması olan müştərək sahibkarlığın genişləndirilməsini obyektiv zərurətə çevirir. Formalaşmasında dünya iqtisadiyyatına sıx inteqrasiyanın mühim rol oynadığı müştərək sahibkarlığın fəaliyyəti özbaşına və idarəolunmaz proses kimi baş vermir, o, əslində dövlətin iqtisadi siyasətinin ödəməli istiqaməti kimi çıxış edir.

Vahid sistem halında formalaşan dünya iqtisadiyyatına qovuşmaq və onun uğurlarından bəhrələnmək üçün beynəlxalq iqtisadi əməkdaşlığın müxtəlif formalarından bacarıqla istifadə olunmalıdır. Bazar konyukturunun dəyişdirilməsini, xarici investisiyanın cəlb edilməsini və onun fəallığının artırılmasını nəzərə almaqla, müştərək sahibkarlığın önəmli forması sayılan müştərək müəssisələrin yaradılmasına üstünlük verilməlidir.

Müştərək sahibkarlıq milli istehsalın və mubadilənin strukturunu dəyişdirir, dünya iqtisadiyyatında qloballaşma prosesini sürətləndirir, ölkələr arasında əmtəə, işci qüvvəsi və kapitalın hərəkətini gücləndirir. Müştərək sahibkarlıq iki və daha çox ölkə tərəfdaşlarının istehsal-təsərrüfat fəaliyyətinin bütöv tam kompleks forması olub istehsal, ticarət, elmi-texniki, investisiya və servis sahəsində kooperasiya əlaqələrini ifadə edir. Müştərək sahibkarlığı əməkdaşlığın digər formalarından üç əsas element fərqləndirir: birgə əmlak; gəlirin və risklərin birgə bölünməsi. Tərəfdaşlar idarəetmədə, kapitalda, gəlir və risklərin bölünməsində birgə iştirak prinsipinə əsaslanaraq götürdükləri öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsində maraqlıdırlar.

Müştərək sahibkarlığın ən önəmli və geniş yayılmış forması müştərək müəssisədir. Müştərək müəssisələrin yaradılması motivləri muxtəlif ola bilər, ancaq onların əsasında müştərək sahibkarlığın meydana gəlməsini şərtləndirən aşağıdakı dörd strategiyadan biri durur:

• istehsalın effektivliyinin yuksəldilməsi strategiyası;

• əməliyyatların genişləndirilməsi strategiyası;

• yeni növ məhsulun (xidmətin) istehsalında risklərin azaldılması strategiyası;

• investisiya, texnologiya və ixtisaslı işcilərin cəlb edilməsi hesabına geri qalan sahələrin, yaxud fəaliyyət sferalarının inkişaf strategiyası.

Müştərək müəssisənin mahiyyəti barədə lazımi təsəvvürə malik olmaq üçün hər şeydən əvvəl

müştərək müəssisə anlayışını açıqlamaq, dərk etmək lazım gəlir. Qərb ədəbiyyatında müştərək müəssisə beynəlxalq əməkdaşlığın çoxcəhətli formaları daxil olmaqla istehsal fəaliyyətinin təşkilinin xüsusi hüquqi forması kimi səciyyələndirilir və aşağıdakı əlamətləri göstərilir:

- Müştərək müəssisə iki və daha çox tərəfdaşların aktivlərinin qismən bölüşdürülməsi, yaxud tərəfdaşlardan hər birinin kapital qoyulması yolu ilə yaradılır.
- Müştərək müəssisə istehsal, ticarət, maliyyə, elmi-tədqiqat fəaliyyəti ilə məşğul ola bilər.
- Tərəfdaşlar arasında idarəetmə ilə bağlı məsuliyyət bölüşdürülür.
- Kapital qoyuluşu uzunmüddətli olur.
- Müştərək sahibkarlıq iştirakçıların fəaliyyətinin yalnız bir hissəsini əhatə edir.

“Müştərək müəssisə” termini ilk dəfə XIX əsrdə Qərbdə yaranmış və XX əsrdə tədavül sferasında geniş yayılmışdır.

Qeyd etmək lazımdır ki, müştərək müəssisələrin yaranma tarixinə nəzər yetirsək, indiyədək müştərək müəssisə məfhumunun konkret tərifi verilməyib. Məsələn, Qərb ədəbiyyatında adətən “müştərək müəssisə” mənasında iki termin işlədilir: “joint venture” və “mixed company”. Azərbaycan dilində “joint venture”-“müştərək riskli müəssisə” mənasını verir, eyni zamanda birgə fəaliyyətin müxtəlif formalarını, o cümlədən firmalararası müqavilə əlaqələrini özündə əks etdirir. “Mixed company” isə “müştərək kompaniya” mənasını verir. Məzmununa görə “müştərək müəssisə” ilə daha çox oxşarlıq daşıyır. Təcrübədə isə, xüsusi mülkiyyət əsasında yaradılmış müəssisələr əsasən “joint venture”, dövlətin iştirakı ilə yaradılmış müəssisələr isə “mixed company” adlandırılır[1].

Yuxarıda qeyd edilənləri cəmləşdirsək, müştərək müəssisə anlayışının aşağıdakı məzmunda ifadə olunmasını məqsədəuyğun hesab edirik: müştərək müəssisə – daxili iqtisadiyyatın inkişafına investisiya qoyuluşunda iştirak edən yerli və xarici hüquqi şəxslər və ya fiziki şəxslər arasında bağlanmış saziş əsasında, məhsulun istehsalı və satışı, xidmətlərin göstərilməsi üçün yaradılan müstəqil təsərrüfat subyektidir.

Azərbaycanın daha yüksək həyat səviyyəli ölkələr sırasına çıxması üçün sənayedə və iqtisadiyyatın başqa sahələrində innovasiyalı informasiya-nanotexnologiyaları tətbiq edilməlidir. Makroiqtisadiyyata qoyulan investisiyaların həcmi genişləndikcə innovasiya texnologiyalarına ayrılan kapital qoyuluşu artırılmalıdır. Lakin bunun üçün innovasiya sahəsində iqtisadi təhlükəsizliyə nail olmaq üçün yüklənmiş innovasiyalı məhsulun faizlə göstəricisi 15% təşkil etməlidir (Azərbaycanda 1% təşkil edir). Dünyada mövqe tutmağa namizəd olan istənilən ölkənin strateji inkişafı, nəticədə ETT-nin artım nöqtələrini, malların rəqabət qabiliyyətini, əhalinin həyat səviyyəsini təyin edən davamlı innovasiya axtarışı əsasında formalaşmalıdır.

Azərbaycanın yüksək texnologiyalar kompleksində vəziyyəti və inkişafı ümumdünya tendensiyalarına cavab vermir. 90-cı illərdə innovasiyanın yaradılması və tətbiqinin təkrar istehsal tsikli parçalanmış, istehsalçılarla istehlakçılar arasındakı vacib əlaqələndirici hissəsi isə yox olmuşdur. 2006-cı ildən etibarən innovasiya müəssisələrinin nisbi artımı muşahidə olunmasına baxmayaraq, onların sayı yenə də azdır. Yüksək texnologiyalı məhsulların ümumi yüklənmiş məhsulda xüsusi çəkisi 3-4% təşkil edir. Statistik göstəricilərə əsasən innovasiya fəaliyyətinin səviyyəsi çox aşağıdır, istehsalda innovasiyalı aktiv müəssisələrin xüsusi çəkisi isə 10%-dən azdır. Azərbaycan və digər postsovet ölkələrinin İEO-in əsas iqtisadi göstəricilərindən geri qalmasının əsas səbəbi obyektiv faktorlarla bağlıdır[2].

1. “Joint Ventures: A Guidance Note For Public Sector Bodies Forming Joint Ventures With The Private Sector”, HM Treasure, March, 2010.
2. T.Qarayev. Azərbaycan sənayesinin innovasiyalı inkişafının bir sıra problemləri. AMEA, “İpək Yolu”, Bakı-2011, s. 5.

*Cədvəl 1*

**Xarici və müştərək müəssisələrin fəaliyyəti**

| Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|
| | 1995 | 2000 | 2005 | 2010 |
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | 293 | 551 | 796 | 1091 |
| İşləyənlərin siyahı sayı, nəfər | 7027 | 22145 | 58413 | 55936 |
| Orta aylıq əmək haqqı, manat | 31,4 | 208,4 | 672,7 | 1008,0 |
| Məhsulun (işlərin, xidmətlərin) həcmi, mln manat | 62,4 | 1239,8 | 7081,4 | 24011,9 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri 2011. Bakı: 2011, s. 120-121.*

Müqayisəli təhlillə demək olar ki, Azərbaycanda istehsal olunan ümumi daxili məhsulun 57,7 faizi, iqtisadiyyatda məşğul olan əhalinin 12,9 faizi xarici və müştərək müəssisələrin payına düşür. 2010-cu ildə xarici və müştərək müəssisələrdə işləyənlərin orta aylıq əmək haqqı (1008 manat) ölkə iqtisadiyyatında işləyənlərin orta aylıq əmək haqqından (331,5 manat) 3,1 dəfə yüksəkdir. Bir sözlə, müştərək sahibkarlıq fəaliyyəti ilə məşğul olan firma və şirkətlərin texniki-iqtisadi göstəriciləri və rəqabət qabiliyyəti digər təsərrüfat subyektləri ilə müqayisədə xeyli yüksəkdir.

2010-cu ildə Azərbaycanda fəaliyyət göstərən xarici və müştərək müəssisələrin 311 və ya 28,5 faizi ticarətin, 218-i və ya 20 faizi sənayenin, 111-i və ya 10,2 faizi tikintinin, 62-si və ya 5,7 faizi nəqliyyat, anbar təsərrüfatı və rabitənin payına düşür. Xarici və müştərək müəssisələrdə işləyənlərin 21859 nəfəri və ya 39,1 faizi, istehsal olunan məhsulun (işlərin və xidmətlərin) 19767,8 milyon manatı və ya 82,3 faizi təkcə sənayenin payına düşmüşdür.

*Cədvəl 2*

***Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyalar (milyon ABŞ dolları)***

| Göstəricilər | İllər | | |
|---|---|---|---|
| | 2000 | 2005 | 2010 |
| Cəmi xarici investisiya | 927,0 | 4893,2 | 8247,8 |
| Ondan: | | | |
| Maliyyə kreditləri | 262,9 | 698,4 | 3405,9 |
| Neft sənayesinə | 546,1 | 3799,9 | 2955,3 |
| Neft bonusu | - | 1,0 | 2,0 |
| Birgə müəssisələr və xarici firmalar | 118 | 230,5 | 659,6 |

*Mənbə: Azərbaycanın statistik gostəriciləri 2011. Bakı: 2011, s. 413.*

Belə ki, müştərək sahibkarlığın təməlində tərəfdaşların səyləri, maliyyə vəsaitləri və material resurslarının birləşməsi, mənfəət və risklərin bölünməsində onların birgə iştirakı durur. İqtisadiyyatın getdikcə qloballaşması ölkələr arasında yalnız əmtəə və işci qüvvəsini deyil, həm də kapitalın beynəlxalq hərəkətini gücləndirir. Azərbaycanın təbii sərvətlər baxımından avantajı, əlverişli biznes və investisiya iqliminin yaradılması ölkə iqtisadiyyatına xarici kapitalın axınını sürətləndirmişdir ki, bu prosesdə müştərək müəssisə və xarici firmaların rolunun artması meyli müşahidə olunur.

Digər sahibkarlıq strukturları ilə müqayisədə müştərək müəssisələrin texniki-iqtisadi göstəri-

ciləri, maliyyə dayanıqlığı və rəqabət qabiliyyəti xeyli yüksəkdir.

İEOÖ-də, keçmiş sosialist ölkələrində və hazırkı MDB ölkələrində müştərək müəssisələr xarici investisiyaların cəlb edilməsinin ən səmərəli yollarından biri hesab edilməkdədir. Müştərək müəssisələrin bu xüsusda ən effektiv yol hesab edilməsini onun xüsusiyyətləri ilə vurğulamaq olar. Belə ki:

- kapital, idarəetmə təcrübəsi, ETT – müasir avadanlıqlar;
- iki və daha çox tərəfdaş arasında müqavilənin mövcudluğu;
- hər bir tərəfdaşın pay və iştirak formasının əvvəlcədən müəyyən olunması;
- sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində maraqların ümumiliyi;
- müştərək müəssisə üzərində nəzarət hüququnu təmin edən payın əvvəlcədən müəyyən olunması;
- iştirak payına uyğun məsuliyyətin məhdudlaşdırılması (əlavə məsuliyyətlərdən yayınma);
- fəaliyyət müddətinin (məhdud və ya qeyri-məhdud) əvvəlcədən müəyyən edilməsi və s. hallar.

Maliyyə imkanlarının məhdud olduğu Azərbaycan Respublikasında müştərək müəssisələrin cəmi 14%-i iqtisadiyyatın aparıcı sahəsi olan sənayedə fəaliyyət göstərir. Həm də onlar əsasən Bakı şəhərində yerləşir.

Son vaxtlar elmi-texniki tərəqqinin nailiyyətləri əsasında əlaqələrin və sazişlərin keyfiyyətcə yeni formaları təzahür edir, ölkənin, sahənin və müəssisənin rəqabət qabiliyyətinin yüksəlməsində mütərəqqi texnologiyaların rolu artır, iqtisadi artımın xarakteri dəyişir, "ictimai tərəqqi" anlayışı və onun meyarları barədə yeni baxışlar meydana çıxır, bazarların qloballaşması prosesi baş verir. Belə bir şəraitdə müstəqil Azərbaycan dövləti dünya iqtisadiyyatının strategiyasına uyğun özünün innovasiya siyasətini həyata keçirməlidir. Bütün bu işlərin görülməsində müştərək müəssisələrin imkanlarından bilavasitə istifadə olunması zəruridir.

## Nəticə

Ölkəmizdə fəaliyyət göstərən müştərək müəssisələr çox kiçik olduğundan daxili iqtisadiyyatın inkişafında onların rolu arzuolunan səviyyədə deyil. Halbuki, ölkənin zəngin təbii sərvətlərindən, əlverişli təbii-iqlim şəraitindən və böyük intellektual mülkiyyətdən daha səmərəli istifadə etmək üçün müştərək müəssisələrin iri miqyasda inkişaf etdirilməsi olduqca zəruridir.

Milli iqtisadiyyatın davamlı inkişafında müştərək sahibkarlığın rolunu, həm də sahələr üzrə intensivliyini artırmaq məqsədilə ilk başda aşağıdakı stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi vacibdir:

dövlət, xüsusi və xarici investorlar arasında müqaviləyə əsaslanan sənaye layihələrinin hazırlanması və reallaşdırılması;

ölkəyə ekoloji cəhətdən təmiz, tullantısız texnologiyalar gətirən müştərək müəssisələrə güzəştli şərtlərlə kredit verilməsi;

istehsalı genişləndirmək və modernləşdirmək üçün müştərək müəssisələrə dövlət tərəfindən kömək göstərilməsi;

müştərək müəssisələrin ixrac etdikləri məhsulun tərkibindəki idxal olunan xammal və materialların gömrük rüsumundan azad olunması.

## Ədəbiyyat


1. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2011.
2. "Müəssisələr haqqında" Azərbaycan Respublikasının Qanunu.
3. Əliyev T.N., İmranov A.M., Məmmədov R.M. Müştərək müəssisə və sahibkarlıq (təşkili və idarə olunması). ADNA, Bakı-2001.
4. X.Məmmədov. Müəssisə siyasəti və strategiyaları. Bakı, 2002.
5. M.M.Sadıqov. Azərbaycan Respublikasının maliyyə potensialının formalaşması problemləri. Bakı, 2001.

6. S.A.Abbasov. Müştərək sahibkarlıq beynəlxalq biznesin təşkilinin forması kimi. Azərbaycanın Vergi Xəbərləri, Bakı, 2011.
7. T.Hüseynov. Müəssisənin iqtisadiyyatı. Bakı, 2005.
8. T.Qarayev. Azərbaycan sənayesinin innovasiyalı inkişafının bir sıra problemləri. AMEA, “İpək Yolu”, Bakı, 2011.
9. “Joint Ventures: A Guidance Note For Public Sector Bodies Forming Joint Ventures With The Private Sector”, HM Treasure, March, 2010.
10. “Joint Ventures”, Final Report 99, University of Alberta Faculty of Law Reform Institute, Canada, May, 2012.

***Айгюль Закир кызы Алиева***

**Инновационная особенность совместных предприятий и ее влияние на привлечение инвестиций**

**Резюме**

Формирование внутренней экономики и развитие международного сотрудничества превращает в объективную необходимость расширение совместного предпринимательства, которое является важной формой такого сотрудничества. Для присоединения к сформировавшейся как единая система мировой экономике и воспользоваться ее достижениями необходимо  с умением использовать различные формы международного экономического сотрудничества. С учетом изменения конъюнктуры рынка, привлечения иностранных инвестиций и повышения их активности, предпочтительно создавать совместные предприятия, которые являются важной формой совместного предпринимательства.

***Ключевые слова: совместное предприятие, инновация, инвестиции, иностранные инвестиции, международное экономическое сотрудничество.***

***Aygul Zakir Aliyeva***

**The innovatıve nature of joınt ventures and its impact on attraction of investments**

**Summary**

The formation and development of the domestic economy makes necessary the expansion of joint ownership, the most important form of co-ownership and international economic cooperation. For integrating in unigue formation and getting benefit from its success should be used variousforms of international economical collaboration. For changing market structure and involving foreign investments should be empasized on foundation of joint ventures.

***Key words: joint venture, innovation, investments, foreign investments, international economic cooperation.***

УДК 336.

М.Р.ГАЕДИ

# О НЕКОТОРЫХ ФОРМАХ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ И МЕТОДЫ БОРЬБЫ С НЕГАТИВНЫМИ ЭКОНОМИЧЕСКИМИ ФАКТОРАМИ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

В статье рассматривается разветвленная сеть инвестиций Азербайджана в последние годы, в условиях переходного периода тесно связана как с историей, так и юриспруденцией. Автор ясно даёт понять, что после обретения политической независимости некоторые организации и предприятия постепенно начинают инвестировать экономику Азербайджана, и указывает на факторы реструктуризации республиканской промышленности, сопровождающиеся болезненным разрывом многочисленных, интегрированных связей между отдельными организациями и предприятиями. Достоинством статьи следует также считать опору на законы, принятые в Азербайджане с 1992 года: «О защите иностранных инвестиций», «Об инвестиционной деятельности», «О защите иностранных инвестиций на рынке ценных бумаг» и другие.

***Ключевые слова: инвестиционные вложения, государственный бюджет, организационно-правовые формы, концерны, ассоциации, консорциумы, экономическая нестабильность и инфляция.***

***

С 18 октября 1991 года Азербайджан официально становится суверенной демократической республикой. После обретения политической независимости некоторые организации и предприятия постепенно начинают инвестировать экономику страны. Но естественно предположить, что иностранный капитал требует определённых благоприятных условий, то есть неукоснительно соблюдения тех факторов, которые современные экономисты чаще всего называют политическим климатом или политической атмосферой. Осознавая насущную потребность инвестиционных вложений в переходный период, правительство Азербайджана с 1992 года принимает соответствующие законодательные акты. Это, в частности такие законы, как «О защите иностранных инвестиций», «Об инвестиционной деятельности», «О защите иностранных инвестиций на рынке ценных бумаг», «О банках и банковской деятельности», «О порядке открытия и деятельности филиалов и представительств иностранных фирм и организаций в Азербайджанской Республике» и другие. В статьях законоуложения «О защите иностранных инвестиций» предусматривается возможность создания на территории Азербайджанской Республики таких предприятий и организаций, которые целиком и полностью принадлежат иностранным инвесторам (проще говоря, собственно иностранным хозяйственным или промышленным объектам в Баку и некоторых других наиболее крупных городах Азербайджана).

Следует подчеркнуть, что принятие законов, непосредственно связанных с иностранными инвестициями, защитой прав инвесторов не исключало дальнейших поправок. Так, в статью 711 за № 10 от 2000 года «О защите иностранных инвестиций на рынке ценных бумаг» (Сборник законодательных актов Азербайджанской Республики) через три года было внесено изменение. А именно: если ранее штрафы за нарушение порядка капиталовложения с представителей иностранных компаний взимались в пользу принимаемых организаций или предприятий, то с января 2003 года так называемые «портфели вкладчиков» были перераспределены. При внесении дополнений новая редакция статьи 7.1 (старая статья 711) Закона Азербайджанской Республики «О защите иностранных инвестиций на рынке ценных

бумаг» гласит: «Принимаемые при этом штрафы перечисляются в государственный бюджет Азербайджанской Республики» [5,1].

Помимо экономической отдачи необходимо учитывать важный юридический факт: данный закон регламентирует организационно-правовые формы и виды предприятий и организаций, он разрешает строительство с долевым участием иностранных инвесторов, а степень этой доли определяется руководством уже непосредственно на местах. И, наконец, в соответствии с указанным законом и по сегодняшний день возводятся представительства юридических лиц. Это различного рода бюро, агентства, конторы и проч.

Характерно, что до 1994-1996-х годов строительство этих в основе своей экономически выгодных предприятий и организаций было явлением не массовым, разрозненным и хаотичным, потому что не было государственной регистрации таковых. 6 февраля 1996 года Азербайджанской Республикой был принят закон «О государственной регистрации юридических лиц». Согласно нему, иностранным инвесторам первоначально следовало представлять целый ряд официальных документов, как-то: письменное заявление учредителей, в котором содержалась просьба о регистрации создаваемого предприятия; устав юридического лица; решение или учредительный договор о создании юридического; документ об уплате государственной регистрационной пошлины; выписка из торгового реестра страны размещения и некоторые другие.

Нас в настоящей статье не интересуют подробности заполнения всех официальных справок, документов, предусмотренных указанным законом. Важно подчеркнуть, что его принятие явилось существенным этапом в развитии на территории Азербайджана крупного предпринимательства. К примеру, иностранный учредитель по своему собственному усмотрению уже не имел юридического права предоставить инвестиции в заблаговременно не обговорённом объёме или развернуть на территории Азербайджанской Республики крупную хозяйственную деятельность. Отныне все свои действия физическое лицо иностранной державы должно было согласовывать с руководством на местах. Более того, представляемые документы подтверждаются консульством в стране, откуда инвестор прибыл. Последнее доказывает не только разнообразие форм и вместе с тем эффективность притока иностранных инвестиций в экономически выгодные предприятия и организации Азербайджана, но и говорит о расширении внешних связей между государствами.

Учёт хронологии событий, исполнение документальных формальностей, планомерная государственная регистрация лиц, прибывающих в Азербайджан с целью финансирования, постепенно приводила к реализации позитивных факторов предпринимательства. Это такие формы, когда организации и предприятия с иностранными инвестициями отныне могут целенаправленно осуществлять многочисленные виды деятельности, которые отвечали целям, предусмотренным в его уставе (пункт № 2 закона «О государственной регистрации юридических лиц»). Однако это исключает ту хозяйственную деятельность, которая прямо или косвенно противоречит законодательству.

Что же с середины 1990-х годов входило в права предприятий Азербайджанской Республики с иностранными инвестициями? Прежде всего, юридическое право самостоятельно определять условия производства и реализации экономически выгодной продукции. Из этого следует, что по возможности устанавливались жёсткие цены, учитывалось старое как мир правило спроса и предложений, соблюдался график экономических поставок. Далее отметим, что предприятия с инвестициями могли создавать дочерние фирмы с правами юридического лица, всевозможные филиалы по данному экономическому профилю на территории Азербайджана и за её пределами. Разумеется, вся процедура созданий новых объектов, равно как и их реконструкция, происходит в рамках, установленных азербайджанским законодательством. Причём, помимо демонтажа устаревших конструкций предусматривались и более ак-

тивные формы инвестиционной деятельности в означенном направлении. Так, организации и предприятия с иностранными инвестициями могли расширяться, то есть укрупнять своё производство в зависимости от суммы притока финансов. Малые предприятия соответственно объединяются в концерны, ассоциации и консорциумы. Примечательно, что в последние годы по этому пути в Азербайджане идёт немалое количество фирм. Кроме того, законодательство Азербайджанской Республики допускает и «обратное» явление, когда новые предприятия или их филиалы вступают в ранее созданные объединения.

Следующей, и как нам представляется, весьма примечательной формой современной экономической деятельности организаций и предприятий с иностранными инвестициями является гибкий таможенный контроль. Что это означает? Объективно говоря, при умелом руководстве эта форма работы может стать не столько сдерживающим экономическим фактором при привлечении инвестиций, сколько доступным побудительным механизмом управленческого аппарата в целом. Государство, конечно, регулирует данный процесс, а также учитывает, что на современном витке истории Азербайджан представляет собой весьма перспективный рынок с большим потенциалом. Многообещающий в экономическом отношении рынок, разумеется, привлекает инвесторов. Однако есть немало развивающихся стран (Китай, Индия, Мексика и многие другие), которые, являясь для Азербайджана важными поставщиками продукции, одновременно с тем выдвигают скоропалительные, трудно регламентируемые условия.

К примеру, хорошо известно, в какой степени наводнён нынешний рынок китайскими товарами широкого потребления. Кроме того, в ходу в большом количестве компьютерная технология и иная оргтехника производства Китая. В то же самое время эта страна предлагает некоторые экономические выгоды за счёт крайне ускоренного одобрения своих инвестиционных проектов (по их мнению, весьма перспективных). Скажем конкретнее: инвесторы требуют от торговых фирм и организаций чёткой и одновременно с тем либеральной инвестиционной политики, стойких гарантий от продажи национальной (или посреднической) оргтехники и ясных защитных механизмов. Разумеется, выполнение подобных жёстких требований в нынешних условиях не всегда возможно.

Зададимся резонным вопросом: почему так происходит? Стремительный рост компьютерной техники в последние годы привёл к тому, что эта она устаревает буквально в течение нескольких лет. Более эффективным и экономически рентабельным признаётся массовое производство с учётом его индивидуальных потребностей. Отсюда вытекает долгосрочная стратегия иностранных фирм (Китай к ним относится уже в последнюю очередь) работать в высоко концентрированных областях производства. Например, многие высокоразвитые страны вкладывают свои инвестиции в автомобильную промышленность и т.п.

Всё дело в том, что в отраслях высокой технологии ориентир задан не на национальные или региональные масштабы, но прежде всего на мировое экономическое пространство. Это отнюдь не ликвидирует потребности населения в компьютерах. Азербайджан вынужден закупать эту технику, либо принимать инвестиции из Китайской республики для собственного расширения производства отдельных деталей компьютеров. И если смотреть на эту проблему шире, то условия другого государства не всегда оказываются выгодными. Процесс капитального вложения, естественно, притормаживается. Кстати, к развивающимся странам с аналогичными требованиями в последние годы подключаются Индия, Тайвань, Мексика и некоторые другие государства, и Азербайджан в известном смысле слова теряет экономический потенциал в пользу конкурентов. Помимо сказанного, заметим, что вышеперечисленные государства в последнее время всё чаще постулируют прямые зарубежные инвестиции, которые при определённых условиях дают «положительные побочные технологические преимущества». Легче, между прочим, распределять по специальности и кадры. Поэтому и

неудивительно, что в 2003-2005 годах Индия, Тайвань, Мексика и некоторые другие страны, небогатые на экспорт по сравнению с Россией, США, Англией, Францией и т.п., проводят «политику открытых дверей» для иностранных инвесторов. На сегодняшний день эти государства рассматривают подобную форму инвестиционной стратегии как шанс на собственный экономический прорыв.

Не обходится дело и без негативных факторов. Так, нельзя не отметить, что среди тех форм, которые стимулируют передвижение капитала из одной страны в другую, помимо ясного стремления к максимилизации прибыли, существует также и вполне оправданное нынешними обстоятельствами желание диверсифицировать риск. Поэтому и не вызывает особых возражений тот факт, что традиционными направлениями потока капитала в середине XX века были именно развивающиеся страны. В наши дни эта тенденция, напротив, несколько ослабевает за счёт органичного усиления взаимного переплетения капиталов развитых стран. В начале третьего тысячелетия среднегодовые темпы прямых зарубежных инвестиций в наиболее развитых странах заметно превышают рост валового национального продукта и товарного экспорта. Вот небольшая историческая справка по данному поводу. По подсчётам экономистов-статистов, в 2003-2005 годах в России за счёт иностранных инвестиций производится одна шестая всей продукции обрабатывающей промышленности, во Франции и Великобритании – одна пятая, в Италии – четверть, в ФРГ – ориентировочно около одной трети. И, тем не менее, одним аршином всё не измеришь. Начиная с 2000-2001 годов, при огромном росте и совершенствовании, например, компьютерной техники китайского производства ввиду отсутствия надлежащего качества продукции Азербайджанская Республика теряет конкурентоспособность с более развитыми странами мира.

В чём же видится выход из создавшегося положения? С одной стороны, республика должна всячески рекламировать свои собственные экономические преимущества перед своими основными конкурентами (например, низкая себестоимость продукции, квалифицированная рабочая сила и т.д.), а с другой – регулировать таможенный контроль. Так, Азербайджан, вступив в СНГ, при умелой инвестиционной политики в период правления Гейдара Алиева одним из первых отменил экспортные пошлины и квоты. Отметим, что Закон Азербайджанской республики «О Государственной пошлине» был принят в 2001 году (статья 740 за № 12), а некоторые изменения в него были внесены в январе 2003 года [1,1]. Придерживаясь принципов либеральной политики, уклон в особенности был сделан на тарифное регулирование импорта, а именно: новые импортные пошлины выплачивают импортёры, а размер их ставок зависит от типа, вида и сорта ввозимой в Азербайджан продукции. Большинство учёных-экономистов пришло к выводу, что это вполне разумное по нынешним реалиям дня решение. Некоторые государства, которые в недалёком прошлом (1970-1990-х годах) традиционно являлись крупнейшими экспортёрами капитала, в самые последние годы выступают как главные его импортёры. К числу них отчасти относится Россия, а в большей степени США и Великобритания.

Известно, что организации и предприятия с иностранными инвестициями, а также все иностранные инвесторы без исключения выплачивают налоги в соответствии с азербайджанским законодательством. Подмечено, что сумма налогообложения инвесторов в Азербайджане по сравнению с целым рядом западноевропейских стран щадящая. Хотя данный вопрос тоже представляет собой палку о двух концах; достаточно умеренный порядок налогообложения прибыли организаций и предприятий с иностранным капиталом может обернуться нерентабельностью. Почему? Потому что при налогообложении на поверхность всплывает вопрос об экономических «ножницах» выгод и потерь. Точнее, данная проблема поднимается на более качественно высокий и конкретный уровень. Направление потоков капитала чаще всего связано с поиском рабочих мест, которые обеспечивают наименьшие из-

держки производства и соответственно низкий уровень налогообложения. Во всяком случае, тенденция просматривается именно в сторону снижения этого уровня. Правительства тех стран, которые желают привлечь на свою сторону иностранный капитал. Естественно в первую очередь постулируется такая форма работы, когда предоставляются специальные налоговые льготы.

Не является в данном отношении исключением и Азербайджан. Кроме того, страны базирования при случае могут вводить дополнительные налоги для более целесообразного регулирования оттока иностранных инвестиций. Тогда и экономический выигрыш получается от дохода на инвестиции своих граждан. Конечно, важное значение в урегулировании этого вопроса в целом играет востребованность в той или иной продукции, в которой на данном этапе нуждается республика. К примеру, в Азербайджане относительно низкие ставки по отношению к предприятиям, непосредственно ориентированные на промышленное производство. Однако расчётная рентабельность в них всё равно не опускается ниже планки 20%. В противном случае возникает риск иностранных инвестиций в азербайджанскую экономику.

По нашему мнению, сегодня инвеститоры имеют неплохую возможность расширить право на возмещение своих убытков. Следует также учесть, что порядок выплаты материальной компенсации рассматривается в строгих рамках азербайджанского законодательства, иначе столь ответственный вопрос будет пущен на самотёк. Кроме того, разбор дел в индивидуальном порядке в идеале будет сопровождаться уплатой иностранному инвестору соответствующих налогов. Причём, в общую сумму включаются также компенсации в валюте, полученной организациями и предприятиями Азербайджанской республики на законных основаниях. Хотелось бы только подчеркнуть, что случаи разрыва официальных договоров с иностранными инвесторами не часты. Более всего они, как правило, относятся к малорентабельным предприятиям с таким распорядком работы, который изначально допускает необоснованные перестановки кадров, а также пространственные перемещения объектов. Бывают случаи, когда планируется организация, экономический эффект от которой практически не апробирован и т.д. Само собой разумеется, что экономическая стабильность таковых промышленных объектов обеспечена их востребованностью в любом государстве и при любой форме политического правления. Это универсальное правило. К тому же новые формы в определённой степени отражают эволюцию в способах использования иностранных капиталов на территории тех или иных государств (включая Азербайджан и Российскую Федерацию) от полного или частичного владения – к широким контрактным соглашениям. В своеобразной «переброске» инвестиций отражается также и разница в стратегических намерениях двух основных партнёров: для одних – это достижение мирового лидерства в данной области производства, а для других – прежде всего преодоление отставания (возможен даже более печальный фактор: необходимость выжить и любыми доступными средствами реконструировать свою «мёртвую» область промышленного производства, сельского хозяйства и т.д.). Однако опытные иностранные предприниматели, развивая национальный бизнес, естественно, ищут свою личную выгоду в занимаемых и инвестированных объектах. Для Азербайджана это в первую очередь нефтяная и нефтегазодобывающая отрасль, также капитальные вложения в аграрный сектор республики. Что касается экономически маловыгодных организаций и предприятий, то не столь существенен их «финансовый провал», сколько самый фактор, сдерживающий развитие и совершенствование предпринимательства в Азербайджане. Нам представляется, что в нынешний период экономическая нестабильность и инфляция, а также ряд объективных и субъективных факторов сдерживают приток иностранного капитала. Это отнюдь не повсеместная благонадёжность некоторых ресурсных рынков. До сих пор, по прошествии двадцати лет экономической и политической независимости, азербайджанский малый и средний бизнес как важная подоснова страны функцио-

нирует в условиях острого дефицита некоторых жизненно важных ресурсов.

Например, можно наблюдать, как в Азербайджане в последние годы в ускоренном темпе открываются и столь же скоропалительно закрываются отдельные «точки» начинающих предпринимателей? Отчего происходит такой негативный для этой республики процесс? Почему эти «передвижные объекты» небольшого масштаба не финансируются со стороны иностранных инвесторов? Во-первых, это скудость и труднодоступность нужной информации о наличии и условиях предоставления нужных ресурсов. Во-вторых, нарушения принципа открытого предоставления этих ресурсов на здоровой конкурсной основе. В- третьих, многочисленные бюрократические проволочки, ненужная «ходьба по инстанциям», что существенно усложняет процедуру доступа к этим ресурсам и вообще влечёт потерю времени и средств. Отсюда следует и естественный вывод, что азербайджанский малый и средний бизнес заметно ограничен в возможностях иностранного инвестирования по вышеизложенным соображениям, а также по причине жёсткой компактности сосредоточения своих внутренних ресурсов.

И недаром премьер-министр Азербайджана Артур Расизаде, подводя итоги экономического развития своей республики, «очертил круг первостепенных задач, связанных с иностранными инвестициями в экономически выгодные организации и предприятия Азербайджана, а также рассказал о тех острых, наболевших проблемах, которые существуют в инвестиционной сфере малого и среднего бизнеса» [2,6].

Таковы, на наш взгляд, наиболее узловые аспекты механизма хозяйствования, свидетельствующие о видах и формах деятельности инвесторов, а также некоторые методы борьбы с их негативными экономическими последствиями в Азербайджанской Республике.

**Литература**


1. Закон Азербайджанской Республики «О Государственной пошлине» // Зеркало (Баку), 11 января 2003, 32 с.
2. Иностранные инвестиции в сферу малого и среднего бизнеса // Зеркало (Баку), 15 января, 2003, с. 6
3. Киреев А.П. Международная экономика. Москва: Экономика, 1997.
4. Мамедов О.Ю. Современная экономика. Многоуровневое учебное пособие. Москва: Феникс, 1998.
5. О внесении изменений и дополнений в некоторые законодательные акты Азербайджанской Республики // “Вышка” (Баку), 3 января 2003, 4 с.
6. Прыкин Б.В. Новейшая теоретическая экономика. Москва: ЮНИТИ, 1998.


***M.R.Qaedi***

**Azərbayanda neqativ iqtisadi faktorlarla mübarizə üsulları və investisiya fəaliyyətinin bəzi formaları haqqında**

**Xülasə**

Məqalədə son illərdə Azərbaycanın investisiya şəbəkəsinin inkişafı haqqında və keçid dövründə onun tarixlə əlaqəli olduğu kimi, hüquqla da əlaqələndirildiyi göstərilir. Müəllif öncədən idarə və təşkilatın fikir müxtəlifliyi ilə müşayiət olunan Azərbaycan sənayesinin yenidən qurulmasına əsaslanaraq siyasi müstəqilliyi əldə etdikdən sonra bəzi idarə və təşkilatların Azərbaycan iqtisadiyyatının yavaş-yavaş maliyyələlədirməyə başlandığını qeyd edir. Məqalənin əsas mahiyyəti onun 1992-ci ildən qəbul olunmuş qanunlara “Xarici investisiya müdafiəsi”, “İnvestisiya fəaliyyəti haqqında”, “Xarici investisiyanın qiymətli kağızlar bazarında mühafizəsi” və s. əsaslanmasıdır.

***Açar sözlər: İnvestisiya qoyuluşları, dövlət büdcəsi, təşkilati və hüququ formaları, konsernlər, assosiasiyalar, konsersiumlar, iqtisadi qeyri-sabitlik və investisiya.***

**M.R.Gaedi**

## About Defence methods with negative-economic factors and some forms of investment activies in Azerbaijan

### Summary

İn the article it is showed about the development of Azerbaijans investment network and during passage period its revationship with history as well as with lawin recent years. In advance the author with guiding by rebuilding of azerbaijan industry which is followed by thaught variety of enterprice and organization, after gaining political indepedentence notes that some enterprice and organizations, finance slowly Azerbaijans economy. The main inportance of the article is its beingbased on laws that were accepted in 1992: The protection of foreign investments in the loan market and soon.

***Key words: investments, the state budget, legal forms, corporations, associations, consortia, economic instability and inflation.***

**UOT 005-027.21**

***Saleh Daşdəmir oğlu MƏMMƏDOV***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

# YERLİ ÖZÜNÜİDARƏETMƏNİN MALİYYƏ TƏMİNATI MƏSƏLƏLƏRİ

**Xülasə**

Yerli özünüidarəetmə orqanlarının formalaşması, demokratik cəmiyyətin əsas faktoru kimi təsdiq olunması və onların fəaliyyətinin yerli maliyyə hesabına maliyyələşdirilməsi məqalənin ana xəttini təşkil edir. Yerli büdcələrin idarəetmədə oynadığı rol, onun gəlir mənbələrinin qanunvericiliklə müəyyənləşməsi bələdiyyələrin müstəqil fəaliyyətinin maliyyə təminatının göstəricisidir. Dövlət büdcəsi ilə bələdiyyə büdcələrinin qarşılıqlı münasibətləri, onların müqayisəli inkişaf dinamikası müəyyən tədbirlərin həyata keçirilməsini zəruri edir. Sonda bələdiyyə büdcələrinin icrasındakı bəzi geriləmələrin səbəbləri və problemin həlli yolları araşdırılır.

***Açar sözlər: yerli özünüidarəetmə, bələdiyyə, yerli büdcə, bələdiyyələrin səlahiyyətləri.***

***

1991-ci il oktyabrın 18-də «Azərbaycanın dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü-müstəqil inkişaf dövrü başlandı. Yeni tarixi inkişaf mərhələsində qarşımızda dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ərazi bütövlüyünün bərpa edilməsi, əhalinin rifahının təmin edilməsi kimi taleyüklü mühüm tarixi vəzifələr durur.

Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafında artıq yeni mərhələnin təməli qoyulmuş və yüksək iqtisadi inkişaf üçün əsaslı zəmin yaradılmışdır. Ölkəmizdə bunun üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşmış, dövlət quruculuğu sahəsində aparılan islahatlarla dövlət hakimiyyətinin «hakimiyyətlərin bölünməsi prinsipi» əsasında gerçəkləşməsi təmin olunmuşdur. Beləliklə, Azərbaycan xalqı bütün çoxəsrlik tarixi ərzində ilk dəfə olaraq demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanmaqla və ölkənin özünəməxsus inkişaf xüsusiyyətlərini nəzərə almaqla yerli özünüidarəetmə sahəsində həqiqi demokratik sistem yaratmaq yolunda uğurlu addımlar atmışdır. Yerli özünüidarəetmə sistemində qazanılan hüquqi və iqtisadi uğurların bünövrəsi Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş müddəalar və qəbul edilmiş «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında», «Bələdiyyələrin statusu haqqında», «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında», «Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında», «Dövlət büdcəsi haqqında», «Vergi Məcəlləsi» və s. qanunların icrası ilə qoyulmuşdur. Belə ki, bələdiyyə maliyyəsinin əsasını qeyd edilən qanunlarla tənzimlənən yerli büdcə təşkil edir ki, bu da bələdiyyə büdcəsi olmaqla dövlət büdcəsinin tərkib hissəsi hesab olunmur. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, konstitusiya və qanunlarla müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcə statusu verilən bələdiyyə büdcəsinə qanunvericilik və icra hakimiyyəti orqanlarının müdaxilə etməsinə Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan hallar istisna olunmaqla yol verilmir.

Əksinə, qanunlarla bələdiyyənin istehsal sferasının inkişafına, sosial-iqtisadi inkişaf proqramlarının maliyyələşməsi zamanı yaranan yerli büdcə kəsirinin ödənilməsinə, icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrə əlavə səlahiyyətlər verilərkən maliyyə təminatı üçün dövlət büdcəsi tərəfindən əlavə maliyyə yardımları edilməsi nəzərdə tutulmuşdur.

Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir. Maliyyə əsasları dedikdə bələdiyyədə pul fondlarının yaradılması və istifadəsi ilə əlaqədar münasibətlər başa düşülür. Göründüyü kimi, bələdiyyə torpaqları və əmlakı, yerli büdcə, büdcədənkənar

fondlar və bələdiyyənin gəlir gətirən iqtisadi fəaliyyəti pul fondlarının yaradılmasının obyektləri rolunda çıxış edir. Bələdiyyə maliyyəsinin funksiyasına isə yerli özünüidarə orqanında pul fondlarının formalaşdırılması, istifadə edilməsi və nəzarət funksiyaları daxildir.

Bələdiyyələrin maliyyə sisteminin (ehtiyatlarının) əsas hissəsini yerli özünüidarə orqanının gündəlik təsərrüfat fəaliyyəti ilə bağlı əsas maliyyə planı olan yerli büdcə təşkil edir. Büdcə ingilis sözü olub, mənası (budget) torba, çanta deməkdir. Büdcə anlayışı iqtisadi ədəbiyyatda üç mənada işlədilir: büdcə münasibətləri, maliyyə planı(sənəd), pul fondu (maliyyə, vəsait).

Yerli özünüidarə vahidləri ayrıca hüquqi şəxs olduqlarından, onların maliyyə muxtariyyətini əks etdirən müstəqil büdcəyə malikdirlər. Dövlət büdcəsi bir qanun olduğu halda, yerli özünüidarələrin büdcələri bir qərarnamədir. Bu qərarnamə yerli özünüidarələrin gəlirlərinin toplanmasına və xidmətlər göstərilməsinə maliyyə sərfinə icazə verir. Bələdiyyə məclisi büdcəni qəbul etdikdən sonra onu icra etmək üçün bələdiyyənin icra strukturuna verir.

Büdcə hər bir idarəetmə orqanının iqtisadi fəaliyyətinin əsasını təşkil etməklə onun inkişaf səviyyəsini göstərir. Yerli özünüidarə sistemi yaradılanadək yerli büdcələr dövlət büdcəsinin tərkibinə daxil olmaqla dövlətin yerli icra hakimiyyəti orqanları vasitəsi ilə həyata keçirilirdi.

Azərbaycanda 1998-ci ilə qədər fəaliyyətdə olan yerli büdcələrin mədaxil hissəsinə yerli vergi, rüsum və ödənişlərlə yanaşı dövlət vergilərindən ayırmalar da daxil edilirdi. Yerli büdcələrin məxaric hissəsindən isə büdcə təsnifatına uyğun xalq təsərrüfatının, sosial- mədəni tədbirlərin və idarəetmə xərclərinin yerli əhəmiyyətli hissəsi maliyyələşdirilirdi.

Xəzinədarlıq sisteminin yaradılması ilə əlaqədar dövlətin büdcə sistemində islahat tipli tədbirlər həyata keçirilərək yerli büdcələr dövlət büdcəsinin tərkibindən tam şəkildə çıxarılmışdır. Əski yerli büdcələrin məxaric hissəsi dövlət büdcəsinin xərcləri adı altında yerli maliyyə orqanlarının vasitəsi ilə həyata keçirilir, mədaxil hissəsi isə korrektə edilərək yerli özünüidarə orqanlarının gəlirlərinə aid edilmişdir.

Xəzinədarlıq sistemi mərkəzi və yerli xəzinədarlıq orqanlarından ibarət olub, büdcə xərclərinin bazar iqtisadiyyatı şəraitində iqtisadi tənzimləmə və nəzarət funksiyalarını yerinə yetirir. Bununla yanaşı xəzinədarlıq bank sistemi tərəfindən yerinə yetirilən əsas büdcə funksiyalarını da öz üzərinə götürmüşdür.

Yerli büdcələr dövlətsizləşdirildikdən sonra, onların tərtibi, təsdiqi və icrası bütünlüklə dövlət nəzarətindən çıxarılmış və yalnız dövlət büdcəsindən dotasiya alan yerli büdcələrin xərclərinin hesablanmasında tətbiq olunan normativlərin dövlət büdcəsinin xərc normativlərinə uyğun götürülməsi haqda məhdudiyyət saxlanılmışdır. Yerli büdcələrin dövlət büdcəsi ilə yeganə əlaqəsi də onların büdcənin icrasının tənzimlənməsi prosesində dövlət büdcəsindən vəsait almaq hüququndan ibarətdir. Düzdür, dövlət vergilərinin qanunla müəyyən edilən qaydada ödənilməsi zamanı bələdiyyələr hüquqi şəxs kimi tədiyyəçi rolunu oynayır, ancaq bunlar müxtəlif səviyyəli büdcə münasibətləri deyil, vergi ödəyicisi ilə yaranan münasibətlərə xasdır.

Digər səviyyəli büdcələrdən fərqli olaraq yerli büdcələr kəsirlə tərtib və təsdiq edilə bilməz. Xərclərinin öz gəlirləri hesabına təmin olunmayan hissəsi dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər. Bələdiyyələrin dövlət büdcəsindən alınmış vəsaitlərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsinin normativlərindən yüksək ola bilməz.

Bundan başqa, qanunla müəyyən edilmişdir ki, («Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Qanun, maddə 6) bələdiyyələrə əlavə səlahiyyətlər həvalə edildikdə onlar müvafiq olaraq zəruri maliyyə vəsaiti ilə təmin edilir. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə uyğun məbləğ qərarı qəbul edən orqan tərəfindən konpensasiya olunur.

"Bələdiyyələrin statusu haqqında" Qanunda (maddə 40.3) yerli büdcələrin mədaxil və məxaric hissələrində yerli əhəmiyyətli məsələlərin həllinin və bələdiyyələrə icra hakimiyyətləri tərəfindən verilən səlahiyyətlərin həyata keçirilməsinin maliyyələşdirilməsinin ayrılıqda nəzərdə tutulması

göstərilmişdir. Qanunauyğun olaraq dövlət hakimiyyəti orqanları yerli büdcələrin minimum zəruri xərclərinin ödənilməsi üçün gəlir mənbələrini təsbit etmək yolu ilə bələdiyyə qurumlarının minimum yerli büdcələrini təmin edirlər. Bələdiyyə orqanları onların səlahiyyətinə aid edilmiş sahələrdə əhalinin yaşayış tələbatının ödənilməsini minimum dövlət standartlarından aşağı səviyyədə təmin edə bilməzlər. Hal-hazırda yerli özünüidarələrə konkret səlahiyyətlər verilmədiyindən bələdiyyələrin minimum büdcələrinin müəyyən edilməsi qeyri-real olardı. “Bələdiyyələrin statusu haqqında” Qanunun 41-ci maddəsinə görə minimum yerli büdcənin mədaxil hissəsi göstərilən gəlir mənbələri hesabına təmin edilə bilmirsə, onda Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları dövlət büdcəsinin digər gəlir mənbələrini bələdiyyələrə verə bilərlər.

Büdcə münasibətləri çərçivəsində bələdiyyələr dövlət büdcəsindən və icra hakimiyyətləri tərəfindən verilmiş əlavə səlahiyyətlərə görə transfert ödənişləri, dotasiyalar (subsidiya) və subvensiyalar ala bilərlər ki, bu xərclərin maliyyələşməsi yerli büdcənin məxaric hissəsində ayrıca şərtlə göstərilməlidir.

Transfert dedikdə yerli büdcələrə ümumi qaydalarla maliyyə yardımı göstərmək məqsədi ilə adambaşına düşən büdcə gəlirlərinin üfiqi bərabərləşdirilməsinin normativ-payçı metodu ilə hesablaşması başa düşülur. Transfertin ayrılma mənbəyi reqionların maliyyə müdafiəsi üçün formalaşdırılan məqsədli dövlət fondudur ki, o da konkret dərəcədə müəyyən olunmuş vergi ayırmaları hesabına yaradılır. Transfert hüququ qazanmaq məqsədi ilə müvafiq yerli büdcələr qəbul edilmiş normativlər əsasında məxaric hissənin mədaxildən artıqlığını real qaydada əsaslandırmalıdırlar. Bizim respublikada yerli büdcələrin tərtibi zamanı ümumi büdcə normativlərindən istifadə edilmədiyi üçün transfer ödəmələrin tətbiqi mümkün deyil. Ümumi büdcə normativləri dedikdə adambaşına düşən büdcə gəlirləri, məktəbəqədər uşaq müəssisələrində hər qrupa, orta məktəblərdə hər sinfə, səhiyyədə həkim qəbulu və xəstə çarpayıya düşən xərc normativləri və sair başa düşülür.

-Subvensiya dövlət tərəfindən digər səviyyəli büdcələrə konkret və ciddi müəyyən edilmiş təyinata (məqsədə) əvəzsiz və qaytarılmamaq şərti ilə verilən büdcə vəsaitidir. Subvensiya təyinatı üzrə xərclənmədikdə və tam istifadə edilmədikdə ya geri qaytarılır və ya növbəti büdcə dövrü üçün əvəzləşdirilir.

Subvensiyaların yerli büdcələrdə böyük yer tutması yerli özünüidarələrin mərkəzi orqanlardan iqtisadi asılılıq göstəricisi kimi qiymətləndirilə bilər. Məsələn, Fransada subvensiyalar yerli büdcə gəlirinin 7,5 faizini təşkil edir ki, burada maliyyələşdiriləcək tədbirlər üzrə əvvəlcədən dəqiq hesablamalar aparılmalıdır. Böyük Britaniyada əvvəllər (1950-ci illərədək) məqsədli dövlət yardımları böyük yer tutmasına baxmayaraq, sonradan bunların çox hissəsi ümumi yardımlarla əvəz olundu.

ABŞ-da məqsədli yardımlar bütövlükdə yerli büdcələrə edilən yardımların 75 faizini təşkil edir ki, bu vəsaitlər konkret təsdiq edilmiş müəyyən proqram və layihələr əsasında həyata keçirilir.

Subsidiya dövlət tərəfindən digər səviyyəli büdcələrə, fiziki və hüquqi şəxslərə məqsədli xərclərin payçı şəklində maliyyələşməsini təmin etmək məqsədi ilə əvəzsiz və geri qaytarılmamaq şərti ilə verilən büdcə vəsaitidir. Subsidiyalar isə artıq götürülmüş gəlir və qənaət edilmiş xərclər miqdarında azaldılmalıdır.

Qeyd olunan və digər maliyyə yardımlarını, qrantları istisna etməklə bələdiyyə büdcəsinin gəlir mənbələrinin obyektləri bələdiyyələrin və fiziki şəxslərin əmlakı və torpaqlarıdır. Yerli büdcə xərclərinin obyektləri isə yerli özünüidarəetmə orqanının saxlanması, sosial-məişət, mədəniyyət və idman tədbirləri, küçə, həyət və bağların saxlanması, həmçinin sosial müdafiə, iqtisadi inkişaf və ekoloji proqramların maliyyələşdirilməsi tədbirləridir. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarından məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial-inkişaf məsələlərini həll etməkdir. Bu proqramlar məktəbəqədər tərbiyə, təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının

saxlanılması, sanitariya müəssisələrinin təşkili, mənzil tikintisi, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, yerli əhəmiyyətli yolların tikintisi, mərasim xidmətləri, qəbristanlığın qorunması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ictimai iaşə, ticarət və məişət xidmətinin təşkilinə şərait yaradılması, tarix və mədəniyyət abidələrinin saxlanılması, kimsəsizlərə, qocalara, valideyn himayəsindən məhrum olmuşlara əlavə yardım göstərilməsini və yerli infrastrukturun digər sahələrini əhatə edə bilər. Sadalananlardan göründüyü kimi, bələdiyyə xərclərinin geniş sferaya malik olmasına baxmayaraq onların maliyyələşdirilməsi əlavə tədbir xarakteri daşıyır.

Bu səbəbdən yerli büdcələrdə dövlət büdcəsindən fərqli olaraq gəlirlər əsas rol oynayır və xərclərin önünə keçir. Dövlət hakimiyyəti mütləq və hüdudsuz olduğundan dövlət əvvəlcə görəcəyi işlərin xərclərini müəyyənləşdirir. Ondan sonra gəlir mənbələrini araşdırır və lazım gəldikdə yeni gəlir mənbələri müəyyən edir. Bələdiyyələr isə məhdud imkanlara malik olduğundan yalnız öz istəkləri ilə yeni gəlir mənbələri haqda qərar qəbul etməkdə çətinlik çəkirlər. Nəticədə yerli büdcələrin xərclərini öz gəlirlərinə uyğunlaşdırmalı olurlar. Ancaq o da qeyd olunmalıdır ki, bələdiyyələr maliyyə resurslarından istifadə edilməsi baxımından daha səmərəli imkana malikdirlər. Belə ki, dövlət xalqın bütün ehtiyaclarını öz mərkəzi idarəsi vasitəsi ilə ödədikdə, yerli problemin müəyyənləşdirilib araşdırılması, həlli üçün qərarlar verməsi və lazımi tədbirlər görməsi üçün vaxt, əmək və resurs baxımından israfçılığa yol verməsi labüddür. Mərkəzə nisbətən yerli özünüidarələr ərazidə yaşayan əhaliyə daha yaxın olduğundan, öz əhalisinin ehtiyaclarını daha dərindən bildiyindən, problemin həllini daha yaxşı nəzarətdə saxlamaq imkanında, bu zaman keyfiyyətin daha yüksək olmasına, az vaxt sərfinə və resurslardan istifadədə daha çox qənaət edilməsinə nail olunar. Buna görə də yerli problemlərin həllində bələdiyyələrə rəsmi səlahiyyətlərin verilməsi və bu tədbirlərin yerli büdcələrin məxaric hissəsindən maliyyələşdirilməsi mühüm əhəmiyyət kəsb edir ki, nəticədə həm dövlət büdcəsinin xərclər hissəsində yaranan maliyyə gərginliyi azaldılar, həm də dövlət büdcəsinin mütləq gəlirlərinin yerli büdcələrə aid edilən hissəsi ikinci dərəcəli tədbirlərə könüllülük əsasında sərf edilməz. Çünki əvvəllər yerli vergi və ödənişlər hesabına toplanan vəsaitlərlə maliyyələşdirilən büdcə tədbirləri hal-hazırda dövlət büdcəsinin məxaric hissəsindən maliyyələşdirilməkdə davam etdirilir.

Məlum məsələdir ki, əhalinin ən çox ehtiyacı olan məsələlərdən biri mənzil-kommunal xidmətlərinin lazımi səviyyədə təşkil edilməsi ilə bağlıdır. Heç kimə sirr deyil ki, vətəndaşların hər gün üzləşdiyi kommunal problemlərin həlli üçün məsuliyyət daşıyan təşkilatlar bu işin öhdəsindən tam şəkildə gələ bilmir. Əhalinin haqlı narazılığı ilə üzləşən bələdiyyələr indiki şəraitdə bu sahədə konkret fəaliyyət səlahiyyətinə malik olmadığına görə köməklik göstərə bilmir. Halbuki, «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında» Qanuna görə dövlət mülkiyyətində olan və bələdiyyələrin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri mənzil-kommunal, sosial və mədəniyyət obyektləri, əhalinin ümumi istifadəsində olan obyektlər və digər dövlət əmlakı onların mülkiyyətinə verilməlidir.

«Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Qanunun müddəalarını işəsalma mexanizmi, yəni yerli büdcələrin gəlir və xərclərinin dolğun şəkildə hərəkətə gətirilməsi üçün gəlir mənbələrinin və maliyyələşmə obyektlərinin daha da təkmilləşdirilməsi və korrektə edilməsi vacibdir. Belə ki, bu gün ayrıca götürülmüş qəsəbədə körpələr evi və ya kitabxana rayon maliyyə idarələrinin vasitəsi ilə dövlət büdcəsinin yerli xərcləri adı altında maliyyələşdirilir. Qəsəbə yollarının saxlanılması, kommunal xidmətlərin göstərilməsi, bələdiyyə ərazisində asayişin qorunması, sakinlərin məişət problemləri bələdiyyələrin iştirakı olmadan icra edilir. Bələdiyyə sakinləri öz sosial-mədəni və məişət problemlərini bələdiyyələrdən yan ötərək qəsəbə, kənd nümayəndəliklərində və mənzil-kommunal idarələrində həll edirlər. Daha doğrusu, dövlət yerli icra hakimiyyəti orqanları bu sahələrdə səlahiyyətlidirlər. Yerli özünüidarə orqanlarının bu yönümdə paralel fəaliyyət göstərməsi dövlətin daxili sosial-iqtisadi siyasətində qarşıya qoyulan məqsədlərə nail olunmasına kömək edəcəkdir. Təcrübə göstərir ki, o yerlərdə icra orqanları və bələdiyyələr uğurlar qazanırlar

ki, orada hər iki orqan yerli əhalinin bütün problemlərini ədalətli həll etmək məqsədi ilə qarşılıqlı münasibətlərini səlahiyyətlərini aşmamaqla tənzimləyə bilirlər.

Yerli özünüidarəetmənin maliyyə əsaslarından biri də qanunvericiliklə müəyyən edilmiş qaydada və şərtlərlə yaradılan məqsədli büdcədənkənar fondlardır. Bələdiyyə büdcələrinə aid olan gəlir və ödənişlər bu fondlara daxil edilə bilməz. Bu fondların gəlir mənbələri müxtəlif cərimələr, inzibati ödəmələr, humanitar və könüllü qaydada köçürülən məbləğlər və sair ola bilər. Bələdiyyə orqanlarının büdcədənkənar vəsaitləri yalnız heç bir büdcədən maliyyələşməyən məqsədli proqramlar əsasında sərf edilə bilər. Bura müxtəlif kateqoriya əhalinin sosial müdafiəsi məqsədləri, inzibati ərazi daxilində sahibkarlığın inkişaf etdirilməsi məqsədləri və sair daxildir. Hər bir plan ili üçün yaradılması nəzərdə tutulan büdcədənkənar fondların xərclər smetası, yəni formalaşması mənbələri və xərc təyinatları bələdiyyə iclasında təsdiq edilməlidir.

«Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» (24.12.1999-cu il) Qanunda göstərildiyi kimi, bələdiyyənin maliyyə vəsaitlərinin formalaşması və istifadəsi özünüidarəetmə, müstəqillik, aşkarlıq və yerli mənafenin dövlət mənafeyi ilə uzlaşması prinsiplərinə əsaslanır. Bu maddəyə uyğun olaraq yerli özünüidarə sisteminin aşağıda qeyd olunan sosial-iqtisadi inkişaf istiqamətləri müəyyən edilməlidir:

l. İdarəetmədə hakimiyyət səviyyələrinin dəqiq müəyyənləşdirilməsi.

2. Yerli özünüidarənin real maliyyə zəmanətinin olması.

3. İqtisadi inkişafın tənzimlənməsi sahəsində dövlət və bələdiyyə idarəetməsinin qarşılıqlı fəaliyyətinin proqramlarının hazırlanması.

4. Yerli əhəmiyyətli məsələlərin həllinin real mexanizmlərinin yaradılması.

5. Bələdiyyə iqtisadiyyatını lazımi qaydada stimullaşdırmaq üçün obyektiv şəraitin yaradılması.

Göstərilən istiqamətlərdə yerli özünüidarələrin fəaliyyətinin müstəqilliyinə «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Qanunun 5.2. saylı maddəsi ilə təminat verilir: «Azərbaycan Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə, qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə, yol verilmir». Yerli büdcələrin müstəqilliyinin əsas prinsiplərini aşağıdakı şəkildə göstərmək olar:

1. Yerli vergi və ödənişlərin müəyyənləşdirilməsi, onun tərtib, təsdiq və icrasına nəzarət etmək hüququ.

2. Yerli büdcə vəsaitlərindən istifadə edilməsi istiqamətlərini müstəqil müəyyənləşdirmək hüququ.

3. Büdcə ili nəticəsində əmələ gəlmiş sərbəst qalığa müstəqil sərəncam vermək hüququ.

4.Ayrı-ayrı dövlət səlahiyyətlərinin həyata keçirilməsi üçün kompensasiya şəklində maliyyə vəsaiti almaq hüququ.

5. Dövlət büdcəsindən dotasiya, subvensiya almaq hüququ.

6. Minimum yerli büdcənin təmin edilməsi hüququ.

7. Maliyyə məsələləri üzrə yerli özünüidarə orqanlarının dövlət himayəsi və məhkəmə müdafiəsi hüququ.

Bu zəmanətlər büdcələrin sabitliyini, yerli əhəmiyyətli məsələlərin icrasının təmin edilməsi məqsədini güdür.

Yerli büdcənin müstəqilliyinə dövlət zəmanət verir və onun öhdəliklərinə məsuliyyət daşımır. Bu isə dünya təcrübəsində yerli özünüidarə sisteminin ingilis-sakson modelinə uyğundur. İngilis-sakson hüququ olan müasir ölkələrdə yerli hakimiyyət orqanları öz hüquqi aktlarını qəbul edərək, təşkilat fəaliyyətinin daxili məsələlərini müstəqil həll edirlər. Onların fəaliyyəti yalnız bilavasitə qanunda əks olunduqda səlahiyyətli hesab olunur, yəni səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir.

Təcrübə göstərir ki, Bakı şəhərinə daxil olan, həmçinin regionlarda formalaşan bələdiyyələrdə yerli büdcələrin icrası həm gəlir mənbələri və faktiki daxilolmalar üzrə, həm də xərc təyinatları üzrə bir-birindən xeyli fərqlənir. Ərazisi həyətyanı fərdi yaşayış tikililərindən ibarət olan bələ-

diyyələr öz büdcələrini yerli vergilər hesabına formalaşdırdığı halda, ərazisi çoxmərtəbəli yaşayış binalarından ibarət olan bələdiyyələr yerli vergilər hesabına praktiki olaraq vəsait toplaya bilmədiklərindən əlavə gəlir mənbələri axtarmaq zorunda qalırlar. Bu tip spesifik xüsusiyyətlər respublikanın bir çox reqionlarına da xasdır. Belə ki, 2011-ci ilin icmal yerli büdcə gəlirləri Ağstafa rayon bələdiyyələri üzrə 189,2 min manat, Ağdaş rayon bələdiyyələri üzrə 432,8 min manat, Ağcabədi rayon bələdiyyələri üzrə 531,9 min manat, Lerik rayon bələdiyyələri üzrə 70,1 min manat, Qusar rayon bələdiyyələri üzrə 935,2 min manat həcmində olmuşdur. Göründüyü kimi, müxtəlif zonalarda yerləşən rayonların özünəməxsus yerli büdcə formalaşması mövcuddur. Regional vəziyyətin qiymətləndirilməsi üçün əhalinin həyat səviyyəsi, ərazinin iqtisadi potensialı, təbii ehtiyatları, maliyyə vəziyyəti və digər büdcə parametrləri diqqətlə təhlil edilməlidir. Qeyd edilənlərin ilkin təhlili göstərir ki, bələdiyyə büdcələrinin formalaşması və istifadəsindəki müxtəliflikləri, büdcə qanunvericiliyinin ümumi prinsiplərindən kəskin kənarlaşmaları aradan qaldırmaq və gələcəkdə yerli büdcələrin icrasında xaos vəziyyətin yaranmasına yol verməmək üçün bu proseslər (bələdiyyələrin maliyyə-vergi fəaliyyəti) bir demokratik mərkəzdən aşkarlıq və büdcə hüquqlarının qorunması fonunda tənzimlənməlidir. Bu isə o deməkdir ki, idarəetmənin və iqtisadi inkişafın yüksək inkişaf səviyyəsinə nail olanadək yerli özünüidarəetmədə fransız modelinə üstünlük verilməsi məqsədəuyğundur. Lakin burada da dövlət hakimiyyət orqanlarının bələdiyyələrin fəaliyyətinə yersiz müdaxilələrinə imkan verilməməsi üçün yerli büdcələrin icrasına maliyyə nəzarəti qüvvədə olan qanunvericiliyə əsasən bələdiyyələrin öz səlahiyyətlərində saxlanılmalıdır.

Bələdiyyə büdcələrinin icrasına dair hesabatların bir mərkəzi orqan tərəfindən qəbul və təhlil edilməsi, bu sahədə yaranan problemlərin həll edilməsinə müvafiq yardımlar göstərilməsinə imkan verməklə yanaşı, dövlət büdcəsindən ayrılan subsidiyaların məqsədəuyğunluğunu və obyektivliyini də təmin edərdi. Dövlət büdcəsindən yerli büdcələrə ayrılacaq maliyyə yardımlarının bölgüsü prosesində dövlət hakimiyyət orqanları tərəfindən bələdiyyələrin büdcə göstəriciləri və iqtisadi inkişaf proqramları mütləq şəkildə araşdırılmalıdır. Yerli özünüidarəetmə orqanlarının bir sistem şəklində təşkil edilməsi, onların öz hüquq və səlahiyyətlərindən effektiv istifadə etmələri üçün müvafiq münbit şəraitin yaradılması məqsədi ilə idarəetmənin bütün sahələrdə tənzimlənməsinə və inzibati nəzarət mexanizminin həyata keçirilməsinə nail olunmalıdır. Yerli idarəetmə orqanları ilə mərkəzi hakimiyyət arasında münasibətlər, dövlətin konstitusiyası və qanunlarla tənzimlənir ki, bu da dünya ölkələri praktikasında müxtəlif şəkildə öz həllini tapmışdır. Qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə forması olan bələdiyyələr üzərində dövlət nəzarəti mexanizmi bir çox dövlətlərdə müxtəlifdir. İtaliyada və Fransada Daxili İşlər Nazirliyi bələdiyyələrə nəzarət edir. Yaponiyada bələdiyyələrə əsas nəzarət funksiyasını Maliyyə Nazirliyi həyata keçirir. Almaniyada bələdiyyələrin işini Torpaq idarələri tənzimləyir.

Mərkəzi hakimiyyətin bələdiyyələrin işinə qarışmasının əsas üç istiqaməti mövcuddur:

- bələdiyyə fəaliyyətinin birbaşa mərkəzi hökumət tərəfindən tənzimlənməsi;
- bələdiyyə fəaliyyətinə mərkəzi hökumət tərəfindən nəzarət mexanizminin olması, yəni sanksiya tətbiq etmək səlahiyyəti;
- bələdiyyə orqanlarının mərkəzi hökumətdən maliyyə asılılığı.

Mövcud qanunvericiliyə əsasən yerli özünüidarəetmə orqanları özlərinin xarici iqtisadi əlaqələrini yaratmaq sahəsində də müstəqildirlər. Bu əlaqələr qarşılıqlı iqtisadi mənfəət prinsipləri əsasında həyata keçirilir. Bu mənada yerli özünüidarə orqanlarının öz maliyyə vəsaitlərindən müstəqil surətdə, qüvvədə olan qanunlar dairəsində istifadə etməyə səlahiyyətləri vardır.

Yerli özünüidarə orqanları öz maliyyəsinin təşkili işini Azərbaycan Respublikasının kredit təşkilatları ilə qarşılıqlı əlaqədə qura bilərlər. Bu məqsədlə bələdiyyələr təsdiq etdikləri iqtisadi və ekoloji inkişaf proqramlarına əsasən banklardan və digər kredit təşkilatlarından öz məsuliyyətləri altında qısamüddətli və ya uzunmüddətli kreditlər ala bilərlər.

Bələdiyyələrə hüquqi və büdcə müstəqilliyi təminatının verilməsi ilə yanaşı, onların dövlətin iqtisadi siyasətindəki rolu formalaşmalıdır. Yerli özünüidarə orqanları öz proqram tədbirlərini və fəaliyyətini müstəqil dövlət quruculuğunun şərtlərinə uyğunlaşdırmaqla bu sahədə layiqli töhfəsini verə bilər. Göründüyü kimi, effektiv və məntiqi nəticələr əldə edilməsi üçün bələdiyyələr fəal surətdə dövlətin yardımçı bir qurumuna çevrilməli, ona veriləcək təsərrüfat və büdcə səlahiyyətlərini maddi məsuliyyət və cavabdehlik şərtləri altında icra etməlidirlər. Ancaq prosesin ləngiməsi xalqa və dövlətə mənəvi və maddi ziyan vurulması ilə nəticələnə bilər. Belə ki, xalqın səsvermə yolu ilə demokratik əsasda seçdiyi bələdiyyələr yerli problemləri tam dolğunluğu ilə həll edə bilməməsi onları xalq qarşısında lazımsız bir orqan kimi nüfuzdan salır. Maddi tərəfə gəldikdə isə, ümumi həcmi on milyonlarla hesablanan icmal yerli büdcələr könüllü surətdə müəyyən edilən tədbirlərə sərf edildiyi halda, əvvəllər həmin vəsaitlər hesabına bir sıra sosial-mədəni tədbirlərin maliyyələşdirilməsi həyata keçirilirdi.

Müqayisə üçün qeyd olunmalıdır ki, keçmiş Sovetlər İttifaqının bir neçə respublikasında, o cümlədən ən böyük büdcəyə malik olan Rusiya Federasiyasında yerli özünüidarə orqanları (munitsipalitetlər) 90-cı illərin əvvəllərində yerli özünüidarəetmə haqda qəbul edilmiş qanunlara müvafiq olaraq əvvəlki yerli icraiyyə komitələrinin və sovetliklərin bazasında yaradılmışdır. Rusiyada yerli büdcələrin munitsipalitetlərə aid ediməsi ilə yanaşı əvvəllki gəlir mənbələri və xərc təyinatları təqribən olduğu kimi saxlanılmışdır. Sadəcə olaraq, qəbul edilmiş qanunlarla yerli büdcələrin müstəqilliyi ciddi şəkildə təmin edilmiş və munitsipalitetlərə geniş səlahiyyətlər verilmişdir. Türkiyədə yerli özünüidarəetmələr il özəl idarəsi, bələdiyyə və kənd olmaq şərti ilə üç yerə bölünür. İl özəl idarəsi bütün rayon ərazisində iş görərkən, bələdiyyələr şəhər və qəsəbə xüsusiyyətli, əhalisi 2 min nəfərdən çox olan və sosial-iqtisadi baxımdan inkişaf etmə potensialına sahib olan yerlərdə qurulur. Əhalisi 2 min nəfərdən az olan məkanlarda kənd idarəetməsi təşkil edilir. Türkiyədə yerli özünüidarə orqanlarının büdcələrinin müstəqil gəlir mənbələri ilə yanaşı konkret fəaliyyət səlahiyyətləri də mövcuddur.

## Ədəbiyyat


1. V.Zeynalov, A.Hüseynov. Dövlət və bələdiyyə maliyyəsinin problemləri. Bakı, "Təhsil",2006. 432 səh.
2. N.Novruzov, E. İbrahimov. Büdcə sistemi. Dərslik, Bakı, "Adiloğlu". 2012, 472 səh.
3. Bələdiyyələr haqqında sənədlər toplusu. Bakı, "Qanun", 2007, 620 səh.
4. Bələdiyyə orqanının büdcəsinin icrasına dair. Statistik bülleten. 2011-ci il Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2012, 144 səh.
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 2000, № 905-IQ.
6. Бюджетная система Российской Федерации. Учебник. Москва-2000, 615 стр.


***Салех Дашдамир оглы Мамедов***
***Азербайджанский Государственный Аграрный Университет***
***заведующий финансовым отделом***

## Финансовая поддержка местного самоуправления

### Резюме

Основным фактором в формировании демократического общества, являются такие утверждение органов местного самоуправления как их финансовая деятельность. Финансовым обеспечением муниципалитетов образований, является роль местных бюджетов, независимо от определения источников доходов. Необходимо отношения между государственным бюджетом и бюджетами муниципалитетов.

***Ключевые слова: местное самоуправление, муниципалитет, местный бюджет, полномочия муниципалитетов, муниципальное финансирование муниципалитетов.***

***Salekh Dashdamir Mammadov***
***Azerbaijan State Agrarian University, head of the Finance Department***

**Financial support for local government**

**Summary**

The main factor in the formation of a democratic society, are such approval of local governments as their financial activities. Financial support of municipal formations, is the role of local budgets, regardless of the definition of income. Necessary relationship between the state budget and the budgets of the municipalities.

***Keywords: local government, municipality, local budget, the powers of municipalities, municipal finance municipalities.***

# XARİCİ İQTİSADİ ƏLAQƏLƏR

**UOT 338.4**

***Nicat Adil oğlu NƏRİMANOV***
***Azərbaycan Dövlət Aqrar Universitetinin dissertantı***

## XARİCİ TİCARƏT NƏZƏRİYYƏLƏRİNDƏ KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İXRACI MƏSƏLƏLƏRİ

**Xülasə**

Qloballaşan dünyada iqtisadiyyat durmadan inkişaf edir, ticarət əlaqələri daha da dərinləşir və yeni formaları yaranır. Yer kürəsinin əhalisinin durmadan artması və bunun müqabilində ərzaq məhsullarının istehsalının yetərincə artmaması kənd təsərrüfatı məhsullarının ixracını zərurətə çevirərək ölkələrin birinin digərindən iqtisadi asılılığını daha da gücləndirir. Bununla əlaqədar olaraq məqalədə xarici ticarət nəzəriyyələri araşdırılmış və kənd təsərrüfatı məhsulları ixracının nəzəri məsələləri tədqiq edilmişdir.

***Açar sözlər: xarici ticarət, ixrac, ixrac həddi, müqayisəli üstünlük, mütləq üstünlük.***

***

Müasir iqtisadiyyat bugünkü, vəziyyətinə çatanadək uzun bir yol keçmiş, müxtəlif nəzəri baxışların, iqtisadi düşüncə və təfəkkürlərin tədqiqat obyekti olmuşdur. Müxtəlif vaxtlarda bir sıra iqtisadi nəzəriyyələr, o cümlədən xarici ticarətin nəzəri məsələlərinə güzgü tutan xarici ticarət nəzəriyyələri yaranmış və inkişaf etmişdir. Onların bir qismi öz aktuallığını qoruyub saxlaya bilsə də, digər bir qismi öz aktuallığını itirmişdir.

Merkantilizmdən öncə dünyada hər kəsə məlum olan hər hansı xarici ticarət nəzəriyyəsinin varlığından söhbət etmək çox çətindir. Bunu əsas götürərək demək olar ki, xarici ticarət nəzəriyyələrinin ən birinci yaranmışı “Merkantilist” nəzəriyyəsidir.

Məsələnin mahiyyətinə baxdıqda aydın olur ki, bütün nəzəriyyələrin yaranması, müəyyən müddət yaşaması və tənəzzülü həmin dövrün, yəni öz dövrünün tələbi olmuşdur. Bu nöqteyi-nəzərdən merkantilist cərəyan da öz dövründə baş verən hadisələr nəticəsində meydana çıxmışdır. Həmin hadisələrə yeni dəniz yollarının kəşf olunmasını, Avropada əhalinin sürətli artımını, yeni qitədə - Amerikada kəşf edilən qiymətli metalları və s. misal göstərmək olar.

Feodalizmin zəifləməsi, əvəzində dövlətlərin daha da güclənməsi merkantilizmin bir iqtisadi cərəyan kimi ortaya çıxmasını şərtləndirmişdir. Merkantilistlərin nəzəri baxışlarına görə xarici ticarət siyasətinin əsas məqsədi xəzinənin qızıl ehtiyatının artırılmasıdır. Bu cərəyanın nümayəndələri qızılı və qiymətli daşları sərvətin mənbəyi olaraq görürdülər və eyni zamanda xəzinənin qızıl ehtiyatını dövlətin iqtisadi qüdrətinin və siyasi gücünün əsası olduğu düşüncəsindəydilər. Merkantilizmin əsas ideologiyası dövlət büdcəsinin qızıl və digər bu qəbildən olan qiymətli metallarla doldurulması olduğundan, dövlətin birbaşa müdaxiləsinin olmasını zəruri etmişdir. Merkantilistlər ixracın artırılmasına daha çox üstünlük verir, idxalın isə daha az olması üçün müxtəlif tədbirlər həyata keçirirdilər. Onlar hesab edirdilər ki, dünya sərvəti sabitdir və ona görə də bir-biri ilə ticarət edən ölkələrdən hansı ölkə daha çox ixrac edərsə o, qazanclı çıxacaq, digər ölkə isə zərərə uğrayacaqdı. Merkantilist nəzəriyyəni müdafiə edən dövlətlər müstəmləkələrlə ticarətə daha çox önəm verirdilər. Onlar bu müstəmləkələrə bir neçə mövqedən baxırdılar. Birincisi, müstəmləkələr xam maddə qaynağı idi, ikinci, istehsal olunan məhsulun satılması üçün əsas potensial bazarlar müstəmləkələr hesab olunurdu. Merkantilizmin hökmran olduğu bir dönəmdə, yəni XVI və XVII əsrlərdə dünya sənayesi bir o qədər də inkişaf etməmişdi. Yəni ixrac əməliyyatlarında əsas məhsul qismində kənd təsərrüfatı məhsulları iştirak edirdi. Həmin dövrdə buğda, ipək, tütün və s. ticarətdə əsas mövqedə dayanırdı.

XVII əsrin sonlarından etibarən sənayenin sürətli inkişafı merkantilist cərəyanın zəifləməyə başlamasına səbəb oldu. Belə ki, artıq ölkələrdə əsas problem istehsal deyil, istehsal olunan məhsulun satılması idi. Təbii ki, bu proses belə davam edə bilməzdi və xarici ticarətdə proteksionist mövqenin zəifləməsinə, ya da tamamilə aradan qaldırılmasına ciddi ehtiyac hissi duyulmaqda idi. Beləliklə, XVIII əsrin ortalarından merkantilizim öz yerini klassik liberalizmə verməyə başladı.

A.Smit merkantilistlərin əksinə, dünya sərvətinin sabit olmadığını, əmək bölgüsü və ixtisaslaşma ilə resursların səmərəliliyini artıran xarici ticarətin sadəcə bir tərəfin deyil, hər iki tərəfin və ümumilikdə dünyanın iqtisadi inkişafını yüksəldəcəyini iddia etmişdir [1].

A.Smit sərbəst ticarətin və beynəlxalq ixtisaslaşmanın mahiyyətini özünün mütləq üstünlüklər nəzəriyyəsi ilə əsaslandırmağa çalışır. A.Smitə görə, iki ölkəli bir modeldə, ölkələrdən biri digəri ilə müqayisədə hansı əmtəəni daha az xərclə istehsal edirsə, həmin əmtəənin istehsalı üzrə ixtisaslaşmalıdır. Əksinə, istehsalı müqayisədə baha başa gələn məhsulların idxal edilməsi isə daha məqsədəuyğun hesab olunurdu.

A.Smitdən sonra bu fikirlər D.Rikardo tərəfindən daha da inkişaf etdirilərək müqayisəli üstünlük nəzəriyyəsi irəli sürüldü. D.Rikardoya görə, xarici ticarətin mütləq üstünlüklərə əsaslandırılması o qədər də vacib deyildir və eyni zamanda hesab edirdi ki, belə bir düşüncə tərzi nəzəriyyənin əhatə dairəsini məhdudlaşdırar. Çünki mütləq üstünlüklər müqayisəli üstünlüklərin xüsusi bir vəziyyəti kimidir. Müqayisəli üstünlüyün reallaşdığı vəziyyətdə mütləq üstünlük də vardır, amma bunun tərsi mümkün deyildir. Rikardonun əsasını qoyduğu bu nəzəriyyənin yaranmasından iki əsrə yaxın bir zamanın keçməsinə baxmayaraq bu nəzəriyyə xarici ticarət məsələsində hələ də özünə xas yer tutmaqdadır.

Xarici ticarət nəzəriyyələrində kənd təsərrüfatı xüsusi yerə sahibdir. Klassik iqtisadçılar və onların ardıcılları hesab edirdilər ki, uzun dövr ərzində az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin ixracında kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi yüksələcək, yəni sözügedən məhsulların ixracına görə inkişaf etmiş sənaye ölkələrini qabaqlayacaq. D.Rikardo tərəfindən ortaya atılmış, sonralar A.Marşal və C.M.Keyns tərəfindən daha da inkişaf etdirilən kənd təsərrüfatında azalan səmərəlilik qanununa görə dünyada məhsuldar torpaqların məhdud olması, əhalinin sürətlə artması, kənd təsərrüfatı məhsullarına tələbin təklifi üstələməsi nəticəsində aqrar sahə məhsullarının qiymətləri yüksələcək [2]. Klassiklərə görə belə bir vəziyyət kənd təsərrüfatı məhsulları ixrac edən az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin xeyrinə olacaq.

Digər bir klassik iqtisadçı S.Milliyə görə, inkişaf etmiş ölkələrin az inkişaf etmiş ölkələrdən tələb etdikləri əsas qida maddəsi olan kənd təsərrüfatı məhsullarına olan ehtiyacları çox və tələblərinin elastikliyi aşağı olduğundan kənd təsərrüfatı məhsullarının qiymətləri sənaye məhsullarının qiymətlərinə nisbətən daha çox artacaqdır. Nəticədə inkişaf etmiş ölkələrin idxalında az inkişaf etmiş ölkələrin ixrac etdiyi kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi yüksələcəkdir. Bir sözlə, bu vəziyyət kənd təsərrüfatı məhsulları ixrac edən az inkişaf etmiş ölkələrin lehinə olacaqdır.

Yuxarıda vurğuladığımız məsələlərin heç də həqiqəti tam əks etdirmədiyi bir sıra iqtisadçıların araşdırmalarında ortaya çıxdı. Bu istiqamətdə ilk araşdırmanı H.Singer və R.Prebisch həyata keçirdi. Bu iki iqtisadçı xarici ticarət hədlərinin kənd təsərrüfatı məhsulları ixrac edən az inkişaf etmiş ölkələrin əleyhinə olduğunu ortaya çıxardı. "Singer –Prebisch"-ə görə ticarət hədlərinin az inkişaf etmiş ölkələrin əleyhinə işləməsinin başlıca səbəbləri aşağıdakılardır [2]:

- inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının sayı on minlərlədir və bu istehsalçıların kənd təsərrüfatı məhsullarının qiymətlərinə təsir etmək imkanı olduqca zəifdir. İnkişaf etmiş ölkələrdə isə iri sənaye şirkətlərinin mövcudluğu qiymət siyasətində daha qətiyyətli mövqe tutmağa köməklik edir. Nəticədə İEOÖ-lər ixrac etdikləri kənd təsərrüfatı məhsullarının qiymətlərini artıra bilmirlər, əksinə, İEÖ-lər isə ixrac etdikləri sənaye məhsullarının qiymətlərini yüksəldirlər;
- R.Prebisch və H.Singerə görə, inkişaf etmiş ölkələrdə texnologiya daha yaxşı inkişaf etdiyi

üçün onların istehsal etdikləri kənd təsərrüfatı məhsullarının maya dəyəri daha aşağı olur ki, bu da həmin ölkələrin ixracda az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə nisbətən daha üstün mövqe tutmasına səbəb olur;

- istehsal etdikləri mallara olan tələbdə bir o qədər artım olmayan az inkişaf etmiş ölkələr, ixrac qiymətlərini idxal etdikləri məhsulların qiymətlərinin artımı qədər artıra bilmədiklərindən xarici ticarət hədləri az inkişaf etmiş ölkələrin əleyhinə işləyir.

A.Smit və D.Rikardo məhsul istehsalında yalnız əməyin məhsuldarlığı məsələsini ön plana çəkmiş, digər istehsal amillərini isə diqqətdən kənarda qoymuşdur. Bu məsələ İsveç iqtisadçıları Hesçer və Olin tərəfindən araşdırılmışdır. Onların fikrincə istehsal olunan malların üstünlüyü, həmin malların istehsalında istifadə olunan istehsal amillərinin bolluğundan asılıdır və həmin mallar üzrə ölkə müqayisəli üstünlüyə malikdir. Hesçer və Olinin ideyaları bu günə qədər öz aktuallığını qoruya bilmişdir [3].

Get-gedə qloballaşan iqtisadiyyat bu gün nə birbaşa ixracı dəstəkləyərək idxalı məhdudlaşdıran merkantilist, nə mütləq və müqyisəli üstünlüklərə dayanaraq ixraca bu yöndən yanaşan klassik nəzəriyyələrlə, nə də ixrac hədlərinin kənd təsərrüfatı məhsulları ixrac edən az inkişaf etmiş ölkələrin əleyhinə işləyəcəyini zənn edən Singer-Prebisch tezisi ilə idarə olunmur. Lakin bu yanaşmaların hər birinin haqlı olacağı məqamlar da mövcuddur. Biz bu gün müqayisəli üstünlüklər nəzəriyyəsinin öz əhəmiyyətini saxlaya bilməsinin də şahidi ola bilirik, baxmayaraq ki, bu nəzəriyyə iki yüz il bundan öncə meydana gəlmişdir. Araşdırmalar göstərir ki, bu nəzəriyyənin müasir dövrə uyğun gəlməyən müəyyən çatışmayan cəhətləri də mövcuddur. Bu baxımdan Singer-Prebisch tezisini də nə tam inkar, nə də tamamilə təsdiq etmək olar. Müasir dövrdə inkişaf etmiş ölkələrdə sənayenin sürtəli inkişafı, kənd təsərrüfatının mexanikləşmə səviyyəsinin yüksəlməsi, aqrar sahədə intensiv inkişafın dinamik xarakter alması, genetik mutasiya olunmuş yüksək reproduksiyalı toxumların yaradılması Singer-Prebisch tezisinin bu günün tələblərinə cavab verməsi ilə nə qədər səsləşsə də, inkişaf etməkdə olan ölkələrin bir qisminin müəyyən məhsulların ixracatçısına çevrilməsi bu tezisin çatışmayan tərəflərindəndir.

Məlumdur ki, kənd təsərrüfatı məhsullarının ixracı müxtəlif səbəblərdən, xüsusilə əhalinin sayının sürətli artımı ilə əlaqədar olaraq daim artmaqdadır. Maraqlı məqam burada ondan ibarətdir ki, dünya ticarətinin artım sürəti kənd təsərrüfatı məhsullarının ticarətinin artım sürətini qabaqlayır. Bunun nəticəsi olaraq kənd təsərrüfatı məhsullarının ticarətinin həcmi dünya ticarətinin tərkibində aşağı düşür. Belə ki, 1965-ci ildə kənd təsərrüfatı məhsullarının dünya ticarətində payı 26 % olduğu halda, 1989-cu ildə 14% təşkil etmişdir. Eyni zamanda 1989-cu ildə dünyada kənd təsərrüfatı məhsulları ixracının 71,4 faizi, idxalının isə 74 faizi inkişaf etmiş ölkələrin payına düşmüşdür. Son statistikaya baxsaq kənd təsərrüfatı məhsulları ixracının 80% -dən artığının İEÖ-lərin payına düşdüyünü görmüş olarıq.

Məlumatlardan aydın olur ki, son otuz ildə dünya ticarətində və az inkişaf etmiş ölkələrin ixracında kənd təsərrüfatı məhsullarının payı aşağı düşmüşdür. Artıq inkişaf etməkdə olan ölkələr də müəyyən mənada sənaye məhsullarının ixracına üstünlük verməkdədirlər ki, bu da həmin ölkələrdə kənd təsərrüfatı məhsullarının xüsusi çəkisinin aşağı düşməsinə səbəb olan önəmli faktorlardan biridir.

Aqrar sahəsi iqtisadiyyatının strukturunda xüsusi əhəmiyyət kəsb edən respublikamızda göstərilən nəzəriyyələrin praktiki olaraq reallaşması mexanizminin və onun nəticələrinin tədqiqi müxtəlif istiqamətli nəticələrə gəlməyə əsas verir. Respublikamızda həyata keçirilən iqtisadi islahatların nəticələrini ölkə iqtisadiyyatının inkişafını xarakterizə edən göstəricilərdə görmək olar. Belə ki, təkcə ixracın həcminə nəzər saldıqda aydın olur ki, 2011-ci ildə respublikamızdan ixrac olunan məhsulların həcmi artaraq 26570,8 milyon ABŞ dolları təşkli etmişdir ki, bu da 2010-cu ilin göstəricisindən 24,4 faiz çoxdur. 2010-cu ilə nisbətən 2011-ci ildə bitki mənşəli məhsulların ixracı 41 faiz, diri heyvan və heyvan mənşəli məhsulların ixracı isə 20 faiz artmışdır [4].

Araşdırmalar göstərir ki, respublikamızın ticarət dövriyyəsi getdikcə artmaqdadır. Təbii ki, ölkə-

miz bir neçə, daha konkret demiş olsaq, 2082 adda məhsulun ixracatçısıdır. Bu məhsulların içərisində kənd təsərrüfatı məhsulları da yer almaqdadır. Lakin ixracın strukturunda kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi olduqca aşağıdır. Belə olan halda Singer-Prebisch tezisinin müddəalarının real olduğunun şahidi olmuş oluruq. Ancaq bir məsələni də yaddan çıxarmamaq lazımdır ki, neft ehtiyatı zəngin olan respublikamızın ixracının strukturunda da neft və neft məhsullarının xüsusi çəkisinin daha böyük olması məntiqə uyğun haldır. Hesab edirik ki, əgər kənd təsərrüfatının potensialından düzgün istifadə olunarsa yaxın gələcəkdə respublikamızda istehsal olunan kənd təsərrüfatı məhsullarını dünyanın müxtəlif ölkələrinə ixrac etmək olar. Bunun üçün ixracın artırılması istiqamətində görülən işlərin daha da sürətləndirilməsi, kənd təsərrüfatı məhsulları ixrac edən sahibkarların stimullaşdırılması, bu qəbildən olan digər tədbirlərin həyata keçirilməsi olduqca vacibdir.

**Nəticə**

Müxtəlif vaxtlarda bir sıra iqtisadi nəzəriyyələr, o cümlədən xarici ticarətin nəzəri məsələlərinə güzgü tutan xarici ticarət nəzəriyyələri yaranmış və inkişaf etmişdir. Onların bir qismi öz aktuallığını qoruyub saxlaya bilsə də, digər bir qismi öz aktuallığını itirmişdir. Get-gedə qloballaşan iqtisadiyyat bu gün nə birbaşa ixracı dəstəkləyərək idxalı məhdudlaşdıran merkantilist, nə mütləq və müqyisəli üstünlüklərə dayanaraq ixraca bu yöndən yanaşan klassik nəzəriyyələrlə, nə də ixrac hədlərinin kənd təsərrüfatı məhsulları ixrac edən az inkişaf etmiş ölkələrin əleyhinə işləyəcəyini zənn edən Singer- Prebisch tezisi ilə idarə olunmur. Lakin bu yanaşmaların hər birinin haqlı olacağı məqamlar da mövcuddur.

Aqrar sahəsi iqtisadiyyatının strukturunda xüsusi əhəmiyyət kəsb edən respublikamızda göstərilən nəzəriyyələrin praktiki olaraq reallaşması mexanizminin və onun nəticələrinin tədqiqi müxtəlif istiqamətli nəticələrə gəlməyə əsas verir ki, bu məsələlər də məqalədə araşdırılmışdır.

**Ədəbiyyat**


1. Halil Seyidoğlu. Uluslararası iktisad: teori, politika və uygulama. İstanbul, 2009, səh. 866.
2. Zeynel Dinler. Tarım ekonomisi. Bursa, 2008, səh. 401.
3. Yusuf Bayraktutan. Bilgi ve uluslararası ticaret teorileri. Dergi 2003.
4. www.stat.gov.az


***Н.А.Нариманов***

**Вопросы экспорта сельскохозяйственной продукции в зарубежных теориях торговли**

**Резюме**

В условиях глобализации мировая экономика непрестанно развивается, торговые отношения углубляются и возникают ее новые формы. Постоянный рост населения земли и на фоне этого недостаточный рост продовольственной продукции превращает экспорт сельскохозяйственной продукции в необходимость и еще более усиливает экономическую зависимость одних стран от других. В связи с этим в статье исследованы зарубежные теории торговли и рассмотрены теоретические вопросы экспорта сельскохозяйственной продукции.

***Ключевые слова: внешняя торговля, экспорт, границы экспорта, сравнительные преимущества, абсолютные преимущества.***

***N.A.Narimanov***

**The export issues of agricultural products in theories of foreign trade**

**Summary**

Globalization of world economy is in developing process when the trade relations are tighten and emerge its new forms. Constant increasing world population and emerging food shortage outlines the aricultural export as an important process and hasten the dependance of countries from each other. According these facts this article encompass foreign trade theories and research done on theoretical issues of agricultural export products.

***Key words: foreign trade, export, scope of exports, comparative advantage, absolute advantage.***

**UOT 339.9.**

***Sevinc Sakit qızı TAĞIZADƏ***
***Azərbaycan Dövlət Neft Akademiyası***

# İQTİSADİ İNKİŞAFIN MÜASİR MƏRHƏLƏSİNDƏ AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAF MEYLLƏRİ

**Xülasə**

Xarici ölkələrlə iqtisadi əməkdaşlığın dərinləşməsi Azərbaycanın milli iqtisadiyyatının çoxsahəli inkişafını təmin etmək üçün böyük üstünlüklər verə bilər. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının yeni səpkidə inkişafı şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr böyük əhəmiyyət kəsb edir. Məqalədə qeyd edilir ki, ölkədə qeyri-neft sektorunun dinamik inkişafı xarici iqtisadi əlaqələrin genişlənməsinə də öz müsbət təsirini göstərir.

***Açar sözlər: xarici iqtisadi əlaqələr, beynəlxalq iqtisadi münasibətlər, xarici iqtisadi siyasət, iqtisadi inteqrasiya, investisiya, beynəlxalq iqtisadi təşkilatlar, iqtisadi inkişaf, beynəlxalq əmək bölgüsü.***

***

## Giriş

Azərbaycan hazırda dünyanın 135 ölkəsi ilə qarşılıqlı iqtisadi-ticarət əlaqələrinə malikdir. Ölkənin iqtisadi potensialı, xammal və mineral ehtiyatlarla zənginliyi, təbii şəraiti və əlverişli iqtisadi-coğrafi mövqeyi xarici ticarət sahəsində əməkdaşlıq imkanlarını artırır.

Azərbaycanda bazar iqtisadiyyatına keçid prosesi xüsusi mülkiyyətə əsaslanan on minlərlə müəssisə, cəmiyyət, birlik, təşkilatlara vasitəsiz xarici ticarət əlaqəsi yaratmağa və valyuta əməliyyatları aparmağa imkan verdi. Artıq istənilən müəssisə sərbəst şəkildə xarici iqtisadi fəaliyyətlə məşğul olmaq hüququna malikdir. Böyük təbii sərvətlərə və iqtisadi ehtiyatlara malik olan Azərbaycanın gələcək iqtisadi inkişafı, həlledici dərəcədə onun ümumdünya təsərrüfatı sisteminə fəal və səmərəli inteqrasiyası prosesindən asılıdır. Beynəlxalq təcrübə təsdiq edir ki, iqtisadiyyatın inkişafı və beynəlmiləlləşdirilməsində xarici investisiya qoyuluşunun böyük üstünlükləri vardır. İnvestisiya qoyuluşu respublikanın milli iqtisadiyyatı ilə dünya iqtisadiyyatı arasında daha səmərəli inteqrasiyanı təmin edir. Ölkənin iqtisadi inkişafında xarici iqtisadi investisiyanın digər rolu, onun sahibkarlıq fəaliyyətinə müsbət təsiri ilə bağlıdır. Xarici ölkələrin Azərbaycana investisiya qoyuluşu milli iqtisadiyyatın formalaşması, işgüzar münasibətlər, sahibkarlıq fəaliyyəti formalarına daha geniş meydan verilməsi və maliyyə-kredit münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradır. Belə bir şəraitdən səmərəli istifadə edərək gənc müstəqil respublika öz təbii-iqtisadi, elmi-texniki potensialını beynəlxalq miqyasda tanıtmaq məqsədilə çoxtərəfli iqtisadi inteqrasiya əlaqələrinə daxil olur.

## Azərbaycanın xarici iqtisadi əlaqələrinin əsas xüsusiyyətləri

Azərbaycanın xarici iqtisadi münasibətlərinin və əlaqələrinin məzmunu və əsas istiqamətlərini ifadə edən bu cəhətlərin hər biri ölkənin gələcək inkişafında fəaliyyət proqramının tərkib hissəsi olmalıdır. Azərbaycanın xarici iqtisadi inteqrasiya əlaqələrinin formalaşmasında daha faydalı və səmərəli iqtisadi münasibətlərin yaradılmasına üstünlük verilməlidir.

Xarici ölkələrlə iqtisadi əməkdaşlığın dərinləşməsi Azərbaycanın milli iqtisadiyyatının çoxsahəli inkişafını təmin etmək üçün böyük üstünlüklər verə bilər. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının yeni səpkidə inkişafı şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr böyük əhəmiyyət kəsb edir. Azərbaycan bir çox həyati əhəmiyyətə malik siyasi və iqtisadi məsələlər baxımından dünyanın yaxın və uzaq, böyük və kiçik dövlətlərinin, beynəlxalq və regional

təşkilatların diqqətini özünə cəlb edən bir qütbdür. Azərbaycan Respublikası öz sosial-iqtisadi inkişafında xarici ölkələrlə əməkdaşlığın daha da genişləndirilməsinə can atır və beynəlxalq əmək bölgüsünün dərinləşməsindən irəli gələn üstünlüklərdən maksimum dəyərlənməyə çalışır. Siyasi istiqlaliyyət əldə edilməsi, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı sisteminə keçilməsi, uzun müddət mövcud olmuş köhnə xarici iqtisadi əlaqələr sisteminə yenidən baxılması və bərabər hüquqlu, qarşılıqlı faydalı münasibətlərin yaradılması üçün mühüm zəmin təşkil edir.

Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti dedikdə, beynəlxalq iqtisadi əlaqələrdə qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsinə yönəldilmiş fəaliyyəti nəzərdə tutulur. Xarici iqtisadi siyasət iqtisadi anlayış olub ümumi iqtisadi siyasətin tərkib hissəsidir və ölkənin sosial-iqtisadi inkişafı ilə bilavasitə əlaqədardır. Azərbaycan hökumətinin xarici iqtisadi fəaliyyət sahəsində qəbul etdiyi qərarlar iqtisadiyyatın bütün istiqamətlərinə təsirini göstərir.

Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti nəhayət, xarici yardım siyasətindən istifadə ilə tamamlanır. Ölkənin xarici yardım siyasəti beynəlxalq təşkilatlardan və dövlətlərdən yardımların alınması və istifadəsi tədbirlərini əhatə edir. Bu siyasət beynəlxalq aləmdə son dövrlərdə strukturlaşdırılmış yeni bir xarici siyasətdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolunda islahatlar həyata keçirdiyi üçün aparıcı beynəlxalq təşkilatlar tərəfindən iqtisadi inkişafın təmin olunması, ödəniş balansı kəsirlərinin ləğvi, milli valyutanın sabitliyinin təmin olunması, milli müdafiəyə ayrılan yardımlarla dəstəklənir.

Azərbaycan Respublikasının xarici iqtisadi münasibətlərinin əsas xüsusiyyəti beynəlxalq, regional və yerli xarakterli iqtisadi təşkilatlara daxil olmaq və bununla da ictimai həyatın bütün sahələrində bu təşkilatlara inteqrasiya olunmaqdır. Müstəqilliyimizi bərpa etdikdən sonra (1991-ci ilin oktyabr ayının 18-ində) ilk əməkdaşlıq münasibətləri əldə etdiyimiz beynəlxalq iqtisadi təşkilatları aşağıdakı kimi təsnifləşdirmək olar:

1. İslam Konfransı Təşkilatı (İKT) – 8 dekabr 1991-ci il;
2. İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) – fevral 1992-ci il;
3. Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı – 1992 - ci il;
4. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) – 1993-cü il;
5. Ümumdünya Ticarət Təşkilatı (keçmiş QATT) müşahidəçi statusunda – 1993-cü il;
6. Müstəqil Dövlətlər Birliyi (MDB)-1993-cü il;
7. Avropa Şurası-25 yanvar 2001-ci il.

Azərbaycan Respublikasının milli iqtisadiyyatının beynəlmiləlləşməsinin və inteqrasiyasının müasir mahiyyəti Beynəlxalq Əmək Bölgüsünə (BƏB-ə) əsasən müəyyən olunur. Belə ki, BƏB sayəsində dünya ölkələrinin dünya bazarında istehsal həcminin ümumi göstəricisi müəyyən olunur. Beynəlxalq iqtisadi inteqrasiya dövlətlər arasında istehsal amillərinin və malların sərbəst hərəkətini nəzərdə tutur. İqtisadi inteqrasiyaya uğrayan Azərbaycan Respublikası siyasi cəhətdən müstəqil olmaqla iqtisadi cəhətdən qarşılıqlı asılı vəziyyətdə olur. Azərbaycan Respublikasının regional iqtisadi birləşmələrini nəzərdən keçirdikdə məlum olur ki, coğrafi mövqe mühüm əhəmiyyət kəsb edir. İqtisadi əməkdaşlığın mühüm istiqamətlərindən biri də ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə bağlıdır. Yaxın iqtisadi əməkdaşlıq daha çox eyni iqtisadi inkişaf səviyyəsində olan dünya ölkələri arasında özünü göstərir. Onlardan tarixi, iqtisadi, ideoloji, mədəni, dini, sosial, siyasi, hərbi, coğrafi, elmi, texniki və texnoloji inkişaf səviyyələrində yaxınlıq daha mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının bir istiqaməti də ölkəyə xarici kapital ixracıdır. Xarici kapital qoyuluşu 15 yanvar 1992-ci ildə "Xarici investisiyaların qorunması" haqqında Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Ölkədə investisiya qoyuluşlarının hüquqi və

iqtisadi prinsipləri müəyyən edilmişdir. Qanunçuluq Azərbaycan iqtisadiyyatında xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl texnika və texnologiyaların, idarəetmə təcrübəsinin cəlb olunmasına, onlardan səmərəli istifadə olunmasına yönəlmişdir və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir. Xarici kapitalın cəlb olunması üçün edilən güzəştlər ölkəyə investisiya axını üçün təməl qoymuşdur. İqtisadi İnkişaf Nazirliyinin proqnozlarına əsasən Azərbaycanın ildə təxminən 20 - 25 mlrd. dollarlıq xarici kapitala ehtiyacı vardır.

“Əsrin müqaviləsi” olan məlum neft kontraktlarından sonra milli iqtisadiyyatın inkişafının neft amili üzərində qurulması təzahürləri müşahidə olunmalıdır. Belə ki, ölkəyə daxil olmuş xarici kapitalın mühüm hissəsi neft müqavilələri ilə bağlıdır.

Azərbaycan xarici investisiyaların cəlb edilməsi sahəsində bəzi tədbirlərin həyata keçirilməsi zərurətini üzə çıxarmışdır. İlk növbədə, dövlətin apardığı iqtisadi siyasətdən asılı olaraq, maraq və məqsədlərini tam ifadə edən dövlətin marağı ilə tarazlaşdırılmış ümumi investisiya proqramı hazırlanmalı və bu proqramı həyata keçirən səlahiyyətli dövlət orqanı yaradılmalıdır. Bu proqramın həyata keçirilmə metodları aydınlaşdırılmalı və iqtisadiyyatın bütün sahələrinə kapital qoyuluşu istiqamətində fəaliyyət göstərilməlidir. Xarici dövlətlərin investisiya təcrübəsi təhlil olunaraq ondan istifadə olunmalıdır, sabit investisiya mühiti yaradılmalıdır.

Azərbaycan dövlətinin dünya iqtisadiyyatına inteqrasiyasının mühüm istiqamətlərindən biri də onun beynəlxalq iqtisadi təşkilatların işində iştirakıdır. Ölkənin İslam Konfransı Təşkilatına, Qara Dəniz İqtisadi Əməkdaşlığına, EKO-ya, Beynəlxalq Bərpa və İnkişaf Bankına, MDB-yə, İslam İnkişaf Bankına və bir sıra başqa beynəlxalq təşkilatlara üzv olması, onlarla müvafiq əlaqələrin yaradılması və əməkdaşlıq etməsi dünya iqtisadiyyatında inteqrasiyanın uğuru kimi qiymətləndirilməlidir.

Biznes mühitinin daha da təkmilləşdirilməsi, xüsusi iqtisadi zonaların, sənaye şəhərciklərinin, texnoparkların, biznes-inkubatorların yaradılması, məsləhət, informasiya təminatının, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və işgüzar əlaqələrin inkişaf etdirilməsi yolu ilə sahibkarlığın və regionların inkişafı daha da sürətləndiriləcəkdir.

Ümumiyyətlə, Azərbaycan Respublikasında və beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq edən bütün ölkələrdə demokratiyanın bərqərar olmasında, iqtisadi vəziyyətin yaxşılaşdırılmasında, bazar iqtisadiyyatına keçidin tamamlanmasında, qanunvericiliyin Avropa standartları ilə sərmayə qoyuluşlarının təmin olunmasının böyük təsiri olmuşdur.

Təbii ki, bu təsir özünü iqtisadi inkişafda da büruzə verməkdədir. Növbəti illərin real praktikası bunu ardıcıl olaraq davam etdirməklə bir daha sübut edəcəkdir.

Beynəlxalq əmək bölgüsünün xüsusiyyətlərinə, Azərbaycanın geoiqtisadi vəziyyətinə, mövcud resurs və elmi-texniki potensiala uyğun olaraq, xarici iqtisadi fəaliyyətin formalaşmaqda olan mexanizmi xarici iqtisadi strategiyanın əsas məqsədinin (Azərbaycanın xalq təsərrüfatı kompleksinin dünya və regional təsərrüfat sisteminə inteqrasiyası) reallaşmasını təmin etməlidir. Bu məqsədin əldə edilməsi bir-biri ilə əlaqədə olan üç əsas vəzifənin yerinə yetirilməsini nəzərdə tutur: 1) dünya praktikasında qəbul edilmiş prinsiplər, normalar və iqtisadi mexanizmlərdən inkişaf edən bazar sisteminin formalaşdırılması; 2) milli təsərrüfatın yenidən qurulması üçün dünya iqtisadi sisteminin imkanlarından istifadə edilməsi; 3) xarici iqtisadi sferanın dinamik artım amilinə çevrilməsinin təmin edilməsi.

Xarici iqtisadi siyasətə olan bu tələblər kontekstində belə bir nəticə çıxarmaq olar ki, xarici iqtisadi siyasət dedikdə, digər ölkələrlə iqtisadi münasibətlər sahəsində dövlətin həyata keçirdiyi razılaşdırılmış tədbirlərin məcmusu nəzərdə tutulur və bu siyasət xarici ticarəti, beynəlxalq elmi-texniki və mədəni əlaqələri, birgə proqramların həyata keçirilməsini, xarici kapitalın cəlbini əhatə edir. Dövlət xarici iqtisadi siyasətinin həyata keçirilməsində istifadə edilən konkret alətlərə misal

kimi gömrük tariflərini və rüsumlarını, ixrac-idxal məhdudiyyətlərini, valyuta mübadilə məzənnələrini, valyuta nəzarətini göstərmək olar.

Azərbaycanın xarici iqtisadi siyasəti ölkənin ümumi iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla onun bütün cəhətlərini və əlamətlərini özündə əks etdirir. Azərbaycanın iqtisadi tərəqqisinə nail olmaq üçün həyata keçirilən xarici iqtisadi siyasət aşağıdakıları əhatə etməlidir: maliyyə sabitliyi və sabit maliyyə sisteminin yaradılması; milli ixracatçıların bir çox növ məhsullar (xüsusilə də yüksək emal dərəcəsinə malik olan məhsullar) üzrə dünya bazarlarında köklü mövqe əldə etmələri üçün aktiv struktur siyasəti; ixracatçılar üçün güclü dövlət dəstəyinin təmin edilməsi; xarici kapitalın cəlbinin aktivləşdirilməsi üçün sahibkarlıq mühitinin təkmilləşdirilməsi.

**Beynəlxalq iqtisadi münasibətlərin inkişafı**

Bazar münasibətlərinə keçid dövlətdaxili səviyyədə bazar mühitinin formalaşdırılması prosesi ilə məhdudlaşmır. O eyni zamanda, bazar transformasiyası prosesini və beynəlxalq iqtisadi münasibətlər sferasını da əhatə edir. Beynəlxalq iqtisadi münasibətlərin əsas tərkib hissə və subyektləri kimi müxtəlif milli iqtisadiyyatlar çıxış etdiyindən, onların bazar prinsipləri əsasında fəaliyyət göstərməsi və bazar mühitinin yaradılması bu münasibətlərdə islahatlar aparılmasına təkan verən əsas müəyyənedici amildir. Buna görə də Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin bazar dərəcəsi birbaşa olaraq milli iqtisadiyyatların bazar dərəcəsindən asılıdır.

Xarici təsərrüfat əlaqələri sferasında ictimai əmək bölgüsü kimi ayrı-ayrı ölkələrin qarşılıqlı əlaqələrinin və qarşılıqlı asılılıqlarının, təsərrüfat həyatının beynəlmiləlləşməsinin və qloballaşmasının əsasında dayanan beynəlxalq əmək bölgüsü çıxış edir. Daha əvvəl qeyd edildiyi kimi, beynəlxalq əmək bölgüsü beynəlxalq iqtisadi münasibətlər kimi təbii (coğrafi, ətraf mühit, demoqrafik və s.) və əldə edilmiş (istehsal, texnoloji, rəqabət və s.) amillərdən, həmçinin siyasi, sosial və digər şərtlərdən asılı olur.

Beynəlxalq iqtisadi münasibətlərin sonrakı inkişafı perspektivləri, dünya bazarının həcminin artması imkanları beynəlxalq əmək bölgüsünün inkişafı dərəcəsi ilə, onun daha yüksək tiplərinə keçidlə müəyyən edilir.

Xarici iqtisadi əlaqələrin inkişafı ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının beynəlxalq təsərrüfat miqyasında inteqrasiyasının sürətləndirilməsinin əsas şərtidir. Ölkələr iqtisadi inteqrasiya axınlarına qoşularaq bu yolla öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin ümumi rifah səviyyəsini artırmağa çalışırlar. Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə edilmədən, xarici iqtisadi əlaqələrin bütün formaları intensiv şəkildə genişləndirilmədən ölkə iqtisadiyyatının inkişafında əsaslı dönüş aparmaq mümkün deyildir. Dünya ölkələrindən heç biri öz inkişafını xarici ölkələrdən təcrid olunmuş şəkildə təmin edə bilmədiyinə görə öz aralarında beynəlxalq və regional səviyyədə iqtisadi əlaqələr yaratmağa çalışırlar.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xarici iqtisadi siyasətini artıq özü müəyyən etməyə başlamışdır. Ölkəmizin Asiya və Avropanın kəsişməsində çox əlverişli coğrafi mövqedə yerləşməsi bu siyasətin uğurla həyata keçirilməsinə müsbət təsirini göstərmişdir.

Müstəqil Azərbaycan Respublikasında müxtəlif mülkiyyət formalarının inkişafı, iqtisadiyyatın yüksək maddi-texniki bazaya malik olması, əmək bölgüsü və kooperasiyasının geniş vüsət alması və s. milli iqtisadiyyatımızın beynəlxalq əməkdaşlıqda mövqeyinin daha da artmasına obyektiv zərurət yaradır.

Beləliklə, Azərbaycanın neft sənayesinin yaxın onilliklərdə inkişafı Azərbaycan Respublikası Prezidentinin neft strategiyası çərçivəsində imzalanmış müqavilələrlə təmin edilmişdir. Neft sektorunun bütün əhəmiyyətinə baxmayaraq, ümumi daxili məhsulun formalaşmasında onun payı hə-

ləlik 18-19 %-dir. Bundan əlavə, Azərbaycanda xarici investisiya bank sektoruna da yatırılmışdır.

Qeyri-neft sektorunun inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir. Məhz buna görə də son illər həyata keçirilən tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, regionların tərəqqisi sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, bank sisteminin etibarlılığı artırılmış, sahibkarlığa dövlət dəstəyi gücləndirilmişdir.

## Nəticə

Prezident İlham Əliyev tərəfindən qeyri-neft sektorunun inkişafı daim diqqət mərkəzində saxlanılır, bu sahənin dinamik inkişafı üçün ardıcıl islahatlar reallaşdırılır. Dövlət başçımız bu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları ilə bağlı Nazirlər Kabinetinin iclasında demişdir: "Bu gün Azərbaycanda iqtisadi inkişafın istiqamətləri çoxşaxəlidir və bildiyiniz kimi, biz bu gün qeyri-neft sektorunun inkişafına üstünlük veririk.

Ölkədə qeyri-neft sektorunun dinamik inkişafı, təbii ki, xarici iqtisadi əlaqələrin genişlənməsinə də öz müsbət təsirini göstərir. Başqa sözlə, respublikada məhsul istehsalının artımı ticarət əməliyyatlarını intensivləşdirir, ixrac potensialını gücləndirir. Prezident İlham Əliyevin imzaladığı "Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında", "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydalarının təkmilləşdirilməsi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" və başqa fərman, sərəncamlar ölkəmizdə sahibkarlığın inkişafına təkan vermiş, qeyri-neft sektorunun inkişafını stimullaşdırmışdır. Xarici ticarət dövriyyəsinin genişlənməsinə təsir göstərən bir məqama da diqqət yetirək. Avropa İttifaqı ilə imzalanmış "Yeni qonşuluq" siyasəti çərçivəsində əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə Prezident İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq Avropa İttifaqına ixrac olunan bir sıra məhsulların ixrac mexanizmlərinin tənzimlənməsinə, onların keyfiyyətinə nəzarətin həyata keçirilməsinə və digər məsələlərə dair normativ sənədlər hazırlanmışdır. Eyni zamanda, Avropa İttifaqının texniki yardım proqramları çərçivəsində bir sıra layihələrin reallaşdırılması davam etdirilmişdir. Bununla yanaşı, BMT-nin ixtisaslaşmış qurumları ilə də əməkdaşlıq prioritet istiqamətlərdən biri olmuş, bir sıra layihələr və birgə strategiyalar üzrə işlər aparılmış, müvafiq sənədlər imzalanmışdır. Beynəlxalq qurumlarla əməkdaşlığın bu cür yüksək səviyyədə qurulması xarici ticarətin inkişafına, əmtəə bazarının təkmilləşməsinə müsbət təsir göstərir. Başqa sözlə, bu cür bazarın mövcudluğu Azərbaycanda əmtəənin səmərəli şəkildə reallaşmasını sürətləndirir. Bu, eyni zamanda respublikamızın xarici ticarət əlaqələrinin inkişafına da müsbət təsir göstərir.

## Ədəbiyyat

1. Шамседдин Гаджиев. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев, 2000.
2. S.Səfərov. Yeni Azərbaycan. İqtisadiyyat, siyasət, dinamizm. Bakı-2003.
3. Ə.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik, Bakı-2005.
4. G.Gənciyev. BİM: Müasir vəziyyət və inkişaf problemləri. Bakı-2005.
5. Ç.M.Abbasov. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. “Elm” nəşriyyatı. Bakı - 2005. 252 səhifə. Azərbaycan Dövlət İqtisad Universiteti.
6. Ə.İ.Bayramov. Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. «Azərnəşr» nəşriyyatı. Bakı - 1997, 208 səh. Azərbaycan Dövlət İqtisad Universiteti.

С.С.Тагизаде

## Перспективы развития внешнеэкономических связей Азербайджана на современном этапе экономического развития

**Резюме**

Углубление экономического сотрудничества с зарубежными странами в целях обеспечения развития диверсифицированной национальной экономики является большим преимуществом. Именно поэтому при развитии национальной экономики в ином направлении взаимные экономические связи с зарубежными странами приобретают большое значение. Согласно статье, динамичное развитие ненефтяного сектора оказывает положительное влияние на расширение внешнеэкономических связей.

***Ключевые слова: внешнеэкономические связи, международные экономические отношения, внешняя экономическая политика, экономическая интеграция, инвестиции, международные экономические организации, экономическое развитие, международное разделение труда.***

S.S.Tagizadeh

## Prospects for the development of foreign economic relations of Azerbaijan at the present stage of economic development

**Summary**

Deepen economic cooperation with foreign countries in order to ensure the development of a diversified national economy is a big advantage. That is why the development of the national economy in a different direction mutual economic relation with foreign countries are of great importance. According to the article, the dynamic development of the non-oil sector has a positive impact on the expansion of foreign economic relations.

***Key words: foreign economic relations, international economic relations, foreign economic policy, economic integration, investment, international economic organizations, economic development, international division of labor.***

**UOT 339.9**

***Abdullah PORTAKAL***
***Qafqaz Universitetinin doktorantı***

# TÜRKİYƏ-TÜRKMƏNİSTAN İQTİSADİ ƏLAQƏLƏRİ VƏ ONLARIN PERSPEKTİVLƏRİ

**Xülasə**

Türkiyə və Türkmənistanın iqtisadiyyatı və iqtisadi vəziyyəti təsvir olunur. İki ölkə arasında investisiya imkanları və problemlər araşdırılır. Hər iki ölkənin xarici ticarəti təhlil olunur. Ölkələrarası ticarətin genişləndirilməsi seqmentləri müəyyənləşdirilir. İqtisadi əlaqələrin genişləndirilməsi üçün dövlət tədbirləri kompleksi təklif olunur.

***Açar sözlər: iqtisadi əməkdaşlıq, ticarət, investisiya, problemlər, tekstil, turizm, pambıq, qaz, neft, dövlət tədbirləri.***

***

Türkiyə ilə Türkmənistanın iqtisadi münasibətlərinin genişləndirilməsi və dərinləşdirilməsi hər iki ölkənin maraqlarına cavab verən prosesdir və son illərdə yaxın ikitərəfli əlaqələrin qurulması üçün çox işlər görülür.

Ümumiyyətlə, Türkiyə ilə iqtisadi əməkdaşlıq istənilən ölkənin iqtisadiyyatına töhfə verə bilər, belə ki,

• **Türkiyə** dünyanın iqtisadi cəhətdən ən möhtəşəm ölkələri sırasındadır – ÜDM həcminə görə o, dünyada 16-cıdır.

• Ümumi qəbul olunan faktdır ki, Türkiyə iqtisadiyyatı regionda liderdir.

• Qonşu ölkələrdən fərqli olaraq Türkiyə hələ 1980-ci illərdə başlanmış iqtisadi islahatlardan uğurla çıxmışdır.

• Lider ölkələr arasında Türkiyə 2008-2009-cu illərin qlobal iqtisadi böhranından ən az itki ilə çıxan ölkələrdəndir.

Türkiyə sənaye istehsalının ümumi həcmində ən yüksək pay emal sənayesinə məxsusdur. Burada tekstil, dəri, yeyinti, kimya, əczaçılıq, energetika, metallurgiya, gəmiqayırma, maşınqayırma sənayesi və məişət elektrotexnik cihazlar istehsalı inkişaf etmişdir.

Hələ 2009-cu il böhranından öncə Şərqi Asiya ölkələrinin rəqabəti nəticəsində Türkiyə tekstil sənayesində müəyyən tənəzzül müşahidə olunur. Məsələn, 2005-ci ildə bu sahədə istehsal 12% azalmışdır. Bu ildə dinamik artım avtomobil (9,6%) və kimya sənayesi (7,2%) sahəsində müşahidə olunmuşdur.

Türkiyə iqtisadiyyatında xüsusilə 1980-ci ildən bu günə qədər aktuallığını davam etdirən aparıcı sənaye sektoru 2009-cu ildə 7,2% azalmasına baxmayaraq, 2010-cu ilin birinci rübündə 21,4%, ikinci rübündə 15,7%, üçüncü rübündə 7,6% artaraq, əvvəlki itkilərin yerini doldurmuş və onun 13,6% təşkil edən əlavə dəyər artımı, 8,9% olan ÜDM artmasına 3,3 bal təmin etmişdir. 2010-cu ildə sənaye istehsalı 14,4% artdığı halda, sənaye sektorunun 13,6%-lik əlavə dəyər artımı, istehsal artımından az olmuşdur.

Türkiyə avtomobil istehsalında Avropada altıncı yeri tutur. Burada Ford, FIAT, Renault, Toyota, Honda, Opel, Hyundai, Mercedes-Benz və MAN markalı avtomobillər ya istehsal olunur, ya da yığılır. Bundan başqa, ölkədə BMC, Temsa və Otokar kimi yerli markalı avtobuslar da istehsal olunur.

Turizm Türkiyə iqtisadiyyatının əsas sektorudur. O həm də ən dinamik inkişaf edən sahələrdəndir. Ümumdünya Turizm Təşkilatının məlumatlarına görə, son 16 ildə turizmdən gələn gəlirlər ildə 9% artır. Türkiyədə turizm industriyasının inkişafının təməli hələ 1960-cı illərdə qoyulmuşdur. Bu dövrlərdən başlayaraq ölkədə turizm üzrə 5-illik dövlət planları qəbul edilməyə başlanmışdır.

Bu səylərin nəticəsi olaraq ölkə turizm sahəsində dünya liderləri sırasına çıxmışdır. Artıq 2000-ci ildə ölkəyə 10 milyon turist səfər etmiş və bu, 9 milyard dollar gəlir gətirmişdir. Yalnız 2012-ci ildə ölkədə turizmə 320 milyon dolların xərclənilməsi (bunun 120 milyonu dövlət xərcləri olacaq), geniş reklam kampaniyası (xüsusən yeni bazarlara hədəflənmiş) hesabına turistlərin sayının 60 milyona, turizmdən gələn gəlirlərin isə 50 milyard dollara çatdırılması nəzərdə tutulur. Bəzi proqnozlara görə 2020-ci ildə Türkiyəyə turistlərin sayı daha da artmaqla onun ümumi daxili məhsulda xüsusi çəkisi 15% təşkil edəcək.

**Türkmənistan** iqtisadiyyatı sürətlə artır. 2011-ci ildə 2010-cu illə müqayisədə 14,6% artım olmuşdur: sənaye istehsalında-24,1%, nəqliyyat və rabitədə-7,8%, tikintidə-12,4%, kənd təsərrüfatında - 0,2%. Üçdə biri xarici investisiyalar olan əsas kapitala investisiyalar 22,9% artmışdır.

Türkmənistan iqtisadiyyatının əsas gəlir mənbələri təbii qaz, neft məhsulları, pambıq və tekstil sənayesidir. Qaz Rusiya, Çin və İrana satılır.

Dövlət nəzarəti altında olan Türkmənistan kənd təsərrüfatı sektorunun inkişaf etdiyini söyləmək çətindir. Ölkə əvvəllər dünyanın onuncu pambıq istehsalçısı hesab olunduğu halda son illərdə istehsal itkiləri ilə əlaqədar pambıq ixracı 50% aşağı düşmüşdür. Lakin ildə təqribən 1 milyon ton pambıq istehsal edən Türkmənistan, hələ də pambıq istehsalında dünyanın öncül ölkələri arasındadır.

Heyvan mənşəli yeyinti sənayesi məhsulları (kolbasa, sosiska, sucuq, basdırma, konservləşdirilmiş ət məhsulları), süd məhsulları (qurudulmuş süd, yoqurt, dondurma, pendir), toyuq məhsulları (paketləşdirilmiş bütöv toyuq, parça toyuq, yumurta), taxıl məhsulları (makaron, biskvit, şokolad, paketdə çörək), tomat, meyvə suyu, mineral su kimi bir çox məhsullar yerli istehsal tərəfindən həyata keçirilir. Türkmənistanda istehsal olunan digər önəmli kənd təsərrüfatı məhsulları - buğda, arpa, qarğıdalı, təmizlənməmiş düyü, küncüt, qovun, qarpız, üzüm və biyan köküdür. Hökumət şəkər çuğunduru, düyü istehsalını və onların əkin sahələrini genişləndirməklə, özünün kənd təsərrüfatı mallarına olan ehtiyaclarını ödəyə bilmişdir [1].

Türkmənistanda sənaye sahələrindən xalı, kilim, bitki yağı istehsalı, tekstil sənayesi, neftayırma zavodları, kimyəvi istehsal, təbii qaz istehsalı, azotlu gübrə istehsalı da inkişaf etmişdir. Sənayenin əsas problemi istehsal mallarını xarici bazarda satma imkanlarının məhdudluğudur.

Müstəqillikdən sonra iqtisadiyyatda enerji sektoru və pambıq istehsalı aktuallaşmışdır. Xarici investisiyalar da əsasən Türkmənistanın neft, təbii qaz, pambıq və qida sənayesinə qoyulmuşdur və sənayenin əsas bazası bu sektorlarla məhdudlaşmışdır. İstehsal olunan pambığın böyük hissəsi ölkə içərisində işlənir. Ölkənin tekstil bazası əsasən Türkiyə investisiyalarına bağlıdır. Son illərdə sement, gübrə, mebel, plastik boru, mərmər sahəsində ölkənin ehtiyac duyduğu malları istehsal edən müəssisələr açılmışdır [2].

Türkmənistana xarici investisiyaların cəlb olunmasında problemlər vardır. Xarici investorlara mane olan başlıca səbəblər aşağıdakılardır:

1) Münbit investisiya mühitinin olmaması. Dövlət lisenziyalı fəaliyyət çərçivəsində ölkəyə xarici şirkətləri cəlb etməyə çalışsa da, onun məhdudlaşdırıcı şərtləri şirkətləri ürküdür. Hər nə qədər dövlət xarici investisiyaları dəstəkləmək barədə imic yaratmağa çalışsa da, buna uyğun iş mühiti yaratmaq üçün gərəkli siyasi və makroiqtisadi islahatları həyata keçirməyə meylli deyildir.

2) Ölkənin hələ də nisbətən qapalı qalması.

3) İxracat xəttinin nöqsanlılığı. Türkmənistanın mənfi cəhətlərindən biri onun okeana çıxışının olmamasıdır.

Təəssüf ki, Türkmənistan rəsmi statistikasının məlumatlarının əlçatanlıq səviyyəsi çox aşağıdır. BMT, Dünya Bankı, ÜTT, Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı kimi beynəlxalq təşkilatların bütün dünya üzrə tərtib etdiyi statistik sayt və məcmuələrdə Türkmənistanın iqtisadiyyatı, xüsusən də xarici ticarət əlaqələri üzrə məlumatlar yoxdur. Bu sahədə yeganə mənbə kimi ölkələrarası xarici ticarət üzrə ixtisaslaşan Beynəlxalq Ticarət Mərkəzi (ITC – International Trade Center) təşkilatının “güzgü” üsulu ilə, yəni Türkmənistanın deyil, tərəfdaş öl-

kələrin məlumatları əsasında tərtib etdiyi və əsasən yalnız iki ili - 2009 və 2010-cu illəri əhatə edən cədvəllərdir ki, biz də bunlardan istifadə etmək məcburiyyətindəyik.

2007-2011-ci illərdə Türkmənistanın xarici ticarətində pisləşmə müşahidə olunur. Ölkənin ən yüksək göstəriciləri 2008-ci ilə təsadüf edir: bu ildə təqribən 5 milyard dollarlıq müsbət ticarət saldosu olmuşdur. Lakin qlobal böhrandan sonra Türkmənistan xarici ticarətdə “bərpa oluna” bilməmişdir. Əvvəla və ən əsası, son üç ildə ticarət balansı mənfiləşmişdir. Bu sahədə yeganə təsəlliverici hal bu mənfiliyin get-gedə azalmasıdır. İdxalın həcmi bu müddət ərzində, demək olar ki, dəyişməz qaldığı halda, ixrac həcmi 125 dəfə azalmışdır (cədvəl 1). Bu isə müəyyən dərəcədə onunla izah oluna bilər ki, Türkmənistanın ixracı əsasən təbii qazdan ibarətdir, digər tərəfdənsə böhran zamanı bu məhsula ümumən dünya tələbi, o cümlədən Türkmənistanın tərəfdaşlarının tələbi xeyli azalmış və bərpa prosesi, məsələn, neftə nisbətən zəifdir.

*Cədvəl 1*

**Türkmənistanın məcmu xarici ticarət göstəriciləri, milyon ABŞ dolları**

| İllər | İxrac | İdxal | Ticarət dövriyyəsi | Ticarət balansı |
|---|---|---|---|---|
| 2007 | 6470,3 | 2432,7 | 8903,0 | 4037,6 |
| 2008 | 9087,2 | 4136,8 | 13224,0 | 4950,3 |
| 2009 | 2249,0 | 5297,9 | 7546,9 | -3049,0 |
| 2010 | 2615,4 | 4702,3 | 7317,7 | -2086,9 |
| 2011 | 496,3 | 2045,7 | 2542,0 | -1549,4 |
| 2006:2010-da artım, % | -92,3 | -15,9 | -71,4 | -59,5 |

*[3]-ün məlumatları əsasında hesablanmışdır.*

**İxrac.** Türkmənistan ixracının əsasını mineral yanacaq, neft və onlardan hazırlanan məhsullar təşkil edir. 2010-cu ildə bu kateqoriya malların məcmu ixracda xüsusi çəkisi 82,6% təşkil etmişdir. Bu qrupda böyük üstünlüyü təbii qaz təşkil edir. Növbəti yerdə xam şəkildə ixrac olunan pambıqdır (5,9%). Üçüncü yerdə plastik kütlələr və onlardan hazırlanan məmulatlara məxsusdur (1,6%). Növbəti yerləri pambıq əsasında inkişaf etmiş yüngül sənaye malları - digər hazır toxuculuq məmulatları, işlənmiş geyimlər (0,6%), paltar və geyim ləvazimatları (0,6%), toxunmuş trikotaj geyim əşyaları və ləvazimatları (0,2%), qeyri-üzvi kimya məhsulları; qiymətli metallar və digər məhsullar tutur (cədvəl 2).

*Cədvəl 2*

**Türkmənistanın ixracı, milyon ABŞ dolları**

| Mallar | 2007 | 2008 | 2009 | 2010 | Cəmi | Pay,% |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **6470322** | **9087174** | **2248979** | **2615387** | **20421862** | **100** |
| Mineral yanacaq, neft və onlardan hazırlanan məhsullar | 5920491 | 7472483 | 1618984 | 1847065 | 16859023 | 82,6 |
| Pambıq | 323627 | 248235 | 187612 | 436589 | 1196063 | 5,9 |
| Plastik kütlələr və onlardan hazırlanan məmulat-lar | 70617 | 89757 | 71188 | 96365 | 327927 | 1,6 |
| Digər hazır toxuculuq məmulatları, işlənmiş geyimlər | 32236 | 30313 | 21260 | 32844 | 116653 | 0,6 |
| Paltar və geyim ləvazimatları (trikotajdan başqa) | 18024 | 20204 | 29629 | 25379 | 93236 | 0,5 |
| Qeyri-üzvi kimya məhsulları; qiymətli metallar | 14204 | 15114 | 8718 | 13520 | 51556 | 0,3 |
| Toxunmuş trikotaj geyim əşyaları və ləvazimatları | 15166 | 14347 | 10287 | 8561 | 48361 | 0,2 |
| Bitki qarışıqları və ekstraktlar | 7015 | 13806 | 18536 | 6509 | 45866 | 0,2 |
| **Cəmi bu mallar üzrə** | **6412300** | **7909371** | **1993392** | **2506355** | **18821418** | **92,2** |

*[4]-ün məlumatları əsasında hesablanmışdır.*

Türkmənistan məhsullarının əsas alıcıları coğrafi kəsimdə çeşidlidir: Türkmənistan təbii qazının əsas idxalatçısı MDB ölkəsi olan Ukraynadır. Onun payına 2010-cu il ölkə ixracının yarıdan çoxu (54,3%) düşür. İkinci yerdə Avrasiya ölkəsi olan Türkiyə (7,4%), üçüncü yerdə Avropa İttifaqının (Aİ) üzvü olan Polşa (6,4%), dördüncü yerdə nəhəng Asiya ölkəsi Çin (5,7%), beşinci yerdə yenə Aİ üzvü İtaliya (3,8%), altıncı yerdə isə ABŞ (2,6%) gəlir (cədvəl 3).

***Cədvəl 3***

***Türkmənistan ixracı üzrə əsas tərəfdaş ölkələr, milyon ABŞ dolları***

| İdxalçı ölkələr | 2007 | 2008 | 2009 | 2010 | Pay | 2007-2010-da artım, % |
|---|---|---|---|---|---|---|
| Cəmi ixrac | 6470322 | 9087174 | 2248979 | 2615387 | 100 | -59,6 |
| Ukrayna | 4707362 | 5631673 | 718289 | 31432 | 54,3 | -99,3 |
| Türkiyə | 396723 | 389305 | 330739 | 386342 | 7,4 | -2,6 |
| Polşa | 7681 | 1106995 | 195605 | 4682 | 6,4 | -39,0 |
| Çin | 50141 | 28440 | 38491 | 1044519 | 5,7 | 1983,2 |
| İtaliya | 236824 | 292304 | 61253 | 193487 | 3,8 | -18,3 |
| ABŞ | 234284 | 148801 | 96576 | 50724 | 2,6 | -78,3 |
| Qazaxıstan | 142732 | 220322 | 61388 | 9547 | 2,1 | -60,5 |
| Rumıniya | 134023 | 247394 | 20892 | 16553 | 2,1 | -93,3 |
| Gürcüstan | 149902 | 135009 | 74291 | 59200 | 2,0 | -87,6 |
| Rusiya | 69109 | 100291 | 45061 | 146568 | 1,8 | 112,1 |

*[2]-nin məlumatları əsasında hesablanmışdır.*

Adı çəkilən ölkələrdən başqa ilk onluğa üç MDB və bir Şərqi Avropa ölkəsi daxildir. Diqqəti cəlb edən çox mühüm və siyasi əhəmiyyətə malik məsələ Türkmənistanın Rusiyaya qaz satışının ümumi həcmdə xüsusi çəkisinin çox kiçik olmasıdır. Eyni zamanda baxılan müddət ərzində baxılan ölkələrdən dördündən başqa hamısına ixracın azalması müşahidə olunur. Ən çox artım isə Çin (cədvəl 3.11) və Almaniyaya ixracda baş vermişdir – təqribən 20 dəfə. Birləşmiş Krallığa ixrac 3 dəfədən çox, Rusiyaya isə 2 dəfədən çox artmışdır.

**İdxal.** İdxalın diversifikasiya dərəcəsi ixraca nisbətən çox yüksəkdir: 2010-cu ildə ölkə ixracının 92%-dən çoxunun 10 mal qrupuna aid olduğu halda idxalda ilk 10 mal qrupunun payına məcmu idxalın cəmi 73%-i düşmüşdür (cədvəl 4).

***Cədvəl 4***

***Türkmənistanın idxalı, milyon ABŞ dolları***

| Mallar | 2007 | 2008 | 2009 | 2010 | Cəmi | Pay,% |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **2432687** | **4136838** | **5297940** | **4702286** | **16569751** | **100** |
| Nüvə reaktorları, avadanlıqlar və mexaniki qurğular, onların hissələri | 546243 | 998720 | 1240819 | 764356 | 3550138 | 21,4 |
| Qara metallardan məmulatlar | 415474 | 795012 | 1161179 | 638451 | 3010116 | 18,2 |
| Elektrik maşınları və avadanlıqları, aparatura, onların hissələri | 181652 | 348607 | 516587 | 439344 | 1486190 | 9,0 |
| Quru nəqliyyat vasitələri (dəmiryol nəqliyyatından başqa) və onların hissələri | 253361 | 405270 | 514185 | 290241 | 1463057 | 8,8 |
| Qara metallar | 83732 | 211458 | 126442 | 237475 | 659107 | 4,0 |
| Mebel | 40227 | 101692 | 137887 | 188905 | 468711 | 2,8 |
| Plastik kütlələr və onlardan hazırlanan məmulatlar | 49806 | 91137 | 106630 | 163841 | 411414 | 2,5 |

*[4]-ün məlumatları əsasında hesablanmışdır.*

Həmin ildə idxalın əsas hissəsini son dörd ilin idxalında əvəzsiz olaraq birinci olan “Nüvə reaktorları, avadanlıqlar və mexaniki qurğular, onların hissələri” qrupu təşkil edir (21,4%). “Qara

metallardan hazırlanmış məmulatlar” qrupu ikinci yerdə olmaqla onun da məcmu idxalda payı kifayət qədər yüksəkdir (18,2%). Üçüncü və dördüncü yerləri, demək olar ki, bölüşdürən “Elektrik maşınları və avadanlıqları, aparatura, onların hissələri” və “Quru nəqliyyat vasitələri (dəmiryol nəqliyyatından başqa) və onların hissələri” qruplarının idxalda payı təqribən eynidir (9% və 8,8%). Aqrar-ərzaq məhsulu olan taxılın xüsusi çəkisi yüksək olmasa da (1,5%) o da ilk iyirmi idxal məhsulları sırasındadır.

Göründüyü kimi, qara metalla taxıldan başqa bütün əsas idxal məhsulları emal sənayesi məhsullarıdır, belə ki, ilk 20-liyə əsasən yüksək texnologiyalı emal məhsulları olan “Elektrik maşınları və avadanlıqları, aparatura, onların hissələri “(məcmu idxalın 9%-i), “Quru nəqliyyat vasitələri (dəmiryol nəqliyyatından başqa) və onların hissələri” (8,8%), “Optik, fotoqrafik, kino, ölçü, nəzarət, tibbi və cərrahiyyə aləti və aparatları” (2,1%), “Uçan aparatlar, kosmik aparatlar və hissələri” (2,1%), “Gəmilər, qayıqlar və üzən konstruksiyalar” (2%) daxil olmuşdur (cədvəl 3.12). Bundan başqa, ölkə idxalında aparıcı mövqelərdə olan daha iki qrup “Mebel” (2,8%) və “Plastik kütlələr və onlardan hazırlanan məmulatlar (2,5%) vardır ki, onları da orta texnologiyalı məhsullar sırasına aid etmək olar. Türkmənistanın idxalı da nisbətən daha çox diversifikasiya olunmuşdur. 2010-cu ilin göstəricilərinə görə idxalda liderlik Türkiyəyə məxsusdur və o, bu mövqeyi uzun müddət ərzindəki rəqabətdən sonra Rusiyanın əlindən məhz bu ildə ilk dəfə almışdır. Belə vəziyyət Türkiyənin səyləri ilə yanaşı Rusiyanın 2010-cu ildə Türkmənistana ixracının təqribən 24% azalması ilə də şərtlənmişdir. Beləliklə, 2010-cu ildə Türkiyənin payına Türkmənistan idxalının təqribən dörddə biri düşmüşdür. Çin və Almaniyanın da Türkiyəyə ixracı sürətlə artır. 2007-2010-cu illərdə artım tempi bu iki ölkə üzrə, uyğun olaraq, 73,6% və 56,6% təşkil etmişdir. Göründüyü kimi, bu ölkələr Türkiyə ilə birgə yavaş-yavaş Rusiyanı Türkmənistan bazarından çıxarmağa müvəffəq olmuşlar (cədvəl 5) və yaxın gələcəkdə Türkmənistan idxalının coğrafi strukturunda yeni dəyişikliklərin gözlənilməsi təbiidir.

***Cədvəl 5***

***Türkmənistan idxalı üzrə əsas tərəfdaş ölkələr, milyon ABŞ dolları***

| İxracatçılar | 2007 | 2008 | 2009 | 2010 | Cəmi | Pay,% |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **2432687** | **4136838** | **5297940** | **4702286** | **18615440** | **100** |
| Türkiyə | 339989 | 662937 | 944917 | 1139173 | 4581408 | 24,6 |
| Rusiya | 384030 | 808928 | 999000 | 759000 | 2950958 | 15,9 |
| Çin | 302538 | 801936 | 915699 | 525117 | 2545290 | 13,7 |
| Almaniya | 217372 | 264158 | 340261 | 340334 | 1162125 | 6,2 |
| Ukrayna | 196616 | 376928 | 325170 | 208944 | 1107658 | 6,0 |
| ABŞ | 184590 | 59706 | 310196 | 39936 | 594428 | 3,2 |
| Fransa | 50598 | 125813 | 245933 | 168642 | 590986 | 3,2 |
| Qazaxıstan | 77863 | 217598 | 108949 | 91556 | 495966 | 2,7 |
| Yaponiya | 91783 | 74334 | 26915 | 24891 | 488109 | 2,6 |
| Cənubi Koreya | 6884 | 22364 | 66262 | 109504 | 442974 | 2,4 |
| İran | | | | 413685 | 413685 | 2,2 |
| İtaliya | 19977 | 35497 | 165798 | 94020 | 315292 | 1,7 |
| Malayziya | 5524 | 49387 | 205888 | 29696 | 290495 | 1,6 |
| Belarus | 86945 | 47482 | 72950 | 74266 | 281643 | 1,5 |
| Azərbaycan | 13600 | 21002 | 37477 | 200678 | 272757 | 1,5 |

*[4]-ün məlumatları əsasında hesablanmışdır.*

Beləliklə, Türkmənistan ixracatının əsas hissəsini neft, təbii qaz və digər mədənçilik məhsulları və kənd təsərrüfatı məhsulları təşkil edir. İdxalda isə əsas məhsullar Nüvə reaktorları, avadanlıqlar və mexaniki qurğular, onların hissələri, qara metallardan məmulatlar və elektrik maşınları və avadanlıqları, aparatura, onların hissələridir.

Yaxın gələcəkdə Türkmənistandan Türkiyəyə bu malların ixracının genişləndirilməsi və ya

başlanılması daha realdır: Mineral yanacaq, neft və onlardan hazırlanan məhsullar, pambıq, plastik kütlələr və onlardan hazırlanan məmulatlar, digər hazır toxuculuq məmulatları, işlənmiş geyimlər, paltar və geyim ləvazimatları (trikotajdan başqa), qeyri-üzvi kimya məhsulları; qiymətli metallar, toxunmuş trikotaj geyim əşyaları və ləvazimatları, bitki qarışıqları və ekstraktlar, nüvə reaktorları, qazanlar, avadanlıqlar və mexaniki qurğular, onların hissələri, bitki mənşəli sair məhsullar, əllə hazırlanmış liflər, əllə hazırlanmış sap.

Türkiyədən Türkmənistana ixrac isə aşağıdakı seqmentlərdə xüsusən uğurlu ola bilər: Nəqliyyat vasitələri, nüvə reaktorları, qazan və avadanlıqlar və s., dəmir və polad, elektrik və elektron avadanlıq, paltar və digər hazır toxuculuq məmulatları, mineral yanacaq, neft və onlardan hazırlanan məhsullar, dəmir və polad məmulatlar, plastik kütlələr və onların məmulatları, rezin və onun məmulatları, alüminium və məmulatlar, mebel, işıq və digər ev şeyləri, kağız, karton və s., mis və mis məmulatlar.

## Nəticə

Dövlətlər tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi təklif olunur:

1. Qarşılıqlı qeyri-diskriminativ şəraitin yaradılması.
2. Çox mühüm seqmentlərdə qarşılıqlı əlverişli (xüsusən üçüncü ölkələrə münasibətdə) koordinasiya olunmuş iqtisadi siyasətin həyata keçirilməsi.
3. İqtisadi münasibətlərin iqtisadi inteqrasiya istiqamətində inkişaf etdirilməsi.
4. Xarici iqtisadi fəaliyyətin institusional bazasının təkmilləşdirilməsi.
5. Ölkələrin iqtisadi durumu, iqtisadi problem və tələbləri, üstünlük və çatışmazlıqları haqqında məlumatların biznes strukturuna çatdırılması.

Təsvir olunan qarşılıqlı əlverişli şəraitin bərqərar olması iqtisadi münasibətlərin bütün sferalarını əhatə etməlidir.

## Ədəbiyyat

1. Konca A. Türkmenistan Ülke Raporu. Başbakanlık, 2011
2. Türkmənistan İqtisadiyyat Nazirliyi 2011, http://www.iqtisadi.gov.tr/upload/turkmənistan. pdfi s.2

***Абдулла Портакал***
***докторант Университета Азербайджан***

**Турецко-Туркменистанские экономические связи и их перспективы**

**Резюме**

Описывается экономика и экономическое ситуация в Турции и Туркменистане. Исследуются инвестиционные возможности и проблемы между двумя странами. Анализируется внешняя торговля обеих стран. Выявляются сегменты расширения межстрановой торговли. Предлагаются государственные мероприятия для расширения двухсторонних экономических связей.

***Ключевые слова: экономическое сотрудничество, торговля, инвестиция, текстиль, туризм, хлопок, газ, нефть, государственные мероприятия.***

***Abdullah Portakal***
***Doctoral candidate of Azerbaijan University***

**Turkey-Turkmenistan economic linkages and their prospects**

**Summary**

The national economies and economic situations of Turkey and Turkmenistan are described. The investment opportunities and problems are investigated. The foreign trade of the countries is analyzed. The segments for broadening inter-countries trade are revealed. The government actions are suggested for broadening bilateral economic relations.

***Key words: economic cooperation, trade, investment, problems, textile, tourism, cotton, gas, oil, government actions.***

**UOT 339.5**

***İslam Nüsrət oğlu MƏHƏMMƏDİ GİGLU***
***Bakı Dövlət Universitetinin doktorantı***

# TÜRKİYƏ İLƏ TİCARƏTDƏ İRANIN İXRACAT POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Məqalədə ilk olaraq ölkələrarası ticarətdə ixracat potensialının qiymətləndirilməsi metodikası şərh olunur, sonra isə Türkiyə ilə ticarətdə İranın ixracat potensialı qiymətləndirilir, belə ki, HS sistemi ilə İranın Türkiyəyə ixrac potensialı olan əmtəələr dəqiqləşdirilir.

***Açar sözlər: İran, Türkiyə, xarici ticarət, ixracat potensialı.***

***

## Giriş

Ticarət potensialının qiymətləndirilməsi prosesinin köməkliyi ilə başqa ölkələrin bazarlarından daha əlverişli surətdə yararlanmaq və inkişafın əldə olunması üçün arzu olunan şəraitin yaradılması mümkündür. Bu sahədə atıla biləcək təsirli addımlardan biri başqa ölkələrin məhsul idxalı və ixracı sahəsindəki potensiallar barəsində lazımi informasiyaları çatdıran, bu ölkələrlə ticarətin inkişafı sahəsindəki məqsədlərə çatmaq üzrə əldə olunan razılaşma sənədinin və memorandumun hazırlanmasıdır. Ölkələrin ticarət potensialı barəsində münasib informasiyaların əldə olunması bazarların tanınması və ticarət fürsətlərinin işıqlandırılması sahəsində atılmalı ilk addımdır. Bu sahədə bir ölkənin idxalat və ixracatı barəsindəki potensiallara aid göstəriciləri təxmini şəkildə bildirilərək istənilən bütün ölkələrlə ticarət dövriyyəsi barəsində istənilən nəticəyə çatmaq olar. Bu sahədə idxalın və ixracın təyin edilməsi metodikasından istifadə etməklə İranın Türkiyə ilə həyata keçirdiyi ticarətilə əlaqədar ümumi məhsulun idxalat və ixracat potensialı barədə təxmini əldə olunmuş məlumatlar harmonik sistem (HS) çərçivəsində 21 sahəyə və altırəqəmli tarif sıralaması ilə açıqlana bilər.

Bu bölümdə ilk olaraq cədvəllərin hazırlanması, göstəricilərin tanıdılması fəaliyyətləri icra edilir və sonra İranın Türkiyə ticarətindəki ixracat potensialı cədvəllərinin təqdim olunması həyata keçirilir.

**Ölkələrarası ticarətdə ixracat potensialının qiymətləndirilməsi metodikası**

Əhatə olunan illər. Həm idxalat, həm də ixracat sahəsindəki statistik məlumatların əldə olması səbəbindən 2002-2009-cu illəri əhatə edir.

İxracat potensialının ümumi dəyəri (A) İranın Türkiyə ilə həyata keçirdiyi ixracat potensialının ümumi dəyərinin toplanmasına aid edilir və Harmonik Sistemə əsasən (HS) altı rəqəmli kodlarla qeyd olunur. İranla Türkiyə arasındakı ixracat potensialının hesablanması üçün aşağıdakı formuldan istifadə olunur:

Burada I – İranı, T - Türkiyəni, W – dünyanı əks etdirən indeksdir;

k- əmtəəsi üzrə İrandan Türkiyəyə ixracat potensialıdır;

- İranın k əmtəəsi üzrə dünyaya etdiyi ixracatdır;

- Türkiyənin k əmtəəsi üzrə dünyadan etdiyi idxalatdır.

Belə ki, ilk olaraq İranın dünya bazarlarına ixrac etdiyi məhsulların dəyəri və Türkiyənin dünya bazarından idxal etdiyi məhsulların dəyəri Harmonik Sistemə (HS) uyğun olaraq Dünya Bankının verilənlər bankından götürülmüşdür. Bundan sonra ölkələrin ixracat və idxalat göstəriciləri ikitərəfli və müştərək şəkildə əldə olunmalıdır və onlardan ən aşağı göstəricisi potensialın ən yuxarı

göstəricisi kimi təyin olunmalıdır. Sonda aşağıdakı düsturdan istifadə etməklə İranın Türkiyəyə məhsul ixracatındakı potensialı toplanılmış və cədvəlin A sütununda təqdim olunmuşdur.

*N* - *HS* sistemi üzrə əmtəələrin sayıdır.

Altırəqəmli tarifin sırasının sayı (B). HS sistemi üzrə İranın ixrac və eyni zamanda Türkiyənin idxal etdiyi məhsulların sayıdır. Bu əmtəələrin indeksləri çoxluğunu ilə işarə edək.

Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulun dəyəri (C). İranın Türkiyəyə ixracat potensialı olan Harmonik Sistemin (HS) altırəqəmli tarif sıralamasına əsasən Türkiyənin bütün dünyadan etdiyi məhsul idxalının ümumi dəyərinin cəmi.

Burada $M_{TW}$ Türkiyənin k əmtəəsi üzrə idxalıdır.

İranın bütün dünyaya ixracatının dəyəri (D). İranın Türkiyəyə etdiyi ixracatın potensialının Harmonik Sistemin (HS) altı rəqəmli tarif sıralamasına əsasən bütün dünyanın İrandan etdiyi məhsul idxalının ümumi dəyərinin cəmi.

Türkiyənin İrandan idxal etdiyi məhsulun dəyəri (F). İranın Türkiyəyə etdiyi ixracatın potensialının Harmonik Sistemin (HS) altırəqəmli tarif sıralamasına əsasən İranın Türkiyəyə göndərdiyi məhsul ixracatının ümumi dəyərinin cəmi.

Baş tutmamış ixracat potensialının dəyəri (M). Türkiyənin İrandan idxal etdiyi məhsulun ümumi dəyərini (F) nəzərə almaqla İranın Türkiyə ilə apardığı ticarətdə baş tutmamış ixracat potensialı aşağıdakı riyazı formula uyğun olaraq həyata keçirilir:

$$M_{İT}=POTNET_{İT}=A-F$$

$\underline{POTNET}_{İT}$ - İranın Türkiyəyə baş tutmamış (reallaşdırılmamış) ixracat potensialının dəyəri;

$M_{IT}$ - Türkiyənin (T) İrandan (I) idxal etdiyi məhsulun dəyəri;

$\underline{POTNET}_{IT}$ - İranın (i) Türkiyə ilə (t) ticarət sahəsindəki ixracat potensialının dəyəridir.

İranın Türkiyə ilə həyata keçirdiyi ticarətdə baş tutmuş ixracat potensialının faizi (N). Baş tutmuş ixracat potensialının faizini hesablamaq üçün aşağıdakı qaydadan istifadə olunur:

Qeyd olunmuş göstərici 100 ədədinə yaxınlaşdıqca İranın Türkiyə ilə həyata keçirdiyi ticarətdə bütün ixracat potensialından istifadə etməsi faizi artır və elə bu səbəbdən də, böyük ixracat fəaliyyətlərinə malik olmasını göstərir.

İranın ümumi ixracatında Türkiyə bazarının payı (K). Türkiyənin İrandan idxal etdiyi məhsulun dəyər nisbəti dünyanın İrandan idxal etdiyi məhsulun dəyərinə əsasəndir və İran Türkiyə ilə həyata keçirdiyi ticarət əlaqələrində geniş ixracat potensialına malikdir. Bu göstərici 100-ə nə qədər yaxın olarsa Türkiyənin İranın ixrac etdiyi məhsulları cəlb etmək sahəsində malik olduğu yeri göstərir.

Məsələn, qeyd etdiyimiz ticarət payı 2009-cu ildə 3.4 faiz olmuşdur. Yəni, İranın ixrac etdiyi məhsulların 3.4 faizi Türkiyə bazarına göndərilmişdir. Beləliklə də, İranın ixrac etdiyi məhsulun 96.6 faizi isə Türkiyədən başqa bütün ölkələrə şamil olunur və bu ölkənin ixracat hədəfləridir.

İranın ümumi ixracatında Türkiyənin potensial payı (L). İranın Türkiyə ilə həyata keçirdiyi ticarət sahəsində müəyyənləşdirilməmiş ixracat potensialının dəyəri bütün dünyanın İrandan idxal etdiyi məhsulların (İranın ümumi ixracat dəyəri) ümumi dəyərinə nisbətən ölçülür. Bu göstərici 0 ilə 100 arasında yerləşmişdir. Belə ki, bu göstərici 100-ə nə dərəcədə yaxın olarsa Türkiyənin İranın ixrac etdiyi məhsullara cəlb olunması sahəsindəki potensial yerini müəyyənləşdirir.

Məsələn; qeyd olunmuş payın göstəricisi 2009-cu ildə 53.6 faiz olmuşdur. Yəni, Türkiyə bazarı öz potensialı ilə İranın ixrac etdiyi məhsulların ən çoxu 53.6 faizini özünə aid edə bilər. Başqa sözlə desək ən optimist yanaşma ilə İranın bütün ixracatının 53.6 faizi Türkiyəyə göndərilə bilər.

Türkiyənin İran ixracatında potensial payı (L).

Türkiyə idxalında İranın payı (P). Burada Türkiyənin İrandan idxal etdiyi məhsulların dəyəri Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulların dəyərinə nisbətən ölçülür. Bu göstərici İranın böyük ixracat potensialına malik Türkiyə ilə həyata keçirdiyi ticarətdə istifadə etdiyi tarif sıralarına əsasən İranın Türkiyə bazarındakı payını və yerini müəyyənləşdirir. Qeyd etmək lazımdır ki, bu araşdırma işində xam neft və müəyyənləşdirilməmiş tarif sıraları bu sıralamada nəzərə alınmamışdır.

Məsələn; 2009-cu ildə İranın Türkiyə bazarındakı payı 0.37 faiz olmuşdur. Yəni Türkiyənin ümumi halda idxal etdiyi məhsulların 0.37 faizi İranın ixrac etdiyi məhsullardan ibarət olmuşdur.

Türkiyənin idxalında İranın potensial payı (Q). (İranın Türkiyə bazarına edəcəyi ixracatın proqnozlaşdırıla biləcək ən yüksək payı) İranın ixracat potensialının dəyəri Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulların ümumi dəyərinə nisbətən ölçülür. Bu göstəricilər nə qədər yüksək olarsa İranın Türkiyə bazarının ehtiyaclarını ödəmək potensialının həmin dərəcədə yüksək olmasını göstərir. Başqa sözlə ifadə etsək, Türkiyənin məhsul idxalatında İranın malik olduğu potensialın göstəricisidir.

Məsələn; qeyd olunmuş dəyər göstəricisi 2009-cu ildə 6.08 faiz olmuşdur. Yəni, ən optimist yanaşma ilə açıqlama versək İran ən çox halda Türkiyə bazarının 6.08 faizini özünə aid edə bilər. Başqa sözlə desək, Türkiyə daxili ehtiyaclarını ödəmək üçün idxal etdiyi məhsulların 6.08 faizini İrandan idxal edə bilər. Halbuki, qeyd etdiyimiz bazarda real şəraitdə İranın hal-hazırkı payı cəmi 0.37 faizdir. Daha dəqiq desək, İran Türkiyə bazarındakı payını on altı dəfə çoxalda bilər.

Türkiyənin istifadə etdiyi tarif göstəriciləri (R). Harmonik Sistemin altı rəqəmli tarif sıralamasına uyğun olaraq Türkiyənin istifadə etdiyi tarif göstəriciləri orta göstəricisinə şamil olunur. Məsələn; İranın Türkiyə ilə həyata keçirdiyi ticarət əlaqələrində geniş potensiallara malik olmasını nəzərə alaraq Türkiyənin ixrac etdiyi məhsullar sahəsində istifadə etdiyi tarif göstəriciləri 2009-

cu ildə 8.23 faiz olmuşdur və bu da Türkiyənin tarif qiymətlərinin ortalama göstəriciləri ilə müqayisədə çoxdur.

**Türkiyə ilə ticarətdə İranın ixracat potensialının qiymətləndirilməsi (2009-cu il göstəricilərinə əsasən)**

Altırəqəmli (HS) kodların tarif sırasının sayı. İran ixracat sahəsində böyük potensiala malik olduğu Türkiyə ilə ticarətdə 2009-cu ildəki dəyər sıralamasına əsasən altırəqəmli tarif sıralarının sayına şamil edilir. Məsələn; İranın Türkiyə ilə həyata keçirdiyi ticarətdə tarif sıralarının sayı yüz milyondan artıq potensial gücünə malik olmasına görə altırəqəmli tarifin 11 sırası olacaqdır.

İxracat potensialının ümumi dəyəri (A). İranın Türkiyə ilə həyata keçirdiyi ticarətdə malik olduğu ixracat potensialının ümumi dəyərinin toplanmasına aid olunur. Bu toplama işləri ixracat potensialının dəyər sıralamasında altırəqəmli kodlardan (HS) (yəni 100 milyondan artıq, 50-100 milyon arasında, 10-50 milyon arasında, 1-10 milyon arasında və 1 milyondan aşağı) ibarətdir. Məsələn; İranın Türkiyə ilə həyata keçirdiyi ticarət sahəsindəki ixracat potensialının dəyəri 4382230.4 min dollardır. Yəni, İranın 2009-cu ildə Türkiyə ilə həyata keçirdiyi ixracat potensialının ümumi dəyəri 11 sayda tarif sıralaması sahəsində 100 milyondan çox olaraq 4382230.4 olmuşdur.

Ümumi ixracat potensialından pay (B). Toplanılmış ixracat potensialının ümumi dəyərini nəzərə alaraq İranın Türkiyə ilə ticarətdə malik olduğu potensialının dəyər nisbəti 6634020.5 min dollardır. Məsələn, İranın Türkiyə ilə ticarətdəki ixracat potensialının 66.1 faizini 11 sayda tarif əmələ gətirir və öz-özlüyündə hər birisi 100 milyon dollardan artıqdır. Başqa sözlə desək, İranın Türkiyə ilə həyata keçirdiyi ticarət sahəsindəki ixracat potensialının 66.1 faizi 11 sayda HS tarif siralamasına aid olur.

Dünyanın İrandan idxal etdiyi məhsulun dəyəri (yəni İranın bütün dünyaya ixrac etdiyi məhsulun dəyəri) (C). İranın dünya ölkələrindən idxal etdiyi məhsulların ümumi dəyərinin toplusu altırəqəmli tarif sıralamasına əsasən müxtəlifdir. Məsələn, 4909857 dəyəri göstərir ki, bütün dünyanın 2009-cu ildə İrandan idxal etdiyi məhsulun dəyəri 100 milyondan daha çox olan ixracat potensialının 11 rəqəmli tarif sıralamasına əsasən 4909857 min dollar olmuşdur.

Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulun dəyəri (D). Altırəqəmli tarif sıralamasına əsasən Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulların ümumi dəyərinin cəmi.

Türkiyənin İrandan idxal etdiyi məhsulun dəyəri (F). Altırəqəmli tarif sıralamasına əsasən Türkiyənin İrandan idxal etdiyi məhsulların ümumi dəyərinin cəmi.

İranın Türkiyə ilə ticarətdə baş tutmamış ixracat potensialı (M). Potensial dəyər sıralaması nəzərə alınmaqla İranın ixracat potensial dəyəri (A) ilə Türkiyənin 2009-cu ildə İrandan idxal etdiyi məhsulun dəyər fərqi *(M=A-F)*.

İranın Türkiyə ilə apardığı ticarətdə baş tutmuş ixracat potensialının faizi (N). Türkiyənin İrandan idxal etdiyi (F) məhsulun dəyəri ilə ixracat potensialının dəyər nisbəti (A) (N=F/A).

İranın Türkiyə bazarındakı real payı (K). Türkiyənin İrandan məhsul idxalının dəyəri Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulun dəyərinə nisbətən ölçülür. Bu göstərici İranın böyük ixracat potensialına malik Türkiyə ilə həyata keçirdiyi ticarətdə istifadə etdiyi tarif sıralarına əsasən İranın Türkiyə bazarındakı payını və yerini müəyyənləşdirir. Məsələn; 2009-cu ildə İranın Türkiyə bazarındakı payı 1.2 faiz olmuşdur. Yəni Türkiyənin ümumi halda idxal etdiyi məhsulların 1.2 faizi İranın ixrac etdiyi məhsullardan ibarət olmuşdur və bu da öz-özlüyündə 100 milyondan artıq dollarlara şamil olunur (K=F/D).

*Cədvəl 1*

***İranın Türkiyə ilə ticarətdə ixracat potensialının vəziyyəti, milyon dollarla***

| Il | İxracat potensialı | HS sistemi ilə altırəqəmli kodların sayı | Türkiyənin dünyadan idxalı | İranın dünyaya ixracı | İranın Türkiyəyə ixracı | İranın Türkiyəyə baş tutmamış ixrac potensialı | İranın Türkiyəyə ixracının məcmu Türkiyə idxalında payı, % | İranın ümumi ixracatında Türkiyə bazarının payı, % | İranın ümumi ixracatında Türkiyə bazarının potensial payı, % | İranın ümumi ixracında Türkiyə bazarının aktual payı, % | İranın Türkiyə bazarına öncədən planlaşdırılmış ixracat payı, % | Türkiyənin məcmu idxal tarifləri |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | A | B | C | D | F | M=A-F | N=F/A | K=F/D | L=M/D | P=F/C | Q=A/C | R |
| 2002 | 1517 | 2414 | 32557 | 3074 | 112 | 1405 | 7.35 | 3.6 | 45.71 | 0.34 | 4.66 | 7.60 |
| 2003 | 1999 | 2803 | 48844 | 4075 | 93 | 1906 | 4.66 | 2.3 | 46.72 | 0.19 | 4.09 | 7.75 |
| 2004 | 3285 | 3052 | 71252 | 5876 | 106 | 3180 | 3.21 | 1.8 | 54.11 | 0.15 | 4.61 | 7.61 |
| 2005 | 4565 | 3319 | 91653 | 7839 | 182 | 4383 | 4.00 | 2.3 | 55.91 | 0.20 | 4.98 | 7.55 |
| 2006 | 6276 | 3329 | 103840 | 10759 | 371 | 5906 | 5.91 | 3.4 | 54.89 | 0.36 | 6.04 | 7.52 |
| 2007 | 7445 | 3213 | 131832 | 13690 | 664 | 6782 | 8.91 | 4.8 | 49.54 | 0.50 | 5.65 | 8.08 |
| 2008 | 9338 | 3193 | 154532 | 18059 | 669 | 8670 | 7.16 | 3.7 | 48.01 | 0.43 | 6.04 | 8.05 |
| 2009 | 6634 | 2871 | 109055 | 11630 | 399 | 6235 | 6.02 | 3.4 | 53.61 | 0.37 | 6.08 | 8.23 |

*Mənbə: [7]*

İranın Türkiyə bazarına edəcəyi ixracatın proqnozlaşdırıla biləcək ən yüksək payı (L). İranın ixracat potensialının dəyəri Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulların ümumi dəyərinə nisbətən ölçülür və qeyd etdiyimiz idxala müxtəlif məhsullar aid edilir. Bu göstəricilər nə qədər yüksək olarsa İranın Türkiyə bazarının ehtiyaclarını ödəmək potensialının həmin dərəcədə yüksək olmasını göstərir. Başqa sözlə ifadə etsək, Türkiyənin məhsul idxalatında İranın malik olduğu potensialın göstəricisidir. (L=A/D) (L=M/D)

İranın ümumi ixracatında Türkiyə bazarının payı (P). Türkiyənin İrandan idxal etdiyi məhsulun dəyər nisbəti dünyanın İrandan idxal etdiyi məhsulun dəyərinə əsasəndir və İran Türkiyə ilə həyata keçirdiyi ticarət əlaqələrində geniş ixracat potensialına malikdir. Bu göstərici 100-ə nə qədər yaxın olarsa Türkiyənin İranın ixrac etdiyi məhsulları cəlb etmək sahəsində malik olduğu yeri göstərir. (P=F/C)

İranın ümumi ixracatında Türkiyənin potensial payı (Q). İranın Türkiyə ilə həyata keçirdiyi ticarət sahəsində müəyyənləşdirilməmiş ixracat potensialının dəyəri bütün dünyanın İrandan idxal etdiyi məhsulların (İranın ümumi ixracat dəyəri) ümumi dəyərinə nisbətən ölçülür. Bu göstərici 0 ilə 100 arasında yerləşmişdir. Belə ki, bu göstərici nə dərəcədə 100-ə yaxın olarsa Türkiyənin İranın ixrac etdiyi məhsullarına cəlb olunması sahəsindəki potensial yerini müəyyənləşdirir. (Q=A/C)

Türkiyənin istifadə etdiyi tarif göstəriciləri (R). Harmonik Sistemin altırəqəmli tarif sıralamasına uyğun olaraq Türkiyənin istifadə etdiyi tarif göstəriciləri orta göstəricisinə şamil olunur.

**HS sistemi ilə ixracat potensialının vəziyyəti**

Ümumi ixracat potensialının dəyəri (A). Dərəcələrə bölünmüş HS məhsul qrupundakı altırəqəmli HS kodlarına əsasən İranın Türkiyə ilə həyata keçirdiyi ixracat potensial dəyərinin toplanmasına şamil olunur. Məsələn, 2009-cu ildə İranın Türkiyəyə ixracat potensialının dəyəri diri heyvan və ət və süd məhsulları qrupunda 26.3 milyon dollar olmuşdur. Bu da öz-özlüyündə 58 sayda altırəqəmli HS tarif sıralaması deməkdir.

Altırəqəmli HS kodların tarif sıralamasının sayı (B). HS məhsul qruplaşmasını ayırmaqla 2009-cu ildə İranın Türkiyə ilə həyata keçirdiyi ticarətdə altırəqəmli HS tarif sıralarının sayına şamil edilir. Məsələn, İranla Türkiyə arasındakı ticarət əlaqələrində diri heyvan və ət-süd məhsullarının məhsul qruplaşmasına uyğun olaraq tarif sıralarının sayı 58 saydı altırəqəmli tarif sıralarından ibarətdir.

Türkiyənin dünyadan idxal etdiyi məhsulun dəyəri (C). İranla Türkiyə arasında həyata keçirilən ticarət əlaqələrində məhsul qruplaşması nəzərə alınmamaqla Türkiyənin dünya bazarından idxal etdiyi məhsulun ümumi dəyər toplusu.

Bütün dünyanın İrandan idxal etdiyi məhsulun dəyəri (İranın dünyaya etdiyi ixracatın dəyəri) (D). İranla Türkiyə arasındakı ticarət əlaqələrində məhsul qruplaşması fenomenini nəzərə almadan İranın dünyadan idxal etdiyi məhsulun ümumi dəyər toplusu.

Türkiyənin İrandan idxal etdiyi məhsulun dəyəri (İranın Türkiyəyə ixrac etdiyi məhsulun dəyəri (F). İranın Türkiyə ilə həyata keçirdiyi ticarət əlaqələrində məhsul qruplaşması fenomenini nəzərə almadan İranın Türkiyəyə göndərdiyi məhsul ixracatının ümumi dəyərinin cəmi.

İranın Türkiyə ilə həyata keçirdiyi ticarət əlaqələrində baş tutmuş ixracat potensialının faizi (R). İranın Türkiyədən idxal etdiyi məhsulun dəyəri (F) ilə məhsul qruplaşmasını nəzərə almamaq şərtilə ixracat potensialının dəyərinin (A) nisbəti (N=F/A).

İranın Türkiyə ilə həyata keçirdiyi ticarət əlaqələrində baş tutmuş ixracat potensialı (M). Məhsul qruplaşmasını nəzərə almadan 2009-cu ildə Türkiyənin İrandan idxal etdiyi məhsulun dəyəri (F) ilə İranın ixracat potensialının dəyəri (A) arasındakı fərq (M=A-F).

İranın Türkiyə bazarındakı real payı. Türkiyənin İrandan məhsul idxalının dəyəri (F) Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulun dəyərinə (C) nisbətən ölçülür. Bu göstərici İranın böyük ixracat potensialına malik Türkiyə ilə həyata keçirdiyi ticarətdə istifadə etdiyi tarif sıralarına əsasən İranın Türkiyə bazarındakı payını və yerini müəyyənləşdirir (P=F/C).

İranın Türkiyə bazarına edəcəyi ixracatın proqnozlaşdırıla biləcək ən yüksək payı. İranın ixracat potensialının dəyəri (A) Türkiyənin bütün dünyadan idxal etdiyi məhsulların ümumi dəyərinə (C) nisbətən ölçülür və məhsul qruplaşması nəzərə alınmamaq şərtilə qeyd etdiyimiz idxala müxtəlif məhsullar aid edilir. Bu göstəricilər nə qədər yüksək olarsa İranın Türkiyə bazarının ehtiyaclarını ödəmək potensialının həmin dərəcədə yüksək olmasını göstərir. Başqa sözlə ifadə etsək, məhsul qruplaşmasını nəzərə almamaq şərtilə Türkiyənin məhsul idxalatında İranın malik olduğu potensialın göstəricisidir (Q=A/C).

İranın ümumi ixracatında Türkiyə bazarının payı. Türkiyənin İrandan idxal etdiyi məhsulun dəyər (F) nisbəti dünyanın İrandan idxal etdiyi məhsulun dəyərinə (D) əsasəndir və İran Türkiyə ilə həyata keçirdiyi ticarət əlaqələrində geniş ixracat potensialına malikdir. Bu göstərici 0-la 100 arasında yerləşmişdir və qeyd etidiyimiz göstərici nə qədər 100-ə yaxın olarsa Türkiyənin İranın ixrac etdiyi məhsulları cəlb etmək sahəsində malik olduğu yeri göstərir (K=F/D).

İranın bütün ixracatında Türkiyənin potensial payı. İranın Türkiyə ilə həyata keçirdiyi ticarət sahəsində müəyyənləşdirilməmiş ixracat potensialının dəyəri (A) dünyanın İrandan idxal etdiyi məhsulların (İranın ümumi ixracat dəyəri) ümumi dəyərinə (D) nisbətən ölçülür. Bu göstərici 0 ilə 100 arasında yerləşmişdir. Belə ki, bu göstərici nə dərəcədə 100-ə yaxın olarsa Türkiyənin İranın ixrac etdiyi məhsullara cəlb olunması sahəsindəki potensial yerini müəyyənləşdirir (L=A/D).

*Cədvəl 2*

**Məhsul üzrə Harmonik Sistemin (HS) 21 mərtəbəli sektorlarını nəzərə almadan İran-Türkiyə ticarətinin potensial vəziyyəti, milyon dollar**

| Məhsul qrupları | Sahənin kodu (HS) | İranın Türkiyəyə ixrac potensialı | Altırəqəmli tarif sıralarının sayı | Türkiyənin dünyadan idxalı | İranın dünyaya ixracı | Türkiyənin İrandan idxalı | İranın baş tutmuş ixracının payı, % | İranın Türkiyəyə baş tutmamış ixrac potensialı | İranın Türkiyə bazarındakı payı | İranın Türkiyəyə ixrac potensialının maksimal payı, % | İran ixracında Türkiyə bazarının payı, % | İran ixracında Türkiyənin potensial payı, % |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | *A* | *B* | *C* | *D* | *F* | N=F/A | M=A-F | P=F/C | Q=A/C | K=F/D | L=M/D |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** | **13** |
| Diri heyvanlar və heyvan məhsulları | 1 | 26.3 | 58 | 219.0 | 70.8 | 0.5 | 1.8 | 25.8 | 0.22 | 12.0 | 0.7 | 36.4 |
| Bitki məhsulları | 2 | 111.7 | 159 | 2811 | 773 | 6.1 | 5.5 | 105.6 | 0.22 | 4.0 | 0.8 | 13.7 |
| Heyvan və bitki yağları | 3 | 13.2 | 23 | 990.6 | 13.8 | 0.0 | 0.2 | 13.2 | 0.00 | 1.3 | 0.2 | 95.4 |
| Yeyinti sənayesi məhsulları, qazlı içkilər, sirkə, tütün məhsulları | 4 | 65.2 | 129 | 1458 | 101 | 0.7 | 1.1 | 64.4 | 0.05 | 4.5 | 0.7 | 63.6 |
| Mineral məhsullar | 5 | 2729.3 | 85 | 14693 | 4898 | 51.8 | 1.9 | 2677.5 | 0.35 | 18.6 | 1.1 | 54.7 |
| Kimya sənayesi məhsulları | 6 | 879.2 | 375 | 12759 | 2650 | 32.7 | 3.7 | 846.5 | 0.26 | 6.9 | 1.2 | 31.9 |
| Plastik, kauçuk maddələr və onlardan hazırlanan məhsullar | 7 | 1185.5 | 158 | 8010 | 1211 | 128.7 | 10.9 | 1056.8 | 1.61 | 14.8 | 10.6 | 87.3 |
| Dəri, gön məmulatı və onlardan hazırlanan məhsullar | 8 | 30.1 | 42 | 644.6 | 88.9 | 5.4 | 17.9 | 24.7 | 0.84 | 4.7 | 6.1 | 27.8 |
| Taxta və taxta məmulatı | 9 | 2.0 | 36 | 415 | 2.0 | 0.2 | 11.2 | 1.7 | 0.05 | 0.5 | 11.2 | 88.8 |

*Cədvəl 2-nin davamı*

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Taxta xəmiri, kağız və onun məhsulları | 10 | 10.0 | 84 | 2028 | 11.4 | 1.4 | 13.5 | 8.7 | 0.07 | 0.5 | 11.8 | 75.9 |
| Toxuculuq və ondan əldə olunan məhsullar | 11 | 143.3 | 361 | 5535 | 259.4 | 19.3 | 13.5 | 124.0 | 0.35 | 2.6 | 7.5 | 47.8 |
| Papaq, ayaqqabı, çətirlər və süni güllər | 12 | 3.4 | 35 | 598 | 3.4 | 0.0 | 0.0 | 3.4 | 0.00 | 0.6 | 0.0 | 100.0 |
| Qeyri-metal qazma məhsulları | 13 | 51.6 | 108 | 987 | 75.1 | 9.0 | 17.4 | 42.6 | 0.91 | 5.2 | 11.9 | 56.8 |
| Qiymətli metallar və daşlar | 14 | 2.7 | 16 | 349 | 2.7 | 0.3 | 11.9 | 2.4 | 0.09 | 0.8 | 11.9 | 88.1 |
| Adi metallar və onlardan hazırlanan məhsullar | 15 | 917.7 | 348 | 16378 | 987.1 | 106.9 | 11.6 | 810.8 | 0.65 | 5.6 | 10.8 | 82.1 |
| Dəzgahlar, mexanika və elektronika məhsulları | 16 | 246.3 | 545 | 26886 | 259.9 | 16.1 | 6.5 | 230.1 | 0.06 | 0.9 | 6.2 | 88.6 |
| Nəqliyyat vasitələri, daşınma təchizatları | 17 | 176.9 | 78 | 10122 | 178.3 | 19.0 | 10.7 | 157.9 | 0.19 | 1.7 | 10.6 | 88.5 |
| Optik və cərrahiyyə aparatları və alətləri | 18 | 28.0 | 141 | 2826 | 28.0 | 0.9 | 3.3 | 27.1 | 0.03 | 1.0 | 3.3 | 96.7 |
| Silah və sursat | 19 | 0.8 | 2 | 2.7 | 0.8 | 0.0 | 0.0 | 0.8 | 0.00 | 28.7 | 0.0 | 100.0 |
| Mebel, oyuncaqlar və digər məhsullar | 20 | 4.6 | 81 | 1329 | 4.6 | 0.4 | 7.7 | 4.2 | 0.03 | 0.3 | 7.7 | 92.3 |
| İncəsənət məhsulları və digər şeylər | 21 | 6.3 | 7 | 13.5 | 10.9 | 0.0 | 0.1 | 6.3 | 0.04 | 47.1 | 0.1 | 58.2 |

*Mənbə: [7]*

**Nəticə**

Tədqiqatımız zamanı İran-Türkiyə ticarət potensialının qiymətləndirilməsi prosesində aşağıdakılar müəyyənləşdirilmişdir:

1. İranın Türkiyə idxal bazarında mövqeyi çox zəif olsa da, burada aşkar artım tempi müşahidə olunur. Belə ki, 2002-2009-ci illərdə İranın Türkiyəyə ixracı dəyər ölçüsündə 9 dəfədən çox artmışdır. Əsası isə budur ki, İranın Türkiyə idxalındakı payı da bu müddət ərzində 1,8%-dən 4,1%-ədək artmışdır. Oxşar proses Türkiyədən İrana ixracda müşahidə olunur. Belə ki, tədqiq olunan müddət ərzində İranın Türkiyədən idxalı 6,6 dəfə, Türkiyənin İran bazarındakı payı isə 0,9%-dən 1,5%-dək, 2009-cu ildə isə 2,0%-dək artmışdır.

2. 2002-2009-cu illərdə İran Türkiyə ilə ticarətində həmişə müsbət balansa malik olmuşdur. Lakin İranın Türkiyə ixracının daha intensiv artımının nəticəsidir ki, bu fərq 2002-ci ildəki 612 milyon dollardan 2008-ci ildə 6,2 milyard dollaradək artmış və yalnız 2009-cu ildə 1,4 milyard dollaradək azalmışdır. 2002-2009-cu illərdə İrandan Türkiyəyə ixracın orta illik artımı 28%, Türkiyədən İrana isə 29,5% təşkil etmişdir.

3. İrandan Türkiyəyə ixrac potensialının qiymətləndirilməsi zamanı aşağıdakı nəticələr əldə edilmişdir:

Bu potensial ildən-ilə artır: 2002-2009-cu illərdə o, 4,4 dəfə artaraq 1,5 milyard dollardan 6,6 milyard dollara çatmışdır.

Bu potensialın yalnız cüzi bir hissəsi, məsələn, 2009-cu ildə 6%-i reallaşır, 94%-i isə reallaşmamış qalır.

Baxılan müddət ərzində reallaşmamış potensial da 4,4 dəfə artaraq, 1,4 milyard dollardan 6,2 milyard dollara çatmışdır.

4. Baxılan müddət ərzində İranın Türkiyə bazarında payının maksimal həddi 4,8% (2007-ci il üçün) olduğu halda bizim qiymətləndirməmizə görə potensial payın minimal həddi 49,3%-dir. Maksimal potensial pay isə 58,3% (2006-ci il) təşkil edir.

5. Müxtəlif mal qrupları üzrə aparılan detallaşdırılmış tədqiqatımız aşağıdakı qənaətləri aşkar etmişdir:

• Diri heyvanlar və heyvan məhsulları üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı– 25,8 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarının payını 0,7%-dən 36,4%-ədək artırmağa imkan vermiş olar.

• Bitki məhsulları üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı - 105.6 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 0,8%-dən 13,7%-ə qədər artırmağa imkan verər.

• Heyvan və bitki yağları üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı-13.2 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 0,2%-dən 95,4%-ə qədər artırmağa imkan verər.

• Yeyinti sənayesi məhsulları, qazlı içkilər, sirkə, tütün məhsulları üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 64.4 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 0,7%-dən 63,6%-ə qədər artırmağa imkan verər.

• Mineral məhsullar üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı -2677.5 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 1,1%-dən 54,7%-ə qədər artırmağa imkan verər.

• Kimya sənayesi məhsulları üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı - 846.5 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 1,2%-dən 31,9%-ə qədər artırmağa imkan verər.

• Plastik, kauçuk maddələr və onlardan hazırlanan məhsullar üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı - 1056.8 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 10,6%-dən 87,3%-ə qədər artırmağa imkan verər.

• Dəri, gön məmulatı və onlardan hazırlanan məhsullar üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 24,7 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 6,1%-dən 27,8%-ə qədər artırmağa imkan verər.

• Taxta və taxta məmulatı üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı - 1.7 milyon dol-

lardır ki, bu, İran ixracında Türkiyəyə bazarını 11,2%-dən 88,8%-ə qədər artırmağa imkan verər.

• Taxta xəmiri, kağız və onun məhsulları üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 8.7 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 11,8%-dən 75,9%-ə qədər artırmağa imkan verər.

• Toxuculuq və ondan əldə olunan məhsullar üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 124.0 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 7,5%-dən 47,8%-ə qədər artırmağa imkan verər.

• Papaq, ayaqqabı, çətirlər və süni güllər üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 3.4 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 0,0%-dən 100 %-ə qədər artırmağa imkan verər.

• Qeyri-metal qazma məhsulları üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 42.6 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 11,9%-dən 56,8%-ə qədər artırmağa imkan verər.

• Qiymətli metallar və daşlar üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 2.4 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 11,9%-dən 88,1%-ə qədər artırmağa imkan verər.

• Adi metallar və onlardan hazırlanan məhsullar üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 810.8 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 10,8%-dən 82,1%-ə qədər artırmağa imkan verər.

• Dəzgahlar, mexanika və elektronika məhsulları üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 230.1 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 6,2%-dən 88,6%-ə qədər artırmağa imkan verər.

• Nəqliyyat vasitələri, daşınma təchizatları üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 157.9 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 10,6%-dən 88,5%-ə qədər artırmağa imkan verər.

• Optik və cərrahiyyə aparatları və alətləri üzrə İranın Türkiyə ilə baş tutmamış ixrac potensialı - 27.1 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 3,3%-dən 96,7%-ə qədər artırmağa imkan verər.

• Silah və sursat üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı - 0.8 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 0,0%-dən 100,0%-ə qədər artırmağa imkan verər.

• Mebel, oyuncaqlar və digər məhsullar üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı - 4.2 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 7,7%-dən 92,3%-ə qədər artırmağa imkan verər.

• İncəsənət məhsulları və digər şeylər üzrə İranın Türkiyəyə baş tutmamış ixrac potensialı - 6.3 milyon dollardır ki, bu, İran ixracında Türkiyə bazarını 0,1%-dən 58,2%-ə qədər artırmağa imkan verər.

Beləliklə, bu mal qruplarını aşağıdakı 4 qrupda təsnifatlaşdırmaq olar:

1. İran ixracı üçün çox böyük əhəmiyyət kəsb edən (İran ixracında Türkiyə bazarının 80%-dən çox potensiala malik olduğu) qruplar:

- Papaq, ayaqqabı, çətirlər və süni güllər.
- Silah və sursat.
- Optik və cərrahiyyə aparatları və alətləri.
- Heyvan və bitki yağları.
- Mebel, oyuncaqlar və digər məhsullar.
- Taxta və taxta məmulatı.
- Dəzgahlar, mexanika və elektronika məhsulları.
- Nəqliyyat vasitələri, daşınma təchizatları.
- Qiymətli metallar və daşlar.
- Plastik, kauçuk maddələr və onlardan hazırlanan məhsullar.

- Adi metallar və onlardan hazırlanan məhsullar.

2. İran ixracı üçün böyük əhəmiyyət kəsb edən (İran ixracında Türkiyə bazarının 50-80% arasında potensiala malik olduğu) qruplar:

- Taxta xəmiri, kağız və onun məhsulları.
- Yeyinti sənayesi məhsulları, qazlı içkilər, sirkə, tütün məhsulları.
- İncəsənət məhsulları və digər şeylər.
- Qeyri-metal qazma məhsulları.
- Mineral məhsullar.

3. İran ixracı üçün müəyyən əhəmiyyət kəsb edən (İran ixracında Türkiyə bazarının 30-50% arasında potensiala malik olduğu) qruplar:

-Toxuculuq və ondan əldə olunan məhsullar.
- Diri heyvanlar və heyvan məhsulları.
- Kimya sənayesi məhsulları.

4. İran ixracı üçün az əhəmiyyət kəsb edən (İran ixracında Türkiyə bazarının 30%-dən az potensiala malik olduğu) qruplar:

- Dəri, gön məmulatı və onlardan hazırlanan məhsullar.
- Bitki məhsulları.

**Ədəbiyyat**

1. Komil Təyyebi, Kərim Azərbaycani. İran və Ukrayna arasında ikitərəfli ticarət əlaqələrinin potensialının təyin edilməsi: Cazibə modeli. “Biznes tədqiqatları”, Tehran, 2002.
2. Arnon, Arie; Sprick and Weinblatt. The Potential for Trade between Israel, the Palestinians and Jordan. The World Economy, Vol. 19. 1996.
3. BMT-nin internet bazası. www.comtrade.com
4. www.worldbank.org
5. http://stat.wto.org/CountryProfile
6. http://unctadstat.unctad.org/TableViewer/tableView.aspx
7. www.wits.worldbank.org
8. Helmers C., Jean-michel pasteels. Assessing bilatral trade potentiol at the commodity level: an operational approach. ITC working paper, 2006.

***Ислам Нусрет оглы Могаммед Гиглу***

**Оченка экспортного потенциала Ирана в торговли с Турцией**

**Резюме**

В статье первоначально комментируется методика оценки экспортного потенциала междустранами, затем дается оченка экспортных отношений между Турцией и Ираном, а также уточнены особенности товаров, экспортируемый из Ирана в Турцию на основе гармоничной системы.

***Ключевые слова: Иран, Турция, внешняя торговля, экспортный потенциал.***

***Nusrat Islam Mogammed Giglu***

**The marks of the export potentials of İran soithin the Turkey trade**

**Summary**

The article originally commented method of estimating the export potential mezhdustranami then given ochenki export of relations between Turkey and Iran, as well as the refined characteristics of the goods exported from Iran to Turkey on the basis of a harmonious system.

***Keywords: Iran, Turkey, foreign trade, export potential.***

**UOT 339.9**

*Nurxanım Nizaməddin qızı DADAŞOVA,*
*Tamilla Rüstəm qızı NƏRİMANOVA*
*Azərbaycan Dövlət Neft Akademiyası*

# NEFT İXRAC EDƏN BORU KƏMƏRLƏRİNİN POTENSİALLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSI YOLLARI

**Xülasə**

Məqalədə statistik məlumatlar əsasında neft ixrac edən boru kəmərlərinin mövcud vəziyyəti qiymətləndirlmiş, müvafiq ehtiyat imkanları aşkara çıxarılmış və onların potensiallarından səmərəli istifadə edilməsi yolları göstərilmişdir. Azərbaycan neftinin xarici bazarda satışının mövcud vəziyyəti təhlil edilmişdir. Eyni zamanda iqtisadiyyatın dinamik inkişafı üçün müxtəlif məqsədyönlü istiqamətlərin seçilməsi öz əksini tapmışdır.

***Açar sözlər: neft, neft məhsulları, ixrac, boru kəmərləri, həcm, xarici ticarət.***

## Giriş

Respublikamızın qarşısında duran strateji məqsəd bütün sahələrdə, o cümlədən ilk növbədə iqtisadi sahədə yüksək nailiyyətlər əldə etməkdir. Bu nöqteyi-nəzərdən inteqrasiya prosesinə qoşularaq və dünya bazarına çıxmaq üçün böyük fəaliyyət göstərmək lazımdır.

Respublikamızın çox zəngin təbii sərvətləri vardır. İqtisadiyyatımızın bazar iqtisadiyyatının tələblərinə uyğun inkişaf prosesini sürətləndirmək üçün təbii sərvətlərdən əsasən neftin ixrac boru kəmərləri ilə dünya bazarına çıxarılması ən aktual məsələlərdən biridir.

Ölkənin sosial-iqtisadi inkişafından danışarkən, ilk növbədə əhalinin həyat səviyyəsinin və rifah halının ildən-ilə yüksəldilməsi xüsusi qeyd olunmalıdır. Burada isə əsasən əhalinin gəlirləri və istehlak səviyyəsinin yaxşılaşdırılmasının müqayisəli şəkildə təhlili aparılmalıdır.

Neft strategiyasının uğurla həyata keçirilməsi üçün müstəqil neft ixracı siyasətinin həyata keçirilməsi həlledici rol oynayır. Ölkəmizdə bu istiqamətdə aparılan işlər müsbət qiymətləndirilməlidir.

***Azərbaycanın müstəqil neft ixracı strategiyası***

Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərinin, Supsa ixrac terminalının istismara verilməsi hadisələri Azərbaycanın müstəqil neft ixracı strategiyasının ən mühüm nailiyyətləri hesab edilir.

Bazar münasibətləri şəraitində sənayenin və onun ayrı-ayrı sahələrinin strukturunu kökündən dəyişdirmək lazımdır. Respublika iqtisadiyyatının malik olduğu real imkanlar, idxal və ixrac potensialında tələb və təkliflər nəzərə alınmalıdır. Ölkəmizin iqtisadiyyatında köklü struktur dəyişiklikləri aparılırkən hasilat sənayesində emaledici sahələr arasında optimal nisbət daima nəzərə alınmalıdır. Ekoloji cəhətdən zərərli məhsul istehsalı tədricən dayandırılmalı və zərərsiz məhsullar istehsalına başlanmalıdır. Ona görə də, iqtisadiyyatın dinamik inkişafını təmin etmək üçün aşağıdakı istiqamətlərin seçilməsi məqsədəuyğundur:

1. Dinamik inkişaf meyillərini təmin edən makroiqtisadi tədbirlərin elmi əsaslarını və hüquqi bazasını yaratmaq,
2. Daxili bazarın qorunması, yerli istehsal və xidmət sahələrinin inkişafına stimul yaratmaq üçün idxal və ixrac siyasətinin təkmilləşdirilməsi,
3. Ölkəmizdə mövcud olan elmi, texniki, resurs potensialının sahə, ərazi və marketinq strukturunun təkmilləşdirilməsi üçün investisiya siyasətinin istiqamətlərini əsaslandırmaq və s.

Azərbaycan iqtisadiyyatının sahə, ərazi və funksional sahələri üzrə tədqiqi, qanunauyğunluqları ümumi makroiqtisadi və konkret tədbirlərin modelini və reallaşma mexanizmlərinin elmi əsaslarını yaratmağı tələb edir. Sənaye sahəsinin bütün struktur dəyişiklikləri, onların nəticələri və təkmilləşdirilməsi üçün maliyyə, təşkilat və iqtisadi normaların hazırlanması tədqiqat obyekti olaraq nə-

zəri və praktiki əhəmiyyət kəsb edir.

Azərbaycanın xarici ticarət dövriyyəsinə nəzər salmaqla ölkə iqtisadiyyatında neft sektorunun aparıcı mövqedə durduğunun bir daha şahidi oluruq. Hesabat dövründə ixracın tərkibində neft və neft məhsullarının xüsusi çəkisi 75% olmuşdur. İxrac olunan neft məhsullarından xam neft və dizel yanacağı digərləri ilə müqayisədə üstünlük təşkil edir.

Ölkə iqtisadiyyatına cəlb olunan xarici investisiyaların həcminə görə əksər post-sosialist ölkələrindən irəlidə olan respublikamızda neft sənayesinə yatırılan investisiyalar ümumi sərmayənin 70%- ni təşkil edir. İqtisadiyyatın inkişafı investisiyaların həcmi ilə düz mütənasiblik təşkil edir. Azərbaycan iqtisadiyyatının çiçəklənməsində neft sənayesi digər istehsal və xidmət sahələri ilə müqayisədə daha çox rol oynayır.

Neft tarixən Azərbaycan iqtisadiyyatının inkişafında böyük rol oynamışdır. Azərbaycan neftinin Şimal İxrac Boru Kəməri, Qərb İxrac Boru Kəməri və Bakı-Ceyhan İxrac Kəməri ilə dünya bazarlarına ötürülməsi ən böyük uğurlarımızdan biridir.

Ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlı olan “Əsrin müqaviləsi” ilə start götürən yeni neft strategiyası ümumilikdə sosial-iqtisadi inkişafa birbaşa təsir göstərən əsas amilə çevrilmişdir. Enerji sektorunun ümumi sənaye istehsalındakı payı da onun iqtisadiyyatda artıq aparıcı faktora çevrildiyindən xəbər verir.

Bu layihə son nəticədə ölkəmizdə sosial proqramların həyata keçirilməsi, investisiya proqramlarının yerinə yetirilməsi və sairə problemlərin həlli ilə yanaşı neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi, respublikamızın neftayırma, neft-kimya və digər əlaqədar sahələrinin inkişafına güclü təkan verməkdədir.

Azərbaycan öz daxili tələbatını ödəməklə yanaşı, xaricə də daha çox neft məhsullarını ixrac etmək imkanı əldə edə bilər.

Xəzər dənizindən çıxarılacaq xam neftin bir hissəsinin Azərbaycan müəssisələrində emal olunması işsizlik probleminin həll edilməsinə yardımçı ola bilər. Azərbaycanın neft sənayesinin potensialının artırılmasında, onun dünyada tanınmasında neft məhsullarının keyfiyyətinin dünya standartlarına çatdırılmasında da əhəmiyyəti böyükdür. Bu məqsədlərin reallaşdırılması neft emalı müəssisələrində yenidənqurma işlərinin aparılmasını tələb edir. Bu məqsədlə bir sıra tədbirlər də keçirilimişdir. Bu işlər müəssisələrdə neft emalı prosesinin təkmilləşdirilməsinə və hazır neft məhsullarının keyfiyyətinin artırılmasına şərait yaradır.

Azərbaycan neft sənayesinin inkişafında, onun infrastrukturunun genişlənməsində, xam neftin dünya bazarlarına çıxarılmasının təkmilləşdirilməsində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsinin əhəmiyyəti olduqca böyükdür. Bu kəmərdə neftin nəqli üzrə tranzit tarifi 2, 58$ barel təşkil etmişdir. Kəmərin çəkilişinin ümumi dəyəri 2,9 milyard ABŞ dolları həcmində müəyyən edilmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşdırılmasının Azərbaycan iqtisadiyyatının inkişafı baxımından çox mühüm əhəmiyyəti vardır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi nəinki Azərbaycanın sosial-iqtisadi həyatında yüksəlişə səbəb olacaq eyni zamanda Bakı neftinin Ceyhana ötürülməsi həm də Türkiyə üçün iqtisadi baxımdan çox səmərəlidir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşması Azərbaycan iqtisadiyyatına böyük gəlir gətirməklə yanaşı, Türkiyənin də nisbətən daha ucuz qiymətə neftlə təmin olmasına şərait yaradacaqdır. Bu layihə həyata keçdiyi halda Azərbaycan “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarından ildə 50 milyon ton neft nəql etməklə 30il ərzində 511 milyon ton neft yola salacaq ki, bu da Azərbaycan üçün bugünkü qiymətlərdə 35 mlrd. dollar gəlir deməkdir. Bu neft kəmərinin reallaşdırılması Azərbaycanın digər ölkələrdən asılılığını aradan qaldıracaqdır.

Qeyd olunanları nəzərə alaraq aşağıdakıları təklif edirəm:

1. Neft məhsulları istehsal edən müəssisələrin sərbəst ixracetmə imkanlarının artırılması;

2. Mövcud NEZ-ləri vahid idarəetmə sistemində cəmləşdirərək, onların səhmdar cəmiyyətinə çevrilməsi məsələsinin həllini ön plana çəkmək və orada marketinq funksiyasını yeni iqtisadi şə-

raitin tələblərinə uyğun formalaşdırmaq;

3. Neft sənayesinin perspektiv inkişafının səmərəli istiqamətlərini müəyyənləşdirmək;

4. Quruda yerləşən neft yataqlarına investisiyaların qoyulmasını gücləndirmək;

5. Respublikamızda neft sənayesi üzrə milli kadrların inkişaf etdirilməsi üçün ilk növbədə elmi mərkəzlər yaradılmalı, onlar optimal maliyyələşdirilməli və maddi-texniki cəhətdən zənginləşdirilməlidir.

***Bakı-Tbilisi-Ceyhan-"Əsrin müqaviləsi"nin təntənəsidir.***

Həmin layihənin əsası 1994-cü il sentyabr ayının 20-də 11 dünya iri neft şirkəti arasında "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarının işlənməsinə dair "Əsrin müqaviləsi" imzalanarkən qoyulmuşdur. Bu yataqlardan gələcəkdə 50 mln.t-dan artıq neftin dünya bazarlarına ixrac olunduğunu nəzərə alaraq Azərbaycan, Türkiyə və Gürcüstan layihədə iştirak edən şirkətlərlə birlikdə hasil olunacaq nefti Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çatdırmağı qərara aldılar.

Kəmərin açılışında Azərbaycan Respublikasının Prezidenti geniş nitq söyləmişdir. O , müstəqil Azərbaycanın uğurlarından geniş danışmış, xüsusilə vurğulamışdır ki, hazırda Azərbaycan bütün imkanlardan istifadə edərək öz iqtisadi potensialını gücləndirir:

- Azərbaycanda son 12 il ərzində təkcə neft-qaz sənayesinə 20 milyard dollardan çox vəsait qoyulmuşdur. Bu gün Azərbaycan neftini dünya bazarlarına çıxaran 3 ixrac neft kəməri vardır. Onların ən böyüyü Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməridir. Bu illər ərzində Azərbaycanın neft infrastrukturu yeniləşdi, müstəqilləşdi, Azərbaycanda yeni, peşəkar mütəxəssislər, fəhlələr yetişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daha sonra ölkəmizin gələcək inkişafından ətraflı danışaraq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əhəmiyyətini xüsusi vurğulamışdır:

- Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevriləcəkdir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha da inamla inteqrasiya edəcəkdir.

Bu layihələr bölgə ölkələrinin bir-birilə olan əlaqələri ilə yanaşı, Qərb dünyası ilə əlaqələrini də gücləndirir. Bu cəhət iqtisadi fayda ilə yanaşı, layihələrin daha böyük əhəmiyyətə malik olduğunu göstərir. Bu yanaşma çərçivəsində xüsusi yeri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsinə iştirakçı ölkələr və xətti işlədəcək şirkətlərlə birlikdə ortaq və sağlam bir istək, inam və qətiyyətlə göstərilən səylər nəticəsində nail olmuşuq.

Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin istismara verilməsindən xeyli vaxt keçir. Bu gün biz ulu öndərimizin uzaqgörən siyasətinin bəhrəsini görürük, "Əsrin müqaviləsi" reallığa çevrildi. Bu sazişin müvəffəqiyyətlə həyata keçirilməsi yeni, dünyamiqyaslı layihələrin də başlanmasına təkan verdi.

2007-ci ilin birinci rübündə Bakı-Tbilisi-Ceyhan neft kəməri tam gücü ilə işləməyə başlamışdır. Kəmər işə düşdüyü gündən hal-hazıra kimi yalnız Azərbaycan nefti ilə doldurulur. Dünya bazarlarına kəmərlə gündə 1 milyon barel neft nəql olunur.

Ümumi sənaye istehsalının 2/3-dən artığı təkcə enerji sektorunun payına düşür. Bu fakt neft sənayesinin ölkə iqtisadiyyatında aparıcı sahə olduğunu sübut edir.

Bakı-Tbilisi- Ceyhan variantı ən əlverişli neft ixracı boru kəməridir. Bu variantın üstünlükləri daha çoxdur:

1) Bu marşrutla neft boğazlardan yan ötməklə Aralıq dənizinə çatdırılır.

2) Bu variant üzrə marşrutun İraq-Türkiyə neft kəməri ilə birləşdirilməsi ehtimalının mövcudluğu onların uzunluğunu 600 km ixtisar edə bilər.

3) Bu variant Naxçıvan Muxtar Respublikasının yanacaq-enerji problemlərini həll etməyə, orada tikilməsi nəzərdə tutulan neftayrma zavodu üçün xammal təminatı rolunu oynamağa imkan verir.

4) Bu variantın Azərbaycanın digər karbohidrogen yataqlarından neftin nəqli prosesi məsələsində uzunmüddətli perspektivi ola bilər.

Neft kəmərlərinin müqayisəli texniki-iqtisadi göstəriciləri cədvəl 1-də göstərilmişdir.

Ətraf mühitin qorunması baxımından kəmərin keçəcəyi yerlərin xüsusiyyətlərindən asılı olaraq boruların qalınlığı təmin ediləcəkdir. Seysmik cəhətdən fəal zonalarda daha qalın borular düzülməsi nəzərdə tutulmuşdur.

İxrac edilən neftin bir tonuna düşən investisiyanın həcmi digər kəmərlə müqayisədə Bakı-Tbilisi-Ceyhan kəməri üzrə xeyli azdır [3, səh. 4].

***Cədvəl 1***

***Neft kəmərlərinin müqayisəli texniki-iqtisadi göstəriciləri***

| Sıra № | Texniki-iqtisadi göstəricilər | Ölçü vahidi | Bakı-Tbilisi-Ceyhan | Bakı-İran-Türkiyə |
|---|---|---|---|---|
| 1 | Kəmərin uzunluğu | km | 1760 | 1300 |
| 2 | Tələb olunan investisiya | mln.ABŞ dolları | 2900 | 500 |
| 3 | Sutkalıq ötürmə qabiliyyəti | min barel nefti | 1000 | 200 |
| 4 | Kəmərin bir kilometrinin tikintisinə tələb olunan investisiya | min.ABŞ dolları | 1648 | 385 |
| 5 | Bir ton ixrac neftinə düşən investisiya | dollar | 58 | 50 |
| 6 | Kəmərin illik ötürmə qabiliyyəti | mln.ton | 50 | 10 |

Hazırda dünyanın 15 ölkəsinin 35 qabaqcıl neft-qaz kompaniyaları ikitərəfli imzalanmış 29 saziş çərçivəsində Azərbaycanın dənizdəki və qurudakı neft-qaz yataqlarının işlənilməsi və istismarı ilə intensiv məşğul olurlar. Azərbaycanda hasil edilən neftin təxminən 8 mln. tonu daxili neft emalı zavodlarına göndərilir. Çıxarılan neftin daxili tələbatdan artıq hissəsi 1997-ci ildən başlayaraq müxtəlif gücə malik boru kəmərləri ilə xarici bazara göndərilir. Həmin boru kəmərlərinə:

- Uzunluğu 1535 km, borunun diametri 720 mm və illik buraxılış qabiliyyəti 6,0 mln ton xam neft olan "Bakı-Novorossiysk" (BN);- uzunluğu 926 km, diametri 530 mm, məhsulburaxma qabiliyyəti 7,2 mln. ton olan "Bakı-Supsa" (BS) və dünyada anoloqu olmayan 2006-ci ilin iyul ayında rəsmi istifadəyə verilən,- uzunluğu 1770 km, diametri 1066 mm, məhsulburaxma qabiliyyəti ildə 50 mln. ton xam neft ötürən "Bakı-Tbilisi-Ceyhan" (BTC) aiddir. Həmin kəmərlərlə ixrac edilən xam neftin həcmi haqqında məlumat 2 saylı cədvəldə [4 səh 6] verilmişdir. Cədvəldən göründüyü kimi, 1997-2003-cü illər ərzində "BN" boru kəməri ilə 30,2 mln.ton; 1999-2009-cu illərdə "BS" boru kəməri ilə 50 mln.ton; 2006-2009-cu illərdə "BTC" boru kəməri ilə isə -104,7 mln.ton xam neft daşınaraq xarici bazarlara çıxarılmışdır. Kütləvi informasiya vasitələrində verilən məlumata görə "BTC" istifadəyə verildiyi vaxtdan 2010-cu ilin sentyabr ayınadək kəmərlə 992 mln.barrel neft nəql edilmiş və Ceyhan limanından 1264 tanker neftlə yüklənərək müxtəlif ölkələrə göndərilmişdir. 2009-cu ilin mart ayında kimyəvi məhsullardan istifadə etməklə BTC-də sürtünmə gücü xeyli dərəcədə azaldılmış və kəmərin sutka ərzində məhsul buraxma qabiliyyəti 1,2 mln. barrelə çatmışdır.

Ümumiyyətlə, neft ixrac edən boru kəmərlərinin potensialından səmərəli istifadə üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini təklif edirəm:

1. İmkan dairəsində neft və neft məhsulları ixrac edilən ölkələrin sayının çoxalmasına və coğrafiyasının genişləndirilməsinə nail olmaq;

2. Xam neft üzrə mövcud boru kəmərlərinin potensial imkanlarından tranzit məhsulları hesabına

səmərəli istifadə etmək;

3. Neft emalı zavodlarında innovasiya fəaliyyətinin genişləndirilməsi hesabına istehsal edilən məhsulların keyfiyyətinin yaxşılaşdırılması və çeşidlərinin artırılması üzrə kompleks təşkilati-texniki və texnoloji tədbirlərin həyata keçirilməsi;

4. Neftqazçıxarma və neft emalı müəssisələrində enerji daşıyıcılarına uyğun İSO tipli beynəlxalq standartların genişmiqyaslı tətbiqi üçün təsirli tədbirlərin həyata keçirilməsi;

*Cədvəl 2*

***Azərbaycanın xam neftinin boru kəmərləri ilə daşınması (mln.ton)***

| İllər | Bakı-Novorossiysk | Bakı-Supsa | Bakı-Tbilisi-Ceyhan |
|---|---|---|---|
| 1997 | 0,06 | - | - |
| 1998 | 2,78 | - | - |
| 1999 | 1,88 | 3,2 | - |
| 2000 | 0,56 | 4,9 | - |
| 2001 | 2,30 | 5,9 | - |
| 2002 | 2,75 | 6,2 | - |
| 2003 | 2,62 | 6,15 | - |
| 2004 | 2,77 | 6,40 | - |
| 2005 | 4,0 | 6,90 | - |
| 2006 | 4,45 | 5,60 | 7,70 |
| 2007 | 2,20 | 0,05 | 28,0 |
| 2008 | 1,40 | 0,7 | 33,0 |
| 2009 | 2,50 | 4,0 | 36,0 |
| Boru kəmərlərinin istismarı dövründə-Cəmi | 30,2 | 50,0 | 104,7 |

## Nəticə

Azərbaycan neftinin ixrac boru kəməri ilə xarici bazara çıxarılmasının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi nəticəsində aşağıdakı nəticəyə gəlmək olar:

- Ölkəmizdə formalaşan Neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində yeni neft yataqlarının kəşfiyyatı, işlənməsi və istismarı nəticəsində neft və qaz hasilatının həcmi əsaslı şəkildə artmışdır;
- Suverenlik illərində neft və neft məhsulları ixrac olunan ölkələrin sayı 2 dəfə artaraq 110-a çatmışdır ki, onların da 28,2%-ni xam neft ixrac edilən ölkələr təşkil edir;
- Neft məhsullarına nisbətən xam neftin ölkə ixracındakı xüsusi çəkisi və miqdarı yüksələn xətlə artmışdır. Hasil edilən xam neftin 85%-i xammal kimi ixrac edilir, 15%-i isə respublika ərazisində emal olunur;
- Neft emalı məhsulları ixrac edilən ölkələrin sayı artsa da, bəzi məhsulların ixracında azalma müşahidə edilir;
- Neft məhsullarının ixracının azalmasına təsir göstərən əsas amillərdən biri-onların keyfiyyətinin dünya standartlarına uyğun olmamasıdır.

**Ədəbiyyat**

1. “Xarici investisiyaların qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
2. “Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramı” (2005-2015-ci illər). “İqtisadiyyat” qəzeti, 2005.
3. Azərbaycanın statistik göstəriciləri. Bakı, “Səda”, 2011.
4. ARDNŞ-nin texniki-iqtisadi göstəriciləri toplusu.
5. T.N.Əliyev, M.T.Babayev. Azərbaycanda xarici və müştərək müəssisələr. Bakı, 2009.

***Нурханум Низамеддин кызы Дадашова,***
***Тамилла Рустам кызы Нариманова***

**Резюме**

В статье на основе статистических данных, проанализировано состояние экспорта нефти по трубопроводам, и показаны основные факторы, влияющие на уровень продажи нефти и нефтепродуктов на международном рынке.

***Ключевые слова: нефть, нефтепродукты, экспорт, трубопровод, нефтепровод, объём, международная торговля.***

***Nurkhanum N.Dadashova,***
***Tamella R.Narimanova***

**Summary**

The article includes statistics on the current state of oil export pipelines valuation, which was discovered in the spare capacity is through the effective use of their potential. Analysis of the current situation was the sale of oil to the international market. At the same time, the economy is reflected in the selection of areas targeted for development

***Key words: oil, petroleum products, export pipelines, the volume of foreign trade.***

UOT 339.5

*Çəngizi Keçeklu XUDAVERDİ*
*Bakı Dövlət Universitetinin doktorantı*

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏTİNİN TƏMAYÜLLƏRİ

**Xülasə**

Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə, həmçinin neft sahəsinin gəliri çoxaldıqca özəlliklə 2000-ci ildən sonra Azərbaycanın xarici ticarəti yüksək səviyyədə inkişaf edərək həcmi və çəkisi, həm də ticari tərəfdaşlarının sayı baxımından çoxalmışdır. Zaman ötdükcə Azərbaycanın xarici ticarətinin təmayülləri həcmi və çəki baxımından uzaq ölkələrə yönəlmişdir. Və Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə xarici ticarətinin həcmi yox, ancaq çəkisi MDB ölkələrinə nisbətən azalmışdır.

***Açar sözlər: xarici ticarət, təmayüllər, neft sahəsi, inkişaf, uzaq ölkələr.***

***

Azərbaycan müstəqilliyini qazanmamışdan əvvəl, özünün siyasi, iqtisadi, ictimai və ticari istiqlalı olmadan, məhz kommunist nizamının mərkəzindən yaxud Rusiyadan verilən siyasi, iqtisadi, ticari və digər sərəncamlara bağlı olmuşdur.

1991-ci ildən və Sovet İttifaqı dağılandan sonra, ona bağlı olan ölkələr öz müstəqilliklərini qazansalar da, ancaq ictimai, iqtisadi, siyasi, ticari və məişət nizamları olmuş yaxud tamam pozulmuşdur. Azərbaycan ölkəsi də belə bir şəraitdən istisna olmamışdır. Azərbaycanda müstəqillik illərinin əvvəllərində daxili ixtilaflar, həm də Azərbaycan torpaqlarının Ermənistan qüvvələri tərəfindən təcavüzə məruz qalması əvvəlcə qeyd olan şəraitlərə əlavə olunaraq Azərbaycan dövlətinin və əhalisinin iqtisadi, siyasi, ictimai vəziyyətini daha da çətinləşdirmişdir.

Bunlardan asılı olaraq Azərbaycanın iqtisadiyyatını, ictimai vəziyyətini və əhalinin məişətini nizama salmaq üçün çoxlu problemlərlə qarşılaşırdılar. Əhalinin gəliri və dövlətin büdcəsinin kommunist mənbələrindən kəsilməsi, sosializm şəraitinə bağlı olan bazarların nizamlarının pozulması, ictimai nizamların aradan getməsi və iqtisadiyyatın həddindən artıq zəif olması, xarici ticarətin ənənə və inkişaf proseslərinin qarşısında çoxlu maneələr törətmişdir.

***Cədvəl 1***

***Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinə (1991-2010-cu illərdə milyon ABŞ $)***

| İllər | Balansı | İxrac | idxal | xarici ticarət dövriyyəsinin həcmi |
|---|---|---|---|---|
| 1991 | 4002.2 | 1881.3 | 2121 | 239.7 |
| 1992 | 2423.8 | 939.9 | 1484 | 544.1 |
| 1993 | 1353.5 | 628.8 | 724.7 | 958.5 |
| 1994 | 1430.6 | 777.9 | 652.7 | -125.2 |
| 1995 | 1304.9 | 667.7 | 637.2 | -30.5 |
| 1996 | 1591.9 | 960.6 | 631.2 | -329.4 |
| 1997 | 1575.7 | 794.3 | 781.3 | -13 |
| 1998 | 1682.6 | 1076.5 | 606.2 | -470.3 |
| 1999 | 1965.6 | 1035.9 | 929.7 | -106.2 |
| 2000 | 2917.3 | 1172.1 | 1745.2 | 573.1 |

***Cədvəl 1-in davamı***

*Mənbələr: tədqiqatçının topladığı tərtibdən (1,3).*

| | | | | |
|---|---|---|---|---|
| 2001 | 3745.3 | 1431.1 | 2314.2 | 883.1 |
| 2002 | 3832.9 | 1665.5 | 2167.4 | 501.9 |
| 2003 | 5216.6 | 2626.2 | 2590.4 | -35.8 |
| 2004 | 7131.3 | 3515.9 | 3615.4 | 99.6 |
| 2005 | 8558.4 | 4211.2 | 4347.2 | 135.9 |
| 2006 | 11639.8 | 5267.6 | 6372.2 | 1104.5 |
| 2007 | 11766.9 | 5708.6 | 6058.3 | 349.7 |
| 2008 | 54919.7 | 7163.5 | 47756.2 | 40592.8 |
| 2009 | 20818.2 | 6119.7 | 14698.5 | 8578.8 |
| 2010 | 27924.1 | 6599.3 | 21324.8 | 14725.5 |

Birinci cədvəldə göründüyü kimi, Azərbaycanın xarici ticarətinin həcmi 1991-ci ildən 1998-ci ilə kimi azalmışdır. Cədvəldən göründüyünə görə, Azərbaycanın ticarətinin bu fasilədə azalmasının çox amili ixracatın azalmasından asılı olmuşdur (olsun ki, idxalatın azalması da, digər bir amil kimi hesab olunur). Çünki Azərbaycanın o dövrdə neftin istehsalına və ixracına geniş şəkildə əl atmadan, gəliri sadəcə çox az miqdarda malların ixracatından ibarət olurdu. Həm də qabaqca dediyimiz kimi, Azərbaycan təzə istiqlal qazanmışdır və Sovet İttifaqından miras qalan nizamlar, dövlətin və əhalinin gəlir nizamları zəifləyib yaxud tamamən pozulmuşdur və ona görə də Azərbaycanın xarici ticarəti həmin dövrdə qeyd olunan ixracatdan asılı olaraq azalmışdır. Bu səbəblərdən Azərbaycanın ixracatı azalmış, gəlir və idxalatı, nəticədə ticarət dövriyyəsi də azalıb, ticarət balansı da mənfi olmuşdur. Ancaq 1998-ci ildən sonra, Azərbaycan nisbi təhlükəsizliyini əldə etdi, xüsusən neft və ondan istehsal olunan malların istehsalı çoxaldı, onların ardınca əhalinin məişət gəlirləri çoxalarkən, xarici ticarətin həcmi də intensiv şəkildə inkişaf etmişdir.

Azərbaycanın xarici ticarətinin həcmi 1998-ci ildə 1682647900 ABŞ dollarından, 2008-ci ildə 54919699700 dollara yetişmişdir. Yəni Azərbaycanin xarici ticarətinin həcmi 10 il ərzində 32 dəfə çoxalmışdır. Eyni zamanda ölkənin xarici ticarətinin balansı da Azərbaycanın xeyrinə çoxalmışdır. 2008-ci ildən Azərbaycanın ticarət həcmi yenidən azalıb və 2009-cu ildə 20818200000 dollara düşmüş, 2009-cu ildən sonra yenidən normal inkişaf səviyyəsinə çatmışdır.

***Sxem 1***

***Azərbaycan Respublikasının xarici ticarətinin həcminin göstəricisi (1991-2010-cu illər arasında)***



Birinci sxemdə əvvəlcə qeyd etdiyimiz məna daha aydın göstərilibdir. Gördüyümüz kimi, 1991-ci ildən 1998-ci ilə kimi Azərbaycanın xarici ticarətinin həcmi çox aşağı səviyyədə və azalmaqla müşahidə olunmuş, 1998-ci ildən yavaş-yavaş çoxalaraq 2008-ci ildə zirvəyə yetişmişdir.

***Cədvəl 2***

***Azərbaycanın xarici ticarət dövriyyəsi ölkə qrupları üzrə (1992-2010-cu illər arasında) mln. ABŞ dolları***

| İllər | Azərbaycanın xarici ticarət dövriyyəsi | | | | | | Azərbaycanın xarici ticarət dövriyyəsi (ölkələr üzrə) faizlə | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | MBD ölkələri | | | Uzaq xarici ölkələr | | | MBD ölkələri | | | Uzaq xarici ölkələr | | |
| | Cəmi | idxal | ixrac | Cəmi | idxal | ixrac | Cəmi | idxal | ixrac | Cəmi | idxal | ixrac |
| 1992 | 1337 | 607 | 730 | 1087 | 333 | 754 | 55 | 65 | 49 | 45 | 35 | 51 |
| 1993 | 762 | 388 | 374 | 592 | 241 | 351 | 56 | 62 | 52 | 44 | 38 | 48 |
| 1994 | 760 | 486 | 275 | 671 | 292 | 378 | 53 | 62 | 42 | 47 | 38 | 58 |
| 1995 | 445 | 228 | 285 | 769 | 439 | 352 | 34 | 34 | 45 | 59 | 66 | 55 |
| 1996 | 630 | 340 | 290 | 962 | 621 | 341 | 40 | 35 | 46 | 60 | 65 | 54 |
| 1997 | 729 | 351 | 379 | 847 | 443 | 403 | 46 | 44 | 49 | 54 | 56 | 52 |
| 1998 | 637 | 405 | 232 | 1046 | 672 | 374 | 38 | 38 | 38 | 62 | 62 | 67 |
| 1999 | 535 | 325 | 211 | 1430 | 710 | 718 | 27 | 31 | 23 | 73 | 69 | 77 |
| 2000 | 611 | 376 | 235 | 2306 | 796 | 1510 | 21 | 31 | 13 | 79 | 68 | 87 |
| 2001 | 668 | 345 | 223 | 3077 | 986 | 2091 | 18 | 31 | 96 | 82 | 69 | 90 |
| 2002 | 894 | 650 | 243 | 2939 | 1015 | 1924 | 23 | 39 | 11 | 77 | 61 | 89 |
| 2003 | 1184 | 851 | 334 | 4034 | 1775 | 2258 | 23 | 32 | 13 | 77 | 68 | 87 |
| 2004 | 1815 | 1201 | 614 | 5316 | 2315 | 3001 | 25.4 | 34 | 17 | 74.5 | 66 | 83 |
| 2005 | 2354 | 1446 | 905 | 6204 | 2754 | 3441 | 27.5 | 34.4 | 21 | 72.5 | 65.6 | 79 |
| 2006 | 3028 | 2098 | 930 | 8612 | 3169 | 5442 | 26 | 39.8 | 26 | 74 | 60.2 | 85.5 |
| 2007 | 3003 | 1901 | 1102 | 8763 | 3807 | 4956 | 25.5 | 33.3 | 25.5 | 74.5 | 66.7 | 81.8 |
| 2008 | 3959 | 2340 | 1619 | 50960 | 4823 | 46137 | 7.2 | 32.6 | 7.2 | 93 | 67.4 | 96.6 |
| 2009 | 2962 | 1826 | 1136 | 17856 | 4294 | 13562 | 14.2 | 29.8 | 14.22 | 85.7 | 70.2 | 92.3 |
| 2010 | 4035 | 2051 | 1984 | 23889 | 4548 | 19341 | 14.4 | 31 | 14.4 | 85.6 | 69 | 90.7 |

*Mənbələr: tədqiqatçının topladığı tərtibdən (1,3).*

***Cədvəl 3***

***Azərbaycanın ÜDM-nin göstəricisi (milyon manat)***

| İllər / ÜDM | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| ÜDM | 41574.7 | 12522.5 | 28360.5 | 40137.2 | 35401.5 | 4718.1 |
| İllik ənənəsi | | 33 | 63.23 | 40.5 | -11.8 | 17.4 |

*Mənbələr: tədqiqatçının topladığı tərtibdən (3,6).*

İkinci cədvəldə göstərdiyimiz kimi, həmçinin üçüncü cədvəllə müqayisə edərək Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə yaxud gəliri çoxaldıqca, xarici ticarət təmayülləri də dərin dəyişikliklərlə qarşılaşmışdır. Yəni ölkənin iqtisadiyyatı inkişaf etdikcə, xarici ticarət də həm bazarlarının genişləndirilməsi cəhətdən, həm də coğrafi baxım cəhətindən böyük dəyişikliklərə və inkişafa nail olmuşdur. Yəni Azərbaycan Respublikası və xalqı iqtisadi şəraitləri və gəliri

yaxşılaşdıqa, yaxın ölkələrdən və bazarlardan keçərək, uzaq ölkələrə və uzaq bazarlara ayaq qoymuş və bazarlarını genişləndirmişdir. Bu bəyan olunan sozləri ikinci cədvəldə ifa olunan rəqəmlər daha aydın göstərir.

Belə ki, Azərbaycan Respublikasının 1992-ci ildə xarici ticarətinin 55 faizdan çoxunu MDB ölkələrilə ticarət təşkil etmişdir. Yəni ticarətin yarıdan çoxu bu ölkələrlə olmuşdur. Azərbaycanın təxminən 1995-ci ilə kimi xarici ticarətinin həcmi, iqtisadi şəraitlərdən asılı olaraq azalmışdır. 1995-ci ildən sonra xarici ticarətin həcmi çoxalıb və həm MDB ölkələrilə, həm də uzaq ölkələrlə xarici ticarətinin həcmi çoxalmışdır. Ancaq bu xarici ticarətin çox faizini uzaq ölkələrlə Azərbaycanın ticarəti təşkil etmişdir. Və buna görə Azərbaycanın xarici ticarətinin çəkisi bu ölkələrdən (MDB ölkələrindən) tamamən azalıb və 2010-cu ildə 14.4 faizə enmişdir.

Əksinə, Azərbaycanın xarici ticarəti həm həcm, həm də çəki üzrə uzaq ölkələr ilə çoxalmış, 1992-ci ildə 1087000 min ABŞ dolları olmuşdur. Bu rəqəm 1993-cü ildən sonra ilbəil çoxalıb, 2010-cu ildə 23889300 min ABŞ dollarına çatmışdır. Yəni bu arada 22 dəfə çoxalmışdır. Bu rəqəm Azərbaycanın xarici ticarət sahəsində bir dəyişiklik kimi yox, bəlkə də bir inqilab kimi sayılır. Bu şəraiti faizlə müqayisə edəndə də aydın görə bilirik. Yəni Azərbaycan xarici ticarətinin, 1992-ci ildə 45 faizi uzaq ölkələrlə olurdusa, 2010-cu ildə 85.6 faizi uzaq ölkələrlə olmuşdur, yəni Azərbaycanın xarici ticarətinin meyilləri zaman ötdükcə (1991-ci ildən 2010-cu illər arasında) uzaq ölkələrə nisbətən daha çox olmuşdur.

Azərbaycan Respublikasının müstəqilliyinin əvvəlki illərində birinci xarici tərəfdaşı Rusiya və ikinci tərəfdaşı Ukrayna olmuşdur. Materiallardan aydın olur ki, 1991-ci ildə həm ixracatın, həm də idxalın həcminin 50 faizindən çoxu sadəcə Rusiya Federasiyası ilə olmuş və bu dövlət Azərbaycanın ticarət tərəfdaşları üzrə birinci yerdə qərarlaşmışdır. Yəni 1991-ci ildə Azərbaycanın idxalatının 52.7 və ixracatının 59.3 faizi Rusiyanın payına düşmüşdür. Bu o deməkdir ki, Azərbaycanın xarici ticarəti əsasən Rusiya dövlətilə bağlı olmuşdur.

Eyni zamanda Ukrayna ölkəsi həm ixracat, həm də idxalat üzrə Azərbaycan Respublikasının ikinci ticari tərəfdaşı, Qazaxıstan idxalatda və Gürcüstan ixracatda ücüncü tərəfdaşları olmuşlar.

Ancaq zaman keçdikcə bu ölkələrin payı Azərbycanın xarici ticarətində azalmışdır, misal üçün, Azərbaycanın idxalatının çəkisi Rusiya dövlətindən 1991-ci ildə 52.7 faiz olmuşdur, 1991-ci ildən sonra bu faiz ilbəil azalıb və 2001-ci ildə 10.7 faizə enmişdir. Bu çəki 2001-ci ildən sonra da nisbətən azalıb 2008-ci ildə 1.2 faizə düşmüşdür. 2008-ci ildən sonra bir az çoxalıb, 2009-cu ildə 5.1 və 2010-cu ildə 3.6 faiz olmuşdur.

Azərbaycan Respublikasının Rusiya dövlətindən idxalatının çəkisi də 1991-ci ildə 59.3 faiz olmuşdur ki, bu çəki 2001-ci ildə 3.4 faizə düşmüşdür. 2001-ci ildən bəri Azərbaycanın Rusiya dövlətindən idxalatının faizi yavaş-yavaş çoxalıb və 2010-cu ilə kimi 17 faizdən də bir az çox olmuşdur. Yəni Azərbaycan Respublikasının, Rusiya dövlətindən həm ixracatının, həm də idxalatının çəkisi azalmışdır. Ancaq burada izah etmək lazımdır ki, Azərbaycanın Rusiyadan ixracatının azalmasının nisbəti idxalat ilə müqayisədə daha çox olmuşdur. Bununla belə Azərbaycanın bu ölkə ilə idxalatının və ixracatının faizi ilbəil azalsa da, Rusiya hələ də Azərbaycanın ən böyük ticari tərəfdaşı, özəlliklə idxalatda, hesab olunur və ticarət tərəfdaşları üzrə hələ də birinci yerdədir.

## Nəticə

Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə, özəlliklə 2000-ci ildən sonra, həm də Azərbaycan iqtisadiyyatında neft gəlirləri çoxalandan sonra Azərbaycanın xarici ticarəti də yüksək inkişaf etmişdir. Azərbaycanın xarici ticarətinin həcmi, həm MDB ölkələrinə, həm də uzaq ölkələrə, inkişaf dövründə çoxalmışdır. Azərbaycan Respublikasının gəliri çoxaldıqca, yaxud iqtisadiyyatı inkişaf etdikcə, xarici ticarət tərəfdaşlarının sayı da çoxalmışdır. Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə uzaq ölkələrlə xarici ticarətinin həcmi və çəkisi MDB ölkələrilə müqayisədə yüksək sürətlə inkişaf etmişdir. Azərbaycan dövlətinin və əhalisinin gə-

lirləri çoxaldıqca həm ixracat, həm də idxalat bazarlarını genişləndirərək ən uzaq ölkələrə də ayaq qoymuşdur. Zaman ötdükcə Azərbaycanın xarici ticarətinin sərhədləri uzaq ölkələrə, o cümlədən Avropa, Amerika, Türkiyə, Çin və İrana yönəlmişdir. Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə MDB ölkələrilə xarici ticarətinin həcmi yox, ancaq çəkisi azalmışdır.

**Ədəbiyyat**

1. Azərbaycanın statistik göstəriciləri 2009. Azərbaycan Statistika Mərkəzi. Bakı, 2006.
2. The state of statistical committee of the Republic of Azarbaijan. Azərbaycanın xarici ticarəti rəqəmlərdə. 2007, Bakı, 2010.
3. www.azistat.org
4. www.unctad.org
5. Unctad yearbook 2005-2009.
6. Unctad handbook 2005-2009.

***Ченгизи Кичиклу Худаверди***
***докторант Бакинского Государственного Университета***

**Тенденция развития внешней торговли Азербайджана**

**Резюме**

В статье рассматривается тенденции развития торговли в Азербайджане. Рассматриваются пути эффективного развития международной торговли республики с отдельными странами.

***Ключевые слова: внешняя торговля, тенденции, нефтная промышленность, прогресс, развитие, стран-партнеров.***

***Changizi Kecheklu Khudaverdi***
***Baku State University doctorant***

**The tendency of Azerbaijan Foreign Trade**

**Summary**

According to the progress of Azerbaijan economy. The increasing of oil fields profits volume and political partuers the amount of income of our country enlarges. Later the tendency of Azerbaijan Foreign Trade, its volume and authority is directed to parther countries.

While developing Azerbaijan economy not only the volume of foreign policy but also in CİS was reduced.

***Key words: foreign trade, development, tendency, oil fields, progress, partner countries.***

UOT 330.341.4

*Samir CAVADOV*
*AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı*

# DÜNYA NEFT BAZARI VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

## Xülasə

Məqalədə dünya neft bazarının qiymət prinsipləri, eləcə də neft bazarında müasir meyllərin inkişafının əsas mərhələləri göstərilir. Həmçinin, qeyd olunur ki, dünya neft qiymətlərinin artması tempi, müstəqil istehsalçıların çəkisini artırmışdır ki, bu da neft bazarında rəqabət kimi artan neft qiymətlərinin dəyişkənliyini azaltmağa kömək edir.

***Açar sözlər: dünya neft bazarı, neftin dünya qiymətləri.***

***

Neft əsas ilkin enerji mənbəyi olaraq qalmaqdadır və yaxın gələcəkdə neftə olan tələb yüksək səviyyədə qalacaq. Lakin neft qiymətlərinin artımı nəticəsində neft hasilatının artımı və yeni müstəqil neft şirkətlərinin neft bazarında payının artımı dünya neft bazarında kəskin dəyişikliklərə səbəb olur.

Neftə tələbin artmasına aşağıdakı amillər təsir edir:

• dünya iqtisadiyyatının, ilk növbədə iqtisadiyyatı enerjitutumlu olan Çin və Hindistanın iqtisadiyyatının artımı;

• kimya sənayesində neft və neft məhsullarından xammal kimi istifadənin genişlənməsi;

• avtomobillərin istifadəsinin genişlənməsi ilə əlaqədar benzin və dizelə tələbin artması.

Son illərdə enerji səmərəliliyinin artım tempi orta illik 2% [2] təşkil edir ki, bu da dünya iqtisadiyyatının artım tempindən aşağıdır.

Müxtəlif ölkələrdə enerji səmərəliliyi ÜDM artımının 50-90%-ni təmin edir, lakin demək olar heç bir ölkədə enerji səmərəliliyinin artımı enerji istehlakının azalması ilə müşayiət olunmur [2]. Nəzərə alsaq ki, iri iqtisadiyyatlardan ən dinamik inkişaf edən Çin, Hindistan, Braziliya və Rusiyanın enerji səmərəliliyi inkişaf etmiş ölkələrdən aşağıdır, yaxın gələcəkdə enerjiyə və dünya enerji balansında üstünlük təşkil edən neftə olan tələbin artmasını proqnozlaşdırmaq olar.

Dünya enerji balansında neft üstünlük təşkil edir. Belə ki, dünya enerji balansında kömürün xüsusi çəkisi 28%, təbii qazın 24%, nüvə yanacağının 6%, hidroenerjinin 6% olduğu halda neftin xüsusi çəkisi 36% təşkil edir (diaqram 1).




*Mənbə: http://energoaydit.ru/energetika/energobalans.html*

*Diaqram 1. Dünya enerji balansı*

Ekspertlərin fikrincə, uzunmüddətli dövrdə neftin qazla əvəz edilməsi və dünya iqtisadiyyatının bərpa olunan enerjiyə keçidi prosesinə baxmayaraq XXI əsrin ortalarına qədər neft əsas enerji mənbəyi olaraq qalacaq [3].

Digər istənilən məhsulun qiyməti kimi neft qiyməti də neft bazarında tələb-təklif qanunu əsasında formalaşır.

Neft qiymətləri beynəlxalq birjalarda formalaşır. Ən iri neft birjaları Nyu-York əmtəə-xammal birjası (NYMEX) və Londonda yerləşən Beynəlxalq neft birjasıdır (IPE). Bundan başqa, iri həcmdə neft Sinqapur, Yaponiya və Venesuela birjalarında satılır.

Keçən əsrin 70-ci illərinə qədər neft bazarının yüksək inhisarlaşması ilə əlaqədar neft qiymətləri sabit idi. Neft bazarında uzunmüddətli kontraktlar üstünlük təşkil edirdi və neft qiymətləri uzun müddət ərzində eyni səviyyədə olduğu şəraitdə (1970-ci ilə qədər neftin dünya bazarında qiyməti 3 ABŞ dolları/ barreldən yüksək deyildi) bu kontraktlar həm alıcıları, həm də satıcıları qane edirdi. Lakin 1970-ci illərdə neft böhranı nəticəsində neft qiymətləri kəskin dəyişdiyi dövrdə (1973-cü ildə neftin qiyməti 4 dəfə artaraq 12 ABŞ dolları/barrel-ə qədər yüksəldi) mövcud olan qiymətləndirmə sxemi özünü doğrultmadı.

Köhnə qiymətləndirmə sxeminin böhranı keçən əsrin 70-ci illərində baş verdiyinə baxmayaraq neft bazarında islahatlar və liberalizasiya yalnız 10 ildən sonra, yəni keçən əsrin 80-ci illərində başladı.

Son 30 ildə dünya neft bazarının dünya iqtisadiyyatında rolu yüksək olmasına baxmayaraq neft bazarı özü müxtəlif geosiyasi və iqtisadi proseslər nəticəsində ciddi, demək olar ki, inqilabi dəyişikliklərə məruz qaldı: onun strukturu dəyişildi, liberalizasiya prosesləri gücəndirildi və qiymətqoyma prinsipləri dəyişildi.

Belə ki, 1983-cü ildə Nyu-York əmtəə-xammal birjasında (New York Mercantile Exchange – NYMEX) neftin fyuçers müqavilələrinin alqı-satqısı üzrə əməliyyatlar başlamışdır.

Neft fyuçers müqaviləsi (ingiliscə future-gələcək) - neftin bu gün müəyyən olunmuş qiymətlə gələcəkdə çatdırılması ilə bağlı olan müqavilədir. Neft fyuçers müqaviləsində müqavilənin icra olunacağı tarix qeyd olunur. Bu vaxtın bitməsinə qədər əks əməliyyat icra etməklə fyuçers müqaviləsində göstərilən öhdəliklərdən imtina etmək olar. Başqa sözlə desək, fyuçersi satmaq (əgər əvvəlcə almışdınızsa) və yaxud almaq olar.

Hal-hazırda neft fyuçers müqavilələri çox geniş yayılıb. Belə ki, London beynəlxalq neft birjasında bir gün ərzində Brent markası üzrə 70 minə yaxın, Nyu-York əmtəə-xammal birjasında isə (NYMEX) Light Sweet qarışığı üzrə 150 min fyuçers müqaviləsi bağlanır. Neftin fiziki hərəkəti isə çox nadir hallarda baş verir və ticarətin yalnız 1%-ni təşkil edir [4].

**Neft qiymətləri**

Neft bazarı oliqopolistik olduğuna görə neft qiymətlərinə neft istehsalçıları tərəfindən nəzarət edilir. Belə ki, aparıcı neft şirkətləri (ilk növbədə OPEK ölkələri) dünya neft bazarında neft təklifi tələbi üstələdikdə neft qiymətlərinin müəyyən səviyyədən aşağı düşməsinin qarşısını almaq məqsədilə məhdudlaşdırıcı hasilat kvotalarını təyin edirlər.

Yuxarıda qeyd edildiyi kimi, neft qiymətlərinə nəzarət edən əsas qurumlardan biri OPEK-dir. Qeyd edək ki, OPEK ölkələrinin neft bazarına təsiri heç də həmişə yüksək olmayıb və yalnız keçən əsrin 70-ci illərindən etibarən güclənmiş və 90-cı illərdən etibarən bu təşkilatın rolunun azalması müşahidə olunur.

Beləliklə, dünya neft bazarında üstünlük təşkil etdiyi qiymətqoyma prinsiplərindən asılı olaraq XX əsrin ikinci yarısından etibarən dünya neft qiymətlərində dörd əsas mərhələ qeyd etmək olar [1].

Birinci mərhələ-1973-cü ilədək - "yeddi bacı" adlanan əsas neft şirkətlərinin üstünlük təşkil etdiyi dövr.

İkinci mərhələ - 1973-1986-ci illər-OPEK ölkələrinin dünya neft qiymətlərinə ciddi təsir etdiyi dövr.

Üçüncü mərhələ - 1986-2001-ci illər – neft bazarında iri müstəqil ixracatçı ölkələrin yaranması və birja ticarəti həcminin artımı ilə əlaqədar OPEK-in təsirinin müəyyən dərəcədə azalması.

Dördüncü mərhələ - 2001-ci ildən indiyədək – dünya neft bazarında liberallaşma proseslərinin sürətləndiyi, tədarükün sabitliyini artırmaq məqsədilə əsas neft idxalçıları tərəfindən neft tədarükünün diversifikasiyasının başlandığı, qloballaşma şəraitində neft satışında fyuçers və digər

müddətli sövdələşmələrin üstünlük təşkil etdiyi dövr.

İlk iki mərhələdə dünya neft bazarında kartel qiymətqoyma üstünlük təşkil edirdi. Birinci mərhələdə kartel yeddi ən iri şaquli inteqrasiya olunan beynəlxalq neft şirkətlərindən ibarət idi (ABŞ şirkətləri Ekson, Mobil, Qalf, Teksako, Standart Oyl of Kaliforniya (SOKAL), Böyük Britaniya şirkəti Britiş Petroleum, Böyük Britanita-Hollandiya şirkəti Royal-Daç/Şell) və bu şirkətlər neft istehlakçılarının maraqlarına uyğun olaraq neft qiymətlərini aşağı səviyyədə (1,5-3 doll/barrel) saxlayırdılar.

Neft bazarında beynəlxalq neft şirkətləri üstünlük təşkil etdiyi dövrdə bazarda əsasən kartelin ayrı-ayrı şirkətləri və ana ölkələri bazarlarındakı müstəqil şirkətlər arasında üfiqi rəqabət mövcud idi. Bu şirkətlərin ayrı-ayrı bölmələri arasında şaquli rəqabət, demək olar ki, mövcud deyildi.

Beləliklə, 1973-cü ilədək dünya neft bazarını inkişaf etmiş ölkələrdən olan 7 iri neft şirkəti bölürdü. Neftin hasilatı isə (dünya neft hasilatının 73%-i) əsasən ərəb ölkələrində həyata keçirilirdi, halbuki neftin əsas istehlakçıları (dünya neft istehlakının 72%-i) inkişaf etmiş ölkələr idi.

Dünya iqtisadiyyatının inkişafı neft istehlakının kəskin artımı ilə müşahidə olunsa da neft şirkətlərinin inhisarçı mövqeyi neft qiymətlərini sabit səviyyədə saxlamağa imkan verirdi və bu, neft şirkətlərinə nisbətən aşağı, lakin sabit mənfəət əldə etməyə imkan verirdi.

Dünya neft qiymətlərinin çox aşağı səviyyədə (3 dollardan aşağı) olması inkişaf etmiş ölkələrin neft idxalından asılılığını artırırdı - neft qiymətləri aşağı olduğu şəraitdə neft hasilatı yalnız hasilat və nəqliyyat xərcləri aşağı olduğu ölkələrdə, yəni əsasən Orta Şərq ölkələrində rentabelli idi.

Birinci mərhələdə qiymətqoymada aşağıdakılar üstünlük təşkil edirdi:

• birincisi, neft ödəmələrini minimallaşdırmaq məqsədilə şaquli inteqrasiya olunan neft şirkətlərinin istifadə etdiyi transfert (inhisardaxili) qiymətlər;

• ikincisi, beynəlxalq neft şirkətlərinin konsiseoner olduğu inkişaf etməkdə olan ölkələrin büdcələrinə vergi ödəmələrinin həyata keçirilməsi üçün istifadə olunan məlumat qiymətləri;

• üçüncüsü, müstəqil şirkətlərin iştirak etdiyi bazar seqmentində istifadə olunan bazar qiymətləri. Burada real əmtəə ilə uzunmüddətli sövdələşmələr üstünlük təşkil edirdi.

Qeyd edək ki, dünya neft hasilatının dörddə üçünü təmin edən inkişaf etməkdə olan iri neft ixracatçı ölkələrini neft satışından əldə olunan gəlirin bölüşdürülməsi prinsipi qane etmirdi və onlar bu bölüşdürməni ədalətsiz hesab edirdi. Nəticədə 13 əsas neft ixracatçı ölkə dünya neft bazarında öz maraqlarını qorumaq məqsədilə OPEK təsis etdilər və neft hasilatını milliləşdirdilər.

Bu hadisələr dünya neft bazarının yeni mərhələyə daxil olmasına gətirib çıxartdı. OPEK-in mövqeyinin dünya neft bazarında güclənməsi və inkişaf etməkdə olan ölkələrdə neft hasilatının milliləşdirilməsi nəticəsində Qərb şirkətlərinin mövqelərinin zəifləməsi neft qiymətlərini inkişaf etməkdə olan ölkələrin maraqlarına cavab verən səviyyəyə qaldırdı – neft qiymətləri qısa müddət ərzində 5 dəfədən çox artdı və bu, neft böhranına gətirib çıxartdı.

Neft qiymətlərinin artımı keçən əsrin 80-ci illərinin əvvəlinə qədər davam etmiş və onun pik nöqtəsi 1980-cı ildə 37 dollar/barrel olmuşdur (diaqram 2).




*Mənbə: BP Statistical review of world energy, June 2012.*
*Diaqram 2. Dünya neft qiymətləri, Brent, doll/barrel*

Neft qiymətlərinin kəskin artımı həmçinin neftin maya dəyəri yüksək olan ölkələrə də (Rusiya, Böyük Britaniya, Meksika, Afrika ölkələri) neft hasilatını və ixracını artırmağa imkan verdi. Bunun nəticəsində OPEK ölkələrinin neft ixracında xüsusi çəkisi azalmağa başladı.

1973-cü ildən sonra OPEK ölkələrinin neft bazarında nüfuzunun artması nəticəsində neft bazarında qiymətqoymada üstünlük OPEK ölkələrinə keçdi. Bunun nəticəsi olaraq neft bazarında rəqabətin xüsusiyyəti də dəyişdi – OPEK ölkələrindən olan milli (əsasən dövlət) şirkətlər ilə inkişaf etmiş ölkələrin neft emalı şirkətləri arasında şaquli rəqabət üstünlük təşkil etməyə başladı.

Lakin neft qiymətlərinin artması inkişaf etmiş ölkələri OPEK-dən asılılığın azalması yollarını axtarmağa vadar etdi. Bu proses 1979-80-ci illərdə baş verən növbəti neft qiymətlərinin kəskin artımından sonra daha də sürətləndi.

• İlk növbədə neft təchizatı mənbələrinin diversifikasiyası tədbirləri həyata keçirilməyə başlandı.

• İkincisi, inkişaf etmiş ölkələr özləri neft hasilatını artırdılar.

• Üçüncüsü, neft təbii qazla əvəz olunmağa başladı;

• Dördüncüsü, neft qiymətlərinin artması digər enerji mənbələrini də iqtisadi cəhətdən əlverişli etdi. Burada ilk növbədə alternativ enerji mənbələri (külək, günəş) qeyd etmək olar. Həmçinin nüvə enerjisi, kömürün istehlakının artımı baş verdi.

• Beşincisi, enerjiyə qənaət edən avadanlığın tətbiqi sürətləndi.

Bunun nəticəsində keçən əsrin 80-ci illərinin ortalarından etibarən neftə dünya tələbinin artım tempinin azalması müşahidə olunur.

Neft təchizatının diversifikasiyası və neftə tələbin azalması nəticəsində OPEK-in nüfuzunun zəifləməsi başladı və bu, 1986-cı ildən etibarən (üçüncü mərhələ) kartel qiymətqoymasının bazar qiymətqoyması ilə əvəz olunmasını şərtləndirdi. Neft qiymətləri çoxlu sayda bazar iştirakçılarının rəqabət mübarizəsi əsasında formalaşmağa və müxtəlif iqtisadi və siyasi proseslər əsasında dünya neft bazarında formalaşan cari tələb və təklifi əks etdirməyə başladı.

Bunun nəticəsində 3-cü mərhələdə dünya neft qiymətlərinin nisbətən sabitləşməsi müşahidə olunur (diaqram 3).




*Mənbə: BP Statistical review of world energy, June 2012.*

*Diaqram 3. Dünya neft qiymətləri, Brent, doll/barrel*

2001-ci ildən etibarən dünya neft bazarı yeni, dördüncü mərhələyə daxil oldu. Bu mərhələdə liberalizasiya meyillərinin güclənməsi müşahidə olunur. Bu mərhələ aşağıdakı iki mühüm proseslə səciyyələnir: birincisi, iri neft idxalçılarının neft tədarükünün diversifikasiyası ilə əlaqədar neft axınlarının dəyişməsi və ikincisi, birja ticarətinin rolunun artması və "kağız" neftinin dövriyyəsinin artması.

11 sentyabr hadisəsi bu prosesləri daha da sürətləndirdi. Belə ki, 11 sentyabr hadisəsi Qərb ölkələrinin Orta Şərq neft istehsalçılarına qarşı strategiyasının kəskin dəyişməsinin zəruriliyini aşkar şəkildə göstərdi. Uzun müddət ərzində ABŞ və digər Qərb ölkələri Orta Şərq regionunda avtoritar və monarxiya rejimlərinin sabitliyini güdürdülər. Lakin "ərəb baharı" avtoritar rejimlərin qeyri-sabit olduğunu göstərdi. Son zamanlar beynəlxalq ekspertlər Qərb ölkələrinin Orta Şərq neftindən asılılığının azalmasının vacib olduğunu söyləyirlər.

2000-ci illərin əvvəllərindən etibarən ABŞ və digər aparıcı ölkələrdə həyata keçirilən stimullaşdırıcı pul-kredit siyasəti dünya neft bazarında neft qiymətlərinin artması ilə müşayiət olunurdu. Neft qiymətlərinin artımına iki amil təsir edirdi:

Birincisi, dünya iqtisadiyyatının artması neftə olan tələbi artıraraq neft qiymətlərinin artımını şərtləndirirdi.

İkincisi, pul kütləsinin həddən artıq emissiyası əmtəə, o cümlədən neft bazarında spekulyativ meyilləri gücləndirirdi ki, bu da neft qiymətlərinin artması ilə nəticələnirdi.

Neft qiymətlərinin artımının 2007-ci ildən etibarən daha da güclənməsi də məhz ABŞ və Avropada həyata keçirilən stimullaşdırıcı tədbirlər və pul kütləsinin həddən artıq artması nəticəsində əmtəə bazarlarında spekulyativ meyllərin güclənməsi olmuşdur.




*Mənbə: BP Statistical review of world energy, June 2012.*

*Diaqram 4. Dünya neft qiymətləri, Brent, doll/barrel*

Neft qiymətlərinin yüksək səviyyədə olması isə aşağı rentabelli neft yataqlarına investisiyaların səmərəliliyini artırır, bu da neft hasilatının artması və müstəqil neft şirkətlərinin payının artması ilə müşayiət olunur ki, bu da öz növbəsində neft bazarında rəqabəti və neft təchizatının diversifikasiyasını gücləndirir.

## Ədəbiyyat

1. Воронина Н. В. Мировой рынок нефти: тенденции развития и особенности ценообразования. http://www.cfin.ru/press/practical/2003-10/05.shtml
2. Мировые тенденции рынка топливно-энергетических ресурсов. http://protown.ru/information/hide/4459.html
3. http://www.nestor.minsk.by/sn/2008/27/sn82706.html
4. http://www.mirnefti.ru/index.php?id=26

***Самир Джавадов***

***докторант Института Экономики НАНА***

## Мировой рынок нефти и особенности его развития

### Резюме

В статье показаны основные этапы развития мирового нефтяного рынка, показаны принципы ценообразования, а также современные тенденции развития рынка нефти. В статье отмечается, что с ростом мировых цен на нефть повышается доля независимых производителей, усиление же конкуренции на нефтяном рынке способствует уменьшению волатильности цен на нефть.

***Ключевые слова: мировой рынок нефти, мировые цены на нефть.***

***Samir Javadov***
***Doctoral candidate of Institute of Economy NAS of Azerbaijan***

**World oil market and the direction of its development**

**Summary**

In article main stage of development of world oil market, mechanisms of pricing are shown and modern trends of oil market development are investigated. It is noted that the rise of oil price leads to increase of share of independent companies and rising of competition in oil market is accompanied with stabilization of oil price.

***Key words: world oil market, world oil price.***

**Jurnal "Kooperasiya" nəşriyyatının redaksiyasında yığılıb səhifələnmiş və mətbəəsində çap edilmişdir.**

**Çapa imzalanmışdır: 25.03.2013**
**Format: 60x84, 1/8**
**Fiziki çap vərəqi: 19,75**
**Tirajı: 300 nüsxə**